MƏMMƏD RZAYEV

# FƏLSƏFƏ TARİXİ

Bakı - 2015

1(09)
R 99

228707

Bakı Dövlət Universiteti
ELMİ KİTABXANA

**Biz mənəviyyatsız, ideyasız yaşaya bilmərik. İndiki ideyamız isə milli, tarixi ənənələrimiz, millətimizin keçdiyi tarixi yol, ulu babalarımızın yaratdığı ümumbəşəri dəyərlər əsasında–Nizami Gəncəvinin, Xaqaninin, Fələkinin, Nəsirəddin Tusinin, Bəhmənyarın, Nəsiminin, Füzulinin, Vaqifin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının, Səməd Vurğunun, Mirəsədulla Mirqasımovun, Yusif Məmmədəliyevin, Mustafa bəy Topçubaşovun və tarix boyu bir çox digər alimlərimizin, ədəbiyyatçılarımızın, filosoflarımızın yaratdıqları mənəvi dəyərlər əsasında formalaşdırılmalı və inkişaf etdirilməlidir. Əgər biz bu tarixi yaxşı təhlil edə bilsək, gənclərimiz onunla yaxşı tanış olsalar, adlarını çəkdiyim şəxslərin və yüzlərlə başqalarının əsərlərindən mənəviyyata dair fikirləri mənimsəsələr, həyatlarında rəhbər tutsalar, Azərbaycan xalqı düz yolla gedəcəkdir.**

***Heydər Əliyev***

***(Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr) I cild. Bakı, Azərnəşr, 1997)***

**Azərbaycan Respublikası Təhsil Nazirinin 29 dekabr 2010-cu il tarixli 1755 saylı əmri ilə təsdiq olunmuşdur. Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 28.10.2010-cu il tarixli qərarı ilə (protokol № 2) çap üçün məsləhət görülmüşdür. Təkmilləşdirilmiş ikinci nəşri.**

**ELMİ REDAKTOR: Əlikram Mirhəsən oğlu Tağıyev**
***fəlsəfə elmləri doktoru, professor***

**RƏYÇİLƏR:** **Zeynəddin Camal oğlu Hacıyev**
***fəlsəfə elmləri doktoru, professor***

**Əlisa İsa oğlu Əhmədov**
***fəlsəfə elmləri doktoru, professor,***

***Üzqabığı Baba Nemətullah Naxçıvaninin Hidayətül-İhvan kitabı (İstanbul, 2012) əsasında hazırlanmışdır.***

***Müəllif: Sercan Arslan***

***Dərslikdə qədim dövrdən başlamış bu günümüzə qədər fəlsəfənin inkişaf mərhələləri konkret olaraq təhlilə cəlb edilmişdir. Burada qədim dövr, Azərbaycan, Hind, Çin, antik fəlsəfə, orta əsrlər şərq və qərb, ingilis, fransız, alman, rus, amerika və başqa ölkələrin filosoflarının fəlsəfi görüşləri, bu təlimlərin spesifik cəhətləri şərh edilmişdir. Dərslik ali məktəb tələbələri və bütövlükdə fəlsəfə ilə maraqlanan oxucular üçün nəzərdə tutulmuşdur.***

## MÜNDƏRİCAT

# I HİSSƏ

I MÖVZU. Fəlsəfə tarixi fəlsəfi fikrin inkişafını tarixi proses kimi öyrənən elmdir....................................7
II MÖVZU. Qədim Şərq ölkələrində fəlsəfi fikrin yaranması və inkişafı................................................14
III MÖVZU. Antik fəlsəfə....................................21
IV MÖVZU. Klassik dövrün yunan fəlsəfəsi............27
V MÖVZU. Ellin və Roma dövründə fəlsəfə............34
VI MÖVZU. Orta əsrlər Qərb fəlsəfəsi....................41
VII MÖVZU. Orta əsrlərdə Şərq fəlsəfəsi................54
VIII MÖVZU.Orta əsrlərdə Azərbaycan fəlsəfəsi...89
IX MÖVZU. İntibah dövrünün fəlsəfəsi...............114
X MÖVZU. XVI əsrdə fəlsəfi fikir.....................121
XI MÖVZU. XVII əsrin başlanğıcında Qərbi Avropa fəlsəfəsi...........................................................130
XII MÖVZU. XVII əsrin ortalarında Qərbi Avropa fəlsəfəsi...........................................................138
XIII MÖVZU. XVII əsrin sonunda Qərbi Avropa fəlsəfəsi...........................................................144
XIV MÖVZU. XVIII əsr ingilis fəlsəfəsi...............150
XV MÖVZU. Fransa maarifçilik fəlsəfəsi..............155
XVI MÖVZU. Alman klassik fəlsəfəsi..................164

## II HİSSƏ
## MÜASİR FƏLSƏFƏ

I MÖVZU. XIX əsr Avropa fəlsəfə ənənəsində irrasionalizmin yaranması........................................177
II MÖVZU. XIX əsrin ortaları və əsrin ikinci yarısının fəlsəfəsi..................................................183
III MÖVZU. Həyat fəlsəfəsi................................194
IV MÖVZU. XIX əsrin sonu və XX əsrin başlanğıcında fəlsəfə..........................................................201
V MÖVZU. Rus dini-idealist fəlsəfəsi....................211
VI MÖVZU. Azərbaycan maarifçilik fəlsəfəsi.......219
VII MÖVZU. XX əsrin birinci yarısında Avropa fəlsəfəsi........................................................................242
VIII MÖVZU. Ekzistensializm.............................254
IX MÖVZU. XX əsrin ortaları və əsrin ikinci yarısında fəlsəfənin inkişafı..........................................263
X MÖVZU. Sovet dövrü Azərbaycan fəlsəfəsi. Azərbaycan fəlsəfi fikri müstəqillik illərində.................278
Ədəbiyyat............................................................286

# FƏLSƏFƏ TARİXİ

## I HİSSƏ
## I MÖVZU
## FƏLSƏFƏ TARİXİ FƏLSƏFİ FİKRİN İNKİŞAFINI OBYEKTİV TARİXİ PROSES KİMİ ÖYRƏNƏN ELMDİR

### 1.Fəlsəfə tarixi və fəlsəfi biliyin inkişafı obyektiv tarixi prosesi kimi

Fəlsəfə (yunanca philosophia – müdrikliyi sevmək: phileo – sevirəm və sophia - müdriklik) insan biliyinin xüsusi sahəsi olaraq ən ümumi haqqında universal elm, yəni idrak, təfəkkür və varlığın ümumi inkişaf qanunları haqqında elm kimi xarakterizə oluna bilər. Hər bir elm həm təbiyyət, həm də humanitar – empirik biliyin əsas nəzəri sistemi və predmeti olaraq, obyektiv dünyanın bu və ya digər hissəsini öyrənir. Fəlsəfə isə dünya, orada insanın yeri haqqında ümumiləşmiş baxışlar sisteminin hazırlanmasına istiqamətlənir. Fəlsəfənin predmeti bütün mövcudluq, varlıq və təfəkkürün universal qanunlarının əhatəli sistemində birləşdirilmiş xüsusi elmlərin məna ümumiləşdirilməsidir.

Fəlsəfə şüurun nəzəri forması olub, insanın dünyaya sosial-siyasi, qnesoloji, etik və estetik münasibətlərini tədqiq edən anlayış və kateqoriyaların, prinsip və qanunların formalaşmasıdır. Fəlsəfə dünyagörüşün xüsusi forması olub, onun mifoloji və dini formalarından keyfiyyətcə fərqlənir, eyni zamanda ideyaların, dünyagörüşü sisteminin nəzəri əsasını təşkil edir.

İlk dəfə Pifaqorun (e.ə. 580-500) istifadə etdiyi «filosofiya» termini, xüsusi elm kimi Platon, (e.ə.428-348) və Aristotel (e.ə384-322) tərəfindən fərqləndirilmişdir. Fəlsəfə inkişaf etdikcə xüsusi terminologiya yaranmış və əsas bölmələrə ayrılmışdır: ontologiya (varlıq haqqında təlim), qnesologiya (idrak nəzəriyyəsi), məntiq, sosiologiya, antropologiya, etika, este-

tika, psixologiya, kulturologiya, tarix fəlsəfəsi və fəlsəfə tarixi. Fəlsəfi biliyin göstərilən bölmələrinin hər biri tam müstəqil fəlsəfə fənnidir, bu isə bir tərəfdən fəlsəfi problematikanın daim dəqiqləşməsi, digər tərəfdən isə fəlsəfənin sərhədlərinin ayrılmasının nəticəsidir.

Fəlsəfi fənlər içərisində fəlsəfə tarixi xüsusi yer tutur, çünki məhz bu fənn fəlsəfəni yaranma və inkişaf prosesində tədqiq edir. Fəlsəfə tarixini nəzərdən keçirməzdən əvvəl bunları fərqləndirmək zəruridir. Birincisi, fəlsəfi fikrin tarixi inkişaf prosesinin hərtərəfli tədqiqinə istiqamətlənmiş xüsusi fənni, ikincisi, obyektiv prosesin özünü, yəni elm və onun predmetini qarışdırmaq olmaz. Fəlsəfə tarixi fəlsəfi biliyin inkişafının obyektiv tarixi prosesi olaraq insan mədəniyyətinin nəzəri nüvəsi haqqında elm kimi də başa düşülə bilər. Məhz bu səbəbdən fəlsəfə tarixi forma və konseptual istiqamətlərinin bütün çoxobrazlılığında tədqiq edilən şəxsiyyətin intellektual, əxlaqi və estetik cəhətdən formalaşmasının vacib tərkib hissəsidir.

Azərbaycanın tanınmış fəlsəfə tarixçisi professor Məmmədəli Zeynalov fəlsəfə tarixinin predmetini aşağıdakı kimi müəyyənləşdirmişdir:

«Fəlsəfə tarixi fəlsəfi ideyaların-varlıq, materiya, şüur, idrak, dialektika, metafizika, insan, din, mifologiya, ruhlar haqqında təlimlərin, fəlsəfi məktəblərin, cərəyan və istiqamətlərin meydana gəlməsini, inkişaf sistemini və mübarizə tarixini öyrənən elmdir».

## 2. Fəlsəfənin tarixi inkşafı

Fəlsəfənin tarixi inkişafı ölçü nöqtəsi olaraq Qədim Misir, Babilistan, Hindistan, Çin və Yunanistanda eradan əvvəl tipik, universal, humanist mədəniyyət çərçivəsində dünyanın fəlsəfi şərhinə yönəlmiş dünyagörüşü ilə özünü göstərir. Avropa ənənəsinə əsaslanaraq fəlsəfi fikrin inkişaf prosesi fəlsəfənin ayrı-ayrı dövrlərə bölünməsi və yaxud Qərbi Avropa fəlsəfəsindən aparıcı fəlsəfi istiqamət və məktəblərin ayrılması

prinsipi üzrə öyrənilə bilər. Başqa sözlə desək, fəlsəfənin inkişaf prosesi, fəlsəfi biliyin konseptual formalarının tarixi ardıcıllıqla əvəzlənməsidir. Bu formalara ilk öncə antik fəlsəfə, orta əsrlər fəlsəfəsi (apologetika, patristika, sxolastika, orta əsrlərdə realizm və nominalizm), İntibah dövrü fəlsəfəsi (L.Valka, N.Kuzanlı, E.Rotterdamlı, T.Mor, Ç.Bruno), XVII əsr fəlsəfəsi (F.Bekon, R.Dekart, T.Hobbs, B.Spinoza), Fransa maarifçilik fəlsəfəsi (D.Didro, J.J.Russo, Ş.Monteskyö, Volter), Alman klassik fəlsəfəsi (İ.Kant, İ.Q.Fixte, F.V.Şellinq, Q.V.F.Hegel, L.Feyerbax) və başqaları aiddir.

### 3. Filosofluq etmə üsullarının müxtəlifliyi

Fəlsəfə tarixinin əsas məsələsi fəlsəfi elmlərin inkişaf prosesinin tədqiqidir. Ona görə də, ayrı-ayrı fəlsəfi məktəb və bu məktəb nümayəndələrinin dünyagörüşünü öyrənməklə yanaşı, onların filosofluq etmə üsullarını tarixi inkişafda götürməklə, ətraflı nəzərdən keçirilməsi də məqsədəuyğundur. Fəlsəfənin əsas məsələləri haqqında ayrıca şəkildə də danışmaq olar. Belə məsəllər içərisində təfəkkürün varlığa, şüurun materiyaya münasibəti mərkəzi məsələlərdəndir. Belə ki, bu məsələnin həlli zamanı fəlsəfənin iki zidd istiqamətdə qütbləşməsi baş verir: idealizm (mənəvinin birinciliyi, maddinin ikinciliyi) və materializm (maddinin birinciliyi, mənəvinin ikinciliyi). Lakin bu zaman obyektiv idealizmi fərqləndirmək lazımdır. Filosoflar fəlsəfənin əsas məsələsi ilə yanaşı, bir qayda olaraq digər konseptual fəlsəfi problemləri də fərqləndirirlər:

- səbəbiyyətin yeri və rolu haqqında məsələ (determinizm və indeterminizm);
- idrakın əsas forma və mənalarının rolu haqqında məsələ (sensualizm və rasionalizm);
- fəlsəfənin əsas metodu məsələsi (dialektika və metafizika);
- dünyanın ilkin əsası haqqında məsələ (naturalizm və spiritualizm).

Beləliklə, bu və ya digər fəlsəfi təlimi nəzərdən keçirərkən, fikrimizcə, onların tarixi məxsusiyyətlərinə deyil, eyni zamanda mənasına da diqqət yetirmək lazımdır. Ona görə də tarixi-fəlsəfi prosesə zaman və məzmun yanaşmalarını birləşdirən «filosofluq etməyin tarixi tipi» terminindən istifadə tam əsaslandırılmış olur. Filosofluq etməyin nisbətən xarakterik tarixi tipləri aşağıdakılardır:

- seyretməni qnesoloji norma və etik ideal qismində nəzərdən keçirən seyredici tip;
- idrakın qeyri-rasional mənbələrinə istiqamətlənmiş abstrakt tip;
- fəlsəfəni insanın mədəni və sosial zənginləşməsinin, fəal yeniləşməsinin ideya nüvəsi kimi şərh edən praksoloji tip;

Ayrıca olaraq fəlsəfə tarixinə müxtəlif yanaşmaları da tədqiq etmək olar. Onlar əsasən aşağıdakılardır:

- fəlsəfi ideya və təlimlərin təsviri və populyarlaşdırılması;
- filosofların əsərlərinə şərhlər;
- bütövlükdə dərkə istiqamətləndirmiş sistemli fəlsəfi şərhlər;
- fəlsəfi kateqoriyaların tarixi inkişafının öyrənilməsi;
- fəlsəfi idrakın xüsusiyyətlərinin onun tarixi, ərazi və digər formaları ilə vəhdətdə nəzərdən keçirilməsi.

Fəlsəfə tarixinin öyrənilməsi təkcə müasir fəlsəfənin inkişafı üçün deyil, eyni zamanda əvvəlki nəsillərin fəlsəfi və intellektual mədəniyyətlərinin mənimsənilməsi baxımından da böyük əhəmiyyət kəsb edir.

### 4. Fəlsəfənin yaranması

Fəlsəfi fikrin meydana gəlməsi fəlsəfə tarixinin ən mühüm predmetlərindən biridir. Fəlsəfəyə həm ümumi, həm də xüsusi növ dünyagörüşü kimi yanaşdıqda, tarixi olaraq məhz onun ikinci (dünyagörüşü) funksiyası fəlsəfi şüurun yeni kompleks forma kimi meydana gəlməsini şərtləndirir.

Dünyagörüşü – obyektiv dünyaya və orada insanın mövqeyinə baxışların bütün məcmusunu vahid sistemdə birləşdirən, gerçəklik, dəyər və mənaların sferaları haqqında təsəvvürlərin sintezini yaradan inteqral məhsuldur. Dünyagörüşü əsasən aşağıdakı elementlərdən ibarətdir. 1) dünyanın dayanıqlı mənzərəsini formalaşdıran müəyyən idrak qaydaları; 2) dəyərlər sistemi; 3) fərdi şüurun fövqəlfərdi mahiyyətlərlə müqayisə üsulları.

Beləliklə dünyagörüşü elmi, dini, estetik, sosial-siyasi və digər orientasiyaların məhsuludur. Fəlsəfi dünyagörüşün mahiyyətini aydınlaşdırmaq üçün dünyagörüşünün müxtəlif səviyyələrini fərqləndirmək lazımdır: intellektual (dünyanıanlama, dünyanıdüşünmə); emosional (dünyaduyumu, dünyanıqavrama); praktiki (gündəlik, həyati dünyagörüş)

Bu baxımdan fəlsəfə (əgər onu daha geniş anlamda dünyagörüşü hesab etsək) dünyagörüşün formalarından biri olub, onun nəzəri səviyyəsini təmsil edir. Ona görə də fəlsəfənin yaranması haqqında danışdıqda, onu dünyagörüşün çoxsaylı formalarından fərqləndirmək zəruridir. Belə formalar kimi bir qayda olaraq mifologiya və din nəzərdən keçirilir.

Əgər dünyagörüşü formaları onların tarixi ardıcıllığında (yaranma tarixi üzrə) nəzərdən keçirilsə, şübhəsiz ki, fəlsəfə daha gəncdir. Əsrlər boyu mifoloji və dini dünyagörüşündən əsas idraki və etik problematikanı, o cümlədən uyğun mədəni ənənələr çərçivəsində toplanmış bütün bilikləri miras olaraq qəbul edən fəlsəfə, elmi təfəkkürün əsası olan anlayış, kateqoriya və metodlardan istifadə etməklə, dünya və insanın intellektual, emosional və praktiki dəyərlərinin nəticələrinin bütün məcmusunu sistemləşdirmək və məntiqi ümumiləşdirməklə, əsas dünyagörüşü məsələlərini nəzəri şəkildə, yəni rasional qiymətləndirmə mövqeyindən formula etmişdir.

### 5. Filosoflar və mifologiya

Mifologiya (yunanca mythos – əfsanə, logos - söz) dünyagörüşü olaraq nəzəri təfəkkürə deyil, obyektiv reallıq və sosiomədəni gerçəkliyin faktiki inikası ilə formalaşan emosional-estetik dünya duyumuna əsaslanan baxışlar sistemidir.

Mifoloji şüur insanın dünyaya şüurlu münasibətinin nisbətən daha erkən formasıdır. Miflərdə dinin, incəsənətin, elmin, fəlsəfənin konkret emosional, poetik və simvolik obrazlarla ifadə olunmuş rasionalaqədərki ünsürləri də öz əksini tapır. Hər bir simvolik obraz modelləşdirmə obyekti olduğundan yəni mifdə forma ilə məzmun eyniyyət təşkil edir. Mif dünyanı şərh edərkən həmişə keçmişə yönəlir. Keçmiş zamanların hadisələri, allahlar və qəhrəmanların əməlləri haqqındakı məsələləri həll edərək dünyanın təsvir modelini, onun ayrı-ayrı elementlərinin yaranmasını hekayələrlə əvəzləyir. Bu onun müasir vəziyyətini müəyyənləşdirir. Mifin əsas funksiyası daima dünyagörüşün nizamlanmasına istiqamətlənmiş mifoloji şüuru tamamlayan və determinasiya edən arxetipik obraz, nümunə, modellərin yaradılmasıdır. Miflərin böyük əksəriyyəti üçün mifik hadisələri əks etdirən, allahlar və əcdadların əfsanəvi əməllərinə müraciət etməklə ideal dünyadüzənini yaradan mərasimlər xarakterikdir. Beləliklə, mif və mərasim eyni fenomenin nəzəri və praktiki aspektini təşkil edir.

Dünyagörüşünün tarixi ikinci forması dini dünyagörüşü və dünyanı anlamanın xüsusi üsulu kimi fövqəltəbiiliyə, inama əsaslanır. Dinə vacib tərkib elementi kimi mifologiya da daxildir. Mifologiya kimi o da, vahid, mənəvi-praktiki tamda birləşmiş nəzəri (ehkamlar sistemi) və praktiki (dini pərəstiş) xüsusiyyətlərə malikdir.

Beləliklə, fəlsəfə tarixini öyrənərkən, dünyagörüşünün fəlsəfəyəqədərki formalarını yaddan çıxarmaq olmaz. Çünki fəlsəfə elmi biliyin elementləri ilə yanaşı, təfəkkürün qeyri-rasional formalarını ehtiva edən mifologiya və dinlə dünyagörüşü axtarışlarının vahid məkanını təşkil edir.

Fəlsəfə tarixinin öyrənilməsi Azərbaycan təhsil sistemi üçün böyük əhəmiyyət kəsb edən problemdir. Bu mənada Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin dediyi kimi, "biz dünya xalqlarının fəlsəfi və dini fikir tarixini, o cümlədən Azərbaycan xalqının yaratdığı ümumbəşəri dəyərləri ali məktəb tələbələrinə öyrətmədən onlar üçün dünyaya yol aça bilməyəcəyik".

*Yoxlama sualları:*

1. Fəlsəfə nədir?
2. Filosofluq etmə tiplərini sadalayın.
3. Fəlsəfə tarixinin əsas məsələsi nədir?
4. Dünyagörüşün hansı formaları var?
5. Fəlsəfədə mifalogiyanın rolu.

# II MÖVZU
# QƏDİM ŞƏRQ ÖLKƏLƏRİNDƏ FƏLSƏFİ FİKİRİN YARANMASI VƏ İNKİŞAFI

## 1. Qədim Babilistan və Misir

Dünya sivilizasiyasının ən qədim ocaqlarından olan Babilistan və Misirdə fəlsəfi fikirin meydana gəlməsi və inkişafı dünya haqqında elmlərin ilkin formalaşmasından ayrılmazdır. O dövrlərdə hələ dünyagörüşün xüsusi forması kimi ayrılmamış fəlsəfi təfəkkür qədim sivilizasiyaların mifoloji, dini, təbiyyət haqda ilk elmi təsəvvürlərini birləşdirən vahid mədəni məkanda təzahür edirdi. Yeni dünyagörüşün formalaşmasında o zamanlar mədəni və sosial təcrübənin əldə edilməsi, saxlanılması və ötürülməsinin yeganə mexanizmi olan kahinlik institutu xüsusi rol oynamışdır. Misirin qədim elmi baxışlarında ümumiləşmiş mədəni irs güclü dini təsir altında formalaşmışdır. Lakin Qədim Misir fəlsəfi fikrinin inkişafında skeptik istiqamətlərdə mənəvi axtarışlara yönəlik təmayüllərə də rast gəlmək olur (miflərdə hadisələrə dini deyil, fəlsəfi mənada baxış, axirət dünyasının mövcudluğuna şübhələr, dini ehkamların tənqidi). Oxşar təmayüllərə Qədim Babilistanın intellektual ənənələrində də rast gəlmək olur. Qədim Misirdə „Arfistin nəğməsi" və qədim Babilistanda „Ağanın qul ilə söhbəti" ədəbi abidələri dini xarakterdə olsa da ilk fəlsəfi təsəvvürləri özündə əks etdirir. Lakin İkiçayarası (Mesapatomiya) və Misir dövlətlərində klassik mənada fəlsəfi ənənənin mövcudluğu haqqında danışmaq mümkün görünmür.

Qədim Misir və Babilistanda mövcud olan fəlsəfi axtarışların başlıca yekunu, sonrakı fəlsəfi fikrin təkamülü üçün məhsuldar bazanın yaranması ilə xarakterikdir.

## 2. Qədim Hindistan

Qədim hind fəlsəfəsi ən qədim sivilizasiyalardan biri çərçivəsində yaranmışdır. Hind fəlsəfə ənənələrinin ilk inkişaf dövrü e.ə.I minilliyin ortalarına təsadüf edir. Qədim Hindistan mədəniyyətinin formalaşmasında hind cəmiyyətinin dini kanonlara uyğun olaraq aşağıdakı özünəməxsus stratifikasiya (onun silklərə – varnalara bölünməsi) mühüm rol oynamışdır: kahinlər varnası (brəhmənlər), hərbi aristokratiya varnası (kşatriyalar), əkinçi, sənətkar və tacirlər varnası (vayşişilər), aşağı varnalar (şudralar).

Beləliklə, qədim hind fəlsəfəsi üçün xarakterik olan dini dominantlıq kahinlər silki arasında fəlsəfi fikrin inkişafını şərtləndirmişdir. Hind fəlsəfəsinin digər fərqləndirici xüsusiyyəti onun 2500 il ərzində fasiləsiz inkişafıdır. Eyni zamanda, Hindistanda əsas fəlsəfi istiqamətlər artıq e.ə. VI-III əsrlərdə formalaşmışdır.

Hind fəlsəfə tarixinin dörd dövründən ikisi Qədim Hind fəlsəfəsinə aiddir:

- vedalar dövrü – e.ə. XV-VI əsrlər
- brəhmən – budda dövrü (klassik) – e.ə. VI - e.ə.X əsr

Qədim hind fəlsəfəsinin dini-fəlsəfi mahiyyətinin əsasını mətnlər toplusu olan Vedalar təşkil edir. Vedalar dörd qrupa bölünür:

- Samxitlər (dörd toplu, əsas vedalar; digər əsərlər qrupu samxitlərə əlavə və şərhlərdir);
- Brəhmənlər (ritual mətnlər toplusu);
- Aranyaklar (zahidlər üçün qaydalar toplusu);
- Upanişadlar (dini-fəlsəfi mətnlər).

Qədim hind fəlsəfəsi göstərilən ilkin mənbələrə uyğun olaraq aşağıdakı sistem və yaxud məktəblərə ayrılır:

- ortadoksal (Vedaların aliliyini qəbul edənlər) vedanta, mimansa, sankhya, yoqa, nyaya, vayşeşika;

- qeyri-ortodoksal (vedlərin aliliyini qəbul etməyənlər), çaynizm, buddizm, eyni zamanda sıralarında qorbaka (makayata) olan materialist məktəblər.

Artıq upanişadlarda adları çəkilən məktəblər üçün əsas olan aşağıdakı ideyalar əksini tapmışdı:

- Brəhmən (dünya ruhu) və Atmanın (fərdi ruh) vəhdəti haqqında;
- kosmik, sosial və əxlaqi çoxobrazlılığın çevrilmələrinin vahid qanunu (rita, dxarma) haqqında;
- Ruhun ölümsüzlüyü və onun karma qanununa görə yenidən doğulması (sansara) haqqında;

Klassik dövr fəlsəfi sistemləri çərçivəsində tədqiq edilən əsas məsələlər aşağıdakılardır:

- maddi və yaxud mənəvinin birinciliyi məsələsi (lokayata materializmi və vedanta obyektiv idealizmi);
- insanın etik kamilliyi və təkmilləşməsi məsələləri.

### 3. Qədim Çin

Çinin mədəni tarixi e.ə. III-II minilliklərin qovşağından başlayır. Qədim Çin fəlsəfəsi fenomeninin meydana gəlməsini isə e.ə. VIII-VI əsrlərə aid etmək olar. Artıq bu dövrdə natural fəlsəfi xarakterli təlimlər, məsələn, təbiətin beş ilk ünsürü (su, od, metal, ağac, torpaq) haqqında ideyalar yayılmağa başlayır. Çin fəlsəfəsinin inkişafına «Dəyişikliklər kitabı» (İ.Tsi-zin) ciddi təsir göstərmişdir. Artıq burada gerçək dünyanın ilk əsası kimi səkkiz ünsür göstərilir. Bu dövrdə İp və Yan kimi ziddiyyətdə və qarşılıqlı əlaqədə olan başlanğıclar haqqında təlimlər yaranır. Qədim Çinin əsas fəlsəfi cərəyanlarının formalaşması e.ə. VI-III əsrlərə təsadüf edir. Belə ki, konfusiçilik (banisi Kuntszı- Konfusi), e.ə. 551-473) siyasi-etik problematika və insanın mahiyyəti, tərbiyəsi, sosial iyerarxiya haqqında təlimlərin hazırlanmasına istiqamətlənmişdi. Daosizm (banisi Lao-tszı, e.ə. VI-V əsrlər) «dao» (yol) haqqında təlimi hazırlamışdı. Burada təbii qanun olan «dao» ilk ünsürlə (tsi) birlikdə dünyanın

əsasını təşkil edir. Görkəmli nümayəndəsi Xan Fey olan «fatszya» məktəbnin (qanunçular) nümayəndələri əsasən dövlət və hüquq məsələləri ilə məşğul olurdular. Filosof Mo-Tszi (Mo - di) (e.ə. 479-400) və ardıcılları məntiq və qnesologiyaya müraciət etmişdilər. Belə ki, Mo- Tszinin fikrincə mücərrəd anlayışlar obyektiv hadisə və şeyləri əks etdirir. Moistlər insan biliyini hissiyyat orqanları ilə (U-lu) təfəkkürün (Sin) bircə fəaliyyətinin nəticəsi kimi nəzərdən keçirirdilər. Çin fəlsəfəsində Qun-sun Lunun (e.ə.III əsr) Platonun «ideyalar» haqqında təliminə yaxın olan «adlar» haqqında təlimi də maraq doğurur. Syun szi (e.ə. 298-238) konfusiçilik çərçivəsində naturfəlsəfi konsepsiyasını yaratmışdı. Bu təlimə görə qədim Çin fəlsəfəsinin ənənəvi kateqoriyası «tyan»(sma) maddi başlanğıcdır. Konfusidə səma ali məqsədə yönləndirici qüvvə kimi başa düşülürdü. Dünya quruculuğunun daha ardıcıl materialist anlamı Van Çunun (b.e. 27-104) təliminidə öz əksini tapmışdır. O «tsi» anlayışını əbədi mövcud olan maddi substansiya kimi şərh etmişdir. Bu nəzəriyyədə dao gerçəkliyin qanunauyğunluğu kimi çıxış edir. Bu dövrdə natural fəlsəfi təlimlərlə yanaşı mistik təlimlər də , məsələn, Don Çxun Şunun (e.ə. 190 -105) konfutsiçi teologiyası inkişaf etmişdir.

288704

Miladdan sonra I əsrdə Çində buddizim yayılmağa başlamışdır. Artıq I minilliyin ortalarında konfusiçilik və daosizmlə yanaşı buddizm də Çin fəlsəfəi fikirinin aparıcı cərəyanına çevrilmişdir.

## 4. Zərdüştlük

Azərbaycan, İran, Orta Asiya, Əfqanıstan və Ön Asiyanın bir sıra ərazilərində yayılmış qədim dövrün ən mühüm dinlərindən biri zərdüştlükdür. Hazırda zərdüştlük İranda gəbrlər, Hindistanda isə parslar arasında qalmaqdadır. Dinin adı Zərdüştün adından götürüldmüşdür. Zərdüştlüyə sitayiş edənlər mazdayasna (yəni «mazdaya sitayiş edənlər»); bəzən də zara-

ELMİ KİTABXANA

tuştri (zərduşti) adlandırılır. Zərdüştlüyün müqəddəs kitabı Avestadır. Avestada, xüsusilə onun ən qədim hissələrində (məs. Yaştlarda) zərdüştliyə uyğunlaşdırılmış, lakin zərdüşt təliminin mahiyyətinə zidd olan Zərdüştə qədərki materiallarda var.

Orta əsr islam dünyasının böyük mütəfəkkiri Əbu Reyhan Biruninin, ingilis şərqşünası Ceksonun fikrincə, zərdüştlüyün banisi Zərdüşt Azərbaycanda Savalan dağının ətrafında doğulmuş, uşaq və gənclik illərini orada, ömrünün ikinci yarısını isə Baktiriyada (Əfqanıstan) keçirmişdir. Zərdüştlük eramızdan əvvəl VII-VI əsrlərdə dualist din kimi meydana gəlmişdir. Bu dinin müqəddəs kitabı «Avesta» üç hissədən ibarətdir: Vendidad, Yasna, Vispered.

Zərdüştün təlimi üçün öz ifadəsini ali Allah Ahura Mazdaya inamda tapmış monoteist ideya səciyyəvidir. Lakin Zərdüştün təlimindəki monoteizm Qatalardakı ardıcıl və şəksiz dualizm ilə uzlaşır. İki əzəli başlanğıc olan – Xeyir və Şərin, həqiqət və yalanın bir-birinə qarşı qoyulması bütün dünya prosesinin məzmununu təşkil edir. Bu mübarizədə insanın rolu fəaldır. Xeyir qüvvələrinin başında Ahura Mazda (Hürmüz), Şər qüvvələrinin başında isə Ahra Manyu (Əhrimən) durur. Zərdüştlükdə şər qüvvələr sırasına daxil olunmuş qədim allahlar olan dayvalara (div) qarşı ali hakimiyyətə malik allahlar hesab edilən ahuralar durur. Zərdüştün təlimində dünya ikiləşmiş, iki sferaya bölünmüşdür (real, dünyəvi, və ruhi). Əsas diqqət real aləmə verilir. Zərdüştün təliminə görə, insan xeyirlə şər arasındakı mübarizədə istədiyi tərəfə keçə bilər. Son nəticədə xeyir qalib gəlir. Bu mübarizədə mühüm yer tutan insan xeyirin şər üzərində qələbə çalması üçün fəal səy göstərməlidir.

«Avesta»da hava, torpaq, od, su müqəddəs elan edilir, günəş, ay və ulduzlar ehtiramla qeyd olunur, müqəddəs sayılır. Kitabda hər bir cisimdə ruh olması fikri mühüm yer tutur, bütün təbiət canlı hesab edilir, ruh bədənin ağasıdır və bədənin

mövcudluğunun əsas şərti sayılır. Bütün psixi proseslər üç mərhələyə (fikir, söz, əməl) bölünür.

Avestanın etikası maddi və mənəvi olanın təmizliyinə əsaslanır, fiziki təmizlik (bədən, geyim, ev-eşik təmizliyi), və mənəvi təmizlikdə (əqidə və əməllərin saflığı) təzahür edir.

Dediyimiz kimi, zərdüştlüyün bütün fəsəfəsi xeyir və şər qüvvələrinin mübarizəsi ətrafında cərəyan edir. Zərdüşt «Avesta»nın qatlarında deyir: «Mən varlığın başlanğıcındakı iki ruh haqqında demək istəyirəm ki, ... bunların nə fikir, nə iradəsi, nə baxışları. Nə inamı, nə sözü, nə əməli, nə də qəlbi uyğunlaşmır. Bu iki ruhdan Druğa ruhu (yalançı, qarmaqarışıqlıq) şər əməlləri seçdi, Artu isə (həqiqət, qayda- qanun) Asimanı geyim kimi gəzdirən və xeyirxah işləri ilə Ahura Məzdanı razı salan müqəddəs ruhu seçdi. Bu ilkin ruhların hər ikisi öz fikirlərində, sözlərində və işlərində xeyirxah və bədxah olan bir cüt idilər».

Zərdüştə görə, düzgün və sağlam həyat tərzi dinc və halal əməklə məşğul olmaqdan ibarətdir. Onun fikrincə, bu həyatda fövqəltəbii qüvvələrin mərhəmətinə axirətdəki səadətə çoxlu qurbanlar verməklə nail olmaq mümkün deyildir. Səadət əməkdədir, «taxıl dəni cücərəndə divləri (şər qüvvələri) qorxu basır; dəni sovuranda divlər zəifləyirlər; dən üyüdüləndə divlər fəryad qoparırlar, bağırırlar... Qoy həmişə dən, un yeməkləri olsun».

Zərdüşt tarixi inkişafı ardıcıl proses kimi təsəvvür edirdi. Onun fikrinə görə, kainatın son yanğınından sonra dövretmə təkrar olunmayacaq, torpaq dirçəlməyəcəkdir. Zərdüşt təliminə görə, Ahura Mazda kainatın ömrünü 12 min il müddətində müəyyən edib. Bu müddətin ilk üç min ili ərzində Ahura Mazda mənəvi aləmi və işıq səltənətini xəlq etmişdir. Zərdüşt təlimində qiyamət günü, ədalət məhkəməsi ideyası ilə yanaşı, vəfat edən insanın ruhunun cənnətə, yaxud cəhənnəmə düşməsi haqqında təsəvvürlər də olmuşdur. Xüsusilə qeyd etmək lazımdır ki, zərdüştlük bizim eradan əvvəl buddizmə, eramızın əvvə-

lərində xristianlığa, sonra isə islama bilavasitə təsir göstərə bilmişdir.

Tanınmış iranşünas Meri Boys özünün «Zərdüştçülər, etiqadlar və adətlər» kitabında çox haqlı olaraq yazırdı ki, zərdüştlük dünya dinlərindən ən qədimidir, görünür o, bəşəriyyətə hər hansı başqa etiqadlardan daha çox təsir göstərmişdir. Onun bir sıra mühüm doktrinalarını iudaizm, xristian, islam dinləri, o cümlədən qnostik təriqətlər götürmüşlər. Avesta sonralar maqların da müqəddəs kitabı oldu. Görünür, məhz bu dövrdə (e.ə.1-ci minilliyin 2-ci rübündə) Qərb aləmi zərdüştlüklə tanış olmağa başlamışdır. Bunu Anaksimandrın, Anaksimenin, Empedoklun, Heraklitin və başqalarının fəlsəfi axtarışlarında əksini tapmış zərdüştilik problematikası kompleksi sübut edir. Zərdüşt Platona da məlum idi.

Zərdüştlüyün meydana gəlməsi, formalaşıb yayılmasını, Azərbaycan torpağı və etnik birliyi ilə əlaqəli olmasını, bu bölgənin ictimai-siyasi həyatı, əxlaqi-etik normaları ilə bağlılığını, fəlsəfi fikrimizin inkişafına göstərdiyi təsiri də diqqət mərkəzində saxlamaq lazımdır.

*Yoxlama sualları*

1. Qədim Babilistan və Misirdə fəlsəfi dünyagörüş
2. Qədim Hindistanda fəlsəfə
3. Qədim Çin fəlsəfəsi
4. Buddizm
5. Zərdüştlük

# III MÖVZU

# ANTİK FƏLSƏFƏ

## 1. Qədim yunan fəlsəfəsinin mənbələri

Antik fəlsəfə e.ə. VII əsrin sonlarından qədim yunan cəmiyyətində, e.ə. II əsrdən eramızın VI əsrinin əvvəllərinə qədər Roma cəmiyyətində inkişaf etmiş fəlsəfi təlimləri özündə birləşdirən intellektual fenomendir. Şübhəsiz ki, antık fəlsəfənin əsas tərkib hissəsi e.ə. VII-VI əsrlərdə yaranmış, eramızın VI əsrində tədricən zəifləmiş qədim yunan fəlsəfəsidir. Qədim yunan fəlsəfəsinin mənbələri aşağıdakılardır:

- Şərq ölkələrində yaranmış elmi və fəlsəfi anlayışlar
- Tədricən qədim yunan cəmiyyətinin, fəlsəfi dünyagörüşü çərçivəsinə transfomasiya olunmuş fəlsəfə öncəsi mifoloji və dini görüşlər. Onlara əsasən bu mənbələri aid etmək olar: Homerin epik poeziyası, Hesiodun poeziyası, orfiklərin dini cərəyanı(orfizm)

Beləliklə, qədim yunan fəlsəfəsinin əsas mənbələri Misir və Yaxın Şərqin elm və fəlsəfəsi, ona ilkin bilik, obrazlı dil, problematika, ötən dövrlərin təcrübə toplusu vermiş qədim Yunan mifologiyasıdır.

## 2. Qədim yunan fəlsəfəsinin yaranması

Qədim yunan fəlsəfəsi yunan cəmiyyətinin dünyagörüşü qaydaları və əsasən tətbiqi xarakterli elmi bilikləri ilə qırılmaz əlaqədə yaranmışdır. Qədim Elladada fəlsəfi fikrin meydana gəldiyi şərait bütün yunan fəlsəfəsinin xarakterində iz buraxmışdır. Bu şərait iqtisadiyyatın quldarlıq xarakteri, qədim yunan dövlətlərinin polis quruluşu, yunan cəmiyyətinin spesifik sosial strukturu, krit-miken sivilizasiya təsisatları dövründən inkişaf edən Qədim yunan incəsənəti ilə müəyyənləşirdi.

Bu dövrdə qədim yunan fəlsəfəsində ilk dəfə olaraq ənənəvi mifoloji görüşlərdən fəlsəfi kateqoriyalarla müəyyənləşən dünyagörüşünə keçid baş verir və bununla elmi dünyagörüşə xas olan rasional, mücərrəd-nəzəri dünya duyumunun əsası qoyulur.

Qədim yunan polisində fəlsəfənin yaranması vahid fəlsəfi və sosial-etik kəsilməz bağlılığı olan fikri axtarışlarının iki əsas istiqaməti çərçivəsində baş verir. Birinci istiqamət dünyanın şərh edilməsində natural-fəlsəfi təlimlərin köməyi ilə mifdən uzaqlaşma cəhdlərini əks etdirirdi. Bu bir qayda olaraq təkcə qədim yunan deyil, eyni zamanda Avropa elm və fəlsəfəsinin inkişafının çıxış nöqtəsi kimi nəzərdən keçirilir.İkinci istiqamət ənənəvi olaraq «yeddi müdrikin» fəaliyyəti kimi başa düşülür. Əxlaqi etik, siyasi və kosmoloji xarakterli problemlərin qoyuluşu (aforizmlər) bu yarıməfsanəvi simalara aid edilir.

### 3. Milet məktəbi fəlsəfəsi

Qədim yunan fəlsəfi ənənəsinin başlanğıcı Milet məktəbi filosoflarının yaradıcılığı hesab edilir. Milet məktəbi nümayəndələri üçün əsas məsələ «hər şeyin nədən yaranması», yəni hadisələrin sonsuz çoxobrazlılığı əsasında dayanan ilk başlanğıc (arxe) məsələsidir. Problemin belə qoyuluşu artıq dünyagörüşdə bir çevriliş yaratmış, ilk dəfə olaraq, mifoloji obrazlara müraciət etmədən maddi, cismani, fiziki başlanğıcı tapmağa cəhd göstərilmişdir. Falesə (e.ə.640-562) görə, bu başlanğıc sudur (hər şey sudan əmələ gəlir və suya da parçalanır). Onun şagirdi Anaksimandr (e.ə.611-546) fəlsəfəyə «arxe» anlayışını daxil edir. «Arxe» bütün şeylərin ilkin əsasıdır. İlkin əsasın özünü isə o, sonsuz, əbədi, təkcə, keyfiyyətsiz materiya olan apeyron (yun. apeyron - hüdudsuz) adlandırır. Anaksimandrın tələbəsi Anaksimen (e.ə.585-524) isə hər şeyin əsasının hava olduğunu bildirmişdir. Miletli mütəfəkkirlər ilkin əsas haqqında təlimi rəhbər tutaraq birinci olaraq, obyektiv dünyanı şərh etməyə cəhd etmişlər. Onların fikrincə, məhz bu yolla

dünyaquruculuğunun bütün suallarınna cavab vermək mümkün olardı.

Efesli Heraklit (e.ə. 540-480) daha çox hərəkətli, daimi dəyişməyə məruz qalan odu təbiətin ilkin əsası hesab etmişdir. Heraklitə görə dünya, kosmos zəifləyən və yenidən güclənən, dövrü nizamlanmış əbədi oddur. Ona görə də dünya zərurətə (loqosa) tabe olaraq daimi hərəkətdədir və daim dəyişir, başqa sözlə dünya hərəkətsiz sistem olmayıb, hər bir hadisənin öz əksinə keçidini müəyyənləşdirən əbədi proses, sonsuz yeniləşmə, fasiləsiz mübarizədir. Bundan əlavə Herakliti qnesoloji problematikaya diqqət yetirmiş ilk filosoflardan biri (Kolofonlu Ksenofanla (e.ə.565-470) yanaşı) hesab etmək olar.

### 4. İtaliya fəlsəfəsi

E.ə. VI əsrin sonu III əsrin əvvəllərində Qədim Yunan fəlsəfəsinin əsas mərkəzi böyük Yunanistan adlandırılan (Siciliya adası və Cənubi İtaliya) yunan dünyasının qərb hissəsinə doğru yerdəyişmə edir. Böyük Ellada polislərində coğrafi əlamətlər üzrə ümumi «İtaliya fəlsəfəsi» adı ilə birləşdirilən yeni fəlsəfi cərəyanlar yaranır. Bu fəlsəfi cərəyanlara Pifaqor (e.ə. 590-500) və pifaqorçular, eleyatlar (eleya məktəbi), həmçinin Empedokl (e.ə.490-430) aid edilir.

Əsasən yaradıcı məktəb çərçivəsində inkişaf etmiş Samoslu Pifaqor təlimi sonradan ciddi təkamül yolu keçmişdir. İlk pifaqorçular fəlsəfəsində idealist fikirlər özünü aşkar birüzə vermişdir. Eleatlar məktəbinin banisi Ksenofan (e.ə. 570-478) olmuşdur. O belə hesab edirdi ki, dünya nəsə vahid, bütöv bir şeydir, yəni varlıq həmişə dəyişməz, bircins və özündə eynilikdir. O insan biliyini «fikrə görə bilik» və «həqiqətə görə biliyə» ayıraraq, hissi təcrübənin verdiyi biliklərin dəqiqliyini inkar etmişdir. Eleya məktəbinin görkəmli nümayəndəsi kimi, dünyanı boşluğa malik olmayan hərəkətsiz maddi kürə kimi təsəvvür edən Parmenidin (e.ə.540-470) adını çəkmək olar. Parmenid belə nəticəyə gəlirdi ki, qeyri-mövcudluq və yaxud

qeyri-varlıq yoxdur. Parmenidə görə dünyanın hissələri yoxdur, uyğun olaraq hər bir çoxobrazlılıq, o cümlədən dəyişiklik və hərəkət yalnız hissələrin aldanışıdır və fəlsəfənin vəzifəsi qavrayışa açıq olmayan həqiqət dərsidir. Parmenidin şagirdi Zenon (e.ə.490-430) hərəkət anlayışının daxili ziddiyyətini aşkarlamışdır. O belə nəticə çıxarırdı ki, hərəkət dərk olunmazdır. Bu isə Aristotelə onu «dialektikanın banisi» adlandırılmağa əsas vermişdir.

Aqrigentli Empedokl dörd ünsür – "hər şeyin kökü" (torpaq, su, hava, od) haqqında təlim yaratmışdır. Onun fikrincə, cazibə və itələmə ("dostluq" və "düşmənçilik") qüvvələrinə əsasən adı çəkilən maddi başlanğıcların birləşməsi və ayrılması baş verir, və bu hissi qavranılan çoxsaylı şeylərin yaranmasına səbəb olur. Empedokl fəlsəfəsində təbiətdə təkamülün ümumi qanunu kimi təbii seçmənin fəaliyyəti haqqında ideya xüsusi maraq kəsb edir.

### 5. Anaksaqor

Eradan əvvəl V əsədə Qədim Yunanıstanın fəlsəfi fikir mərkəzi materik Yunanıstana keçir. Bu isə ilk növbədə yunan-iran müharibələrinin bitməsindən sonra Afina dövlətinin çiçəklənməsi ilə bağlı idi.

İlk böyük afinalı filosof Anaksaqor (e.ə. 500-428) olmuşdur. Anaksaqora görə bütün mövcudatın başlanğıcı kəmiyyətcə sonsuz, keyfiyyətcə bölünməz ilkin materiya, "şeylərin toxumlarıdır", sonralar bu homeomerlər (yun. homeomeria – oxşar hissələrə malik olan) adlandırılmışdır. Anaksaqor hesab edirdi ki, homeomerlər keyfiyyətcə sonsuz sayda daha kiçik hissəcikləri özündə saxlayan bircins hissəciklərdir və bu səbəbdən dünya vahid olmayıb, sonsuz bölünən çoxsaylı "toxumlardan" ibarətdir, bu zaman homeomerin hər bir hissəsi bütövə ekvivalentdir ("hər şey hər şeyin bir hissəsini özündə saxlayır"). Obyektiv dünyanın cisimlərinin keyfiyyət xüsusiyyətlərini Anaksaqor bu və ya digər şeylərin başqa cinsdən olan

şeylərin homeomeriyasına malik olması kimi şərh edirdi. Dünyanın mövcudluğu yaranma və dağılma prosesidir, yəni ünsür və keyfiyyətlərin birləşmə və ayrılmasıdır. Digər tərəfdən dünyada elə bir qüvvə də var ki, o, hissəcikləri hərəkətə gətirir və onların ilkin vəziyyətlərinə istiqamətləndirir. Bu qüvvə və yaxud prinsipi Anaksaqor "nus" (yun. nous - ağıl) adlandırır. "Nus" formasız materiyanı nizamlayır, müəyyən qaydada ünsürlər toplusunu təşkil edir. Bu zaman nus həm məqsədyönlü fəaliyyətdə olan, şüurlu mənəvi qüvvə, həm də mexaniki səbəb kimi şərh edilir. Nus şeylərin yaranmasının ilkin əsası olan dünya dövranına başlayır, yəni kosmoloji qüvvə kimi çıxış edir. Digər tərəfdən ağıl "hüdudsuz və özbaşınadır"; "ruha malik olan bütün mövcudluqları ağıl idarə edir". Ona görə də Anaksaqorda nus maddi, yoxsa mənəvi başlanğıcdır sualı cavabsız qalır. Yuxarıda söylənilənlərdən əlavə Anaksaqor özünəməxsus kosmoloji təlim yaratmış, astronomiya və riyaziyyatla, eləcədə cəmiyyətin gələcək inkişaf problemləri ilə məşğul olmuşdur.

## 6. Qədim Yunan atomizmi

Atomizm (daha doğrusu atomistika) maddənin diskret quruluşu haqqında təlimdir. Varlığın ilkin əsasının unifikasiyasına göstərilən fəlsəfi cəhd olan qədim yunan atomizminin baniləri Levkipp (e.ə. təq. 500-440) və Demokrit (e.ə. təq. 460-370) hesab edilir. Bu nəzəriyyənin əsas müəllifi onun yeni anlayışlarını irəli sürmüş və əsas məqamlarını hazırlamış Levkippdir:

1) mütləq boşluq, maddidən kənar və sonsuz məkan;

2) bu boşluqda hərəkət edən, hiss orqanlarının köməyilə aşkarlanmayan materiyanın ən kiçik, sadə, bölünməz hissəcikləri olan "atomlar" (yun. atomos – bölünməz);

3) bütün şeylərin yaranmasını şərtləndirən mexaniki zərurət.

Abderli Demokrit Levkipp təlimini davam etdirmişdir. Demokrit sisteminin əsas məqamını birləşərək hissi qavranılan dünyanın bütün çoxobrazlılığını əmələ gətirən atomlar və boşluqların qoşa mövcudluğu haqqında fərziyyə hesab etmək olar. Demokritə görə boşluq formasız, hüdudsuz, hərəkətsiz, sıxlığa malik olmayan vahid məkandır. Atomlar materiyanın dəyişməz və bölünməz hissəcikləridir. Onlar əbədi hərəkətdədirlər və bir-birlərindən xarici keyfiyyətlərinə, ölçü, forma, vəziyyət və nizama görə fərqlənirlər. Anaksaqorun homeomerlərindən fərqli olaraq atomlar şeylərin keyfiyyət xarakteristikalarına malik deyildir. Atomlar boşluqda hərəkət edirlər, eyni zamanda onların nə boşluğa çevrilməsi, nə də bu prosesin əksi mümkün deyildir (varlıqdan qeyri-varlığa keçid və əksi mümkün deyil). Demokrit Cisimlərin məhvini atomların ayrılmasında, əmələ gəlməsini isə birləşməsində görürdü. Atomistlərin fikrincə dünya quruculuğu atom qasırğalarından yaranmış dünyalar çoxluğu ilə dolu olan hüdudsuz boşluqdur (dünyaların çoxluğu haqqında ideya). Yunan atomizminin idrak nəzəriyyəsi ontologiyadan törəyir. Burada hissi qavrayış əşyaların mahiyyətinə nüfuz edə bilmir, yəni dünyanın mahiyyətini boşluq və atomlar fərqləndirmir. Ona görə də həqiqət yalnız zəka vasitəsilə dərk olunandır. Atomistlərin təklif etdiyi fərziyyə iki min il ərzində nəzəri təbiətşünaslığın inkişafını müəyyənləşdirmişdir. Qədim Yunan fəlsəfəsində Levkipp və Demokritin təlimlərinin xüsusi yeri vardır. Mahiyyətcə onların atomizmi əvvəlki "fyuzis" fəlsəfi ənənəsini, daha doğrusu Sokrata qədərki naturfəlsəfəni başa çatdırmışdır.

*Yoxlama sualları:*

1. Qədim Yunan fəlsəfəsinin əsas mənbələri.
2. Qədim Yunan fəlsəfəsi nə vaxt və necə yaranıb?
4. İtaliya fəlsəfəsinin əsas cərəyanları.
5. İlk afinalı filosof və onun təlimi.
6. Qədim Yunan atomizmi haqqında danışın.

# IV MÖVZU

# KLASSİK DÖVR YUNAN FƏLSƏFƏSİ

## 1. Sofistika

Sofistika yun. sophistike – mübahisəni hiylə ilə aparma təlimi, formal məntiq qanunlarının qəsdən pozulmasına əsaslanmış mühakimə və sübutlardan şüurlu istifadə və zahiri ziddiyyətlə pərdələnmiş yalan dəlil və kələklərin işlədilməsidir. Terminin mənası Qədim yunan fəlsəfəsində nümayəndələri sofistlər olan özünəməxsus cərəyanla əlaqəlidir (sophistes – müdrik). Artıq Qədim Yunanıstanda sofist dedikdə müəyyən sahədə mütəxəssis və ümumiyyətlə ağıllı adam, həm də e. ə. V əsrin ikinci yarısı – IV əsrin birinci yarısında filosoflar, ilk peşəkar bəlağət və müdriklik müəllimləri başa düşürdülər. Fəlsəfə tarixində Qədim Yunanıstan sofistikasını iki qrupa bölmək qəbul edilmişdir: yaşlı sofistlər qrupu (Protaqor, Georgi, Prodik, Hippiy), cavan sofistlər qrupu (Likofron, Kriti, Alikidam, Frasimax).

Sofistlər fəlsəfəsinin ümumi xüsusiyyəti A.F.Losevə görə „fəlsəfi maraqların natural fəlsəfə sferasından etika, siyasət, idrak nəzəriyyəsi sahəsinə yerdəyişmə etməsidir". Onlar əsasən insan və onun subyektiv xüsusiyyətlərinin öyrənilməsi ilə məşğul olaraq belə bir ideyadan çıxış edirdilər ki, bütün insan mühakimələri, dəyərləri və normaları nisbidir. Belə ki, (Protaqora görə) "insan hər şeyin ölçüsüdür, mövcudlar üçün mövcuddur, mövcud olmayanlar üçün o, mövcud deyildir". Sofistlərin intellektual nihilizmə (Georgiyə görə) çatan skeptisizm və relyativizmi buradan qaynaqlanır: "Heç nə mövcud deyildir. Əgər o, mövcuddursa, onda dərkolunmazdır. Əgər o həm mövcud, həm dərkolunandırsa, onda ifadəedilməzdir".

## 2. Sokrat və sokratyönlü məktəblər

Sokratın (e.ə. 469-399) təlimi Qədim Yunan fəlsəfəsinin inkişafında dönüş nöqtəsi olub və naturfəlsəfi problemlərdən antropoloji problemlərə keçidi əks etdirir.

Sokrata görə fəlsəfə necə yaşamaq haqqında təlimdir. Erkən naturfilosofları tənqid edən Sokrat həqiqi bilik qismində təbiətin empirik tədqiqini qəbul etmir və ruhun öyrənilməsinə üstünlük verirdi. İdrakın əsas məsələsi "özünü dərk et" düsturu ilə ifadə olunmuş özünüdərkdir, lakin idrakın ali məqsədi praktikdir (yaşamaq incəsənəti). Sokrata görə bilik həmsöhbətlə söhbətin gedişində aşkarlanan əşya haqqında anlayışın müəyyənləşdirilməsi vasitəsilə əldə edilir, yəni məharətlə verilmiş sualların köməyi ilə yalan aşkarlanır və bilik öz həqiqiliyini tapır.

Sokratın etikasını rasionalist adlandırmaq olar. Onun fikrincə fəziləti bilik, qəbahəti biliksizlik törədir. Hər bir şey ümumi anlayışlara gətirilə bildiyi üçün hər bir konkret insan fəaliyyəti də vahid məqsədin ümumi prinsipinə, ali xeyirə gətirilir və ona yaxınlaşan insan kamilləşir.

Sokratın edamından sonra şagirdləri və ideya davamçıları tərəfindən yaradılmış məktəblər Sokrat məktəbləri adını almışdır:

Meqara məktəbi (banisi Meqaralı Evkliddir) tərəfdarları belə bir təlimi yayırdılar ki, idrak predmeti yalnız "qeyri-cismani görünüş", yəni anlayışlar vasitəsilə dərk olunan ümumilər ola bilər.

Elido-eretriya məktəbi (banisi Elidalı Fedon olub) meqaralıların təlimini müdafiə edirdi.

Kinik məktəbin nümayəndələri (banisi afinalı Antisfendir) şeylərin mahiyyətini aydınlaşdıran anlayışları söz kimi işlədir, ona görə də belə hesab edirdilər ki, ümumi anlayışları təkcə əşyalara tətbiq etmək mümkün deyildir. Müdriklik isə təkcə nəzəri bilik olmayıb, şərtsiz şəxsi azadlıq və təbiilik olan aske-

zin köməyi ilə əldə olunan və sırf fərdi xeyir kimi başa düşülən fəzilətin dərk olunmasıdır;

Kirena məktəbi (banisi Kirenalı Aristipp) nümayəndələrinə görə biliyin predmeti praktiki əldə edilən xeyir, idrak aləti insan duyğuları, xeyirin meyarı isə yalnız indiki halda həzz və yaxud iztirab duyğularıdır.

## 3. Platon

Platon (e.ə. 428 və yaxud 427-348) müəllimi Sokrat və şagirdi Aristotellə yanaşı Qədim Yunan klassik fəlsəfəsinin zirvəsi hesab edilir. Platonun fəlsəfəsi Avropa ənənəsində bütöv fəlsəfi sistem yaratmağa ilk cəhddir. Onun təliminə antologiya, kosmologiya, qnesologiya, psixologiya, teologiya, sosiologiya, etika, estetika daxildir. Lakin bu təlimi bitkin hesab etmək olmaz, çünki Platon fəlsəfəsi sistemli deyildir. O öz fəlsəfi baxışlarını daim inkişaf etdirmişdir. Platonun əsərləri yüksək bədii dialoqlar şəklindədir.

Üç əsas antoloji substansiya (triada) haqqında təlim Platon sisteminin mühüm hissəsidir.

Platona görə "təkcə" hər bir varlığın əsasıdır, lakin özü varlıq və təfəkkürdən yüksəkdir, təkcə dəyişməz və hərəkətsizdir, hissələrə malik deyil və özlüyündə keyfiyyət xüsusiyyətlərindən məhrumdur.

Platon tərəfindən "ağıl" (nus) qeyri-maddi, bütün canlı mövcudluqların fikri ümumiləşməsi kimi, səmanın əbədi hərəkətində, yəni "kosmosda" təcəssüm etmiş, son dərəcə ümumiləşmiş və kamil həyat kimi başa düşülür.

"Dünya ruhu" özhərəkət prinsipi kimi "ağıl" və maddi dünyanı birləşdirir, bu zaman hər bir fərdi ruh keçicidir, "dünya ruhunun" obrazıdır.

Hissi qavranılan dünya nisbi və hərəkətsiz varlıq dünyasıdır, həqiqi varlıq özlüyündə mövcud olan ideal varlıqdır və

Platon onları növ və yaxud "ideyalarla" (eydoslar) eyniləşdirir. Onun fikrincə eydoslar aşağıdakılardır:

1) əsasında hissi şeylərin yarandığı səbəb və nümunələr,
2) hissi qavranılan dünyanın bütün mövcudluqlarının məqsədi,
3) hər bir əşyalar qrupunun ümumi mahiyyəti haqqında növ anlayışları.

Hissi qavranılan dünyanı eydoslar və materiya ilə eyniləşdirən "qeyri-varlıqlar" törədir, o nisbi və keçicidir (eydoslar məkandankənar və zamandankənar substansional ilk obrazlar və prinsiplərdir, hissi qavranılan şeylər isə zaman və məkandan asılıdır).

Platonun idrak nəzəriyyəsi obyektdən asılı olaraq idrak növlərini ciddi şəkildə fərqləndirir. Həqiqi idrak yalnız həqiqi varlığa (ideyaya) münasibətdə mümkündür, çünki belə idrak ruhun insan cismində təcəssümünə qədər əlçatan olan həqiqi ideyalar dünyasındakıları xatırlamasıdır. Hiss üzvləri vasitəsilə dünyanın dərki yalnız ehtimal xarakterli rəylərdir. İdrakın bu iki obyekti arasında düşüncəninköməyi ilə dərk olunan riyazi obyektlər yerləşir. İdrakın, o cümlədən elmin əsas metodunu Platon "dialektika" adlandırır (yüksəliş və çoxluğun təkcəyə və təkcənin çoxluğa gətirilməsi). Platonun psixologiyası ruha üç qabiliyyət verir, bu isə onun etikasında üç fəzilətə, siyasi nəzəriyyəsində isə ideal dövlətdəki üç silkə uyğun gəlir.

Önləyici ölçü hər silkin yalnız dəqiq müəyyənləşdirilmiş funksiyasını yerinə yetirdiyi "ideal cəmiyyət və dövlətin" bütün üzvləri üçün fəzilət və ya şücaətdir. Bu isə Platona görə digər fəzilətləri tənzimləyən yeganə «fəzilət» isə dövləti möhkəmləndirən "ədalətdir". İdarəetmənin üç əsas formasını fərqləndirən Platon onların hər birini iki yerə bölür:

Monarxiya Aristokratiya Demokratiya
Qanuni (irsi) Ən yaxşıların idarəetməsi Qanuni
Zorakı (tiraniya) Oliqarxiya Qanunsuz

Bundan əlavə dövlət hakimiyyətinin bütün formaları "ideal dövlətin" təhrif edilmiş variantlarıdır (ardıcıl olaraq yaxşıdan pisə doğru); timokratiya (şöhrətpərəstlərin hakimiyyəti); oliqarxiya (azlığın hakimiyyəti); demokratiya (xalqın böyük əksəriyyətinin hakimiyyəti); tiraniya (bir nəfərin hakimiyyəti).

Platon estetikasında gözəllik bədən, ruh və ağılın mütləq qarşılıqlı nüfuzetməsi, ideya və materiyanın, ağıl və həzzin birliyi kimi götürülür.

Platon fəlsəfəsi təkcə obyektiv idealizmin ilk nümunəsi deyil, həm də Avropa fəlsəfi fikrinin sonrakı inkişafı üçün əsas hesab edilir. Platon Afina fəlsəfə məktəbi olan Platon Akademiyasının banisi olmuş və bu Akademiya 529-cu ilə qədər fəaliyyət göstərmişdir.

## 4. Aristotel

Aristotel (e.ə. 384-322) Platonun şagirdi və Akademiyanın əməkdaşı, Makedoniyalı İskəndərin müəllimi, Afinada peripatetik məktəbin (Likey) (e.ə. 335-ci il) banisi, ilk sistemləşdirilmiş ensiklopedik fəlsəfi təlimin yaradıcısı hesab edilir. Aristotelin yaratdığı sistemə daxil olan elmi və fəlsəfi traktatları əsasən yeddi qrupa bölmək qəbul olunmuşdur:

- məntiq ("Orqanon", "Topika");
- fizika ("Fizika", "Səma haqqında");
- biologiya ("Heyvanların tarixi");
- "ilk fəlsəfə" haqqında traktatlar ("Metafizika");
- etika ("Nikomax etikası");
- sosial-siyasi (Afina politikası);
- incəsənət, poeziya və ritorika haqqında əsərlər ("Ritorika", "Poetika").

Platonun ideyalar nəzəriyyəsini tənqid edən Aristotel hissi qavranılan dünyanın dərk olunmasının zəruriliyini bildirir (belə ki, ümumi yalnız hissi şeylərdə mövcuddur). Aristotelə görə "ilk fəlsəfə" ("metafizika" – fizikadan sonrakılar) ümumi elmlərin predmetini təşkil edərək ("hər yerdə" və "həmişə" mövcud olanlar) ağılla dərk olunanla hissi qavranılan təkcələri ("hardasa" və "indi" mövcud olan) bir-birindən dəqiq ayıran "ilahi haqqında elm" və ya sadəcə müdriklikdir. Mövcud olanın şərhi üçün Aristotel dörd səbəb göstərir:

- formal (varlığın mahiyyəti və məğzi, forma, yəni materiyada yalnız imkan olan gerçəklik);
- maddi (substrat, nədənsə nəyin yaranması);
- məqsəd (nəyə görə nəyinsə gerçəkləşməsi);
- hərəkətverici (hər bir hərəkətin başlanğıcı);

Aristotelə görə əmrlər passiv materiyadan "aktiv" materiyaya və əksinə ardıcıl keçidlər sırasıdır. Aristotel hər bir hərəkətin mənbəyi, "ilk mühərriki", həmçinin formanın özinkişafının ali məqsədini Allah adlandırır və hərəkəti dörd növə bölür: keyfiyyət (dəyişmə), kəmiyyət (böyümə və yaxud kiçilmə), yerdəyişmə (məkanda hərəkət), yaranma və məhvolma.

Hərəkətin özü isə imkandan (potensialdan) gerçəkliyə (aktivə) keçiddir, hər bir təkcə şey isə "materiya" və "formanın" vəhdətidir.

Aristotel qnesologiyada iki növ biliyi fərqləndirirdi:

- apodiktik (həqiqi bilik, ali prinsipləri seyr etməklə, əqli nəticə ilə alınır).
- dialektik (ehtimali bilik, təcrübədən, hissi qavranılan dünyanın öyrənilməsindən alınan biliklər).

Elmin son məqsədi predmetlərin həqiqi müəyyənliyi üçün deduksiya və induksiyanı qovuşdurmaq olmalıdır. Aristotel varlıq haqqında anlayışların əsas 10 kateqoriyasını sadalayır. Bu kəmiyyət, keyfiyyət, münasibət, yer, zaman, mövqe, malikolma, fəaliyyət və iztirab anlayışlarıdır.

Aristotel kosmologiyada geosentrik sistemi hazırlamışıdır. Kainat ayrı-ayrı sferalardan təşkil olunmuşdur. Ayın orbiti ilə Yerin mərkəzi arasındakı ("ayaltı dünyada") bütün cisimlər dörd ünsürdən təşkil olunmuşdur: torpaq, su, hava və od. Bu xaotik hərəkətlər sahəsidir. Ayın orbiti ilə tərpənməz ulduzlar sferası arasındakı sahə ("ayüstü dünya") sabit hərəkətlər sahəsidir, eyni zamanda ulduzlar beşinci kamil ünsür olan efirdən təşkil olunur.

Aristotel öz biologiyasında bioloji məqsədyönlük təlimii hazırlamışdır. O eyni zamanda həyatın materiyasını bədən, formasını ruh adlandıraraq (Filosofun fikrincə ruh imkanı gerçəkliyə çevirən məqsədyönlü enerjidir) onun üç növünü fərqləndirir. Bu üç növ canlı mövcudluğa uyğun gəlir: bitkilərin ruhu, heyvanların (duyabilən) ruhu, insanın (ağıllı) ruhu.

Etika sahəsində Aristotelin əxlaqı "özü üçün təfəkkür düşünən" Allah, fəaliyyətin ali növü zəkanın seyredici fəaliyyəti və səxavətlilikdir. Aristotelin siyasi nəzəriyyəsi üç yaramaz və üç yaxşı dövlət quruluşu formalarını fərqləndirirdi. Birincilərə tiraniya, oliqarxiya və demokratiya, ikincilərə monarxiya, aristokratiya və politiya (orta sinfin hakimiyyəti) aiddir.

Aristotelin təlimi elm və fəlsəfənin sonrakı inkişafına ciddi təsir göstərmişdir.

*Yoxlama sualları:*

1. Sofistlərin fəlsəfəsi
2. Sokratın təlimi haqqında nə bilirsiniz?
3. Sofist məktəblərinin adlarını sayın
4. Platonun fəlsəfəsi
5. Aristotelin fəlsəfəsi

# V MÖVZU
# ELLIN VƏ ROMA DÖVRÜNDƏ FƏLSƏFƏ

## 1. Skeptisizm

Ellinizm dövründə (e.ə. III-I əsrlər) Qədim Yunan cəmiyyətlərinin intellektual həyatındakı əhəmiyyətli dəyişmələr yunan polislərinin ictimai-siyasi böhranı ilə şərtlənirdi. Fəlsəfə qarşısında dayanan məsələlərin transformasiyası baş verir, fəlsəfə şəxsi davranış prinsiplərinin müəyyənləşdirilməsinə istiqamətlənirdi (antologiya və qnesologiyaya əsaslanan etika mərkəzi fəlsəfi fənnə çevrilir). Artıq e.ə. IV əsrdə ellin fəlsəfəsinin skeptisizm, epikürçülük, stoisizm kimi əsas məktəbləri meydana gəlirdi.

Skeptisizm (yun. skeptomai – şübhələnirəm) fəlsəfi cərəyan olaraq e.ə. IV əsrdə yaranmışdır. Bu məktəbin banisi Elidalı Pirron (e.ə. 365-275) hesab edilirdi. Skeptiklər üçün ənənəvi fəlsəfi problemlərin müəyyənləşdirilməsi və formalaşdırılması da ona məxsusdur. Filosofun əldə etməyə çalışdığı xoşbəxtlik – təmkinlilik və iztirabın yoxluğudur. Pirron üç əsas sual və cavabla xoşbəxtliyin şərhini verir:

1) Şeylər nədən ibarətdir? Nəyinsə mövcudluğunu konkret təsdiqləmək mümkün deyil.

2) Biz onlara necə münasibət göstərməliyik? – Münasibətin fəlsəfi üsulu onlar haqqında hər hansı mühakimədən imtinadır.

3) Bu münasibətdən biz hansı faydanı əldə edirik? Mühakimə söyləməkdən imtinadan fayda təmkinlilik, filosof üçün əlçatan səadətin ali dərəcəsi olan sakitlikdir (ataraksiya).

Skeptisizmin sonrakı inkişafı Pirronun ardıcılları Timon (e.ə. 320-230), Enesidem, Aqripp, Empirik (e.ə. II əsr) və başqalarının əsərlərində davam etdirilmişdir. Bütün skeptiklər üçün ümumi olan müddəaları aşağıdakı kimi formulə etmək mümkündür:

1) duyğu idrakın kafi həqiqi mənbəyidir;

2) zidd mühakimələr eyni dərəcədə sübut olunandır;
3) hər bir mühakimədən imtina zəruridir.

Belə ki, akademiyanın başçısı Karneadın biliyin səhihlik dərəcəsi haqqında təlimində məlumat ehtimallılığının üç dərəcəyə ayırır: sadə ehtimal, ehtimal və digər məlumatlara zidd olmayan, hərtərəfli yoxlanılan ehtimal.Buradan belə bir nəticə çıxarılır ki, hər bir bilik ehtimaldir, lakin filosof ehtimallı məlumatdan səhih həqiqət kimi deyil, ehtimal kimi istifadə edə bilər.

Sekst Emprik (təq. e.ə. 200-250) şübhəsiz, bu məktəbin həqiqi biliyin mümkünlüyü əleyhinə olan bütün arqumentlərini cəmləməklə "bütün skeptisizmin ümumi yekununu" vermişdir.

## 2. Epikür və epikürçülər

Samoslu Epikür (e.ə. 341-270) əsasən etik problemlərə həsr olunmuş təlim yaratmışdır. Lakin onun etika təliminin əsasında qədim yunan atomizm ideyalarının özünəməxsus təfsiri dayanır. Epikür Levkipp və Demokritin bütün əsas müddəalarını ciddi düzəlişlərlə qəbul edir. Ona görə təbiətin bütün hadisələrinin səbəbiyyət zərurəti insan azadlığının mümkünsüzlüyü haqqında əqli nəticə üçün kafi deyildir. Epikürün atomların düzgün trayektoriyadan özbaşına uzaqlaşması haqqında fərziyyəsi belə bir müddəa ilə möhkəmləndirilir ki, atomlar boşluqda mexaniki zərurət nəticəsində deyil, atomun daxili xassələrinə görə hərəkət edirlər. Demokrit fəlsəfəsindəki atomların forma, mövqe və nizamı ilə bərabər Epikür öz fəlsəfəsində atomların ağırlığı anlayışını da irəli sürür və atom formalarının kəmiyyətcə məhdudluğu haqqında danışır. Atomların düzxətli hərəkətdən kənara çıxması onların trayektoriyalarını özbaşına dəyişə bilmək bacarığı ilə izah olunur. Epikür buradan təbiət hadisələrinin ən ümumi səbəbiyyət əlaqələri çərçivəsində müxtəlif azadlıqlarının mövcudluğu haqqında nəticə çıxarır (o cümlədən insan azadlığı).

Epikür etikası xeyir və şəri həzz və iztirabın səbəbi kimi şərh edir, həmçinin həzz hissi xoşbəxtliyin meyarı hesab edilir. Burada xoşbəxtliyə gedən yol xoşbəxtliyə çatmağa mane olan hər şeyin tədricən kənarlaşdırılması kimi başa düşülür (ilk növbədə ölüm qorxusu, allahlar qarşısında qorxu, səma hadisələri qorxusu).

Epikürün idrak nəzəriyyəsi hiss üzvlərinin verdiyi məlumatların həqiqiliyi haqqındakı müddəadan çıxış edir. Onun fikrincə bütün mümkün yanılmalar duyğuların qeyri-adekvat şərhindən irəli gəlir. Epikür qnesologiyasının materialist şərhi ontologiyadan etikaya keçid üçün məntiqi və əsaslandırılmış imkan yaradır:

1) bütün predmetlər kəsilməz və kiçik hissəciklər seli şüalandırır;

2) hiss üzvlərinə nüfuz edən hissəciklər ("idollar") şeylərin obrazını yaradır;

3) dünyanın dərki insan xoşbəxtliyini mümkün etməlidir, yəni onu cəhalət və qorxudan azad etməlidir.

Epikür "Epikür bağı" adını almış Afina məktəbinin banisi hesab olunur. Onun ən görkəmli ardıcılı romalı Tit Lukretsi Kar (e.ə. 99-55) olmuşdur. Özünün "Şeylərin təbiəti haqqında" məşhur fəlsəfi poemasında Lukretsi təkcə Epikür təliminin davamçısı kimi deyil, həm də orijinal mütəfəkkir kimi çıxış etmişdir.

## 3. Stoisizm

Stoisizm (yun. sto – sütunlu eyvan) ellin fəlsəfəsinin üçüncü əsas məktəbidir. Fəlsəfi cərəyan kimi stoisizm yunan və roma fəlsəfi ənənələri çərçivəsində üç dövrə bölünür:

1) Qədim stoya (e.ə. III-II əsrlər) – baniləri Kitionlu Zenon, Kleanf, Ariston, Xrisipp və b,

2) Orta stoya (e.ə. II-I əsrlər) – Panesi, Posidoniy,

3) Sonrakı stoya (e.ə. I-II əsrlər) – Seneka (e.ə. 4 – e.ə. 65), Epiktet (təq. e.ə. 50-140), Roma imperatoru Mark Avreliy (e.ə. 121-180).

Fəlsəfəni fizika (məhsuldar torpaq), məntiq (kiçik hasar), etika (fəlsəfənin bəhəri) kimi əsas hissələrə bölən stoiklər fəlsəfi sistemlərində etik problemlərin mərkəzi yerini əsaslandırırdılar.

Stoiklər üçün əsas etik prinsip dünya qanununa itaətkarlıqdır. Efesli Heraklit kimi vahid dünya gücünü od hesab edən və onu ilk ünsür və dünya ruhu (yəni dünyanı bədii yaradıcılıqla, zəka ilə quran və onun tərəfindən idarə edilən ilk od-loqos) kimi anlayan stoiklər insanı təbiətin zəkalı vəhdətinə daxil edirdilər. Beləliklə, insanın fəziləti öz iradəsini düzgün dərk edilmiş təbii qanunlarla şüurlu uzlaşdırmasıdır. Dünya qanunlarının dərk olunmasında bu ağıllı zərurəti gözləyən təmkin və imtinadır. İnsanların bütün fəaliyyəti mütləq və labüd zərurətə tabe olmaqdır. Yeganə doğru yol könüllü olaraq taleyə, fələyə baş əyməkdir.

Müdrikin idealı təkcə öz taleyinə baş əyən yox, həm də onu sevən filosofdur. Bunu başa düşməyən insanlar bihudə həyəcana məruz qalırlar, onun aradan qaldırılması isə ehtirassızlığa və yaxud affektlərin yoxluğuna (apatiya) gətirib çıxarır. Beləliklə, insan əxlaqı özündə dörd fəziləti saxlayan ruhun gücü, əməli müdriklikdir Laertli Diogenə görə bunlar fikir və ya anlayış, mərdlik, ədalət, sağlam fikirdir.

Stoiklər qnesologiya sahəsində aşağıdakı müddəalardan çıxış edirdilər:

1) həqiqi mövcudluğa yalnız sıxlığı ilə fərqlənən cisimlər malikdir;

2) həqiqət cisimsiz mühakimədir və ona görə də mövcud deyildir;

3) ümumini (mövcud olmayanı) dərk etməyə çalışan elm kateqoriyalara əsaslanır, məntiq isə söz və cümlələrin semantik

təhlili olub varlığın özünə deyil, şüur və təfəkkürdəki münasibətlərin təhlilinə uyğun gəlir.

Stoiklər əsasən hermo(varlıq və qeyri-varlıq), mühüm xassələr (ümumi və xüsusi), təsadüfi xassələr, nisbi təsadüfi xassələr, kateqoriyalar ətrafında mübahisələr aparmışlar. Stoisizmin inkişafına orta stoya dövrünün yunan filosofları, həmçinin III-II əsr roma mütəfəkkirləri ciddi töhfələr vermişlər.

## 4. Qədim roma fəlsəfəsi

İntellektual fenomen olaraq qədim roma fəlsəfəsi klassik dövrdə qədim yunan fəlsəfəsinin çiçəklənməsinin geridə qaldığı zaman yaranmış, ellin dövrü yunan fəlsəfəsinin ciddi təsiri altında formalaşmışdır. E.ə. II-I əsrlər roma fəlsəfəsinin ideya və terminologiyasının başlıca mənbəyi yunan stoisizmi olmuşdur (əsasən stoik platonizmin banisi hesab edilə bilən Posidoninin təlimi).

Posidoni fəlsəfəsinə görə çoxobrazlı gerçək dünyada ən mühüm olan səbəbiyyət prinsipidir. Dünya ilahi, məqsədyönlü mövcud olan və hərəkət edən nəfəs kimi, "ideyalar" və "rəqəmlər" dünyasını əmələ gətirən odlu "pnevma" kimi başa düşülür. Odlu pnevmadan şeylərin rüşeymi, materiyanı və hər bir təkcə şeyin mahiyyətini müəyyənləşdirən "loqos" toxumları əmələ gəlir.

Ən məşhur romalı stoik fizika məsələlərindən daha çox etik məsələlərə diqqət yetirmiş Lutsiy Anney Seneka (e.ə. 4- e.ə. 65) hesab edilir. Stoik fəlsəfənin üçüncü bölməsi olan məntiq onun tərəfindən işlənmişdir. Senekanın fizikası Heraklit naturfəlsəfəsinin sonrakı şəkil dəyişməsidir: hər şey cismanidir, hər şey "pnevma" və yaxud oddur.

İnsanın dərk etdiyi təbiət qanunları onun iradəsinə transformasiya edir və beləliklə insan panteist anlaşılan dünyaya, yəni maddi və zəkalı bütöv dünyaya daxil olur. Seneka etika sahəsində mənəvi inkişafın məqsədini təmkinlilik və ruhun

sakit halı (ataraksiya) sayır, lakin o bu zaman fərdi etikanı ictimai məsələlərlə əlaqələndirməyə cəhd edir.

Romada stoisizmin sonrakı inkişafı Epiktet və Roma imperatoru Mark Avreli fəlsəfəsində inkişaf etdirilmişdir.

Yunan mənşəli digər fəlsəfi cərəyanların bu və ya digər dərəcədə məhsuldar inkişafı Mark Tuliy Siseronun (e.ə. 106-43), Mark Terensi Varronun (e.ə. 116-27) spesifik eklektik görüşlərində tapır. Qədim Romanın nisbətən uğurlu fəlsəfi sistemlərindən Epikür fəlsəfəsini şərh və davam etdirən Tit Lukretsi Karın (e.ə.99-51) təlimini, o cümlədən Qədim Yunan fəlsəfi məktəbi olmasına baxmayaraq, artıq Roma sivilizasiyası çərçivəsində inkişaf etmiş neoplatonizmi də göstərmək olar.

## 5. Neoplatonizm

Neoplatonizm III-VI əsrlərdə fəlsəfi cərəyan və Qədim Yunan fəlsəfəsinin sonuncu orijinal məktəbidir. Neoplatonik fəlsəfənin məzmunu Platonun triada (təkcə, ağıl, ruh) dialektikasının ciddi tədqiqinə ehtiyac doğurur. Neoplatonizmin əsas nümayəndələri Plotin (205-270), Porfiriy (232-304), Yamvlix (III əsrin sonu-IV əsrin əvvələri) və Prokl (410-485) olmuşlar.

Plotin Platon təliminin mistik məzmununu gücləndirmişdir. Plotinə görə dünya prosesi dərkolunmaz və ifadə olunmaz ilk yaradıcı, ilahi başlanğıcdan qüvvə götürür. Bu başlanğıca görə əvvəlcə dünya zəkası, sonra dünyanın ruhu, daha sonra, hətta materiyaya qədər ayrı-ayrı ruhlar, ayrı-ayrı cisimlər təzahür edir. Plotin materiya dedikdə qeyri-varlığı başa düşürdü. Filosofa görə insan həyatının məqsədi ilkin vahid başlanğıca doğru yüksəlməkdən ibarətdir. Bu məqsəd cismani meylləri məhdudlaşdırmaq vasitəsilə, həmçinin mənəvi qüvvələrin, o cümlədən idrak qüvvələrinin inkişaf etdirilməsi ilə əldə edilir. Yüksəlmənin ali, ekstatik pilləsində ruh allahla qovuşur.

Neoplatonizmin məşhur məntiqçisi Porfiri anlayışların əlamətləri, o cümlədən əməli fəlsəfə haqqında təlim yaratmışdır.

Prokl Plotin fəlsəfəsinin sistemləşdiricisi və şərhçisidir. O mərkəzində predmetin inkişafının üçlü xarakteri haqqında təlimin dayandığı təfsir və quruluşun triadik prinsip və metodunu yaratmışdır. Prokl təkcə Yunan neoplatonizminin deyil, bütün antik fəlsəfənin inkişafını yekunlaşdıran son böyük filosof hesab edilir.

*Yoxlama sulları:*

1. Skeptisizm nədir?
2. Epikür təlimi haqqında danışın
3. Stoisizmin əsas müddəaları
4. Qədim Roma fəlsəfəsi nə vaxt formalaşıb?
5.Ən böyük romalı stoikin fəlsəfəsinin mahiyyəti nədir?

# VI MÖVZU

# ORTA ƏSRLƏR QƏRB FƏLSƏFƏSI.

## 1. Orta əsrlər fəlsəfəsinin mənbəyi və yaranması

IV-V əsrlər Avropasındakı geopolitik dəyişikliklər (Roma imperiyasının dağılması, barbar dövlətlərin əmələ gəlməsi) ciddi dünyagörüş dəyişmələri ilə müşaiyət olunurdu. Antik fəlsəfənin tənəzzülü isə yeni intellektual və ideoloji boşluq dövrünün başlandığını bildirirdi. Orta əsrlər Avropa fəlsəfəsi fəlsəfə tarixində uzunmüddətli və böyük məzmun kəsb edən mərhələdir. O II-XV əsrləri əhatə edir və şərti olaraq aşağıdakı dövrlərə bölünür:

- xristian apologetikası və patristikası dövrü (II-VIII əsrlər),
- sxolastika dövrü (IX-XV əsrlər).

Orta əsrlər Avropa fəlsəfəsinin mənbələri haqqında danışarkən qeyd etmək zəruridir ki, o xristian dini fəlsəfəsi kimi meydana gəlmiş və inkişaf etmişdir. Bu dövrün təkcə fəlsəfəsini deyil, həmçinin Avropa sivilizasiyasının bütün dünyagörüşü sisteminin bünövrəsini Əhdi-ətiq və Əhdi-cədid kimi iki hissədən ibarət olan Müqəddəs Kitaba əsaslanmış xristianlıq təşkil edirdi.

Bütün orta əsrlər dövründə Bibliya fəlsəfənin əsas inkişaf mənbəyi olmuş və Avropada ictimai fikrin ifadə formasını müəyyənləşdirmişdir. Məhz Bibliya kosmoqoniya və etikası əvəzsiz təlimlər kimi qəbul edilmişdir. Orta əsrlər Avropasının fəlsəfi fikir ənənəsini müəyyənləşdirmiş mühüm dini-fəlsəfi ideyalar içərisindən aşağıdakılar fərqləndirilməlidir:

- dünya quruculuğunun mərkəzi olan (teosentrizm) vahid Allah ideyası (monoteizm);
- yaradılış ideyası (kreatsionizm) və dünyada ilahi niyyətin mövcudluğu;
- vəhy ideyası (hər bir bilik ilahi vəhydir);

- günahabatma və bəşəriyyətin başlanğıcdan günahkarlığı;
- nicat ideyası (Bu ideya şərti ilahi ehkamlara riayət edilməsidir);
- bəşər tarixinin sonlu olması haqqında ideya və dünyanın sonu haqqında təlim (esxatologiya);
- İsa Məsihin Allah-insan təbiəti haqqında ideya;
- insanın ali ipostası kimi xristian məhəbbəti ideyası.

İlkin xristian fikir tarixi öz varlığını xristianlığı fəlsəfi cəhətdən nəzəriyyələşdirərək yayan e.ə. II əsrin birinci yarısındakı müəlliflər olan apostol ataların əsərlərindən götürmüşdür. Apostol ataların fəaliyyətini apologetika nümayəndələri davam etdirmişdir. Apologetikləri iki qrupa bölmək olar: şərq (yunandilli) və qərb (latındilli) apologetiklər.

Onların əsas tezisləri belədir: bütpərəst inancları qəbahətli və mənasızdır, ellin fəlsəfəsi ziddiyyətlidir və vahid həqiqəti əldə etməyə qadir deyil, parlaq yunan zəkaları xristianlığa yaxın olmuşdur, xristianlıq hamı üçün yeganə həqiqi fəlsəfədir.

Apologetika xristian dünyagörüşündə keyfiyyət sıçrayışıdır, xristianlığın nəzəri əsaslara keçməsi (məsələn loqosun İsa Məsihlə eyniləşdirilməsi), xristianlıq zəminində fəlsəfənin başlanğıcıdır. Ilkin xristianlığın nəzəriyyələşdirilməsinin digər variantı I əsrdə yaranmış və II əsrdə çiçəklənmə dövrünü yaşamış qnostsizm idi. Bu təlimin əsası həqiqət və nicatın mənbəyi olan ali biliyin axtarışı idi (Aleksandriyalı Kliment, Origen, Markion və b.) Bundan əlavə II əsrin sonunda yaşamış görkəmli teoloq Lionlu İrineyanın da adını çəkmək zəruridir. Bir çox tədqiqatçılar onun yaradıcılığını apologetika və ilkin patristikanın (III əsr) universal sistemləri arasında keçid həlqəsi hesab edirlər.

## 2. Patristika

Patristika (latınca pater - ata) II-VIII əsr xristian mütəfəkkirlərinin, "kilsə atalarının" fəlsəfi, teoloji, sosial-siyasi doktrinaları toplusuna aid edilən termindir. Xristian ənənəsində "kilsə ataları" digər xristian müəlliflərindən ciddi fərqləndirilirdi.

Onlar gündəlik həyat tərzi, təlimlərinin ortodoksallığı, həyatlarının müqəddəsliyi, kilsənin rəsmən onları tanıması baxımından seçilirdilər.

Göstərilən dövrdə patristikanın bütöv mənəvi hadisə kimi təzahür etdiyi fəlsəfə tarixində bir sıra universal müddəaları qeyd etmək olar. Patristikada həqiqət korporativ nailiyyətdir və ənənə ilə, razılıq dərəcəsi ilə müəyyənləşir, ənənə isə prinsiplərin maksimal vəhdətini ehtiva edirdi. Belə görünür ki, patristika təlimlər toplusu olmayıb bu və ya digər dərəcədə interpretasiyaya məruz qalan vahid təlimdir.

Patristika xristianlıq ruhunda filosofluq etmənin metod və prinsipləri toplusu, xristianlığın dini dəyərləri ilə antik dövr fəlsəfi irsinin sintezidir (xristian məzmunu ilə antik fəlsəfənin anlayış strukturunun qovuşması). Patristikada nəzəriyyələşdirmənin çıxış nöqtəsi həqiqət mənbəyi olan Müqəddəs kitabın mətnidir. Patristikanın nəzəriyyələşdirmə metodu dini-fəlsəfi hermenevtikadır. Patristikanın inkişafına təsir göstərmiş antik fəlsəfi sistemlərdən stoisizm, platonizm və xüsusilə neoplatonizmi qeyd etmək lazımdır.

Patristikanı əsasən aşağıdakı hissələrə bölmək qəbul edilmişdir: şərqi (yunan), qərbi (latın), erkən – apostol atalar, apologetlər, II-III əsr xristian qnostikləri, yetkin dövr (IV-V əsrlər), sonrakı dövr (V əsrin sonu – VIII əsr).

### 3. Avqustin Avreli

Avqustin Avreli (354-430) təkcə yetkin dövrün deyil ümumiyyətlə bütün patristikanın ən böyük və universal nümayəndəsidir. Avqustin fəlsəfəsinin mərkəzi ideyası konkret, empirik və mütləq ölçüdə şəxsiyyətdir. Bu ideya ətrafında onun əsas nəzəri traktatları qruplaşdırılır:

- xristian hermenevtikası ("xristian təlimi haqqında");
- tarixi ölçüdə teologiya və antropologiya (tarixin dialektikasının mistik təhlili – "Allahlar şəhəri");
- xristian etikası (əxlaqlı şəxsiyyət və onun dini-psixoloji xarakteristikası problemi – "Sərbəst həll haqqında", "Etiraf");
- fəlsəfi teologiya (mütləq şəxsiyyət və onun trinitar strukturu haqqında təlim – "Üçlük haqqında")

Avqustinin hermenevtikası Müqəddəs kitabın teoloji, əxlaqi və tarixi mənalara malik "işarələr" toplusu kimi tədqiq olunmasıdır. Hermenevtika vasitəsi kimi Avqustin ritorika, dialektika, musiqi və riyaziyyatı göstərir.

Tarixin dialektikası iki növ insan birliyini nəzərdən keçirir:

"Yer şəhəri" – eqoist məhəbbətin simvolik ifadəsi ("Allaha nifrətə qədər çatdırılan və özünə məhəbbətə" əsaslanmış dövlətçilik);

2) "Allah şəhəri" – Allaha təmənnasız məhəbbətin simvolu (mənəvi birlik, "gözəgörünməyən kilsə" heç bir teokratiyaya, heç bir dövlətçillik formasına gətirilməyərək özünə nifrətə qədər çatdırılmış Allaha məhəbbətə əsaslanır).

Burada tarixi inkişafın məqsədi gerçəklikdən uzaqlaşdırılır, inkişafın özü isə bəşəriyyətin kamilliyə doğru əxlaqi tərəqqisi ilə eyniləşdirilirdi.

Avqustində etik problemlər ikili təhlil olunur. Bir tərəfdən insan əxlaqi şəxsiyyət kimi subyektiv olaraq fəaliyyət göstərir (ölməz ruh qərarlarında azaddır), digər tərəfdən bəşəriyyət ilk günahın daşıyıcısı kimi, öz əxlaqi borcunun ödənilməsi üçün İlahi köməyə möhtacdır. İlahi nemət dərkolunmaz əsaslarla o

kəslərə verilir ki, onlara İlahi qərarla nicat verilmişdir. Avqustinin tale doktrinasının mahiyyəti budur.

Avqustinin fəlsəfi teologiyası mütləq şəxsiyyətin (Allahın) strukturunun trinitar formulunu verir: "bir substansiya, və yaxud mahiyyət – üç şəxs". Avqustinin fikrincə Allah qüdrətlidir, qeyri-maddidir, insan dünyası ilə onun yaradıcısı olaraq münasibətdədir. İnsan və dünya bütövlüklə, müntəzəm yaradılışı gerçəkləşdirən Allahdan asılıdır. Allah təkcə səbəb deyil, həm də idrakın əsas və yeganə predmetidir, həmçinin ilahi vəhdət insanda zəka, yaddaş və iradənin vəhdəti kimi mövcuddur ("həqiqət insanın daxilində mövcuddur"). Ruhun bu 3 qabiliyyəti insan həyatının əsas məqsədi olan Allahın maksimal dərki kimi başa düşülən xoşbəxtliyə çatmaq üçün zəruridir (başqa sözlə, zəka inamın əsas dayağıdır, lakin inam hər bir idrakın çıxış nöqtəsidir).

Avqustin Avreli xristian teologiyasının (o cümlədən sxolastikanın) və Avropa fəlsəfəsinin sonrakı inkişafına böyük təsir göstərmişdir.

## 4. Sxolastikanın meydana gəlməsi

Sxolastika (yun.scholastikos-alim) VIII-XIV əsrlərdə Qərbi Avropada əsas dini fəlsəfi cərəyandır. Xüsusi tip dini fəlsəfə olaraq sxolastikanın əsasında xristian təlimi dayanır və buradan görünür ki, sxolastik fəlsəfə mütləq azad tədqiqat deyildir. O, əsas xristianlıq müddəalarının müzakirə olunmaz postulatlar qismində şüurlu qəbulu ilə məhdudlaşır. Bu zaman fikri fəaliyyətin dini ehkama tabe etdirilməsi (P.Domianinin formula etdiyi kimi "fəlsəfə ilahiyyatın qulluqçusudur") biliyin iki hissəyə bölünməsini ehtiva edir:

1) vəhylərdə verilən, "fövqəltəbii" bilik, öz məzmununu Bibliya mətnləri və kilsə atalarının şərhlərində göstərir,

2) insan zəkası ilə axtarılıan "təbii" bilik öz məzmununu Platon və xüsusilə Aristotelin mətnlərində tapır.

Sxolastik fəlsəfənin digər xarakterik xüsusiyyətlərindən aşağıdakıları göstərmək olar:

1) deduksiya metodunun üstünlük təşkil etməsi, bu zaman təhlillərdə induksiya metodu qəti iştirak etmir.

2) mətnin təfsiri formasında filosofluq etmə;

3) təfəkkür qaydalarına istiqamətlənmə və formal məntiq qanunlarına ümumi meyletmə;

4) anlayış terminoloji aparatının və intellektual vərdişlərin varisliyi;

5) universalilər probleminə xüsusi diqqət.

Sxolastikanı fəlsəfə tarixində üç əsas dövrə ayırırlar:

1. erkən sxolastika dövrü (IX-XII əsrlər), görkəmli nümayəndələri: İ.S.Eriugena (815-877) və P.Abelyar (1079-1142);

2. " Qızıl əsr" (XIII əsr) adlandırılan sxolastikanın yetkin dövrü. Bu dövrdə katolisizmin rəsmi təliminin yaradılması Foma Akvinalının (1225-1274) əsərlərində tam başa çatdırılır.

3. Sonrakı sxolastika dövrü (XIV-XV əsrlər). Bu dövr mövcud dini fəlsəfənin böhranı kimi səciyyələndirilir.

## 5. Erkən sxolastika

Erkən sxolastika platonizm və neoplatonizm fəlsəfəsinin təsiri altında formalaşmışdır. Artıq bu dövrdə sxolastik fəlsəfənin əsas müddəaları, biliyin inama münasibəti və ümuminin təkcəyə münasibəti məsələsi müəyyənləşir.

Məhz bu dövrdə ikinci müddəaya zidd cavablar meydana çıxmışdır. Sonralar bu "universalilər" haqqında mübahisələr kimi məşhur olmuşdur.

IX əsrin böyük filosoflarından biri olan İ.S. Eriugenanın (815-877) təliminə görə həqiqi dinlə fəlsəfə arasında ziddiyyət yoxdur. O neoplatonizm əsasında orijinal mistik təlim hazırlamışdır. Onun fikrincə hissi qavranılan şeylər maddi deyil, mənəvi təbiətə malikdir, təbiət isə - iyerarxik ilahi təzahür ardıcıllığıdır. Eriugena varlığı dörd təbiətə bölür. Onlardan ikinci və

üçüncü müstəqil mövcud olmayıb, yalnız vahid və hər şeyi əhatə edən İlahi mahiyyətin təzahürüdür.

1) yaradılmamış, lakin yaradan (hər şeyin mənbəyi olan Allah);

2) yaradılmış və yaradan (ilahi ideyanın ilk səbəbi );

3) yaradılmış və yaratmayan (hissi qavranılan dünya);

4) yaradılmamış və yaratmayan (hər şeyin son məqsədi olan Allah).

Pyer Abelyar (1079-1142) XII əsr sxolastikasının görkəmli nümayəndəsi, məşhur natiq və məntiqçidir. O sxolastika üçün ənənəvi universalilər haqqında prinsipial yeni təlimi əsaslandırmış və bu "konseptualizm" (lat. conseptus - anlayış) adını almışdır. Bu təlimə görə ümumi gerçək mövcud deyil, lakin ağılda gerçəkliyin kifayət qədər anlama formaları vardır (konseptlər).

Sxolastik metodun ən görkəmli nümayəndələrindən biri olan Abelyar sxolastik dialektikanı hazırlamışdır (ziddiyyətlərin, Müqəddəs kitabda bir-birini qarşılıqlı inkar edən mətnlərin aşkarlanması).

Erkən sxolastikanın digər tanınmış nümayəndələri İ.Rosselin (təq. 1050-1120) və arxiyepiskop Kenterberili Anselm (1033-1109) olmuşlar.

### 6. Yetkin sxolastika. Universalilər problemi

Orta əsrlər sxolastikasının çiçəklənməsi XIII əsrə təsadüf edir. Yetkin sxolastik fikir üçün xarakterik cəhət Aristotel təliminin platonizm və neoplatonizmi tədricən sıxışdırmasıdır. Aristotelizmə münasibətdə yetkin sxolastikada aşağıdakıları ayırmaq olar:

1) ortodoksal istiqamət Aristotel ontologiyasını şəxsi Allah, şəxsi ruh və yaradılmış kosmos haqqında xristian təsəvvürlərinə tabe etdirir (Böyük Albert, Foma Akvinalı);

2) bidətçi istiqamət (averroizm) şəxsi ruhun gerçəkliyini inkar edir və bütün mövcudluqlarda vahid, şəxssiz, intellektual ruhun fəaliyyətini təbliğ edir. (S.Brabantli, 1282-ci ildə ölüb).

"Sxolastikanın qızıl əsrinin" ən görkəmli nümayəndələri Böyük Albert (təq. 1193-1280), Foma Akvinalı (1226-1274), İohann Duns Skot (1266-1308), kardinal Covanni Fidansi Bonavektura (1221-1274) və Rocer Bekon (1214 - təq. 1292) hesab edilirlər.

Bütün orta əsrlər sxolastikasının əsas məsələsi şübhəsiz ki, universalilərin varlığın strukturunda və idrak prosesində yeri və rolu məsələsidir. Universalilər (lat. universalis - ümumi) ümumi anlayışlar və yaxud ideyalardır.

Burada problemin mahiyyəti iki hissəyə bölünür:

1) universalilərin (ümumi anlayışların) ontoloji statusu məsələsi, yəni onlar obyektiv mövcuddurlar yoxsa yalnız şeylərin adlarıdır;

2) nəzəri idrakda universalilərin əhəmiyyəti məsələsi.

Universalilər probleminin həllinin əsas strategiyası erkən sxolastika dövründə formulə edilmiş, bununla yanaşı yetkin sxolastika dövründə inkişafının yüksək nöqtəsinə çatmışdır. Sxolastikada universalilərin ontoloji statusu məsələsində üç istiqaməti fərqləndirmək məqsədəuyğundur:

- nominalizm (lat. nomen - ad) ümumi anlayışlar, bu idrak prosesində yaranan və gerçək mövcud olmayan təkcə predmetlərin adlarıdır (İ.Rosselin, U.Okkam);

- realizm (orta əsrlər realizmi) (lat. realis – həqiqi, gerçək) ümumi anlayışlar gerçək mövcuddur və təkcə şeylərin mövcudluğundan əvvəldir (İ.S. Eriugena, Anselm Kenterberili, Foma Akvinalı, C. Bonaventura);

- konseptualizm (lat. conseptus - anlayış) – ümumi anlayışlar müstəqil mövcudluğa malik deyildirlər, ancaq insan zəkasında mücərrədləşmə nəticəsində anlayışlar, konseptlər formasında gerçəklik əldə edirlər (P.Abelyar, Duns Skot).

Belə ki, dominikan monarxı Böyük Albert universaliləri İbn Sinadan (980-1037) əxz etdiyi konsepsiya əsasında şərh edir. Şərhin mahiyyəti belədir ki, ümumi növlər üçlü mövcudluğa malikdirlər: şeylərə qədər (yaradıcı Allah ideyaları), şeylərdə (çoxluqda təklik) və şeylərdən sonra (insan zəkasında, mücərrəd anlayışlarda).

Böyük Albert katolik ilahiyyatı Aristotel təlimi əsasında ensiklopedik sistemləşdirməyə cəhd etmiş ilk filosofdur. Bu fəlsəfəni məntiqi sonluğa onun şagirdi Foma Akvinalı çatdırmışdır.

Bonaventura universaliləri şeylərin İlahi *proobrazları* kimi təfsir edir. Üstün yaradılanlar Allahın *proobrazına* malikdirlər. Aristotelizmə deyil, daha çox platonizmə meyillənərək o, həqiqətin dərkolunma şərtini namus və inam, idrakın ali dərəcəsini isə ekstatik seyr hesab edirdi.

Duns Skot orijinal konseptual doktrinanı inkişaf etdirmişdir. Bu konsepsiyaya görə yalnız fərdi şeylər gercək mövcuddur.

Ümumi mahiyyət (şeylərin "təbiəti") İlahi intellektin obyektləri cismində mövcuddur, yəni ümumi anlayışlar, formalar, "təbiətin" mahiyyət növləri öz-özlüyündə nə ümumi, nə də təkcədir.

Fərdi şeylərin mövcudluğu yalnız onların "təbiətinə" fərdiləşdirilmiş əlamətlər əlavə etdikdə mümkündür. Bu fərdiyyətçilikdən mücərrədləşdirmə zamanı idrak prosesində "təbiətlərin" universalilərə (ümumi anlayışlara) çevrilməsi baş verir. D.Skot bu doktrinadan iradə azadlığı haqqında tezisini çıxarırdı.

F.Bekon universalilərin yalnız ümumidən asılı olmayan təkcədə mövcud olmasını fərz edir, subyektiv ümumidənsə daha çox (nominalistlərdə olduğu kimi) təkcənin subyektivliyini qeyd edirdi. Təcrübəni daxili (mistik "nurlanma") və xarici hissələrə bölən Bekon onu hər bir idrakın əsası hesab edirdi. Bütün sxolastlar kimi, o da fərz edirdi ki, təkcə təcrübi bilik həqiqətə çatmaq üçün kafi deyildir.

## 7. Foma Akvinalı

Foma Akvinalı (1226-1274) sxolastikanın çiçəklənmə dövrünün görkəmli nümayəndəsi, xristian fəlsəfəsi və teologiyasının məntiqi quruluş və ensiklopedik sisteminin yaradıcısıdır. F.Akvinalı aristotelizmin teoloji şərhi əsasında ortodoksal sxolastikanı sistemləşdirmişdir.

Onun təliminin əsas məqsədi zəka və inamın prinsipial fərqli olması və eyni zamanda harmonik vəhdət əmələ gətirdiyini isbat etməkdir. Akvinalı fəlsəfəsinin əsas prinsipi inam və zəkanı harmoniyada nəzərdə tutur. Digər tərəfdən insana nicatı üçün, zəka üçün əlçatmaz olanı bilməsi zəruridir ("vəhy həqiqəti"). O biliyin vahid sistemini fəlsəfəyə (predmeti "zəkanın həqiqəti") və teologiyaya (predmeti "vəhyin həqiqəti") bölür.

Belə ki, həm fəlsəfənin, həm də teologiyanın son obyekti Allah olduğu üçün, onların müstəqil elm olmalarına baxmayaraq aralarında prinsipial fərq mövcud deyildir. Teologiyanın əsas məsələsi olan "vəhy həqiqətini" sistemli şərh etmək, fəlsəfənin əsas məsələsi hesab edilən inam müddəasını insan zəkası üçün əlçatan etməkdir.

Universalilər məsələsində Foma realizm mövqeyində dayanır. O universaliləri Böyük Albertin fəlsəfəsində olduğu kimi başa düşür. Belə ki, universalilər ən ümumi üç formada çıxış edə bilər:

- şeylərəqədər (ante rem), yəni İlahi zəkada əbədi ideyalar, mövcudluğun proobrazları şəklində;
- şeylərdə (in re), bu zaman ən ümumi konkret gerçəkləşmə əldə edir;
- şeylərdən sonra (pist rem), burada o, insan təfəkküründə ümumi anlayışlar formasında çıxış edir.

Akvinalının idrak nəzəriyyəsinin əsasında ən ümuminin gerçək mövcudluğu prinsipi dayanır. İdrak prosesində insan özünə xas olan idraki bacarıqa, hissiyyat və intellektə əsaslanır.

İdrakın başlanğıcı hissi təcrübədir. Eyni zamanda yalnız obraz, əşyanın görünüşü, şeyin varlığını nümayiş etdirən ünsür dərk olunur. Növbəti mərhələ hissi qavranılanlardan zəka ilə dərkolunanların obrazlarının intellektual mücərrədləşdirilməsidir. Akvinalı öz ontologiyasında "potensial" və "aktual" kimi Aristotel terminlərindən istifadə edir. Potensial (mümkün) gerçəkləşməmiş qeyri-yetkinlikdir (materiya sırf potensiallıqdır). Aktual (gerçək) – bu tam gerçəkləşmə və yetkinlikdir. Materiya və formanın qovuşması hissi qavranılan əşyalar dünyasını yaradır, bu zaman əgər forma materiyadan (Allah) ayrı mövcuddursa, onda materiya formadan ayrı mövcud olmur.

F.Akvinalının antropologiyası insanı ruh və bədənin şəxsi vəhdəti kimi müəyyənləşdirir. Ruh bədənin substansional formasıdır, lakin yalnız bədən vasitəsilə ruh yetkin mövcudluq əldə edir.

Akvinalının etikası belə bir müddəadan çıxış edir ki, bütün mövcudiyyət xeyirdir, mütləq xeyir Allahdır, eyni zamanda şər yalnız xeyirin yoxluğudur.

F.Akvinalının cəmiyyət və dövlət haqqındakı təlimində aşağıdakı tezislər əhəmiyyət kəsb edir:

1) insan ictimai mövcudluqdur,

2) dövlət hakimiyyətinin məqsədi ictimai rifahdır,

3) siyasi gerçəklik sferasında yer həyatı yalnız gerçəkdəki mənəvi həyata hazırlıqdır, və ona görə də kilsə istənilən dövlət quruluşundan üstündür, hökmdarın hakimiyyəti isə ruhani hakimiyyətə tabe olmalıdır (Göydə Məsihə, yerdə Roma papasına).

F.Akvinalının teologiyası katolik teologiyanın aparıcı istiqamətidir (tomizm adlandırılır), onun sxolastik sistemi 1879-cu ildə "katolisizmin yeganə həqiqi fəlsəfəsi" elan edilmişdir.

## 8. Sonrakı sxolastika.

Sonrakı sxolastika dövrü sxolastik metodun qürub çağıdır. Sxolastikanın böhranı XIV əsr filosofları U.Okkam (təq. 1300-1350), N.Orema (təq. 1320-1382), J.Buridana (təq. 1300-1358), Otrekurlu Nikolayın (təq. 1300-1350) əsərlərində daha aşkar müşahidə edilir.

Uilyam Okkam XIV əsrin nominalist filosofudur. Onun təliminə görə universalilər nə ilahi zəkada, nə də şeylərin özündə mövcud deyillər, yəni ümumi anlayışlar istisnasız olaraq şeylərdən sonra (post rem) mövcuddurlar. "İdeyalar" başqa bir şey olmayıb, şeylərin özü kimi Allah tərəfindən yaradılır, burada yeganə gerçəklik fərdin sferasıdır. Deməli idrakın əsası fərdlər haqqında bilik, idrakın vəzifəsi təkcənin dərk olunmasıdır. Belə ki, ümumilər yalnız dərkedənin zəkasında mövcuddur. Bütün mümkün universalilər obyektlərin məcmusunu göstərən işarələr, terminlərdir. Yalnız insanın birbaşa seyrin köməyi ilə dərk etdikləri gerçək mövcud şeylərdir. Dünyanın dərk olunmasında iki mərhələ (iki növ bilik) mümkündür: intuitiv idrak (fərdi şeylərin hissi təcrübədə dərk olunması;), mücərrəd idrak ümuminin intuitiv dərkindən sonra gəlir. Ona görə də Okkam öz nəzəriyyəsində elmi iki yerə bölür:

1) gerçək elm (anlayışları onların şeylərə münasibəti baxımından tədqiq edir);

2) rasional elm (abstraksiyaları onların digər mücərrəd anlayışlara münasibəti baxımından nəzərdən keçirir).

Yalnız gerçəklik faktlarına malik intuitiv idrak nəyinsə mövcudluğunu təsdiqləyir. Təcrübədə dərk edən subyektdə qeyri-maddinin mövcudluğunu təsdiqləyən heç nə olmadığı üçün, inam sferasını zəka sferasından ciddi şəkildə fərqləndirmək lazımdır (ikili həqiqət nəzəriyyəsi). Fəlsəfə və teologiya ciddi olaraq fərqləndirilməlidir. Həmçinin hər bir dərketmədə qənaət prinsipinə əsaslanmaq zəruridir.

XIV əsrin bəzi filosofları Okkamın müddəalarını inkişaf etdirmişlər. Otrekurlu Nikolay dini inam sferasından olan

nəyinsə rasional sübutu imkanını inkar etmişdir. J.Buridana və N.Oremada təbiətşünaslıq sahəsinə elmi maraqlar aşkar müşahidə edilir.

Beləliklə, XIV əsr ərzində sxolastikanın metodoloji əsası olan inam və zəkanın harmoniyası, xristian təlimi ehkamlarının rasional əsaslandırılmasının mümkünlüyü ideyasını alt-üst edən ikilihəqiqət prinsipi tədricən təsdiqlənir. Bu baxımdan teoloji və elmi biliyin fərqləndirilməsini faktiki olaraq Avropada elmi dünyagörüş və rasionalist fəlsəfənin irəliyə doğru ilk addımları hesab etmək olar.

*Yoxlama sualları.*

1. Orta əsrlər fəlsəfəsi nə vaxt yaranıb?
2. Apologetika nədir?
3. Patristika mənəvi hadisə kimi
4. Sxolastika nə vaxt və harada yaranıb?
5. Erkən sxolastikanın nümayəndələri və onların fəlsəfəsi
6. Yetkin sxolastika nəzəriyyəsi
7. F.Akvinalının fəlsəfəsi və teologiyası
8. Sonrakı sxolastikanın nümayəndəsi U.Okkam və onun ideyaları

# VII MÖVZU

# ORTA ƏSRLƏRDƏ ŞƏRQ FƏLSƏFƏSİ

## 1. Ərəb - müsəlman fəlsəfəsi

Orta əsrlərdə Qərbdə olduğu kimi Şərqdə də fəlsəfə ümumilikdə dinin güclü təsiri altında olmuş, müsəlman şərqi ölkələrinin əhalisinin dünyagörüşü teosentrik səciyyə daşımışdır. Bununla yanaşı burada həmin dövrün fəlsəfi fikri bir sıra xüsusiyyətlərinə görə qərbdən fərqlənmişdir. Əvvəla ümumilikdə orta əsrlər dövrü Şərqdə Qərbə nisbətən daha uzun sürmüş, XVII- XVIII əsrlərə qədər davam etmişdir. İkinci, qərbdə xristian dini fəlsəfi dünyagörüş və elmə qarşı çox kəskin düşmənçilik münasibətində olmuşdur. Avropanın müxtəlif ölkələrində onlarla mütəffəkir azadfikirlilik üstündə tonqallarda yandırılmış və edam olunmuşdur. Bundan fərqli olaraq Şərqdə islam dini fəlsəfəyə və elmə bir qədər yumşaq münasibət bəsləmiş, bunun nəticəsindədə elmin və mədəniyyətin inkişafı dayanmamışdır. Təsadüfi deyildir ki, islam sivilizasiyası və mədəniyyəti Şərqdə uzun müddət davam etmiş, ərazidəki xalqların tarixində böyük rol oynamışdır. Üçüncü, orta əsrlərdə Şərqdə islamın bu mövqeyi, bir tərəfdən onun daxilində dini-fəlsəfə istiqamətlərin fəaliyyətinə qida vermiş, digər tərəfdən isə islam dinindən kənarda və hətta müəyyən qədər ona qarşı çıxan müstəqil elmi-fəlsəfi təlimlərin mövcudluğuna şərait yaratmışdır.

Orta əsrlərin ilk mərhələsində müsəlman Şərqində fəlsəfi fikir bütpərəstlik, atəşpərəstlik və xristianlıq ilə bağlı olmuşdur. Yalnız əsasən VII əsrdən başlayaraq burada islam dini zəminində və antik fəlsəfə ilə əlaqəli təlimlər geniş yer tutmağa başlamışdır. Həm də qeyd olunmalıdır ki, regionda fəlsəfə hər hansı bir ölkənin çərçivəsi ilə məhdudlaşmamışdır. Kiçik Asiyanı, Suriyanı, İraqı, Azərbaycanı, İranı və başqa ölkələri əhatə edən vahid ərəbdilli fəlsəfə təşəkkül taparaq inkişaf etmişdir. Digər tərəfdən, islamın müqəddəs kitabı olan Quran öz məz-

mununa görə təkcə din ilə məhdudlaşmır. Burada hüququn, şəriətin, bütövlükdə müsəlman mənəviyyatının və ideologiyasının əsasları ifadə olunmuşdur. Buna görə də orta əsrlər şərqinin fəlsəfəsi, etik, ictimai-siyasi və bədii fikri onunla sıx bağlı olmuşdur. Quranın təfsirinə aid çoxlu kitablar yazılmış, bunların əsasında hədis, fiqh (müsəlman hüququ), kəlam (sxolastika) və başqa şəriət elmləri inkişaf etmişdir.

Hələ ərəb xilafətinin ilk dövrlərindən başlayaraq dünyəvi elmlərə fəlsəfə, məntiq, təbiət elmləri, riyaziyyat və kosmoqrafiya daxil edilirdi. Artıq Əməvilər dövründən (VIII əsr) etibarən yunan, fars, suriya və başqa dillərdə olan elmi-fəlsəfi ədəbiyyat, tibbə və kimyaya dair kitablar ərəb dilinə tərcümə olunurdu. Xəlifənin göstərişi ilə Avropaya, Hindistana, Çinə və başqa ölkələrə (orada çıxan kitabları əldə etmək üçün) xüsusi adamlar göndərilirdi. Artıq X əsrdə elmi və fəlsəfi fikrin, xüsusilə yunan filosoflarının ən yaxşı nümunələri ərəb dilinə tərcümə edilmişdi.

İslam dini zəminində yaranan sxolastika (kəlam) ilk dövrlərdə ictimai mühitdə geniş yer tutmuşdur. O əsasən sifətilik, cəbərilik və qədərilik cərəyanlarından ibarət olmuşdur. Kəlam ortodoksal dini-idealist fəlsəfi sistem olub əqlin (zəkanın) nəqlə (təqlə) münasibətdə üstünlüyünü qəbul edir və göstərirdi ki, dini nüfuzdan asılı olmadan fəlsəfi mülahizələr vasitəsilə həqiqətə çatmaq mümkündür. Din xadimləri və filosoflar kəlamdan geniş istifadə edirdilər. Kəlamın dini təəssübkeşləri olan mütəqəllimlər ondan məscidlərdə, bazar və meydanlarda keçirdikləri dini-fəlsəfi mərasimlərdə istifadə edirdilər. Kəlam müxtəlif dini – siyasi qrupların (xaricilər, cəbrilər, qədərilər) öz daxilində, habelə onlarla zərdüştiliyin və xristianlığın nümayəndələri arasında keçirilən mübahisələr gedişində formalaşmışdır. Belə mübahisələr bir qayda olaraq aşağıdakı məsələlərə aid olurdu: 1. xəlifənin, imamın keyfiyyətləri, 2. insanın öz hərəkətləri üçün məsuliyyət daşıması, 3. iradə azadlığı və qismət; 4. insanların sadə müsəlmana, dindara (möminə) və

kafirlərə ayrılması, 5. Allahın təkliyi, onun mahiyyəti və atributlarının vəhdəti, 6. Quranın zaman daxilində yaranıb yaranmaması və s. İslam ehkamları ilə bilavasitə bağlı olan bu məsələlər kəlamın özəyi hesab olunurdu.

Kəlamın nəzəri əsasını VII və VIII əsrlərin qovuşağında Misirdə, Suriyada, İraqda və İranda meydana gəlmiş cəbrilər (cəbbarilər) və qədərilər adlı dini-fəlsəfi qruplar arasında gedən ehkamçılıq mübahisələri formalaşdırmışdır.

İslam filosofları öz elmlərinin kəlamdan fərqini onda görürdülər ki, fəlsəfi mülahizə metodu apodiktiv (*sübut etmək*) xarakteri daşıyırdı. Ancaq mütəqəllimlərin kəlamı mübahisə əsasında öz opponentlərinin tezisləri və nəticələrinin ziddiyyətlərindən sui istifadə etməkdən ibarət idi. Mütəqəllimlərin məscidlərdə, bazar və meydanlarda təşkil etdikləri dini-fəlsəfi mübahisələrə çoxlu dinləyici toplandığından kəlamın mənəvi təsiri qüvvətli olurdu. Kəlamda belə bir prinsip də təlqin edilirdi ki, hər bir şəxsin həqiqi dindar olması üçün bütün qəbul olunmuş dini ehkamların həqiqiliyinə əvvəlcə şübhə ilə yanaşması tələb olunur və sonrakı mərhələdə bu ehkamları öz əqlinin süzgəcindən keçirərək doğru saydıqlarını qəbul etmək məsləhət görülürdü.

Keçirilən mübahisələrdə VII-IX əsrlərdə xilafətin həyatında əhəmiyyətli rol oynayan dini-fəlsəfi istiqamətlərdən biri mötəzillik olmuşdur. Hərfi mənası, «ayrılan» deməkdir. Deyilənə görə onun baniləri (Vasil ibn Ata və Übayd) ənənəvi dini dərnəkdən (Həsən əl Bəsrinin) ayrılaraq müstəqil təlim yaratmış, etiqad məsələləri ilə yanaşı zəkanın roluna da diqqət yetirmişlər. Onlar allahın antropomorf (insana bənzər) xassələrini (bilik, iradə, bədən, nitq) inkar edirdilər. Bununla yanaşı mötəzilizm allahın intuitiv və ya bilavasitə dərk oluna bilənliyini də qəbul etmirdi. Lakin onun tərəfdarları inam ilə zəkanı bir-birinə qarşı qoymurdular.

Mötəzililər etiqad məsələlərində dini mənbələrlə yanaşı olaraq əqlin (*zəkanın*) roluna diqqət yetirməyi zəruri sayırdılar.

Onların fikrincə, buyruq özbaşınalıq deyil, yaxşı olduğuna görə məsləhət görülən əməldir. Allahın antropomorf surəti əvəzinə mötəzililər ilahini bilik, iradə, bədəni və nitqi olmayan bir mücərrəd varlıq kimi təqdim edirdilər.

Mötəzililiyin beş əsas prinsipi görkəmli ilahiyyatçı filosof Əbül Xüzəyl Əl-Əllafın (841-ci ildə vəfat edib) dövründə formalaşmışdır. Bu prinsiplər aşağıdakılardır:

1. Əl-Ədl (*ədalət*) insan iradəsinin azadlığını nəzərdə tutur. Dünyadakı cisim və hadisələrin ardıcıllığını hifz etmək onun xasiyyətidir. 2. Ət-Touhid-təkallahlıq, ciddi monoteizm, Allahın atributlarının inkar edilməsi, o cümlədən, Qurani-şərifin zaman daxilində «yaranması» da inkar edilir. 3. «Vəd və hədə-qorxu», bu müddəanı xaricilər də qəbul edirdilər, mənası odur ki, Allah öz vədlərini və hədə-qorxularını mütləq yerinə yetirməlidir. Peyğəmbər və ya başqa bir müqəddəsin xahişi ilə Allah öz hökmünü dəyişdirə bilməz, günahkar cəhənnəmə, mömin isə cənnətə düşməlidir. 4.» Orta vəziyyət» (*əl-mənzila baynal-mənzilətəyn*), yəni ağır günah işlətmiş müsəlman möminlər sırasından kənar edilsə də amma kafir hesab olunmur, yəni orta vəziyyətdə qalır. 5. Xeyirli, yaxşı əməlin hökm edilməsi, pis əməlin qadağan edilməsi, yəni «əmr bi maaruf» və «nəhl-münkar».

İslamın şiə təriqətləri arasında batinilik məşhur olmuşdur. Bu təlimin tərəfdarları (İbn Maymun, Həsən ibn Səbbah və başqaları) göstərirdilər ki, islamda hər şeyin zahiri, üzdə olan tərəfi ilə yanaşı daxili, gizli mənası da vardır (batini daxili deməkdir)

Şiəliyin ən böyük təriqətlərindən biri imamilik olmuşdur. Onun tərəfdarları imam Əlinin və onun nəslindən olan on iki imamın rəhbərliyini qəbul edirdilər. Peyğəmbərin müqəddəs fikirləri əvvəlcə Əliyə, sonra isə onun nəslindən olanlara keçmişdir. Buna görə də onlara itaət etmək zəruridir. İmamiliyin əsas iman tələbləri aşağıdakılar hesab olunur: təkallahlıq; ilahi ədalətə inam; yüz iyirmi dörd min peyğəmbərə inam;

ölülərin axirətdə diriləcəyinə, qiyamət gününə inam; imamların hakimiyyətini qəbul etmək. Bu təlimdə IX əsrdə qeyb olmuş 12-ci imam Mehdinin (Sahib –əz-zamanın) yenidən zühur edəcəyi fikri əsas yer tutur. Onların fikrincə bu gəlişdən sonra ilahi ədalət bərqərar olacaqdır.

Qeyd edək ki, imamilik çox uzun dövr ərzində fəaliyyət göstərmişdir. O IX əsrdə yaranmış və bu günə qədər gəlib çıxmışdır.

Əl-Əşariyyə kəlam məktəbi mötəzililiyə alternativ olaraq yaranmışdır. Əl-əşari Allahın real və əbədi atributları olduğunu, Quranın isə ilahi mənşəli olduğunu irəli sürürdü.Əşarilər bildirirdilər ki, Allah insanı xeyir və şər əməllərə qadir olan vücud kimi yaratmışdır, xeyir işlərdə Allah insana kömək edir, bəd əməllərdə Allah insanı tərk emiş olur. Əşarilərin görkəmli nümayəndələri Əl-Bakilanı (IX əsr), İbn Furak(x-xı əsr), İbn Ishak(xı əsr), Əl-Cuveyni(XI əsr). Əş-Şəhristani(xıı əsr), Fəxrəddin ər-Razi (xıı) və başqaları hesab edilir. Onların fikrincə, elmin, əxlaqın və fəaliyyətin – touhid (*Allahın təkliyi*) kəlamı əsasında şərh edilməsi diqqət mərkəzində olmalıdır.

Fəlsəfə elmləri doktoru, professor Həmid İmanov qeyd edirdi ki, dünyanı yaradanın vahid və əbədi olduğu, «ilk təkan verən», yaxud təbiətin öz daxilində olub onu canlı edən və ya kənardan müşahidə edən bir qüvvə olduğu haqqında fikir yürütmək ideyası onları cəlb etmiş, əşarilər (mütəkəllimlər) dünyanı sonlu, Allahı isə əbədi hesab etmişlər. Əks təqdirdə Allah dünyanın yaradıcısı hesab edilə bilməzdi.

Dünyagörüşü məsələlərində əşarilər insan əqlinin aparıcı rolunu dini ənənədən (nəqldən) yüksək qiymətləndirirdilər. Əşarilərin bəzisi (Fəxrəddin ər-Razi) dünyaların çoxluğunu qəbul edirdi. Əşarilər bilik, iradə, hiss, fikir, nitq kimi ilahi atributların olduğunu qəbul edirdilər. Əşarilər cisimlərin hissələrə bölünməsinin hüdudu olduğunu (əl-bakilanı) və ya sonsuzluğa qədər bölünməsi (əl-Cuvayni) ideyasını irəli sürürdülər. Onlar mötəzililərə və zahirilərə qarşı mübarizədə

«təkiyyə»dən istifadə edirdilər. Onlar peripatetik fəlsəfəyə meyl edirdilər. Əl-Əşari təlimi islamın Şafii məzhəbinin tərəfdarları arasında daha geniş yayılmışdı.

## 2. Müsəlman şərqində peripatetizm

Peripatetizm (fikri gəzişərək izah etmək) orta əsrlərdə Şərq fəlsəfi fikrinin mərkəzini təşkil etmişdir. Özündə bir sıra dünyəvi elmləri əhatə edən bu təlim müsəlman ölkələrində, o cümlədən də Azərbaycanda böyük inkişaf yolu keçmişdir. Şərq peripatetizmi antik fəlsəfənin (Platon və Aristotelin) güclü təsiri altında yaranmışdır.

Antik yunan elminin və fəlsəfəsinin dünya mədəniyyətinə güclü təsir göstərməsi tarixi faktdır. VIII əsrdən başlayaraq yunan mədəniyyəti, ellinizm dövrünün elmi və fəlsəfi ədəbiyyatı tərcümə edilərək Ərəb xilafətində yayılmağa başlamışdır. Bu zaman ilk növbədə Platonun və Aristotelin fəlsəfi məktəbləri, ellinizm dövrünün yeni platonçuluğu, peripatetizmi, stoizm, skeptisizm, pifaqorçuluq islam mühitinə uyğunlaşdırılmağa çalışılmışdır.

## 3. Yaqub əl – Kindi

Peripatetizmin banilərindən biri «ilk filosof» ləqəbi ilə tanınmış Yaqub əl-Kindi (801-872) hesab olunur. O Bağdadda tibb, fəlsəfə, məntiq, hesab, həndəsə, astronomiya və musiqi təhsili almışdır. Antik fəlsəfənin nümunələrini tərcümə və tədqiq etmişdir.

İslam dünyasında fəlsəfə sahəsində heç kəs Kindi qədər çox əsər yazmamışdır. Təsadüfi deyildir ki, o birinci ərəb filosofu adını almışdır.

Əl-Kindi münəccim kimi də şöhrət qazanmışdı. Biologiya və optika sahəsində apardığı tədqiqatlar onu təkcə Şərqdə deyil, həm də Qərbdə tanıtmışdır. O fəlsəfənin əsas vəzifəsini həqiqət əldə etməkdə görürdü. Yaxşı insan üçün həqiqətdən

üstün heç nə yoxdur. Əl-Kindi rasionalist idi. İdrakın qayəsini fikrən allaha yaxınlaşmaqda görürdü. Onun fikrincə həqiqətə gedən yol ruhdan əqlə, oradan isə fəaliyyətə doğru yönəlir.

Əl-Kindi Aristotelin təsiri altında ərəb fəlsəfəsinə çoxlu materialist ideyalar, kateqoriyalar, məntiq anlayışı və idrak haqqında nəzəriyyə gətirmişdir.

Əl-Kindi göstərirdi ki, hər şeyin yaradıcısı Allahdır. Aləmin əvvəli və sonu vardır. Onları Allah müəyyən edir. Kainatdakı bütün şeylər səbəb-nəticə əlaqələrindədir. Bu qanunauyğun ardıcıllığın özü də allahın varlığını sübut edir.

O özünün varlıq haqqında təlimində aləmi iki hissəyə ayırırdı: 1) dörd ünsürün (torpağın, suyun, od və havanın) müxtəlif nisbətdə birləşməsindən yaranan şeylərdən ibarət aləmi o birinci hesab etmişdir. Yerdən başlayaraq aya qədər hər şey buraya daxildir. Buradakı şeylər isti-soyuq, quru-yaş kimi bir-birinə zidd keyfiyyətlərə malikdir. Bu aləmdəki şeylərdə zidd keyfiyyətlər yoxdur. Onun fikrincə kainatın mərkəzində yer kürəsi durur. Materiya, forma, məkan, zaman və hərəkət maddi şeylərin beş təməlidir. Materiya maddə, forma şeyin şəkli, məkan onun yerləşdiyi yer, hərəkət bir məkandan digərinə keçmək, zaman isə həmin keçidin müddəti deməkdir. O bədənsiz ideyaların mövcudluğunu qəbul edirdi.

Kindi sosial gerçəkliyə və onun dəyişdirilməsinə o qədər də diqqət yetirməmişdir. İnsanların maddi və mənəvi rifahı məsələlərinin izahında o mənəvi dəyərlərə (qəhramanlıq, sadəlik, ədalətlilik, təvazökarlıq, səmimilik) daha çox üstünlük vermişdir. O sosial fəlsəfə sahəsində öz konsepsiyasını yaratmasada, cəmiyyət, şəxsiyyət, fərd, dövlət idarəçiliyi haqda maraqlı fikirlər irəli sürmüşdür.

## 4. Rəbiyyə Əl-Ədəviyyə

Rəbiyyə əl-Ədəviyyə (717-801) Bəsrədə anadan olmuş, elə həmin şəhərdə də vəfat etmişdir. VIII əsrin ən böyük qadını olan bu insan canlı əfsanə olmuşdur. Onun haqqında ilk məlumat Avropaya IX Lüdovikin kansleri Juanvil tərəfindən gətirilmişdir. XVIII əsrdə Rəbiyyə obrazı saf məhəbbət haqqında fransız traktatında istifadə olunmuşdur.

Sufi dünyagörüşünün inkişafında Rəbiyyənin rolu onun Həsən Bəsri (728—ci ildə vəfat etmişdir) ilə qarşılıqlı münasibətləri haqqında ibrətamiz hekayə-lətifələrdə öz parlaq əksini tapmışdır. Həsən əl Bəsri dövrünün ən tanınmış nüfuzlu din xadimlərindən biri, hədis bilicisi idi. Onun nüfuzunu artıran cəhətlərdən biri də Peyğəmbərin ardıcılları və dostlarının bir çoxu ilə şəxsən tanış olması idi. O, tərkidünyalığın, asketizmin ilk müdafiəçilərindən biri, həmçinin ilahi qismət və insan iradəsinin azadlığı məsələsinin hərtərəfli dərin tədqiqatçısı idi.

Rəbiyyənin dini praktikasında təkallahlıq prinsipi dini axtarışlarla birləşib və burada məhz allah tək-vahid diqqət obyekti kimi mövcuddur. Buna görə də Rəbiyyə səmimiliyi (sidq) və ya səmimi məhəbbəti prinsip səviyyəsinə qaldıraraq ona xüsusilə yüksək qiymət verirdi. Beləliklə, Rəbiyyəyə görə səmimilik təhrikedici səbəbləri, mükafata ümid və cəza qorxusu olan əməllərlə bir yerə sığmırdı.

Sufiliyin mərkəzi mövzusu təmənnasız məhəbbət olmuşdur. Rəbiyyənin allaha sevgisi mütləq olduğundan digər məhəbbətə heç bir yer qalmamışdı. Rəbiyyə ərə getməmişdi və hətta onun möminliyi peyğəmbərlərə belə aid edilmirdi. Dünya ona görə heç bir əhəmiyyət daşımırdı. Yazda o güllərə baxmadan pəncərələri bağlayardı. Ancaq allah haqqında düşünürdü. Bu əhvalatı İranın mistik şairləri təkrar etməyi sevirdilər. İlk sufilərdən biri olan Rəbiyyə Ədəviyyə allaha hər şeyi qısqanmış və onu da belə təqdim etmişdir. *Mən Onunla birəm və Ona məxsusam.*

Rəbiyyə Ədəviyyə ideal, allah vurğunu olan qadın obrazının yaradılmasında, formalaşmasında mühüm rol oynamışdır. Onu digər qadınlarla müqayisə etmək qeyri mümkün idi.

İlikn sufiliyin ciddi asketik dünyagörüşünə saf məhəbbət konsepsiyasını Rəbiyyə Ədəviyyə gətirmişdir.

Rəbiyyənin dünyanı hiss etməsinin əsas ideyaları ali intellektual və mənəvi məqsədlərlə birləşmişdi. Yalnız bu cür fədakarlıqla etiqadın ən yüksək zirvəsinə çatmaq mümkündür. Vahid allaha həqiqi bağlılıq və sədaqət onun ən böyük üstünlüyüdür. Bu cür özünüəritmə prosesində şəxsiyyətin və onun fərdi «Mən»inin məhv edilməsi prosesi baş verir. Allah insana daxil olur və orada öz iradəsini həyata keçirir.

Rəbiyyənin əsas fəlsəfi ideyaları «Mütəfəkkirlərin anılması» («Təzirətəl ovliya») əsərində toplanmışdır.

### 5. Fərabi

Böyük filosof, ensiklopedik alim və həkim əl-Fərabi (870-950) Aristotel fəlsəfəsinin dərin bilicisi olmuş, onun fəlsəfi və elmi əsərlərinə geniş təfsir və izahlar yazmışdır.

Əl-Fərabi Demokritin atomist təlimini, «atom» və «boşluq» anlayışlarını rədd edir, Aristotelin materiya (maddə) və formanın vəhdətindən cisimlər yaranır, bunlar yeni-yeni formalara düşərək dəyişirlər, ona görə də maddə həmişə qalır, o üçölçülü və sonsuzdur fikrini müdafiə edirdi. Fərabiyə görə aləmin əvvəli və sonu vardır, onun yaradıcısı allahdır. Aləm allahdan emanasiya yolu ilə yaranır və dünyanın sonunda allaha qayıdır. Allah varlığın zirvəsində (özünü dərk edən) durur. Allah öz-özünü dərk edəndə gerçək aləm əmələ gəlməlidir. Bu zaman əvvəlcə ruh, sonra əql və mələklər aləmi yaranır.

Əl-Fərabi aləmi maddi xarakterli bir şey sayır, amma onun təməlində ruh və əqlin durduğunu söyləməklə platonçuluğa qapılır. Gerçəkliyin zirvəsində zəruri varlıq (*vacibul-vücud*) olan allah durur. O, təkdir və hər şeydir, bütün mövcudatın mayası Odur. Hər bir şey ya mümkündür, ya da vacibdir.

Mümkün olan dünya vacib (zəruri) dünyanın törəməsidir. Vacib varlığın heç şeyə ehtiyacı yoxdur. Onu dərk etmək mümkün deyil. O, haqdır və hakimdir.

Əl-Fərabi deyirdi: «İnsan əqli ilahi əqli qavraya bilməz, ilahi həqiqətə eşq və vəcd ilə çatmaq olar».

Təsadüfi baxışlarda Əl-Fərabiyə yad deyildir. Onun fikrincə, allahın keyfiyyətləri görünməzdir, onu qavramaq olmaz. Günəş şüaları gözümüzü qamaşdırdığı üçün biz günəşi görmürük. Allahın təzahürünün yüksək şiddəti onu görünməz edir.

Fərabi Aristotelin «Etika» əsərinə dair şərhində yazırdı ki, yüksək və ali rifah yalnız bizim dünyada mövcuddur. Yerdən kənarda belə bir dünya mövcud deyildir. O insan ağlını ilahinin rasional ruhunun təzahürü kimi dəyərləndirirdi.

Filosof insan həyatında elmin rolunu yüksək qiymətləndirirdi.

Fərabi insan həyatında elmin rolunu yüksək qiymətləndirirdi. O, insanın dünyanı dərk etməsinin ən mühüm vasitəsi hesab etdiyi idrakı nəzəri və praktiki olaraq iki yerə ayırırdı.

Həqiqəti yalandan ayırmaqda məntiqin rolunu yüksək qiymətləndirən Fərabi təkmil bir məntiq sistemi hazırlamışdır. O ziddiyyət qanununu bu elmin ən ali prinsipi hesab edirdi. Filosof irəlicədən görməni insan ağlının yüksək qabiliyyəti kimi qiymətləndirirdi.

Fərabi «Xeyirxah şəhərin sakinlərinin baxışları», «Vətəndaş siyasəti» kimi əsərlərində öz ictimai baxışlarını irəli sürmüşdür. Filosofun dövlət idarəçiliyi, təhsilli hökmdar, həyatın mənası, xeyirxahlıq, azadlıq kimi məsələlərə münasibəti də maraqla qarşılanır.

## 6. Biruni

Əbu Reyhan Məhəmməd İbn Əhməd Biruni (973- 1050) Xarəzmin qədim paytaxtı Kyatada anadan olmuşdur. O, tarix, riyaziyyat, tibb, astronomiya, geodeziya və fəlsəfə elmləri ilə məşğul olmuşdur. Xarəzmdə Məmun akademiyasına rəhbərlik

etmişdir. Başlıca əsərləri: «Keçmiş əsrlərdən qalan abidələr», «Hind tarixi», «Ulduzları öyrənmək sənətinin prinsipinin anlaşılması», «Məsudi qanunu», «Geodeziya», «Mineralogiya», «Qiymətli daşların dərk olunmasına dair məlumatlar»dır. Biruni təbiətə daim hərəkətdə və dəyişmədə olan bir varlıq kimi baxmışdır. Onun fikrincə təbiəti ali yaradıcı yaratmışdır və təbiət onun müəyyənləşdirdiyi qanunlarla idarə olunur.

Biruni təbiətdə baş verən hadisələri elmi reallığa uyğun səciyyələndirərək yazırdı: «Mövcud olan təbii qüvvə təbiətin öz mahiyyətindədir. Bunun sayəsində təbiətdə fasiləsiz hərəkət baş verir. Fasiləsiz hərəkətin nəticəsində isə, bütün dəyişikliklər, məhvolma və yaranma kimi əksikliklər təzahür edir.» Filosof müasirləri kimi hər şeyin allahın iradəsi ilə baş verdiyini düşünməmişdir. O, bunun səbəbini təbiətdə baş verən fasiləsiz hərəkət və dəyişikliklərdə görmüşdür. O «Mineralogiya» əsərində yazırdı:

«Dünyada sabit qalan və dəyişilməyən heç nə yoxdur. Hər şey, bütün varlıqlar bu dəyişikliyə düçar olurlar. Bunun sayəsində isə müəyyən zamandan sonra bütün varlıqlar bir vəziyyətdən başqa vəziyyətə keçirlər». Biruni həyatın əsasını suda görürdü. O, suyun əbədi olması fikrini irəli sürmüş, suyu mövcudatı yaradarkən yaradıcının istifadə etdiyi əsas alət və vasitə hesab etmişdir.

Biruni 4 maddi ünsürü: hava, torpaq, od və suyu əsas substansiyalar kimi götürmüşdür. O bütün yaranmışları səbəbiyyət əlaqəsi və bir-biri ilə əlaqədə görmüşdür.

Biruni ruh bədən dualizmini qəbul etsədə ruhu canla əlaqədə və vəhdətdə götürmüşdür. Onun fikrincə ruh yalnız bədəndə mövcuddur, onun xarakterinə və vəziyyətinə müqabil olur. Ruhla bədəni vəhdətdə olan əksiklik hesab edən Biruni belə qənatə gəlmişdir ki, hər şeyi, hətta insanı da təbii vəziyyətində saxlayan əksikliklərin mübarizəsinin yaratdığı müvazinətdir.

Göründüyü kimi filosof insan mövcudluğunu onun özünün daxili potensiyasına tabe etmişdir.

Biruni insan ağlının ictimai mənşəyə malik olduğunu göstərmişdir. İnsan oğlu öz- özlüyündə böyük gücə malik ola bilməz. Çünki, ağlı ona cəmiyyət verir. Ağlın gücü də yalnız cəmiyyətdən gələ bilər. İdrak məsələlərinin təhlilində Biruni hissi, dərk etməni biliklərin mənbəyi hesab edirdi. O, «Hind tarixi» əsərində elmi biliyi hissi qavrayışın fəaliyyətindən istifadə edən ağlın nəticəsi saymışdır. Onun fikrincə idrak prosesində bir çox hallarda düzgün olmayan təsəvvürlər yalançı biliyin əmələ gəlməsinə səbəb olar.

Biruni «Keçmiş əsrlərdən qalan abidələr» əsərində cəmiyyətin meydana gəlməsi məsələlərinə toxunmuşdur. Maddi tələbatın və coğrafi mühitin cəmiyyət həyatının inkişafında əsas rol oynadığını qeyd edən filosof zəka, əmək və azad seçkini insan cəmiyyətinin həyat səviyyəsini müəyyən edən mühüm amillər hesab etmişdir. O, əməyi insanın başlıca vəzifəsi saymışdır.

Filosof cəmiyyətdə pulun əmələ gəlməsini əmək bölgüsü ilə əlaqələndirmiş, ədalətli hökmdarın idarə etdiyi dövləti ideal dövlət saymış, cəmiyyətdə və xalqlar arasında əmin amanlıq və sülhü yüksək qiymətləndirmişdir.

### 7. İbn Sina (Avitsenna)

Orta əsrlərdə orta Asiyada görkəmli mütəfəkkirlərdən biri olan Hüseyn İbn Abdullah İbn Həsən İbn Əli İbn Sina (980-1037) fəlsəfə tarixinin bütün problemlərinə yeni təhlillər vermişdir. O qərbdə və şərqdə bir tibb alimi kimi də tanınmışdır. Onun tibbə dair əsərləri hazırda da universal bir dərslik kimi istifadə edilir, və dünya xalqlarının dillərinə tərcümə edilmişdir.

İbn Sina fəlsəfəsinə təbiətin öyrənilməsinə bir addım kimi də baxmaq olar. Öz ensklopedik əsərləri ilə yüksək dərəcə, "Şaypur rəis» (alimlər başçısı) titulunu almışdır. O özü və

yaxın şagirdi Curcaninin yazdığı tərcümeyi hala əsasən İbn Sinanın həyat yolu zəngin materiala malikdir.

İbn Sinanın əsas əsərləri aşağıdakılardır. «Şəfa», «Nicat», «İşarələr və qeydlər», «Bilik kitabı», «Şərq fəlsəfəsi» və «Təriflər» (ən hüdud) əsərləri məntiqə və fəlsəfəyə aiddir. «Substantiya və aksidensiya», «Cisim», İldırım və şimşəyin səbəbləri, «Bitki və heyvan» əsərləri isə təbiətşünaslığa aiddir. «Nəfs», «Nəfs və əql», Aristotelin «Nəfs» kitabının şərhi və başqaları psixologiyaya aiddir. «Tibb qanunu», «Farmakologiya», «Ürək dərmanları», «Qidalar və dərmanlar», «Nəbzə aid xülasə» kitabları isə tibbə aiddir.

İbn Sinanın dünyagörüşü öz dövrünün müxtəlif cərəyanlarının təsiri altında formalaşan sinkretik məsələləri əks etdirir. İbn Sinanın atası ismaili dairələrinə və qərmətilər hərəkatına yaxın olmuşdur. İbn Sina Qalen, Hippokrat, Evklid, Arximed. Pifaqor, Pordfiriy, xüsusilə Aristotelin əsərləri ilə tanış olmuş və öz əsərlərində bu ideyaları yaradıcılıqla inkişaf etdirmişdir. Onun yaradıcılığına Zəkərriyə Razi və Fərabi bir filosof kimi təsir göstərmişlər. İbn Sinanın «Metafizikanın tezisləri» «Fisus əl Hikam» «Musiqinin əsasları» əsərlərinin əhəmiyyətini də xüsusilə qeyd etmək lazımdır.

İbn -Sina fəlsəfəsi ərəbdilli fəlsəfənin növbəti, daha yüksək mərhələsidir. İbn-Sina böyük irs qoyub getmişdir ki, (280 adda) bunlardan 50-sində tibb problemləri, 40-ında təbiət və hümanitar elmlər haqqında məsələlər, 30-unda musiqi, 185 traktatında fəlsəfə, məntiq, psixologiya, əxlaq,və sosial-siyasi biliklər təhlil edilmişdir. İbn-Sinaya bir sıra fəlsəfi - bədii povestlər, şerlər, rübailər də məxsusdur. Onun geniş «Tibb qanunu» əsərini ərəb sistematikasının şah əsəri (Moyerxof) adlandırırlar. «Qanun» xıı əsrdə latıncaya tərcümə edilmiş və Avropa tibb tədrisində XVI əsrə qədər başlıca vəsait olmuşdur. O xv əsrdə 16 dəfə, xvı əsrdə 20 dəfə çap edilmişdir.

«Şəfa kitabı», «Nicat kitabı» və «Danışnamə» əsərlərində İbn Sinanın ontoloji ideyaları, varlıq təlimi şərh edilmişdir.

«Vücudiyun» təlimi bütünlüklə mütərrəqi ərəbdilli fəlsəfə kimi İbn-Sina üçün də xarakterikdir. İbn-Sinaya görə varlıq zəruri olaraq mahiyyət doğurur ki, da birinci səbəb olan, bütün mövcud varlıqların başlanğıcı olmalıdır.

İbn-Sinanın təlimində varlığın quruluşunun anlaşılmasında onun «Risole fi takşim ül mövcudat» (Mövcudatın bölünməsi haqda) əsəri böyük əhəmiyyət kəsb edir. Filosof tərəfindən mahiyyət müxtəlif kateqoriyalarda öyrənilir ki, o da varlığın vəziyyətini və tərəflərini əks etdirir. Mövcudat hər şeydən əvvəl 2 universal anlayışdır. Belə ki, mahiyyət substansiya və aksidensiyadan ibarətdir. Substansiyanın çox tələbli təzahürü ilk ünsürlər (od, su, hava, torpaq), materiya, forma, ruh və zəkada özünü göstərir. Bu sadə substantiya, can isə mürəkkəb substantiyadır. Cisim rəngarəngliyə və müxtəlif xüsusiyyətlərə malikdir: bitki, heyvan, insan. Cisim 3 ölçüyə malikdir. O uzun, enli və dərin ola bilər. İbn-Sina bu zaman materiya ilə formanın qarşılıqlı əlaqəsini təhlil edir və göstərirdi ki, bunlar bir birindən ayrılıqda fəaliyyət göstərə bilməz. O, cismi vahid əsasda götürür və qeyd edirdi ki, «boşluq mövcud deyil...bütün aləm vahid cismə malikdir». Filosof varlıq haqqındakı izahında dünyanın maddiliyini, materiyanın və zamanın əbədiliyini göstərirdi.

İbn-Sina hərəkətin təhlilinə geniş yer verir və onun cismin mahiyyətindən doğduğunu göstərir. Bu zaman hərəkət cismin başqa bir halı sükunətlə birlikdə götürülür. Aristotel kimi İbn-Sina da varlığın 10 formadan ibarət olduğunu göstərir: substantsiya, kəmiyyət, keyfiyyət (aksidensiya), münasibət, yer, zaman, vəziyyət, fəaliyyət, malik olma, əzab çəkmə.

İbn Sina passiv və aktiv idrak arasında fərqlər olduğunu göstərirdi. Cisimlərin xarici hiss üzvlərinə təsirindən əmələ gələn idrakı fəal hesab edir. İbn Sina burada yaradıcı təxəyyülün rolunu yüksək qiymətləndirir. İbn Sinaya görə anlayış (təsəvvür) fantaziya və təxəyyül kimi daxili hiss formalarına aid edilir. Təsəvvür predmetin elə bir obrazıdır ki, cisim

mövcud olmadıqda belə insanın şüurunda qalır. İbn Sina neoplatoniklərin belə bir nöqteyi-nəzərini əsassız sayırdı ki, ruh hiss üzvləri olmadan cisimləri qəbul edir. Onun fikrincə ruh hər şeydən əvvəl ürək, onun vasitəsilə isə beyinlə əlaqəlidir. Beyində hissi əsəblər vardır. Əsəb sisteminin mərkəzi beyindir. Mütəfəkkir bu fikirləri ilə hissi idrakın fizioloji əsaslarını tədqiq etməyə çalışmışdır. İbn Sina idrak mənasında «qavrayış» terminini işlədir. İdrak hiss üzvləri ilə bir cür qavrayış, mücərrəd təfəkkür yolu ilə başqa cür qavrayış formalaşdırır. O, qavrayışın xarakterinə görə hissi qavrayış, təsəvvür qavrayışı, anlayış qavrayışı, təfəkkür qavrayışı və rasional qavrayış kimi sistemləşdirmə aparmışdır.

İbn Sina da Aristotel və başqa mütəfəkkirlər kimi 3 cür ruh göstərir: bitki, heyvan, insan. İnsan ruhu onun fikrincə ən başda durur, ali və təkmildir. O bu cür ruhu məntiqi və dərrakəli hesab edir. Heyvanlardan fərqli olaraq insanlar idrakın, ağılın çatdığı universal şeyləri dərk edirlər.

İbn Sina cəmiyyətin sosial strukturu, dövlətin əmələ gəlməsi, dövlət orqanlarının funksiyası, ailədə və cəmiyyətdə insanın davranış qayda və normaları, gözəllik, incəsənətdə onun formaları kimi məsələlərin şərhini praktik fəlsəfənin predmeti hesab edirdi.

Onun praktik fəlsəfə təlimində bir çox mütərəqqi idealar vardır. Praktik fəlsəfə şəxsiyyətin firavanlığını öyrənən etikaya, ailənin firavanlığını öyrənən iqtisadiyyata, dövlətin firanvanlığını öyrənən siyasətə bölünür. Mütləq monarxlığı yüksək dövlət forması hesab edən İbn Sinaya görə ideal dövlət yaratmaq lazımdır. Bu dövlətin başında təhsilli və ədalətli hökmdar durmalıdır.

## 9. Ömər Xəyyam

Orta əsrlərdə elmi-fəlsəfi, ictimai-siyasi fikrin görkəmli nümayəndələrindən biri Ömər Xəyyam (1040-1123) olmuşdur.

O Nişapurda (İran) varlı sənətkar ailəsində anadan olmuş və orada da təbii-elmi və fəlsəfi təhsil almışdır.

Əsərlərində antik dövrün böyük elm nümayəndələrinin (Aristotel, Platon, Ptolomey, Evklid və s.), eləcə də Orta Asiya, (Fərabi, Biruni, İbn Sina və b.) fəlsəfi təlimlərini inkişaf etdirməklə qalmamış, həm də özünü orijinal alim kimi göstərə bilmişdir.

XIII əsrin sonunda yaşamış tarixçi Zəkəriyyə Qəzvini onun haqqında yazmışdır ki. «fəlsəfə, xüsusilə riyaziyyat sahəsində ona tay-bərabər olmamışdır».

Xəyyamın əsasən aşağıdakı əsərlərin müəllifidir:

- «Cəbr məsələlərinin həllinin sübutları haqqında traktat»
- «Hesab problemləri»
- «Evklid kitablarının girişinin çətinliklərinə dair şərhlər»
- «Müdriklik tərəzisi və yaxud cismin tərkibində qızıl və gümüşün kəmiyyətinin müəyyən edilməsi sənəti haqqında traktat»
- «Məlik şah astronomik cədvəlləri»
- «Əql işığı elmin predmeti haqqında»
- «Varlıq işığı elmin predmeti haqqında»
- «Varlıq və zərurilik haqqında traktat»
- «Rübailər»

Riyaziyyatçı, astronom, filosof və şair Ömər Xəyyam təqvimdə apardığı islahatlarla öz adını əbədiləşdirmişdir. Ömər Xəyyam 1074-cü ildə Mərv observatoriyasının astronomu təyin olunmuş və öz dövrü üçün dəqiq cədvəllər tərtib etmişdir. Elə həmin il Məlik şah ona mövcud təqvimdə islahat aparmağı tapşırmışdır.

Xəyyam riyaziyyat sahəsində bir sıra maraqlı ideyalar vermişdir. Onun cəbrə aid traktatı məlumdur. Ümumiyyətlə bərabərliyin tam həlli ona məxsus olmuş, Ömər Xəyyam cəbrlə həndəsənin əlaqəsi məsələsini irəli sürmüşdür.

Xəyyama görə varlıq mürəkkəb (maddə, materiya) və sadə (ilk başlanğıc, ilkin əsas) prinsiplərdən ibarət olub, bölünən və

bölünməzlərdən təşkil olunmuşdur. Kim ümumini bilirsə, o eyni zamanda xüsusini də başa düşməlidir.

Xəyyam qeyd edirdi ki, ümumi 5 növdən ibarətdir: cins, növ, mühüm xassə, xüsusi xassə və təsadüfi xassə. Bu növlərin hər biri özlüyündə ümumi sayılır. Məsələn, nəsil (cins) çoxluğu əhatə edən vahid ümumi sözdür. Cisim və mahiyyət özləri də ümumidir, onlardan hər biri çoxluğu əhatə edir. Mahiyyət-yaradıcını çıxmaq şərtilə bütün dərk edilənləri ifadə edən sözdür.

Xəyyam öyrədirdi ki, varlıq fasiləsiz inkişafdadır. O qeyri üzvi dünyada kəşf edilə bilən həyat hüceyrələrindən tədricən ali formaya yüksələ bilər. Hər bir sferanın ağlına ruh müvafiq gəlir. Ruh hərəkətverici qüvvədir, ağıl isə məhəbbət oyadandır. Bu vəhdətdə rəhbər qüvvə ağıldır, o isə müqəddəs ruhdur. Lakin ruh ağıl üzərində qalxmaq istəyir. Ruhun ağıla qoyulması sayəsində sferalarda inkişaf baş verir.

Ömər Xəyyamın təlimi idealist xarakter daşıyırdı. Bütün mövcud olanların ilkin əsası ümumi ağıl, ümumi ruh və ümumi cism hesab edilirdi. Onun fikrincə ümumi varlıq əbədidir, zəruri varlığın nəticəsidir. Onlardan birincisi yaradıcı, sonra ümumi ruh, sonra ümumi cisimdir.

Xəyyam dünyanın maddi olduğunu və özünəməxsus qanunauyğunluqlara malik olduğunu irəli sürürdü. Varlıq başlanğıcı və sonu olmayan əbədi axındır. Materiyanın bir mövcudluq formasından fasiləsiz digərinə çevrilməsi və bir keyfiyyət halından digər keyfiyyət halına keçməsi varlığın təbii vəziyyətidir.

O qeyd edirdi ki, insan xoşbəxt yaşamaq üçün doğulmuşdur. Bu xoşbəxtliyin əsası təbiətdir, lakin onun sərvətindən istifadə etmək üçün təbiəti öyrənmək lazımdır.

Xəyyam rübailərində axirət dünyasını, cəhənnəm və cənnət ideyasını məsxərəyə qoyurdu. O həyatdan səmərəli və mənalı istifadə etməyə, onu yaxşılaşdırmağa çağırırdı.

Filosof başqa bir dünyanın olduğunu qəbul etmirdi. Boş mövhumata və xürafata inanmayan Xəyyam yazırdı:

Tutaq, Ərəstu tək vardır hikmətin,
Qeysər, Fəğfur kimi vardır qüdrətin,
Cəmşidin camından şərab iç, çünki
Torpağın altında sönər şöhrətin!

## 10. Əbu Həmid Əl-Qəzali

Qəzali (1058-1111) çox ziddiyyətli və mürəkkəb bir həyat yolu keçmişdir. Erkən yaşlarından məşhurlaşan Qəzali 1091-ci ildən zəmanəsi üçün ən məşhur olan Bağdadın Nizamiyyə ilahiyyət məktəbində (mədrəsəsində) fəlsəfi və teoloji fənlərindən dərs demişdir. Hələ gənclik dövründən filosofların qeyd etdiyi həqiqət yolunu tapmaqdan əlini üzmüşdür. 34 yaşında güclü mənəvi böhran keçirsə də o skeptisizmdə birdəfəlik batmamışdır. Onun əsas əsərləri aşağıdakılardır:

«Filosofların məqsədləri»
«Filosofların təkzibi»
«Filosofların ardıcılsızlığı»
«Din elmlərinin dirçəlməsi».

Qəzali sufiliyin həm nəzəri, həm də praktiki məsələlərində dərin bilik əldə edə bilmişdir. O, sufi asketizminin ən ciddi və ən ağır formalarını praktiki olaraq öz üzərində keçirmişdir. Lakin nə qədər çalışır çalışsın filosof arzu edilən mənəvi – ruhi vəziyyətə çata bilməmişdir. Bu fakt bir daha onu sübut edir ki, Qəzalidə intellektualizm olduqca güclü olduğundan həqiqət axtarışında onun şübhələrini və skeptisizmini gücləndirmişdir.

Qəzali Nizamiyyə mədrəsəsində dərs deyirdi və islam hüququ sahəsində, tanınmış və nüfuzlu alimlərdən biri hesab edilirdi. O fiqhə dair bir sıra əsərlərin müəllifi kimi də tanınırdı. Artıq bu dövrdə Hüccət-İslam (islamın sübutu), Mücəddid əd-din (etiqad islahatçısı) və Zeynəddin (etiqadın bəzəyi) titullarını qazanmışdı.

Qəzali on bir il islam dünyasını gəzmiş, meditasiya və askezin ən ciddi formalarını yaşayaraq fəaliyyət göstərmiş, sonra doğma şəhəri olan Tusa qayıtmış və dərs deməklə məşğul olmuşdur.

Qəzalinin intellektual axtarışları Dekartın mənəvi təcrübəsini xatırladır. Dekart həqiqət axtarışı naminə şübhə doğura biləcək hər şeyi şübhə altına almışdır. O hansısa etiqad mülahizəsini qəbul etməkdən imtina etmiş, fəlsəfənin əsasına reallığı qoymağa çalışmışdır. Qəzali də həqiqət axtarışı naminə öz «mən»inin həqiqi mahiyyəti haqqında suallar vermiş, bu məsələnin həllilə bağlı rəsmi islamla polemikaya girmişdir. Öz həqiqi «məninin» əldə edilməsi üçün Qəzali başqalarının rəyini mənimsəmək əvəzinə özünün xüsusi fikrini yaratmağa çalışmışdır. Epistomologiya məsələlərini nəzərdən keçirərkən o qavrayışın və onun təbiətinin ikili mahiyyətini göstərmişdir. Qəzali peripatetiklərin ənənəvi təsəvvürlərini tənqid etmişdir. O dörd kateqoriya alimlərin tənqidi üzrə öz sistemini qurmuşdur. Bunlar, mistiklər, batinilər, ilahiyyatçılar və filosoflar idi. Mistiklərdən danışarkən Qəzali özünü dini qanunları, şəriəti müdafiə etməyən. «Vəhdət və varlığın vəhdəti» (vəhdəti vücud) doktrinasının ardıcılları sayan sufilərə qarşı qoyurdu. Həmin sufilər Qəzalinin gizli panteizm hesab etdiyi ekzistensiyal monizmi müdafiə edirdilər. Qəzali müxtəlif ölkələrdə, müxtəlif adlar altında çıxış edən (batinlər, sahiblər, kəramitlər və s.) ismaililərin barışmaz düşməni olmuşdur. İsmaililər şiəliyin qollarından biri kimi günahsız imamın, həqiqətə haqqı olduğuna inam bəsləyirdi. Qəzali bunu inkar edirdi. O ismaililərin şəriəti qəbul etmədiyini iddia edərkən onları günahlandırırdı.

Yunan fəlsəfəsini, o cümlədən Aristoteli, eləcə də müsəlman mütəfəkkirlərinin əsərlərini diqqətlə öyrənən Qəzali «Filosofların məqsədləri» əsərini yazmışdır. O eyni zamanda aristotelizmin ciddi və parlaq ifadəsi olan «Filosofların özünü təkzibi» əsərini də yaratmışdır. Bu əsərlərində o dialektik metoddan

istifadə edərək filosofların mövqeyini tənqidi təhlil etmişdir. Qəzali filosofları üç kateqoriyaya bölürdü: 1) Allahı inkar edən və dünyanı əbədi hesab edən materialistlər, 2) Allahın mövcudluğunu qəbul edənlər (teistlər), 3) Allahın mövcudluğunu məcburi inkar etməyənlər, lakin ruhun ölməzliyini şübhə altında qoyan naturalistlər.

Hər bir filosofun mövqeyini dərindən başa düşmək cəhdi Qəzalidə belə bir inam yaratmışdı ki, həqiqət axtarışı zamanı yalnız ağıla arxalanmaq əxlaqın və dinin məhvinə aparıb çıxarır. O hesab edirdi ki, filosoflar üç səbəbdən bidətçi sayıla bilərlər: 1) dünyanın əbədiliyi ideyasını qəbul etmək səbəbindən, 2) tək-tək şeylərə də aid olan İlahi biliyin inkar edilməsi səbəbindən, 3) ölülər dünyasından cismən dirilmə ideyasının inkarı səbəbindən.

Qəzali etik və əxlaq məsələləri üzərində də xeyli çalışmışdır, Qurandakı konsepsiyaya arxalanan Qəzali bir sıra mürəkkəb problemlərin həllində Aristotel təhlilinə müraciət etmiş, daha çox azad iradə və səbəb şərtlənməsi məsələləri ilə maraqlanmışdır.

Qəzali bir ilahiyyatçı kimi inanırdı ki, səbəb-nəticə determenizmi əxlaqi məsuliyyətlə müqayisə edilməzdir. O bu problemi həll etməkdən ötəri üç səviyyə təsəvvüründən istifadə etmişdir. Birincisi, hadisələrin zərurət ucbatından yarandığı maddi dünya səviyyəsi, ikincisi, nisbətən fəaliyyət azadlığı olan hissi dünya səviyyəsi, üçüncüsü, mütləq iradə azadlığının hökm sürdüyü ilahi dünya, ilahi hökmranlıq dünyası səviyyəsi.

Qəzali iradə azadlığının vacibliyini dərk edir, çünki onsuz nə cənnət, nə də cəhənnəm ağlabatan deyildir. Filosof insan iradəsinin nisbi təbiətini müəyyən edərək xeyirxah əməllərə, insanın vəzifələri məsələlərinin təhlilinə keçir. Azad iradə Allah vergisidir və ona əməl etmək lazımdır. O qüsurları cismani istəklə, qarınquluq, boşboğazlıq, var-dövlətə dəhşətli meyl, cəmiyyətdə mühüm vəzifəyə can atmaq, inadkeşlik və başqa mənfi keyfiyyətlərlə eyniləşdirirdi.

Filosofa görə Allaha sevgi insanla Allah arasında idrak modelinin əmələ gəlməsinə imkan verir. Qəzalidən sonra filosoflar tərəfindən bu cəhətə daha çox diqqət yetirilmişdir.

## 11. İbn Baccə

İbn Baccə Əbu Bəkr Məhəmməd ibn Yəhya (1070-1138) Saraqosda doğulmuşdur.

İbn Baccənin elmi maraq dairəsi olduqca genişdir. Sırf fəlsəfi məsələlərdən başqa o təbiətşünaslıq, astronomiya, riyaziyyat, təbiət və musiqi ilə də məşğul olmuşdur. Ərəb-ispan mütəfəkkirlərindən birincisi olaraq o, qədim şərqin bütün xalqlarının fəlsəfi irsini öyrənərək onu İspaniyada geniş təbliğ etmişdir.

İbn Baccənin ictimai-fəlsəfi baxışlarının formalaşmasında Fərabinin əsərləri böyük rol oynamışdır. O qədim yunan mütəfəkkirlərinin fəlsəfi təlimlərini hərtərəfli öyrənə bilmiş, hətta Aristotelin bir sıra əsərlərinə geniş şərhlər yazmışdır. Bu şərhlərin içərisində Aristotelin «Fizika» əsərinə həsr edilən şərh mühüm yer tutur. Filosof Aristotelin «Meterologiya», «Yaranma və məhv edilmə haqqında» və başqa əsərlərinə də şərhlər yazmışdır.

Böyük mütəfəkkirin cəbr, astronomiya və musiqiyə dair çoxlu kiçik traktatları olmuşdur. O Ptolomeyin astronomiyaya dair əsərlərini kəskin surətdə tənqid etmiş, nəticədə İbn Tufeyl və başqa alimlərin düzgün elmi konsepsiyalar yaratmasına şərait yaratmışdır. Tədqiqatçıların fikrincə İbn Bacə tərəfindən Ptolomeyin geosentrik baxışlarının tənqidi sonralar Koperniki ruhlandırmışdır.

İbn Tüfeyl yazırdı ki, onun əsərlərinin əksəriyyəti o cümlədən «Ruh haqqında» «Tənha adamın davranışı», məntiq və təbii elmlərə dair əsərləri tamamlanmamışdır. İbn Baccənin əsərlərindən parçalar əsasən qədim yəhudi dilində, sonralar isə latın dilindəki tərcümələrdə bizə gəlib çatmışdır.

Cəmiyyəti necə varsa qəbul edən İbn Baccə bircə şeyi arzu edir, cəmiyyət yaxşı təşkil olunsun, orada xeyirxah insanlar, o cümlədən filosoflar olsun. İbn Baccənin məntiqi traktatları daha çox məşhur olmuşdur. Onların içərisində «İnsanın əməli ağıla birləşməsi», «Vida məktubu», «Tənhaların həyat tərzi haqqında» «Ruh haqqında» və başqa traktatları dövrümüzə qədər gəlib çatmışdır.

Filosofun «Vida məktubu»nda İbn Baccənin fəlsəfi axtarışlarının əsas istiqamətləri özünü göstərir. O insan ağlını və təfəkkürünü müsəlman sxolastika və mistikasına qarşı qoyur, ağılla fəlsəfi təfəkkürün üstünlüyünü göstərməyə çalışır.

İbn Baccə yazırdı ki, yalnız ağıl təbiət haqqında həqiqi bilik verə bilir və ancaq o insanın öz-özünü dərk etməyə, əməli (fəal) ağılla birləşməsinə doğru aparır.

Filosofun fikrincə ağıl vasitəsilə varlığa daxil olub bütün sirrləri aşkara çıxarmaq olar. Yalnız onun sayəsində insan şeylərin və hadisələrin mahiyyətini dərk edə bilər. İbn Baccə özünün təəsüfü fikirlərində əsas diqqəti mistisizmə verirdi. Vəhy haqqında təlimi o real gerçəklik haqqında yalan təsəvvürlər adlandırırdı. Filosof məhz bu fikirlərinə görə də allahsızlıqda təqsirləndirilmişdir.

İbn Baccə insanların yaşadığı dünyanı yeganə dünya hesab edir və ağıllı cəmiyyət qurulmasının tərəfdarı kimi çıxış edirdi. O qeyd edirdi ki, əxlaqi davranış insanın təbiətində olan davranışdır. Filosofa görə ağılın istiqamətləndirdiyi fəaliyyət, şüurun müşayət etdiyi ağıllı məqsədləri ifadə edən azad fəaliyyətdir.

İbn Baccə öz etik baxışlarında əsasən insan-cəmiyyət münasibəti ilə məşğul olmuşdur. Onun fikrincə müdriklər qarşılıqlı fayda görmək xatirinə ünsiyyətə girməlidirlər.

İbn Baccə də yaşadığı cəmiyyətin sosial nöqsanlarını görə bilmiş, insanların xoşbəxtliyə çatmaq yollarını göstərmyə çalışmışdır. İbn Baccənin fəlsəfi konsepsiyasında ağıla verdiyi qiymət, onun fəlsəfi baxışlarına marağı artmışdır. Filosofa

görə zaman qüdrətli insan ağlına əsaslanır. Onun «Ruh haqqında» əsəri özündən sonrakı fəlsəfi fikrə mühüm təsir göstərmişdir.

İbn Baccə bütün insanları harmoniya və xoşbəxtliyə qovuşdura bilən ideal cəmiyyətin quruluşunu verməyə çalışmışdır.

## 12. İbn Röşd (Averroes)

Əbül Vəlid Məhəmməd İbn Əhməd İbn Röşd (1126-1198) Kordovanın məşhur qazilərindən olmuşdur. Ailə ənənəsinə uyğun olaraq İbn Röşd gənc yaşlarından ilahiyyat, hüquq elmləri və ərəb ədəbiyyatını öyrənmişdir. Tibb elmləri sahəsində xüsusi qabiliyyəti olmuşdur. Onda fəlsəfəyə maraq qədim yunan fəlsəfəsini dərindən bilən tibb müəllimi Əbu Cəfər Harun tərəfindən yaradılmışdır. Yaxın dostu İbn Tüfeyl vasitəsilə xəlifə Əbu Yaqub Yusif onu saraya dəvət etmiş və bu onun həyatında dönüş yaratmışdır.

1171 – ci ildə İbn Röşd Kordovaya qayıdır və ona nəslən keçən böyük qazi vəzifəsini tutur. Bu vəzifə müsbət tərəfləri olmasına baxmayaraq filisofun elmlə məşğul olmasına maneçilik törədirdi. O 1182-ci ildə xəlifənin saray həkimi vəzifəsinə təyin edilmişdir.

İbn Röşdün işgüzarlığı muasirlərinin heyrətinə səbəb olmuşdur. Elə bir axşam olmazdı ki, o, oxuyub yazmasın. Ömründə iki axşam, bir toy günü, bir də atası ölən gün bu adətinə xilaf çıxmış, yəni oxuyub yazmamışdır.

İbn Röşdün yaradıcılıq irsi də onun əməksevərliliyinə sübutdur. Onun yaradıcılığı komentariyalar və müstəqil əsərlərə bölünür. Filosofun Aristotelin əsərlərinə, Platonun «Dövlət» əsərinə, Fərabinin «Məntiq» haqqında traktatına, İbn Sinanın, İbn Bədcin əsərlərinə komentariyaları vardır. İbn Röşd ümumiyyətlə 33 komentariya yazmışdır. O, 1180 –ci ildə Əbu Həmid Qəzəlinin peripatetik filisoflara qarşı yazdığı «Filosofların təkzibi»nə cavab olaraq «Təkzibin təkzibi» traktatını

komentariya formasında yazmışdır. O Qəzəlinin fikirlərini təkzib etmiş, həmin məsələləri öz dünyagörüşü baxımından əsaslandırmışdır.

«Təkzibin təkzibi»ndən başqa İbn Röşdün fəlsəfəyə dair «Ağıl haqqında mühakimələr», «Sillogizm haqqında mühakimələr», «İbn Sinanın «Şəfa ktiabı»nda metafizika məsələlərinə baxış», «Zaman məsələsi haqqında», «İlkin materiyaların mövcud olması barədə», «Aristotelin sübutlarının aşkar, həqiqət olmasının izahında müdriklə razılaşmayanlar və onların şübhələrinin aradan qaldırılması haqqında», «İbn Sinanın mövcudatı mütləq mümkünlük, özünə görə zəruri varlığın bölünməsinə qarşı etiraz haqqında mühakimələr», «Müdriklik haqqında»,» «Şərti sillogizmlər haqqında mühakimələr», «Əbu Nəsrin Aristoteldən nə üstə ayrılması haqqında kitab», «Allahın xeyirxah və ali olması, bütün hər şeyi idarə etməsi haqqında kitab», «İlahi varlıq haqqında mühakimələr» və başqa əsərləri vardır.

Filosofa görə şeylərin həqiqi təbiəti açılmadan hadisələrin səbəbini açmaq və mahiyyətini sübut etmək mümkün deyildir. Fəlsəfə öz vəzifəsinə görə bu cür elmdir və hətta onun düşmənləri də bu işlə məşğul olmalıdırlar. Əl-Kindidən fərqli olaraq İbn Röşd öz strateji məqsədini həyata keçirmək üçün taktiki dəyişikliklər edirdi. Düşmənlərinə qarşı mübarizə üçün sübutu onların özlərinin istinad etdikləri dayaqlardan götürür, birbaşa müqəddəs Quranın hökmlərindən istifadə edir və qeyd edirdi ki, fəlsəfə nəinki islam tərəfindən rədd edilir, onunla məşğul olmaq allah tərəfindən buyurulmuşdur.

1)Quranda ətraf aləmin öyrənilməsi, yaradanın yaratdıqlarının öyrənilməsi, bununla da allaha yaxınlaşmağın mümkünlüyü tövsiyyə olunur.

2) Yaradanın yaratdıqlarının öyrənilməsinin ən yaxşı üsulu dəlillərin köməyi ilə məlumdan naməlumun əldə edilməsidir. Filosoflar məhz bu işlə məşğul olurlar.

Daha sonra İbn Röşd bu problemin ən incə tərəfinə toxunaraq fəlsəfə və dinin bir birinə münasibətini əsaslandırırdı. Əgər din həqiqətdir və həqiqəti axtarmağa çağırırsa deməli, sübutlara əsaslanan elmlə zidiyyət təşkil etmir. Həqiqət həqiqəti inkar edə bilməz, əksinə onları bir-birləriinə xeyir vermiş olarlar.

Aristotelin «Metafizika» əsərinə yazdığı komentariyada İbn Röşd materiya, onun formaları və hərəkəti haqqında məsələlərə toxunur. O, mahiyyət və mövcudluq məsələlərinin izahında İbn Sina ilə razılaşmır və onu tənqid edirdi.

Filosof özünəməxsus idrak nəzəriyyəsi yaratmışdır. İbn Röşdün bir sıra fikirlərində ibtidai formadan ali formaya inkişafın təkamül xarakteri bitki, heyvan və insan aləminə şamil edilir.

İbn Röşd öz fəlsəfi sistemində insan haqqında mükəmməl təlim yaratmışdır. O, insanın yüksək idrak qabiliyyəti – zəka haqqındakı təlimini yaradarkən Aristoteldən geniş istifadə etmişdir. Aristotelə görə insanın zəka fəaliyyətinin formalaşmasında, «ağ lövhədə» ətraf mühitin hiss edilməsi və dərkində təfəkkür mühüm rol oynayır. Bu mövqeni müdafiə edən İbn Röşd göstərirdi ki, zəka bədənin funksiyasıdır. İbn Röşd Afrodiziyali Aleksandr ilə polemikaya girərək onun hissi və rasional idrakı eyniləşdirmək meyillərini kəskin tənqid etmişdir.

İbn Röşd insanın siyasi təbiətə malik olması haqqında danışarkən cəmiyyətin siyasi təşkili və sosial strukturu haqqında da öz mülahizələrini irəli sürürdü. O, özünün ideal dövlət nəzəriyyəsini formalaşdırarkən 2 metoddan istsfadə edirdi. Birinci metod inandırma, ikinci metod məcbur etmədir. İkinci metoddan İbn Röşd xüsusilə xarici düşmənlərə qarşı mübarizədə, başqa dindən olanlara, dinsizlərə qarşı müqəddəs müharibədə (cihadda) istifadəni zəruri hesab edirdi.

Platonun ardınca İbn Röşd də vətəndaşları 3 qrupa bölür: Birincilər maddi sərvətlər hazırlayır, ikincilər düşməndən

müdafiəni təşkil edir, üçüncülər isə tədrisi və vətəndaşların tərbiyəsini təşkil edirlər.

Platon kimi İbn Röşd də dövlət başçısının keyfiyyətlərinin ideal cəmiyyətdə nə cür olmasını «Dövlət»in komentariyasında təhlil edir. O, göstərir ki, dövlət başçısı qızıl temperamentə malik (gümüş və mis temperament də var) şəxsdən seçilir. Fiziki cəhətdən sağlam, nəzəri elmləri sevən, yaxşı yaddaşı olan, həqiqəti müdafiə edən, təkəbbürlü olmayan, igid, qərarlı , sözü üzə deyən və digər keyfiyyətlərə malik olmalıdır. Dövlət başçısı İbn Röşdə görə həmçinin qanunların tətbiqini (şəriəti) yaxşı bilməlidir.

İbn Röşd ideal dövlət məsələlərini izah edərkən adamların hərtərəfli inkişafı, ədəb təlimi ilə bağlı bu nəticəyə gəlir ki, ideal vətəndaş cəmiyyətin inkişafının ahəngdar tələblərinə cavab verən bir şəxsiyyət olmalıdır.

İbn Röşdün ideal cəmiyyət və ideal vətəndaş haqqında təlimi gələcək intibah Avropasında ictimai fikrə öz mütərrəqi təsirini göstərmişdir.

## 13. Maymonid

Maymonid (Moisey ben Maymun) (1135-1204) ispan əsilli yəhudi teoloqu, həkim və filosof idi.

Maymonidin bütün ideyaları etiqad məsələlərində ümumiləşmişdir. Sübut amillərinə gəldikdə o, həmişə ciddi fəlsəfi prinsiplərdən çıxış edirdi. Formal məntiqin ziddiyyət qanunu onun üçün müqəddəs idi. Müasirləri onun haqqında deyirdilər ki, o ilahiyyatçı kimi fəaliyyət, filosof kimi təsir göstərir.

Maymonidin əsas əsəri «Tərəddüd edənlərin bələdçisi» (1190) adlanır. Bu əsər Maymonidin əsas əsəridir. Əsər ərəb dilində yazılmış və müəllifin sağlığında yəhudi dilinə tərcümə olunmuşdur. Üç hissədən ibarət olan bu əsərin əsas məqsədi isə Aristotelin fəlsəfəsini iudaizmin müddəaları ilə uyğunlaşdırmaq və barışdırmaq olmuşdur. Məhz fəlsəfi fikir tarixində

Maymonidin xidməti Aristotel fəlsəfəsini yəhudi fikir dünyasına daxil etməsindədir. O bundan yəhudi ehkamlarını əsaslandırmaq üçün istifadə etmişdir.

Maymonidin fəlsəfəsində dindar yəhudi mürəkkəb insan şəklində təhlil olunur. Ümumiyyətlə onun əsas çıxış nöqtəsi antropomorfizmdir. Çünki vahid qədim yəhudi allahı Yaqve (İyeqova) Əhdi-ətiqdə insan obrazında təqdim olunmuşdur.

Maymonid belə hesab edirdi ki, metafizikanı sadə xalqa ehtiyatla izah etmək lazımdır.

Maymonidə görə hətta ən savadlı adamlar belə ondan hər şeyin cavabını tələb edə bilməzlər. Çünki bu qeyri-mümkündür. Yaranan və məhv olan şeylərin üç başlanğıcı mövcuddur.

Filosofa görə materiya məlum forma aldıqdan sonra həmin formanın yoxluğu sona çatır, daha dəqiq desək həmin formanın yoxluğu ilə əvəz olunur.

Maymonid belə hesab edirdi ki, ağıl əsasında dünyanın başlanğıcını sübut etmək qeyri-mümkündür. Onun fikrincə dünyanın əbədililiyinidə sübut etmək də çətindir. Dünyanın yaradılması məsələsi etiqad məsələsidir, fəlsəfi həqiqət deyildir. Maymonidin fikrincə allaha heç bir müsbət atributlar aid etmək olmaz. Bu atributlar ya köklü sürətdə ilahi substansiyalardan fərqlənir və yaxud da onunla birlikdə vəhdətdə olurlar.

Filosofa görə şeylər allah tərəfindən yaradılmışdır, lakin yaradıcı ilə yaradılan arasında analogiya yoxdur. Bu dünyanı biz yalnız İlahi kamilliyə oxşada bilərik. Dünya allah tərəfindən yaradılmışdır.

Şər materiyadandır. Mənəviyyat isə dəyişməzliyə əsaslanır. Ümumiyətlə, o dünyanın yaradılması, başlanğıc, təkmilləşmə, peyğəmbərlik, mənəviyyat kimi anlayışlardan geniş istifadə etmişdir.

Maymonid təbiətin qanunuyğunluqlarını, səbəbiyyət qanununu inkar edənləri tənqid edir, «möcüzə»ni rədd edirdi. İradə azadlığına malik olan insan xeyir və şər arasında seçimi özü etməlidir. Onun fikrincə fəlsəfə kamilliyə gedən yolu açmağa

qadirdir. Fəlsəfə intellektual, mənəvi və cismani kamilliyə aparır. Son nəticədə kamillik biliyə və mədəniyyətə əsaslanır.

Maymonidin fəlsəfi baxışları orta əsrlərin özündən sonrakı sxolastikasına böyük təsir göstərmişdir.

## 14. Saflıq qardaşları

İslam fəlsəfəsi tarixində IX-XI əsrlərdə «İxvan əs-Səfa» özünəməxsus yeri və sistemi olan bir fəlsəfi məktəbdir. Mənşə etibarı ilə islamın şiə məzhəbindən sayılan Büveyhi əmirliyinin zamanına təsadüf edən bu dini-fəlsəfi məktəb ilk vaxtlar Bəsrə şəhərində gizli fəaliyyət göstərmişdir.

«İxvan əs-Səfa» cəmiyyət olaraq ilk vaxtlar İsmaililik təriqətinin tərkibində yer almışdır. 760-cı ildə «İxvan əs-Səfa»nın əsas tərkibi Zeyd b. Rifa, Əbu Süleyman əl-Busti Muqəddəsi, Əbul-Həsən əz-Zəncani və Əbu Əhməd ən-Nəhrəcuri əl-Mihracanidən ibarət olmuşdur. Mənbələrin verdiyi məlumatlara əsasən bu alimlər qrupu rəvayətlərə görə 52 risalədən ibarət olan əsərlərini əl-Müqəddəsinin nitqləri əsasında tərtib etmişdilər. Digər bir məlumatda mətnlərin əksəriyyətinin Zeyd İbn Rifanın fikirlərindən toplanmış və Əbu Süleyman tərəfindən yazıya köçürüldüyü göstərilir.

Qısa müddətdə İraqa, Orta Asiyaya, Azərbaycana və ətraf ölkələrdə fəaliyyətə başlayan ilk «Şərq Akademiyası» özünün geniş fəaliyyət proqramını tərtib etmişdir. Burada əsas istiqamət və məqsəd elmi bilikləri xalq kütlələri arasında onların başa düşəcəyi səviyyədə yaymaq idi. Təşkilatın üzvlərinin fikrincə «insanların başından puç ideyaları elm vasitəsi ilə təmizləmək lazımdır. Onun təmizlənməsi və paklaşması yalnız fəlsəfə ilə nizamlana bilərdi». Bu məqsədlə «Saflıq qardaşları» «Vəfa munislərinin traktatları» («Risail İxvan əs-Səfa və Xüllan əl-Vəfa») adlı geniş mündəricatlı, dörd hissədən, 52 traktatdan ibarət dörd cildlik bir ensiklopediya proqramı tərtib etmişlər.

1) fəlsəfi və riyazi elmlər; 2) təbii və cismani elmlər; 3) psixoloji və əqli elmlər; 4) Quran və ilahi elmlər.

Səfa qardaşlarının təlimi yunan mifologiyası ilə yəhudi və xristianlıq baxışlarını birləşdirirdi. Onun bu eklektizmi biliyə və idraka münasibətdə də özünü göstərmişdir. Belə ki, bu təlimin tərəfdarları rasionalizm ilə sensualizmi birləşdirməyə çalışırdılar. Onlar biliyin duyğular ilə başlandığını söyləyəndə təbiətçilərə (naturfəlsəfəyə) yaxınlaşırdılar.

İslam ensiklopedistləri adlandırılan Səfa qardaşları elmlərin təsnifatını vermişdilər. 1) Məntiq və riyazi elmlər; 2) Təbiət elmləri: astronomiya və fizika; 3) Zehni elmlər-psixologiya; 4) İnsanda metafizik (mənəvi) prinsipləri təzahür etdirən kəlam və tövhid (təkallahlıq); 5) Bütün elmlərin başlıca hədəfi və İhvani-səfa fəlsəfəsinin mayası olan əxlaq elmi.

«Saflıq qardaşları»nın dünyagörüşündə panteizmə rəğbət, elm ilə din arasında barışdırıcılıq meyli hiss olunur. Ona görə də E.Renan qardaşların Ensiklopediyasını «elm ilə din arasında manifest» adlandırmışdır. Onların dünyagörüşünün formalaşmasına qədim Şərq sivilizasiyasının və antik dövr yunan filosoflarının əsaslı təsiri olmuşdur.

Saflıq qardaşlarının elmi ideyaları Plotinin (205-270) emanasiya təliminə və neoplotonizmə əsaslanırdı. Plotin «Enneadlar» (doqquzlar) əsərində həyatın yaranmasında Allahı «İlkin səbəb» kimi qəbul etmişdir. Lakin o göstərirdi ki, Allah bunu öz iradəsi ilə deyil, aləmin zərurəti nəticəsində əbədi və zaman ölçülərindən kənarda yaratmışdır.

Plotinin təliminə görə emanasiyanın beş pilləsi var: qaranlıq, idrak, ruh, materiya, fiziki aləmin təzahürləri. Hər aşağı pillə yuxarı pillədən yaranır, yuxarı pillə isə heç nə itirmir. Son nəticədə, Plotinin fikrincə, hər şey məqsədə-varlıqların yaranmasına və inkişafına doğru irəliləyir.

«Saflıq qardaşları»nın fikrincə, Günəş olmasaydı, həyat və kainat da olmazdı. Onlar belə düşünürdülər ki, ürək insan orqanizmində bütün orqanlar arasında həm də funksional əlaqə

yaradır. Onların fikrincə, insanın yaşaması üçün lazım olan qanı ürək verir və fasiləsiz dövrana malik olan dörd mayedən biri olan qan orqanlar arasında əlaqə yaradır.

«Saflıq qardaşları» insanın əmələ gəlməsi və təkamülünə, yerdəki mövcudiyyətə ümumi yaranışın tərkib hissəsi kimi baxır və bunlar arasında müəyyən bir əlaqə görürdülər. Belə əlaqəni izah edərkən «Qardaşlar» aşağı pillənin ən mürəkkəb formasının özündən sonra gələn və nisbətən yüksək quruluşa malik olan sadə forma ilə əlaqələndiyini göstərməklə, varlıqların sadədən mürəkkəbə doğru inkişafında bir irsi qanunuyğunluq olmasını izah edirdilər.

«Saflıq qardaşları»nın risalələrində insanın biososiloji mahiyyəti, eləcə də antropogenezə aid düşüncələr elm tarixi üçün əhəmiyyətlidir.

«Qardaşlar» insanın psixofizioloji xüsusiyyətlərinin inkişafını da nəzərdən qaçırmamışlar. Onlar antropogenezin sonrakı mərhələlərinin gedişində sosioloji mühitin mürəkkəbləşməsini əsas götürərək, demoqrafik vəziyyətin dəyişməsinə üçüncü mühüm amil kimi xüsusi əhəmiyyət verirdilər.

«Saflıq qardaşları»nın risalələrində konkret olaraq irsiyyət və şəxsiyyət məsələlərinin təhlilində kifayət qədər ardıcıllığın olmaması da diqqəti cəlb edir. Bu o dövrün ideologiyasına uyğun olaraq cəmiyyətdə baş vermiş kəskin təbəqələşmə ilə əlaqədar olmuşdur. Feodalizm dövründə şəxsiyyətin formalaşmasına cəmiyyətin sosial şəraitinin güclü təsirə malik olması əslində «Qardaşları»n düzgün başa düşülməməsi ilə əlaqədar olmuşdur.

«Saflıq qardaşları» təliminin etik strategiyası insan ruhunu xurafadan və fanatizmdən xilas etmək idi. Bu səbəbdəndir ki, onların traktatları insanın mənəvi keyfiyyətlərinə dair fikirlərlə zəngin və ziddiyyətlidir. Onların etik və estetik ideyalarında irsiyyət-şəxsiyyət məsələləri özünün obyektiv elmi həllini tapmaq istiqamətinə yönəldilmişdir.

«Saflıq qardaşları»nın dünyagörüşündə «gözəllik-kamillikdir» amili insanın psixofizioloji və biososioloji xüsusiyyətlərini stimullaşdırır.

«Saflıq qardaşları»nın elmi ideyaları onlardan sonra yaşamış şərq mütəfəkkirlərinin fəlsəfi dünyagörüşünün formalaşmasında mühüm rol oynamışdır.

## 15. Sufilik fəlsəfəsi

Təsəvvüf (sufizm) islam zəminində meydana gələn mistik dini-fəlsəfi dünyagörüşdür. İlk sufilər Quranın mənasını təhlil etməklə, çoxlu ibadət etmək və oruc tutmaqla, özünü bütünlükdə Allahın ixtiyarına verməklə məşğul idilər. Sonradan sufilər iki qismə ayrıldılar: ifrat (radikal) və mötədil. Radikal sufilər (əl-Həllac, İbn Ata, Əl-Həmədani) Qurana və Sünnəyə sadiq olmuşlar. Onlar xalis islam çərçivəsində fəaliyyət göstərirdilər. Radikallar «Məni» həm allah, həm də insan yerində işlədib, insan ilə allahı eyniləşdirirdilər. Mötədil sufilər (Bağdadlı Əl-Cüneyd) isə səssiz zikr etməyi və sakit ibadət etməyi tövsiyə edirdilər. Onlar göstərirdilər ki, insan öz «Mən»ini itirib, Allahın «Mən»ində vücuda gəlir.

XI-XII əsrlərdə sufizm təlimi daha geniş yayılmışdır. Sufilikdə «Vəhdət əl Vücud» mühüm yer tuturdu. Bu terminin banisi İbn əl Ərəbi (1165-1240) olmuşdur. Onun əsasını sufi metafizikası və kəlam təşkil edirdi. «Vəhdət əl-Vücud» təliminə görə dünyanın fövqündə duran «vəhdət» adlanan mütləq varlıq aləmin cisimlərində özünü görmək, təzahür etdirmək istəyir. Aləmin xəlq olunmasının səbəbi məhz bu istəkdir. Başqa yaradılanlardan fərqli olaraq insan ilahinin atributlarını daha yığcam və bütöv əks etdirir. Beləliklə də kamil insan bir növ «ilahinin surəti» kimi çıxış edir.

Sufilikdə buna qarşı çıxan başqa bir təlim «Vəhdət-əş Şühud» (Şahidliyin vəhdəti) da mövcud olmuşdur. Onun banisi Ə.Simmani (1261-1336) hesab olunur. Onun tərəfdarları

«allaha qovuşmağı», «allahla birləşməyi» rədd edirdilər. Onlar şəriət-təriqət-həqiqət ardıcıllığının yerini dəyişirdilər. Onların fikrincə həqiqət-təriqət-mərifət olmalıdır. Çünki, həqiqi bilik yalnız sünnə və şəriətin tələblərinə qeyd-şərtsiz əməl olunması sayəsində əldə edilə bilər.

Sufizmdə «Fəna» və «Bəqa» anlayışları da mühüm yer tutur. «Fəna» hərfən yox olmaq, sona yetmək deməkdir. Sufizmdə bu termin insanın öz şəxsi xassələrini itirməsi və ilahi keyfiyyətlər əldə etməsi mənasında işlənilir. «Bəqa» dedikdə insanın ilahiyə qovuşması və onda yerləşməsi başa düşülür. Sufilər göstərirdilər ki, əvvəlcə fəna, sonra isə bəqa baş verir. Əlbəttə söhbət insanın allaha substansional birləşməsindən getmir. Fəna və bəqa insanın keçirdiyi psixoloji haldır.

Sufilər islamın «allahdan mən yoxdur» kəlamını dəyişdirib, «məndən başqa mən yoxdur» şəklinə salmışlar. Sufizmə görə həyatın ali məqsədi-ilahi ilə mənəvi qovuşmaqdır. Bunun yolu isə əxlaqi təkmilləşmədir. Əxlaqi kamilləşmə insanı həqiqətə gətirib çatdırır.

Sufiliyin əsasını qoyanlar həqiqətə dörd mərhələdə çatmağı müəyyənləşdirmişlər. Birinci mərhələ şəriət mərhələsidir. Bütün müsəlmanlar dini qanunları, qaydaları, hüquqları mənimsəməlidir. Ikinci mərhələ təriqət mərhələsidir. Bu mərhələ insanın (sufinin) öz iradəsini allaha tabe etmək, müdriklik mərhələsidir. Üçüncü mərhələ-mərifət adlanır. Burada sufi ağlı, idrakı ilə deyil, öz könlü və qəlbi ilə varlığın allaha vəhdətini, xeyir və şərin nisbətini başa düşür. Nəhayət, dördüncü mərhələ həqiqət adlanır. Bu mərhələdə sufi artıq ilahi həqiqətə yetişir, onun qəlbi nur ilə dolur. O ekstaz vasitəsilə allaha qovuşur.

Orta əsr şərq fəlsəfəsində allahın hər yerdə və hər şeydə təzahür etməsi ideyası geniş yayılmışdı. Bu ideya zəminində panteizm (hərfi mənası allahın təbiət ilə qovuşdurulması və eyniləşdirilməsi deməkdir) təlimi formalaşıb, inkişaf etmişdir. Panteistlər şəxsi allah ideyasını bir kənara qoyurdular. Onu təbiət kimi təsəvvür edirdilər. Hələ islam panteizminin təşəkkül

tapdığı ilk dövrdən başlayaraq allah təkcə insanla deyil, həm də təbiətlə eyniləşdirilirdi. Beləliklə allahı təbiət nümunəsində obyektivləşdirmək panteizmin səciyyəvi cəhətidir. Şərqdə panteizm sufiliklə əlaqədar formalaşmışdır. Onun banisi misirli Zun əl-Misri (ıx əsrin ortaları) olmuşdur. Panteizmin əsasları sufi şeyxləri (əl-Bistami, Əl-Cüneyd və başqaları) tərəfindən işlənib hazırlanmışdı. Lakin allaha qovuşmağın üsularını Əl-Həllac (x əsrdə) irəli sürmüşdür. O göstərirdi ki, ekstaz halında ilahi ruh insana daxil olur və insanın hərəkətləri ilahinin hərəkətlərinə çevrilir. Əl-Həllac belə vəziyyətdə insanın ilahi ilə eyniləşdiyini göstərən «Ən əl-haqq» (mənəm allah) şüarını irəli sürmüşdür. Buna görə onu edam etmişdilər. O «vəhdət əl-vücudun» panteist şərhini verirdi.

## 16. Cəlaləddin Rumi

Orta əsrlərin ən böyük türk mistik şairi Mövlanə Cəlaləddin Məhəmmədin (1207-1273) ədəbi təxəllüslərindən biri Rumidir.

Cəlaləddin Ruminin sufilik fəlsəfəsinin hərtərəfli araşdırıcılarından olan fəlsəfə elmləri doktoru, professor Yusif Rüstəmov yazır: «Elə mütəsəvvüf-sufi mütəfəkkirlər var ki, onlardan tək birinin həyatını və dünyagörüşünü araşdırmaq alimin bütün həyatının məzmununu təşkil edə bilər. Onlardan biri, bəlkədə ən görkəmlisi Mövlanə Cəlaləddin Rumidir».

Cəlaləddin Rumi özünün xüsusi fəlsəfi baxışlar sistemini, eləcədə orijinal mistik «yolu»nu yaratmışdır. Cəlaləddin Rumi hərtərəfli erudisiyaya, intellektual və poetik istedada malik olmuşdur. Əttar, Mütənabi, Xəllac, Bəyazid Bistami, Qəzali və başqalarının əsərlərini və görüşlərini dərindən öyrənmişdir.

Rumi dərin dini etiqad adamı olmuşdur. Lakin onu hansısa müəyyən sufi məktəbinin tərəfdarı və ardıcılı adlandırmaq çətindir. O elə bir dövrdə yaşamışdır ki, o zaman adamlar cəmiyyətdə və dünyada yerini yalnız din və ilahiyyat prizmasından müəyyənləşdirə bilərdi. Elə buna görə də Rumi daim öz yaradıcılığında həyatı və ideal olanı, bəşəri və mistik olanı

birləşdirməyə çalışmışdır. O bütün mistiklər kimi öz poetik dühası ilə bir vəzifəni-insan və Allahın qarşılıqlı münasibəti problemini başa düşməyə və həll etməyə çalışmışdır. Onun nöqteyi-nəzərinə görə dünyada yarananların kamilliyi insanda təcəssüm tapır. İnsan həqiqətə çataraq inkişafın bir dövrünü tamamlayır və həmin an digər dövr başlanır.

«Məsnəvi» şairin yaradıcılığının zirvəsidir. Əbdürrəhman Cami «Məsnəvi»ni «fars dilində yazılan Quran» kimi ifadə etmişdir. Əsərdəki pritça və hekayələrin əksəriyyətinin mənbələri şərq ədəbiyyatında mövcuddur. O eyni zamanda müxtəlif xalqların folkloruna müraciət etmişdir. Əsər yalnız ilhamın məhsulu olmuşdur. Məsnəvini özü deyil, sevimli şagirdlərinə diqtə etməklə yazdıran Rumi sözün həqiqi mənasında möcüzə yaratmışdır.

Mövlana haqqında roman yazmış Radi Fiş yazırdı: "Dünya ədəbiyyatı "Məsnəvi" kimi başqa kitab görməyib və görmür. Ondan başlayaq ki, bu kitab yazılmayıb, şair tərəfindən söylənilib. Oxumaq üçün deyil, ucadan deyilərək dinləmək üçün poeziyadır XX əsr şairlərinə aid edilən novatorluq hələ on üşüncü əsrdə Cəlaləddin tərəfindən həyata keçirilib.

Professor Yusif Rüstəmov yazırdı: "Məsnəvi"nin əvvəlcədən düşünülmüş planı olmayıb, o heç bir qayda-qanuna tabe deyil. Yalnız bir qanun onu hərəkətə gətirir – azadlıq. Fikir, ruh azadlığı, ifadə etmək azadlığı, assosiasiya azadlığı".

Mövlana hesab edirdi ki, onun poeması Quranın daxili mənasını açır. O, tez-tez Qurana və Məhəmməd peyğəmbərin hədislərinə müraciət edir, 760 dəfə Qurandan, 745 dəfə hədislərdən sitat gətirirdi. Sufi təliminə uyğun olaraq o, Quranın və hədislərin çox hissəsini gizli, dərin hiss olunmayan, məntiqlə izah edilməyən məna daşıdığını deyirdi.

"Məsnəvi"də olduqca çox mövzudan bəhs edilir. Onları şərti olaraq aşağıdakı kimi qruplaşdırmaq olar; ) Allah, Peyğəmbər, Quran; 2) varlıq, surət və məna. nur və zülmət; 3) elm, ağıl,

idrak, fəlsəfə; 4) bədən və ruh, nəfs, səbr, tövbə; 5) İlahi eşq; 6) zahidlik; 7) bir sıra dini-fəlsəfi anlayışlar və .b

"Məsnəvi" Kainatın bütünlüklə Allahdan olması, yəni bütünlük idealı aşılıyır. Qurandakı tövhidin (birliyin) müsəlman üçün yeganə həyat prinsipi olduğunu söyləyir. Mövlanaya görə vəhdət anlayışından məhrum olan hər bir insan Allahdan uzaqdır. (Y.Rüstəmov. Mövlana Cəlaləddin Ruminin sufilik fəlsəfəsi, Bakı, Nurlar, 2006, s.61).

Cəlaləddin Ruminin yaratdığı əsər haqlı olaraq sufi poeziyasının zirvəsi, müsəlman mistisizminin ensiklopediyası hesab edilə bilər.

*Yoxlama sualları:*

1. Ərəb-Müsəlman fəlsəfəsi
2. Fərabi fəlsəfəsi
3. İbn-Sina fəlsəfəsi
4. İbn-Röşd fəlsəfəsi
5. Saflıq qardaşlarının fəlsəfəsi
6. Sufilik
7. Cəlaləddin Rumi.

# VIII MÖVZU

# ORTA ƏSRLƏRDƏ AZƏRBAYCAN FƏLSƏFƏSİ

## 1. Bəhmənyar

Əbül Həsən Mərzban oğlu Bəhmənyar (. – 1065) Şamaxı şəhərində anadan olmuşdur. Bizə gəlib çatan bioqrafik məlumatlar olduqca azdır. Öz dövrünün ideoloqu olan filosof hakim ictimai quruluşun allahın iradəsi ilə mövcudluğuna inanırdı.

Azərbaycan filosofu bir sıra qiymətli əsərlərin müəllifidir: «Təhsil kitabı», «Məntiqə dair zinət kitabı», «Gözəllik və səadət kitabı», «Musiqi kitabı», «Metafizika elminin mövzusuna dair traktat» və «Mövcudatın mərtəbələrinə dair traktat».

O fəlsəfə aləmində bir məntiqçi kimi tanınır.

Bəhmənyarın yaradıcılığında «Təhsil» kitabı mühüm yer tutur. Filosofun bu əsərində Empedokl, Evklid, Sokrat və Platonun əsərlərindən iqtibaslar gətirilir. Bəhmənyar özünəqədərki Şərq və Yunan filosoflarının yaradıcılığını dərindən öyrənmiş, onların dünyagörüşündən hərtərəfli istifadə etmişdir. Bu baxımdan «Təhsil» kitabı orta əsrlərdə məntiq, metafizika və təbiyyəti öyrənmək üçün mühüm mənbələrdən biri olmuşdur.

Bəhmənyar da digər peripatetiklər kimi varlığı iki yerə (zəruri və mümkün) bölürdü. Onun fikrincə mümkün varlıq da öz növbəsində iki hissədən ibarətdir. 1) substansiya, 2) aksidensiya. Filosofun fikrincə substansiya mahiyyətdir, mahiyyət olmayan heç nə substansiya deyildir. Bəhmənyar öz sələfləri kimi mövcudatı bir sıra mərtəbələrə bölürdü. Onun fikrincə dünyanın zamanca başlanğıcı yoxdur, o əzəli və əbədidir. Filosof «Təhsil» kitabında mərtəbələri aşağıdakı kimi göstərirdi: ilk səbəb; ilk nəticə; materiya və formadan təşəkkül tapmış göy sferaları; onlara aid planetlər; fəal əqllər və nəfslər; ünsürlər aləmi.

O substansiyanı beş yerə bölürdü: materiya, forma, cisim, nəfs və əql.

Bəhmənyarın fəlsəfəsində materiya və onun mövcudluq formaları ətraflı şərh edilmişdir. Aristotel təlimini öz baxışlarının mərkəzinə qoyan mütəfəkkir qeyd edirdi ki, bütün maddi olanlar mürəkkəb, mənəvi olanlar isə sadə, dağılmaz və ölməzdir. Filosof boş məkanın mövcudluğunu inkar edir və qeyd edirdi ki, cisim olmayan yerdə məkan da yoxdur. O hərəkəti materiyadan ayırır və göstərirdi ki, heç bir şey öz-özünə hərəkət etmir, hər bir şeyin hərəkətinin səbəbi kənardan gələn qüvvə ilə bağlıdır.

Onun ontoloji baxışlarının əsas məcmusu aşağıdakılardır:

-mövcudluq səbəbsizdir,

-mövcudluq ilkin başlanğıcdır, öz-özlüyündə mövcud olan allahdır,

-allah hər şeyin səbəbidir,

-zəruri mövcudluq dərk olunandır,

-hər şeyin reallığı yalnız zəruri mövcudluğa münasibətdə realdır.

Bəhmənyar idrak nəzəriyyəsində idrak prosesinin hissi və əqli olmaqla iki mərhələdən keçdiyini qəbul edirdi. (Z. Məmmədov). İnsanın birinci ağlının hissi olduğunu qeyd edərkən o göstərirdi ki, bu ağıl hiss orqanlarının fəaliyyəti ilə bağlıdır. Potensial əbədi ağılın sayəsində yaranan «adi» ağıl (ikinci ağıl) da materiya ilə əlaqədardır, çünki o zamanda inkişaf edir. İdrakın yüksək forması əqli idrakdır.

Bəhmənyarın qneseoloji baxışlırını belə ifadə etmək olar:

- Allah zəka, bilik, iradə və qüdrətdir
- zəka gerçəkliyin dərki vasitəsidir
- həqiqətin əsası düzgün düşünmədir
- maddi cisimlər hissi idrak vasitəsilə öyrənilir
- məntiq təfəkkürü səhflərdən qoruyur

Bəhmənyarın Azərbaycan fəlsəfəsi və ictimai fikrində özünəməxsus yeri vardır.

## 2. Eynəlqüzat Miyanəci

Orta əsrlərdə Azərbaycanın və müsəlman Şərqi ölkələrinin fəlsəfi fikrində Eynəlqüzat Miyanəçi (1093-1131) mühüm rol olynamışdır. Hələ gənc yaşlarından azadfikirlilik üstündə islam xadimləri tərəfindən təqib olunmuş, kafir elan edilərək Həmədanda edam edilmişdir.

Əsas əsərləri «Həqiqətlərin məğzi», «Müqəddimələr», «Qəribin şikayəti»dir. Onun fəlsəfi baxışları panteizmə yaxındır. Belə ki, Miyanəçi Allahı çoxsaylı atributlara malik olan substansiya hesab edirdi. O, varlığı zəruri və mümkün növlərə bölən peripatetizm ilə razılaşaraq, mövcudatın mərtəbələrinin ilk səbəb sayılan vacib varlıqdan yarandığını göstərən emanasiya prinsipini qəbul etmirdi. Onun dünyagörüşünə görə allah öz müxtəlifliyi ilə bütün digər varlıqların mənbəyidir. Miyanəçi səbəb ilə nəticə arasında münasibətin zəruriliyini görmüşdü. Miyanəçinin fikrincə şeylərin mövcudluğu və qeyri mövcudluğu onların allah ilə münasibətindən asılıdır. Filosof cisimləri cansızlara və canlılara bölür və qeyd edirdi ki, ikincilər nəfsə (ruha) malikdir. O insanın varlığını xüsusi təhlil edərək bu nəticəyə gəlirdi ki, bu varlıq cismin və düşüncəli nəfsin vəhdətindən təşəkkül tapır. Miyanəçinin varlıq təlimində predmetlərin atributları onların mahiyyətləri ilə yanaşı keyyfiyyətlərini (hallarını) da ifadə edir.

Mütəfəkkirin idrak nəzəriyyəsində idrak prosesi üç mərhələdə (hissi, əqli və əql arxası (mərifət-intuisiya) göstərilir. O qeyd edirdi ki, hissi idrakın müəyyən imkan hüdudları vardır. Bundan sonra idrakın əqli mərhələsi gəlir. Onun fikrincə idrakın hər bir növü özünəməxsusdur, duyğu, qavrayış və əql birbirini əvəz edə bilməz.Miyanəçinin idrak nəzəriyyəsində «eşq» anlayışı mühüm yer tutur. O, eşqi allahı dərk etməyin göstəricisi, aşiqi məşuqə qovuşduran qüvvə adlandırırdı.

Miyanəçinin yaradıcılığında dialektika məsələləri də geniş yer tutmuşdur. O şeyləri daim dəyişmədə, əmələ gəlmə və yox olma halında təsəvvür edirdi. Miyanəçi kəmiyyət dəyişmələ-

rinin keyfiyyət dəyişmələrinə keçdiyini anlamağa yaxınlaşmışdı.

Filosofun panteist fəlsəfəsində ən mühüm mənada götürülən «varlıq» anlayışı son nəticədə «allah» anlayışı ilə eyniləşdirilir. Bununla bərabər allah «varlığın mənbəyi və çıxış yeri» sayılır. Ayrı – ayrı şeylər aləmi bütövlukdə həm vahid, həm də çox olan mütləq, sonsuz varlığın, allahın xarici təzahürləridir. O bunu belə bir misalla aydınlaşdırır: «Bil ki, Günəş vahid olsada, ondan çıxan şüalar çoxdur. Haqdır ki, deyilə: Günəş çoxdur, şüalar isə vahiddir». «Qəribin şikayəti» traktatından məlum olur ki, bu müddəa müsəlman ilahiyyatçılarını qəzəbləndirmişdi.

Panteist filosof kreatsionizmi (dünyanın bir ilahi hökm ilə heçdən xəlq olunması haqqındakı dini təlim) qəbul etməmiş, emanasiya nəzəriyyəsini isə kəskin tənqid etmişdir. Filosofun varlıq təlimində allah hər şeyin yeganə səbəbidir, hər şey onun sayəsində mövcuddur.

Miyanəçinin təlimində güclü dialektika ünsürləri özünü göstərir. Belə ki, o şeyləri və hadisələri daim dəyişmədə, meydana çıxma və yox olmada, ziddiyyətli inkişafda görürdü.

Miyanəcinin fəlsəfi təlimi Şərq ölkələrində azadfikirliliyin və panteist ideyaların yayılmasına böyük təsir göstərmişdir. Onun əsərləri zəminində İbn Ərəbi, Mahmud Şəbüstəri, İmaddədin Nəsimi və başqa görkəmli sufi- panteist mütəffəkirlərin fəlsəfəsi yaranmışdır.

### 3. Nizami Gəncəvi

İlyas Yusif oğlu Nizami (1141-1209) Azərbaycanın Gəncə şəhərində anadan olmuşdur. O beş poema, «Xəmsə» («Beşlik») və zəngin «Divan» müəllifidir.

Nizami öz fəlsəfi dünyagörüşündə təbiəti vahid canlı varlıq hesab edirdi. Dünya ruhu və yaxud «ruhlar ruhu» ona can verir. Nizami bu zaman təbiətin universal fəaliyyətini «cazibə»

adlandırırdı. Onun fikrincə təbiətin can verilmiş bir hissəsi digər hisslərini özünə cəlb edir. Bu «cazibə» Nizamiyə görə «məhəbbət» adlanır. O «Xosrov və Şirin» də yazırdı:.

Kainatda hər şey cəzbə bağlıdır
Filosoflar bunu eşq adlandırır.

Nizaminin fəlsəfi dünyagörüşünün əsas tərkib hissəsi onun kosmoloji baxışları olmuşdur. Mütəfəkkir şair öz dövrü üçün qeyri-adi astronomik biliklərə yiyələnmiş, antik dövrdən irs qalan belə bir hipotezi xatırlatmışdır ki, ulduzlar özlərinin səmaları və yerinə malik olan xüsusi dünyalardır.

O Aristotel və Ptolomeyin yerin kürəyəbənzər olması haqqında təlimlərinə tərəfdar çıxmışdır. Bədən və ruhun münasibəti haqqında olan kəskin müzakirələrdə müntəzəm iştirak etmişdir.

Nizaminin irəli sürdüyü ideyalar bəzən dini ortodoksiyaya tamamilə zidd gəlirdi. Nizaminin ruhun bədənlə əlaqəsini təsdiq etməsi də dini ehkamlara zidd idi.

Öz fəlsəfi fikrinin həcmi,dəyəri və mahiyyətinə görə Nizami dövrünün, eləcə də sonrakı dövrlərin mütəfəkkirlərindən yüksəkdə dururdu. Belə ki, Nizaminin dünyagörüşündə zəngin dialektika ünsürlərinə rast gəlmək mümkündür. Buraya mövcud olanların ziddiyyətləri, cisimlərin inkişaf prosesində bir-birilə əvəz olunması haqqında fikirlər daxildir. İdrak prosesində, gerçəkliyin dərk olunmasında Nizami insan ağlının rolunu yüksək qiymətləndirmişdir. Lakin o yalnız hiss edilən və görülən şeylərin dərk edildiyini irəli sürməklə insan idrakının sərhədlərini məhdudlaşdırırdı.

Cəmiyyətə baxışlarında idealist mövqedə duran Nizami belə hesab edirdi ki, cəmiyyətin əsasını ədalət ideyası təşkil edir. Lakin o ideal cəmiyyəti, xoşbəxtlər ölkəsini də təsvir etmişdir. Onun təsvirlərində məhsuldar tarlalar, hasarsız bağlar, çobansız sürülər, qapısı olmayan cənnət kimi abad şəhərlər, qıfılsız dükanlardan bəhs edilir. Bu ölkənin əhalisi sinifli cəmiyyətin qayda-qanunlarına zidd olan prinsiplər əsasında yaşayan din-

dar, yüksək əxlaqlı, düzlük sevən, yalan danışmayan insanelardır. Nizaminin təsvir etdiyi ölkə, bu ölkənin həyatı, ictimai münasibətləri böyük mütəfəkkirin humanist arzularının bəhrəsi idi.

Nizami bərabərlik, ədalət prinsipləri, bəşəriyyətin ən qədim zamanlardan bəri arzu etdiyi nəcib arzuların, yüksək insani münasibətlərin həqiqi poetik ifadəsini «İsgəndərnamə» əsərində verə bilmişdir. Nizaminin əsərləri öz dövrünün bir növ ensiklopediyası sayıla bilər. Orada fəlsəfi ideyalarla yanaşı astronomiya, təbiətşünaslıq, təbabət, psixologiya, pedaqogika, tarix, etika, estetika, iqtisadiyyat və siyasət haqqında da dəyərli və zəngin məlumatlar vardır.

### 4. İşraqilik fəlsəfəsi: Şihabəddin Yəhya Sührəvərdi

Şihabəddin Yəhya Sührəvərdi (1155-1191) işraqilik fəlsəfəsinin banisidir. Şərqdə «öldürülmüş filosof» (əl-Fəyləsüf əl məqtul) kimi tanınır. O, neoplatonçuluğu aristotelçiliklə birləşdirərək islam dini mövqeyindən şərh etməyə çalışmışdır. Filosofun fəlsəfəsi «İşıq heykəlləri» əsərində aydın şərh olunmuşdur. Bu əsər müqəddimə və yeddi fəsildən (heykəldən) ibarətdir. Sührəvərdi heykəl anlayışını maddi aləmin cisimləri mənasında işlətmişdir. O, yeddi sayını cisimlərin növləri, yeddi planet, yeddi imam (İsmailikdə) ilə əlaqələndirir: efir, hava, su, torpaq, mineral, bitki və heyvanat. Bunlar işığın obyektidirlər, yəni işığı qəbul edənlərdir. Günəş öz şüalarını törədir. Günəş təkdir, şüalar isə çoxdur. işıq mənbəyi işığı törətdiyi kimi, Allah da gerçəkliyi yaradır. Allah təkdir, amma onun yaratdığı cisimlər çoxdur. Günəş işıqlar işığıdır, formalar forması allahdır. İşıqlar işığı səbəbdir, onun saçdığı şüalar nəticədir, zaman etibarilə işıqla şüa arasında fərq yoxdur.

Hər bir mövcudluğun mənbəyi və enerjisi Sührəvərdiyə görə Ali nur (nur əl-ənvar) yaradır. Maddi dünyanın «zülmətindən» işıq impulsunun enməsi və qradasiyası ondan başlanır.

Ali işıqla onun əks cəhətləri olan maddi şeylər dünyası, eləcə də işığın səviyyələri və qradasiyaları arasında iyerarxik əlaqə mövcuddur.

Sührəvərdi mövcud vəziyyəti mələklərin iyerarxik qaydalarının müxtəlif səviyyələri ilə eyniləşdirirdi. Sührəvərdinin zərdüştlük simvolikasından istifadə etməsi onun ekumenik probleminin qoyuluşuna uyğundur. Onun fikrincə bütün dinlərin əsas həqiqəti birdir. Bir dini ənənənin konsepsiyasından digər dinin konsepsiyasını şərh etmək üçün istifadə oluna bilər.

Sührəvərdiyə görə işığın hər bir səviyyəsi arasında özünəməxsus «keçid», hər hansı «maneə» mövcuddur ki, o, ancaq işığın nəzərdə tutan miqdarını buraxır. İşıq dünyası ilə qaranlıq dünyası arasında sərhəd hərəkətsiz ulduzlar sferası arasından keçir. Burada işıq maddi «maneələrlə» görüşür, sonra isə onun tərəfindən unudulur. İlk mənbələrin «hüceyrəsi» sistemi qidalandırır. Bu isə onlara «işləmə» imkanı verir və «əcdad – işıq» olduğunu sübut edir. Çünki varlığın gələcəyi onlarda başlanğıca malik olur. Onlar özlərində ən ümumi şəkildə gələcək varlıq anlayışını əks etdirir və onların konkret reallaşması bizim maddi dünyamızı yaradır.

Sührəvərdi kainatın mahiyyətini də təhlil etməyə çalışmışdır. Onun fikrincə kainat saf işıqdır. Meteroloji hadisələrin izahı zamanı Sührəvərdi İbn Sinanın və Aristotelin təsəvvürlərini müdafiə edir, lakin bu zaman şeylər daxilindəki dəyişikliklərə iddia edən konsepsiyanı rədd edirdi.

Sührəvərdi insanları onların təmizlənməsi və nurlanması səviyyəsinə görə də qruplara bölür. Bu təmizlənmə onun digər dünyadakı statusu arasında səbəb-nəticə əlaqəsini bərqərar edir. Bu üç qrup aşağıdakı kimi verilir: 1) avamlıq qaranlığında qalanlar (aşkiyo) 2) müəyyən dərəcədə təmizlənənlər (sudat) 3) özünü təmizləyənlər, nurlanmağa nail olanlar (muta allixun).

Sührəvərdi əvvələr əbədi fəlsəfə (philusophia Perrenis) tərəfdarı olmuşdur. O təsdiq edirdi ki, bütün həqiqətləri Allah tərəfindən verilmiş dinlərdə tapmaq mümkündür.

Ümumiyyətlə Sührəvərdinin təlimi islam fəlsəfəsinə böyük təsir göstərmiş, islam fəlsəfəsinin inkişafı tarixində dönüş nöqtəsi olmuşdur. Onun baxışları rasionalist fəlsəfə ilə mistisizmin yaxınlaşmasına təkan vermişdir.

Sührəvərdi fəlsəfəsinin əsas məqsədi insanın, onun ruhunun ilkin mənbəyinə gedən yolu göstərməkdir. Rasionalist fəlsəfəni öyrənən, həqiqətə nail olmağa çalışan insan sonralar mütəfəkkirlər sırasına daxil ola bilir.

Sührəvərdi göstərirdi ki, hər bir idrak aktı üçün özünüdərk zəruridir. Bəşəri «mən» qeyri-mediativ və vasitəsiz kontakt yolu ilə özünü dərk edir.

Onun fikrincə idrak üç pillədən ibarətdir: tədqiqi fəlsəfə, sübut fəlsəfəsi və ilahiyyat fəlsəfəsi. Filosofun fikrincə mahiyyət mövcud olan şeylərin başlıca aspektidir, mövcud olma ikincidir.

O öz şerlərində cəmiyyətdəki ictimai bərabərsizliyi, haqsızlığı, ədalətsizliyi qəbul etmir, xalqa layiqli adamların başçılıq etməsini zəruri hesab edir.

Sührəvərdinin fəlsəfi baxışları «Qeydlər», «Müqavimətlər», «Baxışlar», «Filosofların görüşləri», «Cəbrayıl qanadının səsi», «Qızğın əql», «Eşqin həqiqəti və ya aşiqlərin munisi», «İşıqnamə», «İşıq heykəlləri», «İşraq fəlsəfəsi» və başqa əsərlərində geniş şərh edilmişdir.

## 5. Nəcməddin Naxçıvani

Nəcməddin Əhməd Əbubəkr oğlu Naxçıvani (1184-1253) Naxçıvan şəhərində doğulmuş, sonra isə şərq ölkələrini gəzərək tanınmış bir azərbaycan filosofu kimi məşhur olmuşdur. Nəsirəddin Tusinin şagirdi İbn əl İbri (1226-1286) Nəcməddin Naxçıvani haqqında yazır: «O böyük fəzilət sahibi, dəqiq elmlərin dərindən bilicisi» idi. Öz vətənində fəlsəfə ilə məşğul

olurdu. Ölkələrə səyahətə çıxdı, xeyli gəzib dolaşdı, axırda kiçik Asiyaya daxil oldu, böyük mənsəblər tutdu. Oradan Suriyaya yola düşdü».

Görkəmli fəlsəfə tarixçisi Zakir Məmmədov onun fəlsəfi dünyagörüşünü ətraflı təhlil etmiş və bu nəticəyə gəlmişdir ki, N.Naxçıvani peripatetik fəlsəfənin problemlərini dərindən araşdırmış, məntiqə və təbiətşünaslığa böyük əhəmiyyət vermişdir. Bununla belə o, ardıcıl aristotelçi olmamışdır. Azərbaycan filosofu ərəb dilli peripatetizmin, onun görkəmli nümayəndəsi İbn-Sinanın fəal təbliğatçılarından sayılmasına baxmayaraq bir sıra doktrinaları tənqidi planda nəzərdən keçirmişdir. (Z.Məmmədov Azərbaycan fəlsəfəsi tarixi, Bakı, İrşad, 1984, s196).

Filosofun «Məntiqin məğzi və fəlsəfənin xülasəsi» əsərini, «Tibb qanunu», «İşarələr və qeydlər» əsərlərinə yazdığı şərhləri (bu əsərlər Şərq ölkələrinin bir sıra kitabxanalarında saxlanılır) dərindən təhlil edərkən N.Naxçıvaninin dövrünün məşhur filosofu olduğunu görürük.

O fəlsəfənin «nəzəri» və «əməli» hikmət adı ilə iki yerə bölünməsini qəbul edir və məntiqə xüsusi əhəmiyyət verirdi. Filosof məntiqi fikri və əməli xətalardan qoruyan vasitə, elm hesab edir, onu riyaziyyata bənzədirdi. Naxçıvani məntiqi idrak formalarını, insan idrakının zənginləşməsində onun rolunu yüksək qiymətləndirirdi.

Filosof İbn-Sina kimi fəlsəfi kateqoriyaları qəbul edir, varlıq anlayışını izah edərkən bütün təbiəti qüvvə və hərəkət əlamətləri ilə izah etməyə çalışırdı. Cismin daxili hərəkət qüvvəsini əsas götürən N.Naxçıvani zamanın hərəkətlə ayrılmazlığı fikrini bəyanirdi. O maddi olanla mənəvi olanı əlaqəli şəkildə izah edirdi.

Tənasüx təliminə güclü meyl göstərən filosof göstərirdi ki, ruh bədənin ölümü ilə məhv olmur, dəyişməz şəkildə yaşayır. O ruhu bədəndən əvvəl hesab edir və qeyd edirdi ki, ruh bədənin yaradıcısıdır. Ruhun tərk etdiyi bədən, cəsəddən başqa bir şey deyildir. Ruh öz özünü dərk edir, bədən isə hiss üzvləri ilə,

duyğu vasitəsilə qavranılır. Bədənin ölümündən sonra ruhun öz fərdiliyini saxladığını və başqa bədənə köçdüyünü irəli sürən Naxçıvani İbn Sinanın əsərlərini ortodoksal islam nöqteyi-nəzərindən şərh etməmiş, onun əleyhinə olmamış əksinə öz dünyagörüşünə uyğun olaraq daha elmi mövqedə dayanmışdır.

Naxçıvaninin fəlsəfi və elmi fəaliyyəti dövrünün fikir adamları tərəfindən yüksək qiymətləndirilmişdir. Ərəb müəllifi İbn Bibi onu «bütün elmlərdə və fənlərdə dalğalı dənizə və yağışlı buluda bənzətmiş», dünyəvi və dini elmləri mükəmməl bilən bir mütəfəkkir olduğunu göstərmişdir. (Naxçıvan Ensiklopediyası, Bakı, 2002, s.437)

### 6. Nəsirəddin Tusi

Azərbaycanda peripatetizmin görkəmli nümayəndələrindən biri də məşhur astronom, riyaziyyatçı, coğrafiyaçı Nəsirəddin Tusidir (1201-1274). O dünya şöhrətli Marağa rəsədxanasının əsasını qoymuşdur.

Nəsirəddin Tusinin Marağa rəsədxanasında tərtib etdiyi «Zic Elxani» astronomik kataloqunda XIII əsrin 256 başlıca yaşayış məskəninin coğrafi koordinatları verilmişdir. Nəsirəddinin cədvəlindən Avropada geniş sürətdə istifadə edilmişdir. İki əsr ərzində o alimlərin illik cədvəllər təşkil etməsinin yeganə məlumat mənbəyi olmuşdur. Filosofun Evklidin əsərinə dair şərhi daha çox məşhur olmuşdur.

Fəlsəfi görüşlərində Nəsirəddin Tusi Bəhmənyarın təsiri altında olmuş, «İbn Sinanın fəlsəfəsi və məntiqinə şərhlər», «Teologiya və metafizikaya dair risalə», «Əxlaqi-Nasiri», «Alicənab insanların xarakterləri və keyfiyyətləri» və başqa əsərlərində İbn Sinanın fəlsəfi görüşlərini şərh etmiş, onu müsəlman ilahiyyatçısı Fəxrəddin Razinin hücumlarından qorumuşdur.

Tusi fəlsəfəni çox vaxt hikmət termini ilə əvəz edir, göstərirdi ki, hikmət hər şeyi olduğu kimi dərk etməyə, hər şeyi lazımınca yerinə yetirməyə deyilir.

Yunan filosofları, eləcə də Şərqin mütəfəkkir alimləri Fərabi, İbn Sina, Bəhmənyarın əsərləri ilə yaxından tanış olan Tusi yeri gəldikcə onlardan bəzilərinin fikir və mülahizələrdən istifadə etmişdir.

Nəsirəddin Tusi insanın ağlını çox yüksək qiymətləndirmişdir. Onun substansiya və aksidensiya haqqında maraqlı fikirləri olmuşdur. Tusi hərəkətin təbii və qeyri-təbii sərbəst və qeyri-sərbəst növləri olduğunu irəli sürmüşdür. Onun fikrincə əgər hərəkət yeknəsək olarsa, təbii hərəkət qeyri-təbii hərəkətə çevrilər. Hər hansı maddi cismin təbii hərəkəti materiyanın öz təbiətindən doğur. Tusi eyni zamanda qeyd edirdi ki, təbii hərəkət daimi deyildir. O müəyyən səbəblərin təsiri altında qeyri-təbii hərəkətə çevrilə bilər. Nəsirəddin Tusi idrak məsələlərinə də diqqət yetirmişdir. O digər görkəmli alimlər kimi belə hesab edirdi ki, insanı heyvandan fərqləndirən əsas cəhət ağıl və idrak sayılmalıdır.

İdrak təkcə insanlar arasındakı münasibətlərdə deyil, onun bütün hərəkətlərini tənzim edən rolunda da çıxış edir. Tusi insanın nəzəri və əqli fəaliyyətini onun təcrübi və əməli fəaliyyəti ilə əlaqəli şəkildə nəzərdən keçirirdi. O formanı materiyasız, materiyanı isə formasız təsəvvür etmirdi. Əgər Aristotel formanı substansiya adlandırırdısa və materiyanın formadan sonra yarandığını göstərirdisə Tusi bunu başqa cür izah edirdi. O göstərirdi ki, forma materiyadan törəmədir. Ona görə də materiya zəruri varlıq, forma isə mümkün varlıqdır. Materiya əbədidir, forma isə dəyişkəndir. Mövcud olan cisimlər yalnız formaca dəyişirlər.

Özünün varlıq haqqında təlimində o peripatetiklərin fikirərini davam etdirmişdir (zəruri və mümkün varlıq). O mümkün varlığı ətraflı şərh etmişdir. Tusi mümkün varlığı materiya, forma, cisim, əql və nəfsdən ibarət substansiya, habelə kəmiyyət, keyfiyyət, məkan, zaman və başqa kateqoriyalarda ifadə olunan aksidensiyaya bölür. Filosof qeyd edirdi ki, cisimlər materiya və formadan təşəkkül tapmışlar. O maddi aləmin

məhvedilməzliyi, əzəliliyi və əbədiliyi ideyasına müsbət yanaşmışdır. Ümumiyyətlə, Tusi varlığın dialektik inkişafını düzgün şərh etmişdir.

Nəsirəddin Tusi insanın təkmilləşməsində və ümumi inkişafında elmin rolunu yüksək qiymətləndirmişdir. O din və məzhəb məsələlərində hər şeyin kor-koranə qəbul edilməsinin əleyhinə çıxmışdır. Tusi müxtəlif dinlərdə adət-ənənəyə hörmət bəslənilməsini təbii hal kimi qəbul etmişdir.

Orta əsrlərdə geniş yayılmış sufilik ideyaları Tusi yaradıcılığına da öz təsirini göstərmişdir. Filosofun ictimai-siyasi görüşləri də maraqlı olmuşdur. O «insan-insan» və «insan-cəmiyyət» münasibətlərini dərindən nəzərdən keçirmiş və indi də öz əhəmiyyətini saxlamaqda olan maraqlı fikirlər söyləmişdir. O şəhərsalma prosesini çox yüksək qiymətləndirmiş, cəmiyyətin inkişafının şəhərlə bağlılığını xüsusi qeyd etmişdir.

Yaşadığı dövrün cəmiyyətini təhlil edərkən filosof qeyd edirdi ki, bu toplum ayrı-ayrı abstrakt fərdlər birliyi kimi deyil, müxtəlif zümrələrin və silklərin məcmusudur. O həmin zümrələri dörd qrupa ayırmışdır. Bu qruplar bir-bir ilə müxtəlif səbəbdən fərqlənirlər. Tusi yazırdı: «İnsanlar dörd təbəqədən ibarətdir: əmirlər, tacirlər, sənətkarlar, əkinçilər». O dörd təbəqənin hər birini ayrı-ayrılıqda təhlil etmiş və hər bir təbəqə haqqında öz mülahizələrini bildirmişdir.

Filosof mühüm etik xüsusiyyətlərin, əxlaqi prinsiplərin ümumbəşəri xarakterə malik olduğunu vurğulayaraq onların qorunmasını zəruri saymışdır.

Mütəfəkkir filosof dövlət başçısı, xalq, valideyn, övlad, tərbiyəçi, ümumiyyətlə tərbiyə məsələlərində ədalətli mövqenin həlledici rolunu yüksək qiymətləndirirdi. «Əxlaqi-nasiri» əsərində Tusi uşaqların tərbiyəsi haqqında da çox maraqlı fikirlər söyləmişdir.

O, istedad və qabiliyyəti ən böyük əxlaqi sərvət hesab etmişdir. Platon, Aristotel, Fərabi və Nizaminin ardınca o ictimai

utopiyanı əsas götürərək, «ideal insan», «ideal ailə», «ideal cəmiyyət» yaratmağa çalışmağın zəruriliyini irəli sürmüşdür.

## 7. Mahmud Şəbüstəri

Şeyx Mahmud Şəbüstəri Təbrizi (1287-1320) görkəmli Azərbaycan filosofu və şairi kimi tanınmışdır. O orta əsr Azərbaycan fəlsəfi fikrinin sufi-panteist istiqamətinin mütəfəkkir nümayəndələrindən biridir.

Öz zəmanəsinə görə mükəmməl təhsil almış Şəbüstəri ilahiyyat, fəlsəfə, riyaziyyat, astronomiya, təbabət kimi sahələrdə dərin məlumata, geniş erudisiyaya malik olmuşdur. M.Şəbüstəri Platon, Aristotel və eləcə də şərq peripatetiklərinin fikirlərini, neoplatonizmi və sufilik təlimlərini dərindən öyrənmiş, ərəb ölkələrini, Misiri, Suriyanı, İraqı gəzmiş, həmin ölkələrin görkəmli alimləri ilə tanış olmuşdur. O çoxsaylı əsərlərin müəllifidir. Filosofa dünya şöhrəti qazandıran əsəri isə «Gülşəni-raz»dır. Həmin əsər sonralar, ingilis, fransız, türk, latın, italyan, rus və digər dillərə tərcümə olunmuşdur. M.F.Axundov M.Şəbüstərinin panteizmini yüksək qiymətləndirmişdir.

Şəbüstəri maddi dünyada ziddiyyətlərin mövcudluğunu qəbul etmişdir. «Bütün şeylər ancaq ziddiyyətlərlə yaranır», «hər şey özünün əksinə çevrilir. Toxum məhsula çevrilən kimi» fikirləri ona məxsusdur.

Əsasən panteist tendensiyanı əks etdirən «Gülşəni-raz» əsəri orta əsrlərdə şərq alimlərini maraqlandırmış və bu əsərə çoxlu komentariyalar yazılmışdır.

Şəbüstəri qeyd edirdi ki, bu əsər Xorasanın o dövrdəki ən savadlı adamlarından biri Əmir Hüseynin suallarına cavab kimi yazılmışdır. Burada 15 fəlsəfi sualdan ibarət olan topluya verilən cavablar diqqəti cəlb edir. Əsərdə ətraflı təhlil edilən məsələ sufi-panteist təfəkkür tərzidir. Burada zəruri və mümkün olan varlığın nisbəti, idrak, ruhun təbiəti, ümumi, konkret, tam və hissənin nisbəti və başqa məsələlərə də toxunulmuşdur.

Sufi dostunun suallarına cavab kimi yazdığı əsərində M.Şəbüstəri İbn Ərəbidən sonra sufi fikrinin düzgün və sadə şərhini vermişdir. Əsərdə ilahi gözəllik təsvir edilmiş, bu gözəlliyin hər bir atomda, pərdə arxasında gizlənildiyi göstərilmişdir. Müəllif qeyd edir ki, gözəllik mütləq insanın baxışlarına o qədər aydın görünür ki, nəticə görünməz olur.

Ümumiyyətlə Şəbüstərinin poeziyasında azadfikirlilik və panteist təfəkkür tərzi öz əksini tapmışdır. Filosof başqa dinlərə etiqad edənlərə düşmən münasibəti cəhalət adlandırmış, büdpərəstliyi inkar etməmiş, dualizmi qəbul etməmişdir. Varlığın vəhdəti ideyasını müdafiə etməklə yanaşı, Şəbüstəri Mənsur Həllacın ardınca allahın insanda təcəssümünü xüsusi vurğulamış, insanın mütləq həqiqətə çatması üçün dörd mərhələni keçməsini zəruri saymışdır.

Mahmud Şəbüstəri təkcə təbiəti allahla eyniləşdirməmiş, eyni zmanda insanı da allah səviyyəsinə qaldırmışdır. O, özünün «Həqiqət axtaranların güzgüsü» adlı əsərinin altıncı və yeddinci bölmələrində insanı allahın ayrılmaz hissəsi hesab etmişdir.

Mahmud Şəbüstəri vahid varlığı iki hissəyə ayırır (daxili və xarici) və göstərirdi ki, əgər xarici hissə planetlərdən, elementlərdən (görünür, burada ənəvi dörd element nəzərdə tutulur), minerallardan, bitki və heyvanlardan ibarətdirsə, daxili hissə ruhlar dünyasından və əqldən ibarətdir. O eyni zamanda insanlarda həm daxili və həm də xarici hissələrin olduğunu irəli sürürdü.

Şəbüstəriyə görə insan ağlı nəzəri və praktiki tərəflərə malikdir. Birincisi ideya verir, ikincisi isə onu həyata keçirir. Yəni nəzəri ağıl praktiki ağılın fəaliyyətinin mənbəyi hesab olunur.

Mahmud Şəbüstəri zəruri varlıqdan danışarkən allahı nəzərdə tutmuşdur. Və bunu əsas götürmüşdür ki, allahın varlığı digər mövcudiyyətlərdən asılı deyildir.

Filosofun fikrincə mövcud olan hər şey iki kateqoriya çərçivəsində yerləşir. Zərurət və mümkün olanın xaricində heç

nə mövcud ola bilməz. Mahmud Şəbüstəri həmin iki kateqoriyadan əlavə, üçüncü kateqoriyaya da tərif verir. Bu qeyri mümkün anlayışının izahıdır. M.Şəbüstəri yaradıcı və yaradılmışın (allah və maddi aləm) izahını verərkən göstərilən üç kateqoriyaya əsaslanır ki, bu da onu Şərq peripatetiklərinə yaxınlaşdırır.

## 8. Məhəmməd Hinduşah Naxçıvani

Məhəmməd Hinduşah Naxçivani (1288-1366) tanınmış elm xadimləri nəslinə mənsub olan atası Hinduşah Naxçıvaninin yolunu davam etdirmişdir. Elmi irsindən dövrümüzədək iki əsəri qalmışdır. 1328-ci ildə başa çatdırdığı «Sihab əl fors» əsəri fars dilində işlədiləən üç minə yaxın sözün izahına həsr olunmuş lüğətdir. 25 bab və 431 fəsildən ibarət olan lüğətdə sözlərin izahı, etnoqrafik materiallar, leksika və fonetika ilə bağlı şərhlər verilmişdir.

Məhəmməd İbn Hinduşah dövrünün böyük filosofu kimi tanınmışdır. O Platon, Aristotel, əl-Kindi, Fərabi, İbn Röşd, İbn Sina, Bəhmənyar, Tusi, Nizami kimi məşhur mütəfəkkirlərin əsərlərinə müraciət etmiş və «Dəstur əl katib fi təyin əl-mərahib» (Dərəcələrin təyin edilməsində katiblər üçün göstəriş) adlı iri həcmli əsərini yazmışdır. İki hissədən ibarət olan bu əsər özünün fəlsəfi-etik, deduktiv-tərbiyəvi məzmununa görə məktəblərdə dərslik kimi istifadə edilmişdir. M.H.Naxçıvani eyni zamanda Azərbaycan dilinin zəngin tarixini hərtərəfli araşdırmış, onun inkişafında müstəsna xidmət göstərmişdir.

Filosof həyatın, kainatın, insanın yaranması haqda fikirlərini şərh edərkən qədim yunan fəlsəfəsi və şərq peripatetiklərinin mövqeyində durmuşdur. O insan idrakını allah tərəfindən verilmiş ən böyük xəzinə hesab etmiş, ancaq əql, idrak xəzinəsinə sahib olmaqla səhvi həqiqətdən ayırmağın mümkünlüyünü irəli sürmüşdür.

Filosofun fikrincə bütün mövcudatın səbəbi allahdır. O vacibül-vücud olan ilahi yaradıcını transendent hesab edirdi. O

əqlin allahdan törəməsini, xüsusilə təfəkkürün emanasiya yolu ilə əmələ gəlməsini qəbul edirdi.

M.H.Naxçıvani qeyd edirdi ki, insan yarandığı ilk gündən onun əql və zəkası da yaranmışdır. Bu sahədə o əl-badi, əl-bais, əl-batin, əl-axır, əl-zahir və başqa idraka məxsus terminləri qarşılaşdırır, «elmi idraka» üstünlük verirdi. Filosof həm dini, elmiləyan elmlərin (teologiya), həm də elmülyəqin (dəqiq elmlər) elmlərin əqlin məhsulu olduğuna görə öyrənilməsini vacib hesab edirdi. O bütün elm sahələrini, xüsusilə məntiq, ritorika, fiziologiya, dəqiq elmlər, yer elmlərini əqlin nəticəsi kimi qiymətləndirirdi. O istiqlal və tərəqqinin də əsasını elmdə görür, elmsiz «insanın heyvanatdan fərqli olmaması» qənaətinə gəlirdi.

Filosofun sosial baxışları da maraq doğurur. O dövlət quruculuğu məsələlərində monarxiya quruluşunun tərəfdarı olmuşdur. Mütəfəkkir dəsturlarını katexizis formada yazaraq, sual-cavab şəklində müxtəlif silklərin fikirlərini ifadə etmiş, onlara ictimai şəraiti dəyişdirməyin, onu yenidən qurmağın yollarını göstərmiş, dövrün hadisələrinə öz etiraz və təkliflərini də bildirmişdir.

Naxçıvani əməyi yaşayış və rifah üçün əsas saymış, onu formalara ayırmış, lakin hamının fiziki əməklə məşğul olmasını mütləq şərt saymışdır.

Onun yaradıcılığında sistemli əxlaq tərbiyəsi də öz əksini tapmışdır. «Dəstur əl-katib fi təyin əl-məratib» əsərinin ətraflı tədqiqi M.H.Naxçıvaninin dövrünün tanınmış şəxsiyyətlərindən biri olduğunu sübut edir. Onun əsərlərində müxtəlif əxlaq kateqoriyalarının şərhi, ailə tərbiyəsi məsələləri də geniş şərhini tapmışdır.

### 9. Hürufilik. Nəimi

Orta əsrlərdə Şərqdə nüfuzlu dini-fəlsəfi cərəyanlardan biri də hürufilik olmuşdur. Bu təlimin tərəfdarları da pifaqorçular

kimi hərfləri və rəqəmləri əşyalardan ayırırdılar. Onları müstəqil mahiyyət və hətta müqəddəs hesab edirdilər. Onların fikrincə dünya və insan ilahi qüvvənin keçdiyi beş emanasiya pilləsinin (dünya zəkası, dünya ruhu, ilkin materiya, məkan və zamanın) nəticəsi kimi yaranmışdır. Hürufilərə görə ərəb əlifbasının hərfləri və onların sayına əsaslanan hesablamalar dünyanın dairəvi hərəkətinin simvollarını ifadə edir.

Fəzlullah Nəimi (1340-1401) şiə mehdiçiliyini və sufiliyi birləşdirərək öz nəzəriyyəsini irəli sürmüş, həm ittihad, həm də vəhdət əl-vücud terminlərini işlətmişdir. O hürufiliyin banisidir.

Fəzlullah Nəimi hürufiliyin nəzəri əsaslarını «Cavidannamə», «Məhəbbətnamə», «Ərşnamə», «Növmnamə» və «Divan»ın hərtərəfli verə bilmişdir. Əlbəttə hürufi görüşlərinin mistik xarakter daşıması heç kimdə şübhə doğurmur. Nəiminin dünya görüşünün və hürufiliyinin fəlsəfi əsası ardıcıl panteizmdir. Panteizmə görə Allah təbiətin hüdudlarından kənarda yerləşməyib, onunla eyniyyət təşkil edən şəxssiz başlanğıcıdır.

Orta əsrlərin tanınmış azərbaycan filosoflarının əsərlərində panteizm ideyaları mühüm yer tutmuşdur. Nəimi dünyanın vəhdəti haqqında təlimində hərfin və yuxunun təbiəti, təyin və təyin edilən, məzmun və forma, onların əlaqəsi və başqa məsələlərdə əsasən azadfikirlilik mövqeyindən çıxış etmişdir. Ümumiyyətlə, islamın və Quranın şərhçisi kimi tanınan Fəzlullah əslində onları inkar etmişdir. Nəiminin ilahiləşdirilmiş və mərkəzində hər şeyə qadir insan duran panteist nəzəriyyəsinə görə dünya dərk ediləndir və insanlar dünyanı dərk etməlidirlər. Fəzlullaha görə idrak prosesində nitq, əql, ruh və təyinlərin rolu xüsusi vurğulanmalıdır. Gerçəklik, insanı əhatə edən aləm əbədi inkişaf prosesindədir. Onun fikrincə hər bir əvvəlki pillə özündən sonrakının başlanğıcıdır. Bu fikir «Cavidani-Kəbir», «Cavidannamə» əsərlərində irəli sürülmüşdür. Hürufilik bir şiə təlimi kimi əvvəlcə Naxçıvanda, sonralar Azərbaycan və Türkiyədə yayılmışdır. Hürufilərin kanonik ədəbiyyatını 6 «Cavi-

dannamə» təşkil edir. Birincini «Cavidani-Kəbiri» Fəzullahın özü, yerdə qalanlarını isə onun şagirdləri yazmışdır. Bu cərəyanın tərəfdarları rəsmi hakimiyyət tərəfindən təqib olunmuşlar.

Fəzullah və onun şagirdləri tərəfindən yaradılmış təlimə görə dünya Allah tərəfindən yaradılmışdır və fasiləsiz dairəvi hərəkətdədir.

Bizim gördüyümüz bütün, dəyişikliklərin səbəbi olan allah iki yolla təzahür edir. Allahın özünə bənzər yaradıcı insanla və allahın sözü olan Quranda allahın insanda təzahürü üç tsiklə bölünür. Bunlar da öz növbəsində bəşəriyyətin xilası mərhələlərini əks etdirir. Həmin mərhələlər aşağıdakılardır: peyğəmbərlik, ilahi hamilik və ilahilik.

Tədqiqatçıların fikrincə Fəzlullah Nəiminin qnesologiyasını orta əsr realizminin ifrat variantı kimi müəyyənləşdirmək olar. Şeylərin adları nəinki şeylərdən əvvəl mövcud olmuşdur, eyni zamanda onların mahiyyətidir. Şeylərdən adını götürmək deməli, onları varlıqdan məhrum etməkdir. Şüurda şeylərin mövcudluğu yeganə mümkün varlıq kimi nəzərdən keçirilir. Buradan çıxan nəticə budur ki, söz kainatın əsası və mənbəyidir.

## 10. İmadəddin Nəsimi

Seyid Əli İmadəddin Nəsimi (1369-1417) mükəmməl təhsil almış, fəlsəfə, məntiq, kəlam, riyaziyyat, tarix, təbiət və nücum elmlərinə dərindən bələd olmuşdur, yunan fəlsəfəsi ilə yanaşı Azərbaycan mütəfəkkirlərinin əsərlərini də öyrənmişdir. Onun yaşadığı dövrdə Azərbaycan, eləcədə bütövlükdə Yaxın Şərq ölkələrində sufilik və hürufizm təriqətləri geniş yayılmışdı. Nəsiminin dünyagörüşü Şərqdə iki böyük təriqətin-sufilik və hürufizmin təsiri altında formalaşmışdır. Şair insan üçün ən böyük səadəti Allahla vəhdətdə görmüşdür. Nəsimi dünyanı iki yerə bölürdü. Maddi və mənəvi hissələrdən olan bu dünya (aləmi-fəna; aləmi-bəqa) insanların yerləşə biləcəyi məkandır.

Məndə sığar iki cahan, mən bu cahana sığmazam.
Gövhəri-laməkan mənəm, kövnü-məkanə sığmazam.

Burada iki cahan deyərkən şair insanın maddi və mənəvi varlığını nəzərdə tuturdu. Məkansız gövhərin allah kimi kainata sığa bilməyəciyini iddia edərkən, hər şeydən əvvəl, insanın mənəvi böyüklüyünə, insanda allaha məxsus sifətlərin təsəlli etməsinə işarə edirdi. O insanı allahlaşdırdığı kimi, allahı da insanlaşdırırdı.

Nəsimiyə görə dünyada ən qiymətli sərvət insandır. İnsan allahın təcəssümüdür. İnsanın kamalı, zəkası, yaradıcılıq qüvvəsi və gözəlliyi ülvidir, müqəddəsdir. Hürufi olmasına baxmayaraq böyük mütəfəkkirdir dünyanı, real həyatı heç vaxt danmamış, canlı real insanı, onun gözəlliyini və həyati meyllərini təsdiq edən bir şair kimi, o, dünyəvi məhəbbətin, insan gözəlliyinin tərənnümçüsü olmuşdur.

Nəsiminin şerlərində çox yüksək bəşəri düşüncələrlə müqəddəsləşdirilmiş insanın ilahi məqamı ilə bağlı olaraq, din və təriqətlər arasındakı ayrı-seçkiliyin mənasızlığı, insanlığın əsil məqsədinə yabançı və zərərli olması dərin fəlsəfi müddəalarla və bədii qüdrətlə əks olunmuşdur. O yaradıcılığının bir sıra əsas mövzularında olduğu kimi, bu məsələdə də təsəvvüf görüşlərin və təsəvvüfi şerin ən yaxşı ənənələrini davam etdirmişdir. Nəsimi böyük ustadı Fəzlüllah Nəiminin «Cavidannamə»də hürufiliyin nəzəri əsaslarına çevirdiyi insanpərvər, yüksək bəşəri düşüncələrini söz sənətinin qüdrətli dili ilə tərənnüm etməyi bacarmışdır.

Nəsimi allahı göylərdən yerə endirərək bəşəriləşdirmiş, «ənəlhəqq» müddəalarını tərənnüm etdiyi bir çox şerlərində eyni zamanda özünü «şəcəreyi-həqq» («həqqin təcəlli etdiyi ağac») sanmışdır. Nəsimi ilahiləşmiş insanı, ilahi gözəlliyi bütün bütlərə, qibləyə qarşı qoyaraq yazır ki, «And olsun sənin camalının günəşinə, səndən özgə şahım yoxdur. Sən gözəllik şahısan, sənin üzündən başqa alahım yoxdur».

Nəsimi eyni zamanda kainatın əbədiliyini qəbul edir və göstərirdi ki, allah insanın simasında təzahür edir, çünki insan allaha bənzər şəkildə yaranmışdır. Allahın insanlarda təzahürü peyğəmbərlik, müqəddəslik və ilahilik formalarında özünü göstərir. Peyğəmbərlərin sonuncusu Məhəmməddir. Müqəddəslərin əvvəli Əli ilə başlayır, sonu isə imam əl-Həsənlə başa çatır. Fəzullah Nəimi isə allaha bənzər vücuddur.

Nəsiminin panteist yaradıcılığında insan ilə allahın yaxınlığı açıq-aydın görünür. O insanı qiblə adlandırır, onu yüksəklərə qaldırırdı. Nəsimiyə görə kainatın bütün sirrləri insanda təcəssüm edir. İnsan zəkası isə ilahi varlığı və dünyanı dərk edə bilər. O ruhun cansız aləmdən bitkilərə, oradan da heyvana keçərək, sonra insana doğru inkişaf etdiyini göstərirdi. Onun şerlərində ilk materiya, surət cövhət (substansiya), ərəz (aksidensiya), səbəb-nəticə, vacib və mümkün kimi fəlsəfi anlayışlara tez-tez rast gəlinir.

Nəsimiyə görə dünyanın sirlərini ancaq kamil insan dərk edə bilər. Kamil insan ilahiləşib özünü allah elan edə bilər: mənəm allah, həqiqət ancaq mənəm, haqq məndədir.

## 11. Baba Nemətulla Naxçıvani
## ( - 1497 )

Məşhur alim Məhəmmədəli Tərbiyət «Danışməndani-Azərbaycan» əsərində qeyd edir ki, Baba Nemətullah Naxçıvani Şeyx Mahmud Naxçıvaninin oğlu, hicri-qəməri IX /XV/ əsr ariflərindən və şeyxlərindəndir. Baba Nemətullah Naxçıvani uşaq yaşlarından islami elmləri öyrənməyə başlamış, həmin vaxtlardan özünün əqli, zəkası və digər müsbət keyfiyyətləri ilə diqqəti cəlb etmişdir. Gənclik illərində zəmanəsinin bir çox alimlərindən, o cümlədən məşhur alim Xacə Mahmud Parsandan dərs almışdır. Qələmindən çıxmış əsərlər onun çox yüksək səviyyəli bir alim olduğunu göstərən sanballı qaynaqlardır.

Baba Nemətullah Naxçıvani hicri 905-ci ildə (miladi 1499) Təbrizi tərk edərək Anadoluya gedərək Qaraman vilayətinin

Akşehir qəsəbəsində məskunlaşır. Akşehirdə təxminən 15 il yaşayan Baba Nemətullah 1514-cü ildə vəfat etmiş və orada da dəfn olunmuşdur.

Baba Nemətulla Naxçıvani həyatı boyu bir neçə qiymətli əsər və bəzi orta əsr müəlliflərinin əsərlərinə şərh yazmışdır. Onun əldə olan əsərləri aşağıdakılardır.

- Əl-Fəvatihəl-ilahiyyə vəl Məfatihül qaybiyyə (Quranın məşhur sufi təfsiri)
- Hidayət əl-İxvan (təsəvvüfə dair əsər)
- Mühyiddin İbn Ərəbinin «Füsusəl hikə»minə yazdığı təsəvvüfi bir şərh
- Əl Kadi təfsiri haşiyyəsi
- «Risalət əl-vücud»
- Şeyx Mahmud Şəbüstərinin «Gülşəni-raz» adlı təsəvvüfə dair farsca əsərinin eyni dildəki şərhi
- Qazi Beyzavinin «Ənvar ət-Tənzil və əsrar ət-Təvil» əsərinə haşiyə (qeydlər)

Baba Nemətullah Naxçıvaninin əsərlərində Qurani-Kərim insanlığın və eyni zamanda müsəlmanların həyatının ictimai-iqtisadi, siyasi, ailəvi, fərdi və dini həyat tərzlərini müəyyənləşdirən və hüquqi şəkildə əsaslandıran bir məcmu kimi geniş təhlil edilmişdir.

Baba Nemətullah Naxçıvaninin sadəcə olaraq əsərlərinin adına nəzər saldıqda onun nə qədər böyük alim, nə qədər geniş erudisiya sahibi olmasının şahidi oluruq. Mühyiddin ibn Ərəbinin «Füsus əl-hikəm», Şeyx Mahmud Şəbüstərinin «Gülşəni-raz» kimi olduqca mürəkkəb və çətin əsərlərini şərh etmək, Beyzavinin islam aləmində böyük şöhrət qazanmış təfsirinə qeydlər yazmaq, üstəlik Quranın sufi təfsirini vermək hər hünər sahibinin işi deyildi. Bunun üçün islam dinini, qədim yunan fəlsəfəsini, təsəvvüfü, panteizmi, vəhdəti-vücud təlimini çox gözəl bilmək lazım idi. Əks təqdirdə, Şərq mədəniyyətinin bu möhtəşəm əsərlərinə nəinki şərh yazmaq, heç onlara yaxın düşmək olmazdı.

Orta əsrlərin ən ziddiyyətli şəxsiyyətlərindən biri olan İbn Ərəbi irsinə yaradıcılıqla yanaşan Baba Nemətullah Naxçıvani əsərində filosofun həm tərəfdarları, həm də əleyhdarlarına öz münasibətini bildirmişdir. O, Azərbaycanın məşhur mütəfəkkiri və sufi şairi Mahmud Şəbüstərinin (1287-1320) 1317-ci ildə qələmə aldığı «Gülşəni raz» («Sirlər gülşəni») əsərinə yazdığı şərhin başlıca ideyası varlığın vəhdətinin panteistcəsinə izahıdır. Nemətullah Naxçıvani öz şərhində Şəbüstərinin, eləcə də Şərq peripatetiklərinin emanasiya nəzəriyyəsini, mərtəbəli quruluşunu Quran surələrinə nisbətdə nəzərdən keçirərək ətraflı təhlil etmişdir.

Filosof Mahmud Şəbüstərinin Quran ayələri ilə mövcudatın mərtəbələri arasındakı müqayisəsini, ayələrin əqlə, nəfsə, göyə, ulduzlara müvafiqliyini yüksək qiymətləndirmişdir. Çünki Baba Nemətullah Naxçıvani də insan nəfsini universal nəfs ilə bir tutub, onu bütün aləmə şamil edirdi. O da varlığın idrakında zahiri cəhətləri qavramağı şəriətə, daxili cəhətləri dərk etməyi isə həqiqətə bağlayırdı. Deməli, həqiqəti bilmək, haqqa çatmaq üçün şəriət ilə həqiqət arasındakı yolu (təriqəti) qət etmək lazımdır. Şəbustərinin görüşləri ziddiyyətli olsa da Baba Nemətullah Naxçıvani onun allahın keyfiyyətləri haqqında Quran və Sünnədəki mühakimələrə uyğun olan fikirlərini yüksək qiymətləndirmişdir. Müəllif Mahmud Şəbüstəri tərəfindən dualist fəlsəfi cərəyanların və təriqətlərin tənqidinə tərəfdar çıxmışdır.

Görkəmli Azərbaycan alimi Baba Nemətullah Naxçıvaninin həyat və yaradıcılığının, irfan yolunun, elmi irsinin, xüsusilə, özünün qeyd etdiyi kimi, heç bir mənbəyə müraciət etmədən, heç kəsi təqlid etmədən, yalnız təfəkkür nəticəsində qəlbinə gələn ilhamla yazdığı Quran təfsirinin araşdırılıb öyrənilməsi islamşünaslıq baxımından da ciddi əhəmiyyət kəsb edir.

## 12. Məhəmməd Füzuli

Azərbaycan xalqının orta əsrlərdə yaşayan görkəmli şair və mütəfəkkirlərindən biri də Məhəmməd Füzulidir (1498-1556). Onun yaradıcılığı təkcə Azərbaycan poeziyası üçün deyil, bütövlükdə Şərq ədəbiyyatı, eləcədə dünya ədəbiyyatı üçün əhəmiyyətlidir. Füzulinin zəngin ədəbi və fəlsəfi irsi olmuşdur. Üç qəzəl divanı (azərbaycan, fars və ərəb dillərində), alleqorik poemaları «Bəngü badə», «Yeddi cam», «Söhbətül-Əsmar», «Leyli və Məcnun» aşiqanə-romantik poeması, «Şikayətnamə», «Səhhət və Mərəz», «Rindü-Zahid» adlı farsca yazılmış alleqorik, ictimai-fəlsəfi nəsr əsərləri, «»Mətləül-etiqad» kimi ərəbcə yazılmış elmi-fəlsəfi əsəri də bura daxildir.

Fizulinin əsərləri içərisində onun ərəb dilində yazdığı «Mətləül-etiqad» əsəri şairin fəlsəfi görüşlərini tədqiq etmək üçün mühüm əhəmiyyət kəsb edir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, onun qəzəllərində dərin fəlsəfi fikirlərə, hikmətli kəlamlara, insanları düşünməyə məcbur edən dərin və zəngin mülahizələrə rast gəlmək mümkündür.

Fizulinin qəzəllərində panteist fəlsəfənin mühüm prinsipləri öz əksini tapmışdır. Onun qəzəllərində eşq və məhəbbət hissləri nə qədər həyat və dünyəvi olsa da şairi sufiliyin həyata və insana fəlsəfi baxışlarından ayırmaq qeyri-mümkündür. Lakin sufilik də Fizuli məhəbbətini insandan, dünyadan ayırmır, onun humanizmini rədd və inkar etmir. Əksinə bu məhəbbət onu insana daha da yaxınlaşdırır. Eşqə ilahi bir qüvvə verir. Bütün hallarda bu fəlsəfədə real insani hisslər aparıcı yer tutur.

Sufilik Fizuli məhəbbətini insan və dünyadan təcrid etmir, onun məhəbbətinin humanist məzmununu daha da zənginləşdirir. Fizuli poeziyasında zəmanəsinin hakim ideologiyasına cəsarətli etirazın da şahidi oluruq. Əslində zəmanəsindən şikayət sufilik prinsiplərindən istifadə ilə üst-üstə düşdüyündən onun yüksək qiymətləndirilməsi təbiidir.

O, «Mətləül-etiqad» əsərində qədim yunanıstan və şərqin əsas fəlsəfi cərəyanlarının qısa xülasəsini vermiş, eyni zamanda

həmin dövrün mühüm ontologiya və idrak problemlərinə də nəzər salmışdır.

Öz dövrünün əksər mütəfəkkirləri kimi dünyanın mənşəyi haqqında idealist təlim mövqeyindən çıxış edən Füzuli «Leyli və Məcnun» əsərində yazmışdır:

«Hər xilqətə gərçi bir səbəb var
Aya səbəbi kim etdi izhar».

Səbəblər səbəbi məsələsini izah edərkən Fizuli o nədir? Sualına çox qısa cavab verir: «Səbəblər-səbəbi allahdır». Allah özü yaradılmasa da dünyanı yaratmışdır. Bütün varlıq və mövcud olanlar dəyişməyə və məhv olmağa məruz qalandır. Yalnız allah əbədidir, sonsuzdur, yeganə mahiyyətdir. Maddi dünya isə, ancaq Allahın inikasıdır.

Fizuliyə görə dünya maddi və mənəvi varlıqlardan ibarətdir. Maddi cisimlər öz növbəsində yer (elementar) və səma şeylərinə bölünür. Qeyri-maddi varlıqlar isə iki kateqoriyaya bölünür. Birincisi, materiya ilə əlaqəsi olmayan (ağıl), ikincisi, isə materiya ilə əlaqəsi olan varlıqlardır (ruh). Bütün maddi cisimlər dörd ünsürdən – od, su, hava və torpaqdan ibarətdir.

Fizuli ruhun ölməzliyi ideyasına tərəfdar çıxsa da, onun fikrincə insan ruh və bədəndən ibarətdir, onları bir yerdə olmadan təsəvvür etmək olmaz. Onlar bir-birindən ayrılıqda fəaliyyət göstərə bilməz.

Füzulinin əsərlərində idrak məsələlərinə də xeyli yer verilmişdir. «Mətləül-etiqad» əsərində filosofları üç qrupa bölmüşdür: rasionalistlər, vəhy tərəfdarları və təqlidçilər. Rasionalistlər üçün səciyyəvi olan cəhət idrakın yeganə vasitə kimi etiraf edilməsidir.

Böyük mütəfəkkir maddi dünyanın və fövqəltəbii hadisələrin dərk edilməsini fərqləndirmişdir. Ağıl və hisslərin köməyi ilə ancaq maddi dünya dərk edilir, fövqəltəbii hadisələrə gəldikdə isə burada ağıl və hisslər gücsüzdür. Füzuli bir sıra əsər-

lərində islam dininin axirət həyatı və fövqəltəbii hadisələr haqqında ehkamlarına skeptikcəsinə yanaşmış, onları əqli idrak sferasından kənarlaşdırmışdır.

Bir filosof kimi, o elmi iki əsas qrupa bölür: praktiki elmlər və nəzəri elmlər. Praktiki elmlər insandan asılı olan predmetlərlə məşğul olur. Nəzəri elmlər isə insandan, onun iradəsindən asılı olmayan predmet və hadisələrlə məşğul olur. Praktiki elmlərin tərkibinə əxlaq (etika) haqqında elm, siyasət, evşünaslıq və s. daxildir. Etika ruhla, qəlblə bağlı hadisələri əhatə edirsə, evşünaslıq şəxsi həyatı, siyasət isə bütövlükdə cəmiyyətin həyat məsələlərini əhatə edir.

İctimai görüşlərində azad fikirli mövqedə dayanan Füzulinin yaradıcılığında acgözlüyün, yalanın tənqidi mühüm yer tutmuşdur. Onun əsərlərində islam dininin bir sıra ehkam və mərasimlərini tənqidi verilmiş, islam ruhaniliyinin xalqı cəhalətdə saxladığı xüsusi qeyd edilmişdir.

Böyük mütəfəkkir filosof və şair M.Füzuli Azərbaycan xalqının, eləcə də Yaxın və Orta Şərq xalqlarının fəlsəfi fikrinin sonrakı inkişafına böyük təsir göstərmişdir.

*Yoxlama sualları*

1. Bəhmənyar fəlsəfəsi
2. Nizami Gəncəvi fəlsəfəsi
3. İşraqilik fəlsəfəsinin mahiyyəti
4. Məhəmməd Hinduşah Naxçıvani
5. Tusinin fəlsəfi dünyagörüşü
6. Məhəmməd Hinduşah Naxçıvani
7. Hürufilik
8. Füzuli fəlsəfəsi

# IX MÖVZU
# İNTIBAH DÖVRÜNÜN FƏLSƏFƏSI

## 1. Renessans mədəniyyəti və humanizminin ümumi xarakteristikası.

İntibah (italyanca Rinascimento, fransızca Renaissance) Avropa mədəniyyəti tarixində ən parlaq və maraqlı dövrlərdən biridir. "İntibah" termininin özü XVIII əsrdə meydana gəlsədə, XIV-XVI əsrlərdə antik mədəni irsə marağın yaranmasını, həmçinin ənənəvi orta əsrlər dini dünyagörüşündən fərqlənən yeni humanist dünyagörüşün formalaşmasını bildirirdi.

Bu mədəniyyətin formalaşmasının xarakterik cəhətləri aşağıdakılardır:

1) renessans mədəniyyətinin orta əsrlər Avropa şəhərləri mədəniyyəti əsasında inkişafı

2) ticarət və bank sərmayəsinin sürətli inkişafı

3) çoxsaylı texniki kəşflər və yeniliklər

4) feodal münasibətləri və kilsə-asketik əxlaq sistem-lərinin transformasiyası

5) zaman amilinə münasibətin dəyişməsi (xarakterik orta əsrlər feodal yeknəsəkliyinin tənəzzülü, renessans cəmiyyətinin inkişafında ritmin sürətlənməsi və differensiallaşmış zamanın qavranılması;

6) zehni əməyin rolunun yüksəlməsi və azad peşə sahiblərinin sayının müntəzəm artması;

7) ruhaniliyi əvəz edəcək dünyəvi ziyalıların yaranması;

8) insan probleminə yanaşmanın dəyişilməsi (renessans antroposentrizminin yaranması). Yeni yanaşmaya görə dünyaquruculuğunun mərkəzi və idrakın əsas obyekti təbiətin ayrılmaz hissəsi və kamil yaratdığı insan elan olunurdu.

9) intellektual fəaliyyətin əsas obyektinin dəyişməsi. İlahi sxolastik təlim (studia disina) insanın və bütün insani olanların öyrənilməsi ilə əvəzlənir (studia humaniora);

10) Nəticə olaraq yeni humanist dünyagörüşün yaranması;

11) Harmonik, hərtərəfli inkişaf etmiş, azad şəxsiyyət idealının formalaşması;

12) İlahi dərk sahəsində katolik inhisarçılığa yeni dünyagörüşün cavab reaksiyası kimi antiklerikalizmin meydana gəlməsi;

13) Panteizmin meydana gəlməsi (yun. pan–hər şey və theos–allah) – orta əsrlər teosentrizminə cavab reaksiyası kimi (bununla yanaşı İntibah mədəniyyətinin hər hansı hadisəsini dindənkənar adlandırmaq olmaz);

14) Antik mədəniyyətə diqqətin artması (antik fəlsəfəyə, dini-mistik təlimlərə, ədəbiyyat və incəsənətə);

15) Qədim dövr klassik dillərinin dirçəlişi (o cümlədən sxolastik təlimin tənqidini əsaslandırmaq üçün);

16) Eyni zamanda yeni avropa milli dillərinə müraciət edilməsi (latın sxolastikasından fərqli olaraq);

17) Intellektual yaradıcılıq və incəsənətin bütün sahələrində görünməmiş çiçəklənmə.

Sonrakı dövrlərdə qərbi avropa mədəniyyətinin inkişafına impuls vermiş intibah mədəniyyətini antik, orta əsrlər xristian və qismən şərq mədəniyyətlərinin sintezi kimi başa düşmək olar.

Humanist dünyagörüş XIII əsrin sonu XIV əsrin əvvəllərində orta və şimali İtaliyada meydana gəlmişdir. İtaliya humanistlərinin yeni dünyagörüşünün əsaslarının yaradıcısı hesab edilən şair və mütəfəkkir Dante Aligyerinin (1265-1321) yaradıcılığı da bu dövrə təsadüf edir. Renessans dövrü humanizminin ilhamvericiləri və fəal yaradıcıları sırasında F.Petrarka (1304-1374), C.Bokkaço (1313-1375), P.Braççolini (1390-1459), L.B. Alberti (1404-1472), L.Valla (1407-1457), M.Fiçino (1433-1499), C.Piko della Mirandola (1463-1493), Nikolay Kuzanlı (1401-1464) və başqalarının adlarını çəkmək olar.

## 2. Lorenso Valla

Lorenso Valla (1407-1457) İtaliya kvatroçentosunun (XV əsr) ilk humanist filosoflarından biridir. Onun fəlsəfi dünyagörüşünün formalaşmasını müəyyənləşdirən əsas amil Epikür təlimini təfsir etmiş Tit Lukresinin "Şeylərin təbiəti haqqında" fəlsəfi poeması olmuşdur.

"İkili həqiqət" doktrinasını inkişaf etdirən Valla dini, məntiqi və rasional yanaşmanın mümkün olmadığı fəaliyyəti emosional həyat sferası kimi qavrayırdı. Sxolastik realizmin tənqidi Vallanın filoloji əsərlərində öz əksini daha aşkar tapmışdır. Vallanın antiklerikalizmini onun "Konstantinin bağışlanmış savadının saxtalığı haqqında mühakimələr" (1440) traktatı xarakterizə edir. L.Vallanın fəlsəfəsi xristianlıq və epikürçülüyün sintezi adlandırıla bilər. Vallanın konsepsiyasının əsas müddəaları aşağıdakılardır:

1. Allah insan ruhunu özünün bənzəri kimi yaradır, onun təyinatı əbədini dərk etməkdir (o cümlədən özünü)
2. Hər bir idrak insan hisslərinin köməyi ilə seyrdir
3. Bütün canlıların universal prinsipi öz həyatını qoruma cəhdi və iztirabdan uzaqlaşmaqdır (bu prinsipin gerçəkləşməsi hissi kimi həzzə münasibət buradan irəli gəlir)

Vallanın xristian asketizminə qarşı qoyduğu Epikür fəlsəfəsi və etikasına uyğun olaraq həzz mənəvi ilə cismani başlanğıcın harmoniyası kimi başa düşülür.

## 3. Florensialı platoniklər. Marsilio Fiçino

Platon fəlsəfəsinin Qərbi Avropada yeni təhlili XV əsrdə baş verir. Bu italyan humanislərinin xristian ortodoksiyasına və antik fəlsəfi irsin sxolastik şərhinə tənqidi münasibətlərinin güclənməsi ilə bağlı idi.

Platonizmə marağın dirçəlişində ilk böyük rolu oynayan bizanslı Georgi Qemist Plifon (1355-1452) olmuşdur. Onun Platona olan meyli "Qanunlar" əsərində özünü göstərir. Burada

platon-neoplaton fəlsəfəsinin mifoloji təfsiri ilahi vəhdətlə və hissi qavranılan şeylər dünyası ilə əlaqəyə xidmət edir.

1459-cu ildə təsis edilmiş Platon Akademiyası florensiyalı mütəfəkkirlərin platonizm və neoplatonizmə istiqamətlənmiş fəlsəfi dərnəyi idi. Akademiyanın təşkilatçısı ilk növbədə Plotin, Yamvlix, Prokl və Porfirinin tərcüməçisi kimi məşhur olan Marsilio Fiçino (1433-1499) idi. Onun fəlsəfi sistemi neoplatonizmin əsasında qurulmuşdu. Fiçino özü katolik ruhanisi idi.

Fiçino din və fəlsəfəni bərabərhüquqlu hesab edirdi. Fiçinoya görə din sosiumun mənəvi həyatının əsas formasıdır, həmçinin bütün dini təlimlər vahid dini həqiqətin müxtəlif təzahürləridir ("ən ümumi din"). İnsanın ləyaqəti, azad iradəsi və idrak qabiliyyəti haqqında danışan Fiçino, neoplatoniklər kimi seyrin ali dərəcəsini allahla qovuşmaq adlandırırdı ("ilahi ağılsızlıq"). İdrakın son məqsədə doğru yolunda zəruri mərhələ, yenə də yer gözəlliyinin seyridir. Fiçinonun panteizmi özünü onda göstərirdi ki, neoplatonizm üçün xarakterik olan kosmoloji iyerarxiyada (təkcə nus – dünya ruhu) o əsas vurğunu dünya ruhu üzərinə istiqamətləndirirdi.

Allah (ilk təkcə kimi)

Kosmik ağıl (mələklər dəstəsi)

Dünya ruhu.

Bundan əlavə dünya ruhu mütləqləşdirilmiş insan ruhu kimi başa düşülür, bu isə insan fərdini avtomatik olaraq Fiçinonun antoloji-kosmoloji sxeminin mərkəzinə qoyurdu.

## 4. Piko della Mirandola

Covanni Piko della Mirandola (1463-1494) erkən italyan intibahının ən görkəmli mütəfəkkirlərindən biridir. Florensiya Akademiyası nümayəndələrinə yaxın olmuş,parlaq təhsil almış, aristotelizmin sxolastik ənənəsini mənimsəmişdir. İnsanın maddi və ilahi dünya arasındakı orta mövqeyi haqqında platonizm və neoplatonizm ideyalarını transformasiya edən Piko,

insanı kosmik düzənin mərkəzində qoyur, onu allahın kosmosun mərkəzinə qoyduğu ilahi yaradılışın tacı kimi qəbul edirdi. Pikonun dünyagörüşündə ilahi makrokosmla insani mikrokosmun dəqiq sərhədlərlə ayırmasına baxmayaraq,insan ruhu səma və yer çərçivəsindən kənara çıxır. Beləliklə, insan xüsusi dünya kimi "bütün yaradılmışlar arasında vasitəçi" kimi çıxış edir. Bundan əlavə "yerdə insandan möhtəşəm heç nə yoxdur, insanda isə onun ağlından (mens) və ruhundan (anima) böyük olan nəsə yoxdur", insan ruhunun möcüzəsi səma möcüzələrindən üstündür. Digər tərəfdən bu "möcüzələr" insan iradəsinin mütləq azadlığı ilə müəyyənləşir. Yaradılış prosesində allahın insana "rəngarəng həyat toxumu və rüşeymi" əta etməsinə baxmayaraq, insanın xüsusi mövqeyi tam seçim azadlığı ilə birləşərək onu yaradıcı özünü müəyyənləşdirmə qabiliyyətinin kosmik mərkəzinə çevirir, bu da onu allaha yaxınlaşdırır.

Səma və yer dünyasını birləşdirən varlıq kimi, özünü dərk edən insan elə bütün kainatı dərk edir. Ontologiya və qnoseologiyada insanın belə mövqeyi faktiki olaraq Renessans humanist antroposentrizminin yığcam ifadəsidir.

Müxtəlif fəlsəfi məktəb və dinlərin vahid həqiqətin dərk olunmasında özünəməxsus ayrı-ayrı metodları olduğunu fərz edən Piko ümumilikdə "filosofları barışdırmağa" cəhd edirdi. Bu zaman o, barışdırıcı təlim qismində xristianlığın universal anlayışlarını təklif edirdi.

Avropa fəlsəfi humanizm ənənələrinə Pikonun verdiyi əsas töhfə "astroloji determinizmin" dəf edilməsi və azadlıq substansiyası olan insanın maksimal azadlığının əsaslandırılmasıdır.

### 5. Nikolay Kuzanlı

Nikolay Kuzanlı (1401-1464) İntibah dövrünün görkəmli filosoflarından biri olub, əsərlərində orta əsrlər xristian və humanist renessans dünyagörüşünü transformasiya etmişdir.

Nikolay Kuzanlını dövrünün nisbətən daha ardıcıl panteisti də adlandırmaq olar. Kuzanlının panteist ideyalarının apofatik (inkari) ilahiyyət ruhunda təfsir oluna bilməsinə baxmayaraq, onun fəlsəfəsini ikili hesab etmək olar:

mistik panteizm (dünyada allahın varlığı) – şeylər və hadisələr allahın simvollarıdır;

naturalist panteizm (allahda dünyanın varlığı) – şey və hadisələr varlığın müstəqil aspektləridir.

N.Kuzanlının idrak nəzəriyyəsi dünyanın sonsuzluğu və əbədiliyi haqqında kosmoloji ideyalara əsaslanır. O, idrakın üç mərhələsini ayırır:

- duyğu (sensus), şeylərin dumanlı obrazlarının qavranılması
- düşüncə (ratio), riyazi anlayışlarla əməliyyat aparan və şeylərə tərif verən
- zəka (intellectus), sonsuz fikirləşən, "sonsuzluq bizi hər bir ziddiyyətin aradan qaldırılmasına məcbur edir".

Əgər düşüncə ziddiyyətləri nümayiş etdirirsə, ("bütün şeylər müxtəlif dərəcəli ziddiyyətlərdən ibarətdir"), zəka sferasında o qarşıdurmaları aradan qaldırılır. Allahda bütün əksliklərin üst-üstə düşdüyünü (çoxlu və təkcə) təsdiqləyən Kuzanlı özünün əksliklərin üst-üstə düşməsi haqqında dialektik təhlilini inkişaf etdirmişdir. Bütün şey və hadisələr vəhdət və tamlıqda hər bir konkretdən üstün olan sonsuz "maksimumdur", lakin təkcə şeylərlə də əks olunur. Maksimumun bütövlüyü bölünməyə yol vermədiyi üçün, o həm də eyni zamanda sonsuz minimumdur, yəni əksliklərin üst-üstə düşməsi aşkardır. Əsasən riyaziyyat sahəsində (həndəsi fiqurların sonsuz düz xəttlə üst-üstə düşməsi) dialektikasını inkişaf etdirən Nikolay Kuzanlı riyazi anlayışların təbiətşünaslığa tətbiqi imkanlarını tədqiq edir. Belə ki, riyazi həqiqətlər "gümanlar" və "fərziyyələrdir", lakin burada mühüm olan alim biliksizliyi konsepsiyasıdır. Bütün mövcudluğun arxasında dayanan ilahi mütləqin dərkolunmaz oldu-

ğuna baxmayaraq, insan üçün yalnız hissi qavranılan əşyalar dünyası açıqdır.

Kuzanlı yalnız bu yolla dərkolunmaz allaha gedən yolda idrakın dərinləşməsi prosesi kimi həqiqiliyi anlamağa yaxınlaşırdı.

*Yoxlama sualları*

1. İntibah dövrünün ümumi xarakteristikası
2. Humanist Lorenso Vallanın fəlsəfəsi
3. M.Fiçinonun dini və fəlsəfəsi
4. Erkən İntibahın italyan nümayəndəsinin fəlsəfəsi
5. İntibah dövrünün panteisti N.Kuzanlı fəlsəfəsi

# X MÖVZU
# XVI ƏSRDƏ FƏLSƏFİ FİKİR

## 1. Nikkolo Makiavelli

Nikkolo di Makiavelli (1469-1527) erkən italyan intibahı zəminində yetişmiş mütəfəkkir olsa da, onu XVI əsr filosoflar nəslinə, italyan humanizminin artıq bütün Qərbi Avropanın nailiyyətinə çevrildiyi intellektual mərhələyə aid etmək olar.

N.Makiavelli XV əsrin sonunda renessans dünyagörüşündə baş vermiş dəyişikliyi özünün insan cəmiyyəti və dövlət konsepsiyasında əks etdirmişdir. Belə ki, erkən humanistlərin antropomərkəzi baxışlarının nəticəsi olaraq sosiumun dəyərli və müstəqil fərdlərin toplusu kimi anlaşılması Makiavelli doktrinasının aşağıdakı müddəalarında özünü göstərir:

1) insan fəaliyyətinin həvəsləndirici motivləri maraqların müxtəlif təzahürləridir, yəni mülkiyyət maraqları, namus və şərəf qayğısı.

2) insanın azad iradəsi ilə yanaşı dünyada şəraitindən doğan, "zərurət" kimi hesablanan "fələk" də fəaliyyətdədir, lakin o azad iradəni üstələyə bilmir ("tale bizim işlərimizin yalnız yarısına nəzarət edir").

3) Makiavellidə azad iradə maksimal aktiv fəaiyyət imkanını bildirir, həmçinin fəaliyyət bacarığı, zəka ilə istiqamətlənmiş iradə (enerji və uzaqgörənliyin qovuşması) "şücaət" kimi başa düşülür (virtu).

4) güclü şəxsiyyət virtunu maksimal gerçəkləşdirməyə və "fələyin" təsirini minimallaşdırmağa qadirdir, lakin bu seçilmişlərin qismətidir, görkəmli xadimlər məqsədə çatmaq üçün şəraiti hərtərəfli təhlil etməyi və ona uyğun siyasəti dəyişməyi bacarmalıdırlar.

5) Makiavelli dövlətin istisnasız olaraq dünyəvi təsfirini verir, bununla da hüquqi qərarlar və dini sərəncamlar, yaxud siyasət və əxlaq sferaları bir-birindən dəqiq sərhədlərlə ayrılır.

6) dövlətin qüdrəti və rifahı siyasətin ali qanunudur, ona görə də Makiavelli ardıcıl respublikaçı olmasına baxmayaraq idarəetmənin monarxiya formasına üstünlük verirdi (bu halda onun seçimi ayrı-ayrı İtaliya dövlətlərinin respublika əsasları ilə birləşdirilməsinin qeyri-mümkünlüyü ilə müəyyənləşirdi).

7) lakin dövləti "yeni hökmdar" (principe puovo) idarə etməli və dövlətin rifahı üçün heç bir vasitədən imtina etməməlidir.

8) hökmdar çevik olmalı və yalnız dövlətin maraqları çərçivəsində qəddarlıq göstərməlidir.

Makiavellinin əsərlərində siyasətin mənəviyyatsızlaşması ənənəvi olaraq siyasi sinizm kimi başa düşülən "makiavellizm" adını almışdır.

## 2. Erazm Rotterdamlı

Erazm Rotterdamlı (1469-1536) şimal intibahının nümayəndəsi, filosof, filoloq, yazıçı, ilahiyyatçı, alim-ensiklopedist, XV-XVI əsrlərin qovşağında yaşamış görkəmli niderland humanistidir. Erazm öz təlimini "Məsihin fəlsəfəsi" adlandırmışdır. Bu təlim humanizmin mühüm cərəyanı hesab edilən "xristian humanizmi" üçün əsas olmuşdur.

Spekulyativ ilahiyyatın problemlərini prinsipial olaraq həllolunmaz və əhəmiyyətsiz fərz etməklə yanaşı sxolastik formalizmi tənqid edən Erazm diqqəti antropoloji problemlərə, insanın allahla münasibətlər sisteminə və insanın ilahi mütləq qarşısında vəzifələrinə yönəldir. Məsihin fəlsəfəsi erkən xristianlığın dirçəldilməsinə çağırır və aşağıdakı müddəalara əsaslanır:

1) Hər bir insan müqəddəs kitabda qeyd olunmuş ideyalara qədər yüksəlməyə qadirdir, bunun üçün xristian etikasını formal dindarlıqla qarışdırmamaq zəruridir;

2) Müqəddəs kitabı bütünlüklə öyrənmək zəruridir.

"Səfehliyin mədhi" Erazmın xarakterik əsərlərindəndir. Burada o belə bir ümidsiz nəticəyə gəlir ki, "insan cəmiyyəti səfehlərlə doludur, hər şeyi elə axmaqlar mühitində axmaqlar

törədir". Hər bir insanın və bütövlükdə sosiumun həyatında səfehliyin çoxsaylı və rəngarəng, fərdi və kollektiv təzahürlərini müşahidə etmək olar. Fərdilərdən ən aşkar olanı insanın özündən razılığı, ən kütləvisi qəm ilə müharibədir. Digər tərəfdən Erazm yazırdı ki, "xristian inamı, hansısa növ səfehliyə qohumdur və müdrikliyə tamamilə uyğun gəlmir". Lakin burada xristianlıq təliminin ruhu deyil, daha çox ehkamın dini xarakteri və sxolastikanın formalizmi tənqid olunur.

Erazm dünyagörüşünün əsasını bütün mövcudiyyətin əksliyinə və əksliklər arasındakı fərqin sezilməzliyinə (məsələn, səfehlik - müdriklik) inam təşkil edir. Ona görə də Erazmın əxlaq doktrinasının fundamental etik prinsipi "ölçüdən artıq heç nə" maksimasıdır. Bu prinsip dünyada hər şeyin bölündüyü əksliklər arasında sərhəddi müəyyənləşdirməyə imkan verir.

### 3. Tomas Mor

Tomas Mor (1478-1535) XVI əsrin birinci yarısında ingilis humanizminin görkəmli nümayəndəsi, dövlət xadimi və diplomatıdır. O, intibah fəlsəfəsində öz yerini məşhur "Utopiya" əsərinə görə tutmuşdur. Əsər dialoq, söhbət formasında yazılmışdır və iki hissədən ibarətdir:

1) İngiltərənin vəziyyəti haqqında tənqidi qeydlər,

2) utopiyalıların həyat tərzinin təsviri (birincidən əvvəl yazılıb).

"Utopiya" sözü yunan mənşəli olub (u – yox, topos - yer), hərfi mənası mövcud olmayan yer deməkdir. "Utopiya" əsərində XVI əsrin əvvəllərində humanistlərin təsəvvür etdikləri ideal cəmiyyət quruluşu təsvir olunur. Fantastik Utopiya adasının ictimai quruluşu üçün aşağıdakılar xarakterikdir:

- xüsusi (və hətta şəxsi) mülkiyyətin yoxluğu;
- bütün sosial, siyasi, təsərrüfat, mənəvi sferalarda bərabərlik;

- pul və pul dövriyyəsinin (sərvət toplama yanğısı cahcəlala catmanın mənbəyi kimi) yoxluğu;
- mütləq dini tolerantlıq (müxtəlif dinlər "çoxluğuna və fərqlərinə baxmayaraq" sülh içində birgə mövcuddurlar);
- insan adada ali dəyərin təcəssümüdür Utopiyada zehni əmək və intellektual başlanğıc heç bir həlledici rol kəsb etmədiyinə baxmayaraq, Platonun ideal dövlətində olduğu kimi burada da həyatının əxlaqi cəhəti daha əhəmiyyətlidir.
- utopiyalıların ali əxlaqi keyfiyyətləri, heç də həyatlarında Epikür ruhunda təsvir edilmiş həzzin əhəmiyyətini azaltmır.

Tomas Morun "Utopiya"sı mənəvi azadlıq, rifah və ictimai maraqların harmonik uzlaşmasının, kamil birgəyaşayış evinin humanist obrazının bədii təcəssümüdür.

## 4. Mişel Monten

Mişel Monten (1533-1592) XVI əsr fransız humanist fikrinin görkəmlli nümayəndəsi, bədii-fəlsəfi esselər (frans. essai – cəhd, sınaq, təcrübə), ayrı-ayrı hadisələr, faktlar, müxtəlif silklərə və fərqli mədəni səviyyəyə malik insanların mənəviyyatları üzərində düşüncələr toplusu, məşhur "Təcrübələr" əsərinin müəllifidir. Montenin dünyagörüşü filosof kimi vətəndaş və dini müharibələr dövründə formalaşmışdır. "Təcrübələrə" dövrün özünəməxsus təqlidi kimi də baxmaq olar.

Stoisizm və epikürçülüklə tanışlıqdan mütəəssir olan Monten skeptisizmə üstünlük vermiş, bu isə onda aqnostisizmə çatmayaraq daha çox tənqidi istiqamətdə inkişaf etmişdir ("fəlsəfənin başlanğıcı təəcübdür, onun inkişafı tədqiqatdır").

Montenin tənqid obyekti müasiri olduğu Avropa sivilizasiyası, daha doğrusu onun əxlaqi və idraki quruluşudur. İnsan zəkasının imkanları haqqında ümidsiz nəticələri onu idraki pessimizə qapatmamışdır.

Monten nə "insan zəkası hər şeyi dərk etməyə qadirdir", nə də "zəka tamamilə gücsüzdür" deyənlərlə razılaşmırdı. "Mən nə bilirəm?" sualını özünə ünvanlayan Monten həqiqətin dərk-

olunma imkanını, insanın əxlaqi və digər ideallara uyğunlaşma qabiliyyətini şübhə altına alırdı. Belə ki, şəxsi təcrübəsinə əsaslanaraq o belə bir fikrə gəlirdi ki, "insan təəcüblü, fani, əbədi tərəddüdlü mövcudluqdur".

Montenə görə insan heç də yaradılanın tacı deyildir ("biz – dünyanın hissəsiyik"), o öz qardaş və yoldaşlarından qətiyyən yüksəkdə dura bilməz. Ona görə də öz natamamlığını etiraf etmək həyatın dərkinə aparan yeganə yoldur: "Müdrikliyin fərqləndirici əlaməti həyatın sabit sevinclə qavranılmasıdır". Lakin zəkanın natamamlığını etiraf edən Monten bu haqda həyatda yeganə idarəedici prinsip kimi danışır, ənənəvi asketik əxlaq və dini təsəvvürlərin inkarı buradan irəli gəlir. Lakin bununla yanaşı zəka fani dünyada yeganə sarsılmaz və əbədi olan inamı möhkəmlətməlidir, çünki inamsız zəka "əcaib və təbiiliyə zidd təlim" olan ateizmə aparır.

## 5. Reformasiya

Reformasiya (lat.Reformatio – islah etmə) XVI əsr qərbi və mərkəzi Avropa ölkələrində ictimai-siyasi, dini-ideoloji hərəkatdır. Reformasiya roma katolik kilsəsinə qarşı geniş dini dəyişikliklər aparılmasına istiqamətlənmişdir.Katolisizmin XVI əsrdə həm dünyagörüşü qaydalarının vacib müdafiə mexanizmi, həm də sosial-siyasi həyatın əhəmiyyətli amili olaraq qalması, onu göstərir ki, bu hərəkat təkcə roma katolik kuriyası ilə qarşıdurmaya deyil, həmçinin sosial gerçəkliyin dəyişdirilməsinə istiqamətlənmişdi. Reformasiyanın ən görkəmli nümayəndələri faktiki olaraq onun doktrinasının əsas müddəalarını formulə etmiş M.Lüter (1483-1546) və J.Kalvin (1509-1564) idi. M.Lüterin ideyalarının mənbəyi aşağıdakılardır:

- alman humanizmi və E.Rotterdamlının fəlsəfəsi
- M.Ekhartın (1260-1327) mistik panteizmi və XVII əsr "alman teologiyası"

- Kilsə fəaliyyətinin mənfi təzahürlərinin birbaşa müşahidəsi Lüterin yaratdığı yeni dini təlimin (sonradan lüteranlıq adını almışdır) əsas müddəaları aşağıdakılardır:

1) kilsə və katolik ruhaniliyi insan və Allah arasında zəruri vasitəçi deyil;

2) insan nicatı müxtəlif dini ayinlərin icrası ilə deyil, yalnız inamın gücü ilə tapır;

3) kilsənin yer sakinlərinin həyatındakı aparıcı rolu və iddiası əsaslandırılmayıb;

4) insana "inama tabe olmaq" imkanını təmin edən dünyəvi həyat (sosial və dövlət quruluşu daxil olmaqla) xristian dinində fövqəladə zərurətdir;

5) roma papalarının dekretləri heç bir əhəmiyyətə malik deyildir;

6) təkcə latın dilinə tərcümədə deyil, digər dillərə tərcümədə də Müqəddəs Kitabın üstünlüyü təsdiq edilir.

Ehkamın xüsusiyyətlərini mücərrədləşdirməklə lüteranlığın fəlsəfi mənası aşağıdakı kimi formulə edilə bilər:

1) ikili həqiqət konsepsiyasının inkişaf etdirilməsi (fəlsəfə və elmin müdafiəsi üçün deyil, inamın sarsılmaz qaydalarının təsdiqi üçün (dini irrasionalizm)).

2) intibahın protestantizm ruhunda transformasiya olunmuş humanist ideyalarının yayılması.

Bundan əlavə Lüterin təlimi (daha çox Fransada hugenotlar hərəkatına çevrilmiş J.Kalvinin təlimi) dinin tam irrasionallığı prinsipinə əsaslanmış ideyaları təbliğ edirdi.

## 6. İntibah dövrünün fəlsəfəsində təbiətşünaslıq

Renessansın əsas doktrinalarından biri naturalist panteizmdir. Bu doktrinaya görə dünyaquruculuğu qanunları təbiətin daxili qanunauyğunluqları kimi şərh edilir. Eyni zamanda allah təbiətdə fövqəltəbii qüvvədən immanent qüvvəyə çevrilir və bu allahın təbiətə çevirilməsi və yaxud onda əriməsi yolu ilə baş verir.

Dünyanın universal və bütöv mənzərəsinin hazırlanmasına istiqamətlənmiş bu konsepsiya İntibah dövrünün humanistlərinin diqqətini təbii proseslərin dərkolunma problemlərinə yönəldirdi.

İntibah təfəkkürünün sonrakı dövrlərin ciddi elmi və sistemləşdirilmiş təfəkküründən fərqlənməsinə baxmayaraq, artıq bu dövrdə fəlsəfi, daha çox sadəlövh və fantastik ideya və rasional təsəvvürlərin sintezi vasitəsilə təbii-elmi fikir sahəsində ciddi dönüş yaranırdı.

Intibah dövrü təbiətşünaslığının əsas xüsusiyyətləri aşağıdakılardır:

- təbiət elmlərinin praktiki tələbatlarla birbaşa əlaqəsi (dənizçilik, inşaat, hərbi sahə, ticarət);
- incəsənətlə sıx əlaqə.

Bu dövrdə elmlərin təmərküzləşmə mərkəzi onun sxolastik kontekstdə inkişaf etdiyi universitetlər, həmçinin rəssamlar, heykəltaraşlar və arxitektorların emalatxanaları idi. Burada isə elmin formalaşması incəsənət əsərlərinin yaradılması ilə şərtlənirdi.

Beləliklə, Renessansın böyük təbiətşünasları (xüsusilə İtaliyada) daha çox incəsənət və sənətkarlıqla məşğul olan ustadlar idi. Bu fəaliyyət elmi əsaslandırma tələb edirdi, ona görə də hər bir böyük incəsənət ustadı nəzəriyyəçiyə çevirilir və öz yaradıcılığında dövrün elm və incəsənətinin əsas sahələrini (memarlıq,heykəltaraşlıq, rəssamlıq, anatomiya, tibb, riyaziyyat, mexanika, mühəndislik) birləşdirirdilər. Belə universal zəkalar sırasında haqlı olaraq Avropa elmi tarixində ilk təbiətşünas adlandırıla biləcək florensiyalı Leonardo da Vinçinin (1452-1519) adını çəkmək olar.

İntibah dövrü ilə coğrafiyanın hərtərəfli inkişafını şərtləndirmiş Böyük coğrafi kəşflər (X.Kolumbun, Vasko de Qamanın, F.Magellanın ekspedisiyaları) üst-üstə düşür. Bundan əlavə, Magellanın ekspedisiyası Yerin kürə formasında olmasını sübut etmişdir.

N.Kopernik (1453-1543) faktiki olaraq yerin heliosentrik sistemini təsdiq etmişdi. Bu XVII əsr mexaniki determinist dünyagörüşünün əsasını qoymuş kosmologiya və astronomiyada XVI əsrin inqilabi çevrilişi idi. Yeni dövrün elmi və fəlsəfi inkişafına İ.Keplerin (1571-1630) elmi ideya və astronomik kəşfləri böyük töhfə olmuşdur.

A.Vezali (1514-1564) və M.Servetin (1509 və 1511-1553) yaradıcılığını anatomiya və tibb sahəsində elmi nailiyyətlərə keçid kimi qeyd etmək lazımdır.

Yuxarıda deyilənləri yekunlaşdıraraq, qeyd etmək olar ki, İntibah dövrü təbiət elmlərinin inkişafında ilkin uğurlar qazandırmış və nəhəng emprik material ehtiyatı və ilkin nəzəri tədqiqatların yaranmasına təkan vermişdir. Bu dövr XVII əsrin əvvəllərində Q.Qaliley və F. Bekonun yaradıcılığında öz əksini tapmış yeni elm və eksperimental fəlsəfəyə (riyazi təbiətşünaslıq və rasionalist mexanisizm) keçid üçün zəmin hazırlamışdır.

## 7. Renesans naturfəlsəfəsi. Cordano Bruno

Renessans dövründə təbiətşünaslıq sahəsində ilk addımlar atılmaqla yanaşı, humanist mədəniyyətin inkişafı, bütövlükdə insanın dərk olunmasına yönəldilmiş təbiətin də tədqiq və dərkinə cəhdlər göstərilmişdir. Renessans naturfəlsəfəsi aşağıda göstərilən mühüm ideyalarla xarakterizə edilir:

- varlığın hərtərəfli təsfiri, təbiət və kosmosun universal mənzərəsinin hazırlanması;
- təbiətin aristotelçi – sxolastik təfsirinin inkarı;
- prinsipial metodoloji əsas kimi mücərrədlik;
- əsas ontoloji baza olaraq panteizm;
- mikro və makrokosmosun eyniliyi ideyası;
- hilozoizm (yun. hule və zoe – maddə və həyat) təbiətin canlandırılması haqqında təlim;
- dünyaya nəhəng canlı, daimi dəyişmədə olan orqanizm kimi orqanistik baxış;

- dünyanın vəhdəti və aksliklərin üst-üstə düşməsi haqqında təlimdə əksini tapmış dünyanın dialektik anlaşılması (məs, Cordano Bruno).

Renessans naturfəlsəfəsinin nümayəndələri arasında F.Parasels (1493-1541), B.Telezio (1519-1588), F.Patrisi (1529-1597), C.Bruno (1548-1600), T.Kampanellanın (1568-1639) adlarını çəkmək olar.

Renessans naturfəlsəfəsi ideyalarının nisbətən görkəmli daşıyıcısı olaraq italyan mütəfəkkiri Cordano Filippo Bruno ayrıca qeyd edilməlidir. O, antik naturfəlsəfənin o cümlədən pifaqorçuluq, neoplatonizm, Nikolay Kuzanlı təliminin və Nikolay Kopernikin fəlsəfi ideyalarını birləşdirərək orijinal fəlsəfi konsepsiya yaratmışdır. Bu konsepsiyaya görə:

- Allah dünyəvi bütövlə eyniləşdirilir (panteizm);
- fəlsəfənin əsas məqsədi Allahın deyil, təbiətin, yəni ilahinin təbii təzahürlərinin dərk olunmasıdır;
- təkcə şeylər çoxluğunun yaranması üçün əsas olaraq vahid sadə substansiya mövcuddur;
- varlığın əsas vahidi monadadır, onun fəaliyyəti nəticəsində subyektin və obyektin sintezi baş verir;
- Allah bütün təkcələrdə təzahür edən "monadalar monadası", ali substansiyadır.

Beləliklə C.Brunonun fəlsəfi baxışları XVII əsrin yeni elmi və fəlsəfi dünyagörüşünün meydana gəlməsindən əvvəl renessans naturfəlsəfəsinin nisbətən ardıcıl variantı olmuşdur.

*Yoxlama sualları:*

1) N.Makiavellinin doktrinasının əsas müddəaları
2) Erazm Rotterdamlının fəlsəfəsi
3) Tomas Morun "Utopiya"sı
4) Mişel Montenin əsas ideyaları
5) Reformasiya və Lüterin təlimi
6) Intibah dövrünün naturalist panteizmi
7) Renessans natur fəlsəfənin əsas ideyaları
8) Cordano Brunonun konsepsiyası

# XI MÖVZU

# XVII ƏSRİN BAŞLANĞICINDA QƏRBİ AVROPA FƏLSƏFƏSİ

## 1. Qalileo Qaliley

XVI-XVII əsrlərin qovuşacağı Qərbi Avropa cəmiyyətinin bütün sahələrində elmi biliyə tələbatın sürətli artımı ilə əlamətdardır. Bu təkcə feodalizmin dağılma prosesi, manufaktura istehsalı və dünya ticarətinin artımı, mərkəzləşmiş dövlətlərin sürətli inkişafı ilə deyil, həm də fəlsəfi və elmi biliyin obyektiv inkişafı ilə şərtlənirdi. XVI əsrin sonu XVII əsrin əvvəlləri Avropa fəlsəfi fikir tarixində paradiqmaların əvəzlənmə zamanıdır. Bu zaman renessans dövründəki dünyanın naturfəlsəfi və panteist mənzərəsinin əvəzinə dünyanı təbiətin elmi qanunlarına uyğun izah edən dünya quruculuğunun mexanist mənzərəsi gəlir (materiyanın hərəkətinin mexaniki formasının əsas götürülməsi). Dünyagörüşü kimi mexanisizmin əsas müddəaları aşağıdakılardır:

- Heliosentrizm əsas kosmoloji quruluşdur;
- Determinizm səbəbəiyyətin yeri və rolu haqqında məsələlər üzrə əsas konsepsiyadır;
- Emprizim (yun. empeiria – təcrübə) əsas qnoseoloji doktrinadır;
- Təbii proseslərin tədqiqi zamanı qapalı sistemlərlə əlaqə nəzərə alınır;
- Reduksionizm (mürəkkəbin sadələşdirilməsi) və induksiya (xüsusi faktlardan ümumi nəticə çıxarılması) idrakın metodoloji əsasıdır.

Beləliklə fəlsəfə sahəsində ön plana qnoseologiya problemləri, ilk növbədə elmi metodologiya problemləri çıxır.

Intibah dövrünün elmi yüksəlişini yekunlaşdıran XVII əsrin intellektual inkişafında həlledici rol oynayan, fəlsəfi və meto-

doloji prinsipləri formulə edən ilk Avropa alimi italyan fiziki və astronomu Qalileo Qaliley (1564-1642) olmuşdur.

Qalileyin dünyagörüşünün əsasını dünyanın obyektiv mövcudluğunun qəbul edilməsi təşkil edirdi. Materiyanın əbədi və sonsuzluğunu qəbul edən Qaliley onun atomistik strukturunu qeyd edir, eyni zamanda göstərirdi ki, məhz mütləq dəyişməz atomlardan təşkil olunmuş materiaynın hərəkəti universal mexaniki yerdəyişmədir. Qaliley kəşf etdiyi mexanika qanunlarını bütün təbiətə aid edirdi, bu isə obyektiv, sırf fiziki, mifoloji və dini məzmundan məhrum təbiət qanunlarının yaradılmasını göstərirdi (burada hər şey sərt mexaniki səbəbiyyətə tabe edilir).

Qnoseologiya və idrakın metodologiyası sahəsində Qaliley intibah fəlsəfəsinin əsas antisxolastik xəttini müdafiə etmişdir. O, ikili həqiqət konsepsiyasını inkişaf etdirərək onu Müqəddəs Kitabın hər iki hissəsinin doktrinası kimi təfsir edir. Məhz burada "təbiətin böyük kitabı" "fəlsəfənin əsl predmetini" təşkil edir. Beləliklə elmin məqsədi hadisələrin səbəbinin axtarılmasıdır. Biliyin ali pilləsi hadisələrin daxili zərurətinin dərkidir. Elmin əsası təcrübi bilikdir. Təbiətin dərk olunmasının çıxış nöqtəsi müşahidədir. İdrakın əsas metodu eksperimentdir (planauyğun keçirilən təcrübə). Vacib metodoloji prinsip qarşılıqlı əlaqədə olan iki metodun birləşdirilməsidir. Bunlar tədqiq olunan hadisələri sadə elementlərə ayıran analitik metod (rezomotiv) və tədqiq olunan faktın şərhinə kömək edəcək fərziyyələr irəli sürən sintetik metoddur (kompozitiv).

Qaliley təbiət hadisələrinin konkret qavranılması ilə elmi təfəkkürün birləşməsində, obyektiv dünyanın tədqiqinin induktiv və deduktiv üsullarının optimal sintezini tapmışdır. Bu, italiyalı alimi təbiətşünaslığın görkəmli nəzəriyyəçisi, yeni elm və fəlsəfənin orijinal yolgöstərəni etmişdir.

## 2. Frensis Bekon

Frensis Bekon (1561-1626) yeni Avropa fəlsəfəsində mühüm prinsipləri formula edən mütəfəkkirdir.

Bekona görə təbiət çoxobrazlı keyfiyyətlərə malik cizgilər toplusudur. Materiya qavranılan keyfiyyətlərin obyektiv çoxobrazlığıdır. Materiya eyni zamanda təkcə mexaniki yerdəyişmə kimi şərh olunmayan hərəkətə malikdir. Onun fikrincə hərəkətin 19 növü mövcuddur. Filosofa görə elmin əsas məqsədi insanın təbiət üzərində hökmranlığının artırılmasıdır. Bu məqsədə yalnız hadisələrin həqiqi səbəblərini dərk edən elm çata bilər. Məhz bu əsasda Bekon sxolastika və onun əsas metodu deduksiyanı tənqid etmiş, təcrubi məlumatlara müraciəti və induktiv metodu ona qarşı qoymuşdur.

Bekona görə yalnız təbiətşünaslıqın qanunauyğunluqlarını dərk edən elm təbiət üzərində hökmranlığa qadirdir. Burada iki növ təcrübə fərqləndirilir:

1. "məhsuldar" (insana birbaşa fayda gətirilməsinə istiqamətlənir)
2. "işiqlı" (məqsədi obyektiv dünyanın qanunlarını dərk etməkdir)

"Elmin böyük bərpası" ideyasını irəli sürən Bekona görə, bu cür bərpa üçün zəmin əvvəllər həqiqət hesab edilən hər şeyin tənqididir. Ilk növbədə əsaslandırılmayan ümumiləşdirmənin (sxolastik sillogizim) əleyhinə çıxış edən Bekon elmin yeniləşdirilməsinin əsas şərtini ümumi anlayışların əmələ gəlməsi metodlarının təkmilləşdirilməsi hesab edirdi. Ona görə də filosofun sistemində əsas metod induksiyadır. Başqa sözlə elmin islahatından əvvəl, onun metodologiyasında islahat olmalıdır, həm də zəka yanılmalardan ("idol" və yaxud "kabus"lardan) azad edilməlidir.

Insan idrakının Bekon təsnifatında idolların inkarı fəlsəfə bölməsinə aid edilir və idrak yolunda dörd növ idol (yalan ideya, obraz) fərqləndirilir:

- cins idolları (insanın təbii obyektləri özü ilə anologiyada tədqiq cəhdi ilə əlaqədar insan hiss və maraqlarının təsirindən törəyən səhvlər)
- mağara idolları (ayrı-ayrı insan qruplarına xas meyillər və fərdi xüsusiyyətlər, ayrılmağa yönəlmiş varlıqların subyektiv maraqları ilə izah olunur)
- meydan (bazar) idolları (geniş yayılmış, lakin həqiqi olmayan rəylərə qeyri tənqidi münasibətlərdən, həmçinin sözlərin qeyri-korrekt işlədilməsindən törəyir)
- teatr idolları (yalan rəylərin, həqiqətə bənzər olan, lakin gerçəkliyi düzgün əks etdirməyən məlumtlar verən ənənəvi ehkamçı sistem və nüfuzlu mühakimələrin mənimsənilməsi nəticəsində yaranır).

Yeni elmin həlli metoduna keçid yalnız neqativ məsələnin – idolların kənarlaşdırılmasından sonra mümkündür. Elm tarixində tədqiqatın ehkamçı (xüsusinin ümumi mücərrəd müddəalardan alınması) və emprik (düşünülməmiş, sistemsiz faktlar toplusu) iki metodunu fərqləndirən Bekon təcrübi faktların rasional təhlilini həqiqi metod adlandırır. Belə metod tədqiqatın əsas vasitəsidir, ona qavrayış bacarığını və insan fikrini kamilləşdirən alətlər aiddir.

Bekon təbiəti passiv seyr etmənin əksinə olaraq eksperimentin məhsuldar rolunu qeyd edirdi. Əsas diqqəti qnoseoloji və metodoloji problemlərə (xüsusilə onun tənqidi, praktiki və emprik aspektləri) yönəldən Bekon fəlsəfəsi həm ingilis emprizmi və rasionalist fəlsəfəsinin, həm də bütün eksperimental təbiətşünaslığın yaranmasında böyük rol oynamışdır.

## 3. Rene Dekart

Rene Dekart (1596-1650) görkəmli fransız riyaziyyatçısı, fizik və filosofu, Yeni dövr Avropa fəlsəfəsinin mərkəzi şəxsiyyətlərindən biridir. Dekartın təlimi birbaşa riyaziyyat və fi-

zika ilə əlaqədardır. Onun fəlsəfəsinin əsas mahiyyəti dualizmdir (lat. duo-iki).

Dekartın materiya və yaxud maddi substansiya haqqında təlimi dünyanı yaratmış və materiyada əsas keyfiyyətləri saxlayan allahı zəruri element kimi özündə birləşdirir. Dekart materiyanı məkanla eyniləşdirirdi. Bu zaman o hesab edirdi ki, əşyaların ayrı-ayrı keyfiyyətləri obyektiv mövcudluğa malik deyildir. Dekarta görə materiya hüdudsuz, bircins, boşluğa malik olmayan və sonsuz bölünəndir.

Təbii obyektlərin keyfiyyət çoxobrazlılığı şəraitində məkanla eyniyyət təşkil edən və ilkin səbəbi allah olan materiyanı hərəkətə (hərəkət bir cisimdən digərinə ötürülən təkan nəticəsində yaranır) gətirən Dekart fizikası bu müddəalar üzərində qurulur.

Qeyri-maddi və maddi substansiya olan iki müstəqil ilkin əsas (dualizm) götürən, onlara təfəkkür və ölçü verən Dekart insan mövcudluğunu iradə və təfəkkürə malik zəkalı ruhun cansız cismani mexanizmlə gerçək əlaqəsi kimi əsaslandırmağa cəhd göstərirdi.

Qnoseologiya və metodologiya sahəsində Dekart idrakın əsas məsələsini təbiətin kortəbii qüvələrinin ram edilməsində görürdü. Sxolostik metoda skeptik yanaşan Dekart öz mühakimələrinin çıxış nöqtəsini bütün insan biliklərinə şübhə ilə yanaşmaqla irəli sürür. İdrakın əsası haqqında danışarkən o, aşağıdakı mühakimələri yürüdür:

- hər şeyə, o cümədən şəxsi bədənin mövcudluğuna da şübhələnmək mümkündür.
- şübhələnmə aktının olması ən azı onun varlığını göstərir
- şübhə təfəkkür aktlarından biridir (yəni şübhə təfəkkürün varılğı ilə şərtlənir).
- təfəkkürün var olması düşünən subyektin mövcudluğu ilə şərtlənir.
- uyğun olaraq, biliyin yeganə və səhih əsası "Düşünürəmsə, deməli mövcudam" müddəasıdır.

Sonra isə, Dekart öz metodunu əsaslandırmaq üçün onun iki əsas mühüm cəhətini göstərir:

1. İdrakın başlanğıcı mücərrəd xarakterli, sadə və heç bir şübhə doğurmayan dəqiq və sərt təsəvvürə malik intellektual intuisiya olmalıdır.
2. Zəka bu intuitiv görüşlərdən, deduktiv metoddan istifadə etməklə bütün zəruri nəticələri çıxarmalıdır.

Beləliklə, Dekartın metodu rasionalist metod adlandırıla bilər, çünki onda əsas vurğu hissi qavrayışın üzərinə deyil, həqiqətin əldə olunması prosesində insan zəkasının fəaliyyəti üzərinə qoyulur.

Dekartın irəli sürdüyü rasionalist metodun əsas prinsipləri isə aşağıdakılardır:

1. Həqiqət qismində həqiqiliyi heç bir şübhə doğurmayan müddəalar mümkündür
2. Hər bir mürəkkəb problemi onu təşkil edən xüsusi problemlərə ayırmalı
3. Məlum və sübut olunmuşlardan naməlum və sübut olunmamışlara metodiki keçid
4. Tədqiqatın məntiqi həlqələrində heç bir səhv buraxılmamalı.

Rene Dekartın fəlsəfəsi elmi idrakın yeni metodologiyasının əsasını qoymuş və Avropa fəlsəfə ənənələrinin inkişafında əsas məqamlarından biri olmuşdur.

## 4. Pyer Qassendi

Pyer Qassendi (1592-1655) fransız filosofu, riyaziyyatçısı, astronomu, elm tarixçisi, atomizm və sensualizim ənənələrinin davamçısıdır. XVII əsrin I yarısında filosoflar üçün bir qaydaya çevrilmiş sxolastik fəlsəfənin tənqidi, aristotelizmin şərhçilərinin filomoriya (səfehliyi sevmək) adlandırılan təkzib forması Qassendinin də əsərlərində öz əksini tapmışdır. Ehkamçılıq və skeptisizm arasında "orta yol" haqqında danışan Qas-

sendi təcrübi-induktiv metodun vasitəsilə nisbi həqiqətlərin əldə olunmasının mümkünlüyünü təsdiq edirdi. Qassendinin emprizmi faktiki olaraq sensualizmdir (lat. sensus-hiss, duyğu). Burada o, ilk növbədə emprik fəlsəfəyə əsaslanır (həqiqiliyin meyarı yalnız hisslərdir, düşüncə isə təcrübi biliyi vasitələndirən alətdir).

Qassendinin fəlsəfəsi üç amili ehtiva edir:

- məntiq (həqiqətin əlamətlərini və idrak metodunu müəyyənləşdirir, həmçinin ehkamçılıq və skeptisizmi tənqid edir);
- fizika (zaman və məkanın obyektivlyini, yaradılmamazlığını və məhvolmazlığını atomist mövqeyindən şərh edir);
- etika (əsasən Epikürün etik görüşlərinin bərpasına cəhd edir).

Qnesologiya sahəsində Qassendinin sensualizmi tam ardıcıldır. O mütləq həqiqətin əldə olunmasının mümkünlüyünü inkar edir və aqnostisizm mövqeyində duraraq göstərir ki, insana "funksional substansiyalar" deyil, yalnız "funksiyalar" əlçatandır, insan təbiətin strukturunu deyil, yalnız hiss orqanlarına açıq olan təbiət hadisələrini dərk edə bilər.

Qassendi fizikada Epikürə deyil daha çox Demokritə meyl edir:

- hər şey məkan və zaman daxilindədir, boşluq və atomlardan ibarətdir;
- zaman nəsə müntəzəm axındır
- məkan və zaman məhvolmayan və yaradılmayandır
- atomları allah yaradıb, lakin onlar hərəkət üçün daxili cəhdə malikdirlər, sayları məhduddur, lakin onlar daha mürəkkəb təsisatlarda birləşirlər və bu təsisatları Qassendi tarixdə ilk dəfə molekullar (moles-kütlə) adlandırır.

Epikür etikasının ardınca Qassendinin etikası belə bir tezisi inkişaf etdirir ki, hər bir həzz öz-özlüyündə xeyirdir. Beləliklə onun etikasının mərkəzi anlayışı həzzdir. Qassendiyə görə həzz ilk növbədə xoşbəxtliyə can atır (evdemonizm, yunanca Eudai-

monia-xoşbəxtlik), xoşbəxtliyin fəlsəfəsi sağlamlıq fəlsəfəsidir, əsas fəzilət ağıllılıqdır. Ruhun ölməzliyi haqqında məsələnin təfsiri də orijinaldır (epikürçülüyün əsas təlimlərindən biri ruhun faniliyi haqqında tezisdir). Qassendiyə görə iki ruh var:

- hissi, ağılsız: hissi idrak bunlara görə mümkündür (o cismani və fanidir)
- intellektual, zəkalı: bunların köməyi ilə məkan və zaman dərk olunur (o bədənsizdir, allah bağışlayıb, dərkolunmaz və ölümsüzdür).

*Yoxlama sualları*

1. Mexanisizmin əsas xarakteristikası
2. Dünyanın Q.Qaliley mənzərəsi
3. Yeni Avropa fəlsəfəsi və F.Bekonun ideyaları
4. R.Dekartın təlimi
5. P. Qassendinin fəlsəfi sistemi

# XII MÖVZU
# XVII ƏSRIN ORTALARINDA QƏRBI AVROPA FƏLSƏFƏSI

## 1. Tomas Hobbs

Tomas Hobbs (1588-1679) XVII əsrin ortalarında yaşamış böyük ingilis filosofudur. Hobssun fəlsəfi doktrinası müasirləri R.Dekart, F.Bekon, P.Qassendinin təsiri altında formalaşmışdır.Fəlsəfə və teologiyanın sferaları haqqında məsələdə Tomas Hobbs ardıcıldır və ona görə "fəlsəfə teologiyanı dərk edir". Hobbsa görə dərk edən zəka rasionalist fəaliyyətlər sistemi, teologiya isə zəka üçün əlçatmaz olan və əsaslandırılmasına ehtiyac duyulmayan ilahi vəhyin verdiyi bilikdir.

Hobbsun fəlsəfəsinin əsas müddəaları aşağıdakılardır

-obyektiv dünya-cisimlər toplusudur,

-qeyri-cismani mövcud deyil,

-təfəkkür fikirləşən materiyadan ayrılmazdır,

-maddi obyektlərin bütün keyfiyyətləri materiyanın elementlərinin hərəkətinin nəticəsidir,

-bu hərəkət mexaniki qanunlar üzrə baş verir,

-canlı mövcudluqların duyğulardan yaranan mənəvi həyatı hərəkət kateqoriyasına bağlıdır,

-duyğular obyektiv proseslərə təsir göstərmir, lakin onları subyektiv ifadə edir,

-beləliklə, canlı mövcudluqlar fəaliyyəti xarici təsirlə əvvəlcədən müəyyənləşdirilmiş mexanizmlərdir.

Verilmiş müddəalar Hobbsa aşağıdakı nəticələri çıxarmağa imkan vermişdir:

- ruh xüsusi substansiya olaraq mövcud deyil,
- yeganə substansiya cisimdir,
- Allaha inam insan fantaziyasının gücündən başqa bir şey deyildir.

Dekartın fikirləşən substansiyasının mövcudluğunu inkar edən Hobbs mexaniki materializmin ilk yekunlaşmış sistemini

yaradır, burada təbiət məkanda mövcud fiziki göstəriciləri ilə fərqlənən cisimlər toplusudur. Hobbsun idrak nəzəriyyəsi şeylərin xassələrini (cisimlərə gerçək xas olan ölçü) və şeyləri qavrama formasını (məkan, zəkanın yarandığı obraz kimi) dəqiq ayırır.

Dekartın rasionalist metodunu inkar edən Hobbs məlum sensualizm disturuna əsaslanır: hisslərdə olmayan, zəkada da yoxdur".

Hobbs idrakın iki metodunu fərqləndirir: 1) təcrubi-induktiv (analitik), tətbiq sahəsi fizikadır; 2) hipotetik-deduktiv (sintetik), tətbiq sferası riyaziyyat, etika və siyasətdir.

Hobbsun cəmiyyət və dövlət haqqında təlimi, onun qnoseoloji təlimindən daha məşhurdur. İnsanın maddi cisim olmasından danışan Hobbs göstərir ki, insan eyni zamanda:

- təbii, fiziki varlıqdır,
- əxlaqlı, mənəvi mövcudluqdur və bu qisimdə o incəsənətin yaradıcısıdır, bunlardan mürəkkəb və vacib olanı dövlətçilikdir.

Hobbs dövlətçilik haqqında doktrinasını əsas hesab edərək, onu philosophia moralis civilis (əxlaq və yaxud vətəndaş fəlsəfəsi) adlandırmışdır. Hobbsun dövlət haqqında təliminə görə hər bir xalq öz inkişafında iki mərhələdən keçir: təbii, dövlətəqədərki və dövlət.

Hobbs öz sistemindən təzahür edən hüquq nəzəriyyəsinin tərəfdarı kimi çıxış edir. Belə ki, hüquq hər bir kəsin ehtiyacı olduğu hər şeyə hüququnun olduğunu bildirdiyi üçün (əxlaqi, hüquqi məhdudiyyətlərdən kənar) təbii vəziyyət halının "hamıya qarşı mübarizəsidir". O buradan dövlətçiliyə keçidi zəruri edir və bu ictimai müqavilə yolu ilə gerçəkləşdirilir (insan təbiətinin gerçək qanunlarının nəticəsi kimi). Bu yolla meydana gələn dövlət (Hobbs iki termindən istifadə edir-"monarxiya" və "ictimai rifah") xalqın mövcudluğunu təmin etmişdir və ağıllı zərurətdir.

## 2. Blez Paskal

Blez Paskal (1623-1662) fransız filosofu, yazıçısı, riyaziyyatçı və fiziki, elmi idrakın görkəmli metodoloji təhlilçisi, irrasionalizmin müjdəçisidir.

Paskal Dekartın metodoloji axtarışlarını davam etdirmişdir. Sxolastikanın metodikasını inkar edən Paskal onu elmi idrak üsuluna görə iki yerə bölür:

1) Tarixi fənnlər(tarix, coğrafiya, hüquqşunaslıq, dilçilik, tealogiya). Bu fənnlər artıq faktlar üzərində əməliyat aparır;

2) Ehkamçı fənnlər (hesab, həndəsə, fizika, musiqi, memarlıq, tibb). Bu fənnlər hiss və zəkaya, təcrübə və mühakiməyə əsaslanır.

İdrakın əsas metodu təkcə rasional sübutlarla deyil, həm də bəzi dekartsayaqı intelektual intuisiyalar (məkan, zaman, hərəkət və.s) ruhunda şərh olunmuş ilkin, təcrübəyəqədərki prinsiplərlə əməliyyat aparan rasionalist, aksiomatik-deduktiv metoddur. Lakin Dekartdan fərqli olaraq Paskal elmiliyin sərhəddi haqqında məsələni irəli sürür və göstərir ki, "biz həqiqəti təkcə zəka ilə deyil, həm də ürəklə dərk edirik".

Paskalı ardıcıl aqnostik adlandırmaq olar. O dünya quruculuğu haqqında danışarkən kosmosun "böyük" (unversumun hüdudsusluğu) və "kiçik sonsuzluq"lardan (mikrodünyanın hüdudsuzluğu) ibarət olduğunu qeyd edir və sonsuzluğun dərk olunmazlığını göstərir.

Beləliklə, dünyada iki həqiqət mövcuddur: yalnız allah üçün mümkün olan mütləq həqiqət və insanın qismətinə düşmüş olan nisbi həqiqət. Eyni zamanda, insan bədəni və ruhunu vahid təbiyyətin (dualizm) təzahürü kimi prinsipial olaraq tədqiq etməyən Paskal ümidsiz nəticələrə gəlir. Onun fikrincə insan ruhu, bədəninə nisbətdə daha çox dərk olunmazdır. Bütün bunlar onu insanın faciyəviliyi və zərifliyi ideyasına gətirir. İnsanın ləyaqət və əzəmətini onun fikri bacarığı ilə eyniləşdirən konsepsiya buradan yaranır. İnsan "düşünən varlıqdır", onun adi vəziyyəti "səbatsızlıq, xiffət və narahatçılıqdır".

Paskal fəlsəfəsində antropoloji problem mərkəzi yer tutsa da, onun elmi metodologiyası üçün əsas olan rasionalizm insana aid edilmir, "ürək qaydaları" "zəka qaydalarına" qarşı qoyulur. ("ürəyin zəkanın bilmədiyi öz hökmləri vardır"), insan "ziddiyyətlər laxtasıdır".

Bütövlüklə Paskalın irrasional antropologiyası XVII əsr fəlsəfəsində mühüm hadisə olub, bəzi məsələlərdə XIX əsr irrasionalizmini də qabaqlamışdır.

### 3.Barux Spinoza

Barux Spinoza (1632-1677) fəlsəfi təlimini Dekart kimi şərtsiz səhihliyə malik müddəalar üzərində qurmağa cəhd edən niderland filosofudur. O həndəsəyə səhihlik və sübutun meyarı kimi baxmış, əsas əsəri "Etika"nı həndəsi nümunə üzrə qurmuşdur: ilkin təyinlər aksiomlardır, onların köməyi ilə teoremlər isbat edilir.

Spinozanın təbiət haqqında təlimi monistdir (yun. monos-bir). Spinozanın ontologiyasının mərkəzində vahid, əbədi və sonsuz substansiya dayanır. O həm "yaradan təbiət", həm də "yaradılan təbiətdir". Başqa sözlə Spinoza allahla təbiəti eyniləşdirir və bununla təbiətdən kənar nəyinsə mövcudluğunu istisna edir. Eyni zamanda, obyektiv dünyanın predmetlərinin çoxobrazlılığının əsasında vahid substansiyanın təkcə təzahürü – moduslar toplusu dayanır. Moduslar sonsuz çoxluqda mövcuddur, substansiya vahid olduğuna görə hər bir differensiyanı istisna edir. Substansiyanın dərki yalnız sonsuz ağıl üçün mümkündür, insan düşüncəsinə isə onun yalnız iki xarakteristikası, və yaxud atributu əlçatandır: ölçü və təfəkkür. Beləliklə Dekartın iki substansiyası, Spinozanın monist şərhində vahid substansiyanın iki atributuna çevrilir

İnsan mahiyyəti də buna uyğun qaydada şərh edilir. İnsan təbiətin hissəsi, ölçü (bədən) modusları təfəkkür (ruh) moduslarına uyğun gələn mövcudluqdur.

Spinozanın səbəbiyyət haqqında təlimini mexaniki determinizm və hətta mexaniki fatalizm adlandırmaq olar. Çünki burada təsadüf yalnız subyektiv kateqoriya kimi çıxış edir.

Spinozanın qnoselogiyası rasionalistdir. Burada üç növ bilik və yaxud idrak mərhələsi mövcuddur:

1) təxəyyül və rəy (bu hissi təcrübənin məlumatlarına əsaslanan bilikdir),

2) düşüncə və yaxud intellekt (bu ümumi anlayışlara əsaslanan bilikdir),

3) intuisya (bu isbatla vasitələnməmiş bilikdir, zəkanın birbaşa seyri bu biliyi həqiqətə çevirir).

Spinozanın antropologiyası mexaniki determinizm qanunlarını insan davranışlarına aid edir, insanın fəaliyyəti həmişə əvvəlcədən müəyyənləşir. "Azadlıq" anlayışı isə, dünyanın dialektik təfsiri zamanı meydana çıxır. Spinoza bunu belə formulə edir: "Azadlıq dərk olunmuş zərurətdir".

Allahı faktiki olaraq müstəqil substansiya kimi kənarlaşdıran Spinoza, insan ruhunun əbədiliyi ideyasını əsaslandırır və fiziki ölümü vahid substansiyaya qayıdış kimi şərh edir. Spinozanın etikası onun fəlsəfi sisteminin digər bölmələrindən heç də az mexanist deyil və pisixi həyatın bütün çoxobrazlığını iki başlanğıca bağlayır.

1) İradə ilə eyniləşdirilən zəkaya;

2) Sevinc, kədər, tamah kimi şövq və ya affektlərə.

İnsanın şövqdən (passiv affektlər) asıllığı dünyəvi determinasıya zəncirindən asılıdır. Bir qayda olaraq o, insan iradəsinin azadlığı illuziyası ilə müşayət olunur. Mövcud illuziya hissi mücərrəd bilikdən (biliyin birinci növü) törəyir. Lakin biliyin ali (intuitiv) mərhələsində, ən ümumi zərurətin dərki zamanı şövq affektləri zəkalı insanın dərk etmə prosesində fəal affektlərə çevrilir. Başqa sözlə azadlıq dərketmədir, Spinozanın etik ideyalı və həyatının məzmunu allaha intellektual məhəbbət bəsləyən bir müdrikdir.

*Yoxlama sualları*

1) T.Hobbs fəlsəfəsinin əsas müddəaları

2) B.Paskalın elmi idrak metodologiyası

3) B.Spinozanın təlimi

4) XVII əsri Qərbi Avropa fəlsəfəsinin ümumi xarakteristikası

5) XVII əsrin başlanğıcı və ortalarında Qərbi Avropa fəlsəfəsinin fərqli cəhətləri

# XIII MÖVZU

# XVII ƏSRIN SONUNDA QƏRBI AVROPA FƏLSƏFƏSI

## 1. İsaak Nyuton

İsaak Nyuton (1643-1727) ingilis fiziki və riyaziyyatçısı, fəlsəfi fikirin inkişafına böyük təsir göstərmiş klassik mexanikanın nəzəri əsaslarının banisidir. Nyutonun əsas əsəri "Natural fəlsəfənin riyazi başlanğıcı" (1687) adlanır. O bu əsərdə İ.Keplerin, N.Kopernikin, Q.Qalileyin, R.Dekartın kəşflərini ümumiləşdirmiş və ilk dəfə olaraq mexanist doktrinanı ümumidünyagörüşü mənasında deyil, geniş, ayrıca təbiətşünaslıq çərçivəsində inkişaf etdirmişdir. "Başlanğıcda" Nyuton "hərəkət qanunları və yaxud aksiomalarını" irəli sürərək klassik mexanika və klassik fizikanın baza əsaslarını aşağıdakı şəkildə formulə etmişdir: ətalət qanunu (Nyutonun birinci qanunu), hərəkət miqdarının qüvvəyə mütənasibliyi qanunu (Nyutonun ikinci qanunu), təsir və əkstəsirin bərabərliyi qanunu (Nyutonun üçüncü qanunu).

Nyutonun metodologiyası XVII əsr fəlsəfəsinin prinsipləri ilə müəyyənləşir. Nyuton qarşılıqlı əlaqədə olan iki metoddan istifadə edir: analitik və sintetik. Birinci metod (mahiyyətcə induktiv) müşahidə əsasında təbiətin qanunlarını aşkarlayaraq, təcrübə və eksperiment üzərində sərt nəzarət tələb edir. Burada dərin fəlsəfi məna vardır. Faktiki olaraq bilik, təbiyyət, elm və fəlsəfi sferalara ayrılır (artıq Nyuton üçün təcrübi məlumatlara əsaslanmayan mücərrəd nəzəriyyələrdən istifadə etmək mümkün deyil). Nyuton metafizik nəzəriyyələrdən (mütləq məkan və mütləq zaman) tam uzaqlaşa bilməsə də, onun fəlsəfəyə verdiyi töhfə "Başlanğıcların" nəşrindən sonra fəlsəfə və elm arasındakı qarşılqlı münasibətlərdə baş verən dəyişikliklərdə də özünü göstərir. Həmin dövrdən etibarən xüsusi elmi nəzəriy-

yələr fəlsəfi konsepsiyalara ciddi təsir göstərmiş, Nyutonun "naturfəlsəfəsi" Qərbi Avropanın yeni dünyagörüşü olaraq materialist mexanizmin tikilmiş binasına faktik olaraq yekun vurmuşdur.

## 2. Qotfrid Vilhelm Leybnits

Qotfrid Vilhelm Leybnits (1646-1716) alman filosofu, riyaziyyatçısı, fiziki, ictimai xadimidir, XVII əsrin sonu XVIII əsrin əvvəllərində Almaniyanın böyük müəfəkkiri Leybnitsin fəlsəfi sistemi antik, orta əsrlər və müasiri olduğu fəlsəfənin yaradıcı şəkildə yenidən işlənməsinin nəticəsidir. Leybnitsin qarşısına qoyduğu mühüm məsələ hazırladığı metod əsasında yeni elmi biliklərlə milli fəlsəfi ənənələrin sintezini yaratmaq idi. Bu metod fəlsəfədən ciddi məntiqilik və mühakimələrin universallığını tələb edirdi. Leybnits bu nəzəriyyənin varlığın möcudluğunun aprior (təcrübədən asılı olmayan) prinsipləri ilə sübuta yetirilməsinin mümkünlüyünü əsaslandırmışdır:

- hər bir mümkün və ya dərkedilən varlığın qeyri-ziddiyyətliliyi (ziddiyyət qanunu);
- mümkünün gerçəklik qarşısında məntiqi üstünlüyü;
- sonsuz mümkünlər çoxluğunda başqa birisi deyil, ancaq dünya mövcuddur;
- başqa birisi deyil, məhz verilmiş hadisənin baş verməsi faktının kafi əsaslandırılması (kafi əsas qanunu)
- mövcudluğun kafi əsası kimi çıxış edən dünyanın optimallığı (kamilliyi).

Leybnitsin ontologiyası XVII əsr ənənələrini davam etdirən substansiyalar haqqında yeni təlimdir (baxmayaraq ki, Leybnits Dekart dualizmini və Spinoza monizmini inkar edirdi). Leybnits iki dünyanı fərqləndirir:

- metafizik gerçəklik, həqiqi mövcudluğun dərk olunan dünyası;
- fenomenal gerçəklik, hissi qavranılan fiziki obyektlər dünyası.

Onun fikrincə dünya sonsuz sayda kiçik ünsürlər – monadalardan təşkil olunmuşdur. Monada bölünməz ilk ünsür, psixi fəaliyyətli substansiya, varlığın fəal və müstəqilliyə malik mənəvi vahididir. Monadalar müntəzəm dəyişmədədir, onlar arasında allahın əvvəldən bərqərar etdiyi harmoniya (qarşılıqlı uyğunluq, ahəngdarlıq) mövcuddur və buna görə monadalar bir-birinə təsir göstərmir (substansiya olaraq onlar bir-birindən asılı deyil), lakin hər bir monada digərlərinin ümumi inkişafı və deməli bütün dünya ilə birlikdə inkişaf edir. Bu uyğunluq hər bir monadanın digər substansiyaları və bütövlükdə bütün dünyanı qavramaq, ifadə və inikas etdirmək kimi ilkin bacarığına görə mümkündür ("monada kainatın güzgüsüdür"). Hər bir monada qavramaya (persepsiya) və cəhd etməyə (yeni qavramaya, appetisiya) malikdir. Bu isə substansiyaya fəallıq, hərəkətlilik və yaradıcılıq xarakteri təmin edir ("substansiya fəaliyyətə qabil mövcudluqdur").

Monadaların fəaliyyəti bütün universiumu əks etdirən "tam fərdi anlayışların" inkişafıdır. Monadaların bütün fəaliyyəti əvvəldən müəyyənləşmişdir. Onlar qavramalardan asılı olaraq substansional iyerarxiyada yer tutur və mövcud olurlar. Bütün bunlar ali monada kimi allahdan asılı olan "əvvəlcədən müəyyənləşdirilmiş harmoniyanın nəticəsidir". Monadaların sadələşdirilmiş iyerarxiyası aşağıdakı kimi təsvir edilə bilər (ibtidaidən aliyə doğru):

- qeyri-üzvi dünya və bitkilər – tutqun təsəvvürlər
- canlılar – duyğular
- insan – aydın anlama, düşünmə (burada insanların ruhunun təkcə persepsiyaya (qavramağa) deyil, həm də appersepsiyaya (özünüdərkə) qadir monada olması nəzərdə tutulur.

Dərkolunan monadaların gerçək dünyasından fərqli olaraq, fiziki dünya substansiyalar dünyasının qeyri-kamil hissi ifadəsidir. Bununla belə fiziki fenomenlər "yaxşı əsaslandırılmışdır", çünki onların hər birinin arxasında monada dayanır.

Leybnitsin qnosologiyası rasionalistdir və Con Lokk emprizmi ilə Rene Dekart rasionalizmi arasında özünəməxsus kompromisdir. Onun əsas xəttini ağılın bəzi ideya və həqiqətləri anadangəlmə dərketmə bacarığı ilə yanaşı hissi, təcrübəsiz intellektual fəaliyyətin mümkün olmaması haqda baxışlar tutur.

### 3. Con Lokk

Con Lokk (1632-1704) ingilis filosofu və siyasi mütəfəkkiri, Britaniya fəlsəfi ənənəsidə F.Bekon və T.Hobbsdan sonra empirizmin daha ardıcıl nümayəndəsidir.

Lokk fəlsəfi sisteminin mərkəzi məsələsi materialist sensualizm prinsipinə əsaslanan qnoseologiyadır (bütün biliklər xarici dünyanın hissi qavranılmasından əmələ gəlir).

Lokkun əsas əsəri idrak nəzəriyyəsinə həsr edilmiş "İnsan zəkası haqqında təcrübələr" (1690) adlanır. Təcrübədən kənar biliklərin mövcudluğunu inkar edən Lokk biliyin mənbəyinin yalnız təcrübə olduğunu bildirir və onu daxili və xarici təcrübələrə bölür. Filosofa görə bu bölgüyə uyğun olaraq ideyaların iki mənbəyi var:

- duyğular (duyğu ideyaları xarici obyektlərin hiss üzvlərinə təsiri nəticəsində yaranır);
- refleksiya (refleksiya ideyaları ruhun vəziyyəti və fəaliyyətinə istiqamətlənmiş diqqətin nəticəsində yaranır).

Hər bir biliyin əsasında sadə duyğu ideyaları yaranır və onların köməyi ilə şeylərin keyfiyyət xarakteristikalarını qavramaq mümkündür:

- birinci keyfiyyətlər (hərəkət, ölçü, sıxlıq, say, fiqur)
- ikinci keyfiyyətlər (rəng, qoxu, səs)

Duyğu və refleksiyalardan alınmış ideyalar biliyin materialını təşkil edir. Sadə ideyalardan biliyin alınması ruhun üç bacarığı (fikri əməliyyatlar) vasitəsilə baş verir: müqayisə, birləşdirmə, mücərrədləşmə. Bu əməliyyatların nəticəsi mürəkkəb və ümumi ideyaların (moduslar, substansiyalar, münasibətlər)

əldə olunmasıdır ki, onlar da üç sinifə ayrılır: gerçək və fantastik, adekvat və qeyri-adekvat, həqiqi və yalan.

Səhihliyinə görə Lokk iki növ biliyi fərqləndirir. Səhih bilik (şübhəsiz, dəqiq) təsəvvürlər və onlar arasındakı münasibətlərin fikri tədqiqi ilə əldə olunur, ehtimali bilik təcrübi faktlara əsaslanaraq isbat edilən empirik bilikdir. Səhih bilik intuitiv, demonstrativ və sensitiv olaraq üç yerə bölünür. Beləliklə, hissi idrakın demonstrativ və intuitivdən aşağı, ehtimaldan yuxarı səviyyədə dayandığını təsdiq edən Lokk öz idrak nəzəriyyəsinə rasionalizm elementləri əlavə edir.

Lokkun "Dövlətin idarə olunması haqqında iki traktat" (1690) əsərində şərh olunmuş sosial-siyasi konsepsiyası da öz əhəmiyyəti ilə seçilir. Cəmiyyətin təbii vəziyyətdən vətəndaş vəziyyətinə keçidi haqqında Hobbsun nəzəriyyəsini inkişaf etdirən Lokk, belə bir mühakimə yürüdürdü ki, bu keçidin məqsədi ictimai rifah olduğu üçün, dövlət qanunvericilik, nizam-intizamın qorunması, qanunu pozanların cəzalandırılması və xarici təhlükədən müdafiə kimi vacib funksiyaları yerinə yetirməlidir. Ona görə də Lokk dövlət hakimiyyətini üç hissəyə: qanunverici (parlament), icraedici (ordu və məhkəmə) və federativ (kral və nazirlər) hakimiyyətlərə bölür. Onun fikrincə, ali hakimiyyət üç müstəqil, lakin qarşılıqlı əlaqədə olan, cəmiyyət və dövlətin normal mövcudluğunu təmin edən institutdan təşkil olunmalıdır (burada özünün sonrakı inkişafını fransız maarifçilərinin əsərlərində tapmış hakimiyyət bölgüsünün əsas siyasi prinsipləri irəli sürülür).

### 4. Pyer Beyl

Pyer Beyl (1647-1706) fransız filosofu və publisisti, fransız maarifçiliyinin ilk nümayəndələrindən biridir. Onun dünyagörüşü M.Monten, R.Dekart, P.Qassendi fəlsəfəsinin, XVII əsr təbiətşünaslığının təsiri altında formalaşmışdır. Beylin əsas əsəri "Tarixi və tənqidi lüğət"dir (1695-1697). Burada əlifba

sırası ilə verilmiş müxtəlif tarixi şəxsiyyətlərə həsr olunmuş məqalələrdə filosofun konsepsiyasının mahiyyəti, dini indifferentizmi (fərqsizlik) şərh olunmuşdur. Bir tərəfdən bəzi Bibliya personajlarının ayrı-ayrı fəaliyyətlərinin tənqidi təhlili, digər tərəfdən isə müdrik ateistlərin əxlaqi reabilitasiyası Beyli belə bir nəticəyə gətirmişdir ki, allaha inamla insanın əxlaqi siması arasında birbaşa əlaqə mövcud deyildir. Beyl yeni dövr fəlsəfəsində dini-ilahiyyat və fəlsəfi-metafizik ehkamçılığa qarşı çıxan skeptisizmin ardıcıl tərəfdarlarından olmuşdur. Beyl dini ehkamların rasional əsaslandırılmasının, həmçinin fəlsəfi metafizika çərçivəsində mütləq həqiqətin əldə olunmasının qeyri-mümkünlüyünü iddia edirdi.

Onun fikrincə, filosof heç də həqiqi deyil, yalnız həqiqətə bənzər biliyi əldə edə bilər. Dini inam nəinki zəka ilə əsaslandırılmır, hətta onunla uzlaşmır. Beləliklə, fəlsəfi fikrin inkişafı üçün Beyl fəlsəfəsinin əhəmiyyətini onun empirik metodologiyaya verdiyi töhfələr və dini ehkamçılığın tənqidi nöqteyi-nəzərindən qiymətləndirmək lazımdır.

Beylin fəlsəfi doktrinasının hər iki istiqaməti XVIII əsr fransız maarifçilərinin fəlsəfəsində inkişaf etdirilmişdir.

*Yoxlama sualları*

1. İ.Nyutonun əsas ideyaları
2. Q.V.Leybnitsin fəlsəfəsi. Monadalar haqqında təlim
3. C.Lokkun qnoseologiyası
4. P.Beylin ideyaları
5. XVII əsrin sonu Qərbi Avropa fəlsəfəsinin ümumi xarakteri

# XIV MÖVZU
# XVIII ƏSR İNGİLİS FƏLSƏFƏSI

## 1. Con Toland

XVIII əsr İngiltərə fəlsəfəsi Avropa fəlsəfi fikir tarixində parlaq hadisədir. XVIII əsr İngiltərə fəlsəfəsinin intellektual fenomen olaraq vahid bütöv olmasına baxmayaraq, bu dünyagörüşün mərkəzi problemi olan idrak nəzəriyyəsi F.Bekonun irəli sürdüyü ideyalar çərçivəsində inkişaf etmişdir.

Con Toland (1670-1722) ingilis materializminin nümayəndəsi olaraq, F.Bekonun, T.Hobbsun, C.Lokkun ənənələrini davam etdirmişdir. Adətən Tolandı Allahın mövcudluğunu yalnız və yalnız dünyanın ilkin səbəbi qismində qəbul edən ingilis deizm (lat. deuis – allah) təliminin nümayəndələrinə aid edirlər. Tolandın əsas fəlsəfi əsəri "Serenaya məktublar"dır (1704). Burada o, materiya və hərəkətin vəhdəti haqqında materialist təlimi inkişaf etdirir. Bu təlimi əsaslandırmağa çalışan Toland B.Spinoza fəlsəfəsini, xüsusilə onun hərəkətsiz substansiya təlimini tənqid edir. Toland bu nöqteyi-nəzərdən R.Dekart və İ.Nyutonu da tənqid edir. O belə hesab edir ki, bu filosofları eyni səhv, məhz materiyanı nəsə passiv, fəaliyyətsiz başlanğıc kimi qəbuletmə ideyası birləşdirir. Tolandın doktrinasına görə, materiya təkcə hərəkətə malik olmayıb, həm də özü aktiv fəaliyyətli mahiyyətdir. Materiyadan kənarda aktiv prinsip mövcud deyil, lakin o, özünün əhəmiyyətli xassəsi olan hərəkətə malikdir. Beləliklə, Tolandın konsepsiyası deist xarakterli materializmdir.

Toland Dekartın iki substansiya haqqında təlimini tənqid edərək göstərirdi ki, təfəkkür insan beyninin quruluşu və fəaliyyəti ilə şərtlənmiş cismani hərəkətdir. Lakin Tolandın materializmi mexanikidir, materiyanın hərəkəti onun keyfiyyət dəyişmələri ilə əlaqəli deyildir.

Tolandın əsas xidmətlərindən biri də materiya və hərəkəti onların dialektik əlaqəsi halında nəzərdən keçirməsidir.

## 2. Corc Berkli

Corc Berkli (1685-1753) daha çox subyektiv idealizm ənənələrini inkişaf etdirən ingilis filosofudur. Berkli fəlsəfi sisteminin mühüm cəhəti materiyanın predmet və keyfiyyətlərinin maddi əsas (substansiya) halında qəbul olunmasını rədd etməkdir. Əgər C.Lokk öz fəlsəfəsində: a) obyektiv dünya duyğuların mənbəyidir, b) mücərrədləşmənin köməyi ilə, əşyaların əhəmiyyətsiz, fərdi keyfiyyət və əlamətlərini atmaqla ümumi mücərrəd materiya ideyasına gəlmək olar kimi müddəalardan çıxış edirdisə, Berkli onu əsas götürür ki, duyğular insanın qavradığı yeganə gerçəklikdir. O Lokkun təklif etdiyi mücərrədləşdirmənin ("ölçü" və ya "məkan"ın ümumiliyi ideyası) mümkünsüzlüyünü sübut etməyə çalışır və onları daxilən ziddiyyətli hesab edir.

Berkliyə görə materiyanın mücərrədlik ideyası ümumiyyətlə yararsızdır, belə ki, hissi qavrayış şeylərin xassələrini dərk etmək üçün tamamilə kifayətdir. Lokkun nəzəriyyəsini inkar edən Berkli, həm də şeylərin xarakterik keyfiyyətlərinin birinci və ikinci keyfiyyətlərə bölünməsini qəbul etmirdi. Berkliyə görə bütün keyfiyyətlər ikincidir, çünki keyfiyyətlərin varlığı qavranılabilmə bacarığına malikdir, deməli bütün keyfiyyətlər ikinci və subyektivdir.

İnsan yalnız hissi təcrübədə öz duyğularını (ideyalarını) qavraya bilər, ona görə də hər bir şeyin mövcudluğunu biz yalnız onların qavranıla bilməsi nöqteyi-nəzərincə əsaslandıra bilərik. Duyğular passivdir, lakin onların qavranılması prosesinin özü fəal aktdır. Materiyanın varlığını inkar edən Berkli mənəvi varlığın mövcudluğunu əsaslandırır və onları iki yerə bölürdü:

- ideyalar - qavradığımız ixtiyari və passiv subyektiv keyfiyyətlər;
- aktiv və yaradıcı ruhlar - onlar ideyaları qavramaq (zəka) və ideyalara təsir etmək (iradə) bacarığına malikdirlər.

Ruhun aktivliyi ilk növbədə ona görə zəruridir ki, şeylərin varlığı onların qavranılması ilə müəyyənləşir. Lakin Berkli öz doktrinasında solipsizmə (lat. solus – yeganə və ipse - özü) meyl etmir və yeganə gerçəklik yalnız fərdin şüurundakı gerçəklikdir fikrinə gəlir.Berkli dörd növ mövcudluğu ayırmağa cəhd edir:

- mövcudluq (qavranılabilmək);
- mövcudluq (qavramaq);
- mümkün qavrayışın təfəkkürdə mövcudluğu:
- şeylərin və bütün dünyanın varlığının Allahda mövcud olması.

Beləliklə, əsas ziddiyyət aradan qaldırılır, şeylər daim kiminsə qavrayışında olur; bundan əlavə şeylər üçün mövcudluq Allahın yaradıcı fəallığında olmağı bildirir. Dünya İlahi zəkada ideyalar məcmusu kimi qavranılan subyektlərin toplusu kimi mövcuddur. Beləliklə, Berklinin subyektiv idealizmi solipsizmi kənarlaşdıraraq obyektiv idealizmə transformasiya olunur.

Corc Berklinin fəlsəfi fikrin sonrakı inkişafına daha güclü təsir göstərmiş ideyalarını aşağıdakı kimi formulə etmək olar:

- biliyin həqiqiliyinin meyarı (mühakimələrin duyğularla uzlaşdırılması);
- hadisə subyektin duyğularından təşkil olunmuş strukturlardır;
- elm yalnız hadisələr haqqında mühakimələri nizamlaya bilər.

### 3. Devid Yum

Devid Yum (1711-1776) – filosof, tarixçi, publisist, iqtisadçı və psixoloqdur. İlk dəfə Yeni Avropa fəlsəfəsində aqnostisizmin əsas prinsiplərini formulə etmişdir.

Yum C. Berklinin qnoseologiyasını davam etdirərək idrak nəzəriyyəsində bir çox cəhətləri ilə iki növ qavrayışı fərqlən-

dirilir: 1. xarici təcrübənin təəssüratları, yəni duyğular, 2.daxili təcrübənin təəssüratları, yəni affektlər, maraqlar, arzular.

Filosofa görə, insan onun qavrama imkanlarının hüdudlarını aşa bilməz. Səhih bilik yalnız riyaziyyat sahəsində mümkündür. Tədqiqatın digər bütün obyektləri təcrübədən alınan və məntiqi əsaslandırılmayan faktlara aiddir. Reallıq öz-özlüyündə dərkolunmazdır və Yuma görə gerçəklik "təsüratlar" axımıdır, həm də bu təsüratları qəbul edən səbəblər bizə bəlli deyildir. Belə ki, təcrübəni məntiqi əsaslandırmaq qeyri mümkündür, deməli təcrübədən alınan bilik qeyri-səhihdir. Məsələn, əgər bir hadisə təcrübədə digərinin ardınca baş verirsə, bu hələ o demək deyildir ki, ikinci birincinin səbəbidir. Belə ki, nəticə məntiqi olaraq səbəbin təbiətindən alınmır. Başqa sözlə desək, səbəbiyyət əlaqəsi dərkolunmazdır və hətta zamanda hadisələrin tez-tez təkrarlanması bu əlaqənin səbəbi haqqında bilik vermir. Yuma görə varlıq və ruhun münasibəti problemi həllolunmazdır, lakin o, hissi obrazların (sadə ideyalar) xarici təəssüratlardan asılılığı problemi ilə əvəz olunur. Həm də mürəkkəb ideyalar sadə ideyaların bir-birilə assosiativ əlaqələrinin köməyi ilə əmələ gəlir. Yum assosiativ əlaqələrin üç əsas növünü fərqləndirir: oxşarlıq üzrə, məkan və zamanda qonşuluq üzrə, səbəb-nəticə asılılığı üzrə.

Yuma görə praktiki arxayınlığın mənbəyi nəzəri bilik olmayıb, inamdır. İnsanlar hadisələri vərdişləri üzrə qiymətləndirməyə meyillidirlər. Filosof burada təcrübədən alınmış bütün nəticələrin əsasını görür (vərdişlər insan qavrayışının təşkil olunduğu sadə ideyaları əlaqələndirir (assosiasiya edir). Lakin gələcəyə ötürülmüş vərdiş, yəni hansısa ardıcıllığın gözlənməsi və nəzərdə tutulması yalnız inama əsaslanır və səhih bilik ola bilməz.

Yumun ontologiyası substansiya kateqoriyasının mövcudluğunu inkar edir və onu ayrı-ayrı keyfiyyətlərin toplusu ideyasına gətirir. Burada Yum substansiyanı zaman daxilində qavrayışların (persepsiya) assosiativ cəmlənməsinin "təxəyyülə gəti-

rilən hissəsi" kimi təyin etməklə birbaşa İmmanuil Kantın sələfi kimi çıxış edir. Eyni zamanda assosiasiyalar müxtəlif təəssüratları insan şüurundan kənar obyektlər haqqında təsəvvürlərdə birləşdirir. Beləliklə iki dünya yaranır: persepsiyaların hissi gerçək dünyası və substansional şeylərin güman edilən dünyası.

*Yoxlama sualları*

1. C.Tolandın ingilis deizmi
2. C.Berklinin subyektiv idealizmi
3. D.Yumun aqnostisizminin əsas prinsipləri
4. XVII əsr ingilis fəlsəfəsinin ümumi mahiyyəti
5. XVII əsr ingilis fəlsəfəsinin əsas problemləri

# XV MÖVZU
# FRANSA MAARIFÇIÇILIK FƏLSƏFƏSI

## 1.Maarifçilik dövrü fəlsəfəsinin ümumi xarakteristikası

Maarifçilik XVIII yüzillikdə Avropanın mədəni və ictimai həyatında fövqəladə mürəkkəb və çoxsahəli hadisədir. Terminin özü isə artıq maarifçi filosoflar (Volter, Herder) mühitində yaranmış və İ.Kantın məşhur "Maarifçiçilik nədir?" məqaləsinin dərcindən sonra qəti təsdiqini tapmışdır. Heç şübhəsiz ki, maarifçilik mədəniyyəti tam və parlaq təcəssümünü Fransada tapmış, burada "maarifçilik əsri" ilk növbədə fəlsəfi fikrin çiçəklənməsi əsri olmuşdur. Bu dövrü şərti olaraq iki konkret tarixlə hüdudlaşdırmaq olar: XIV Lüdovikin ölümü (1715) və Böyük Fransa inqilabının başlanması (1789). Eyni zamanda bu dövrün əsas mərkəzi hadisəsi kimi "Ensiklopediya və yaxud elm, incəsənət və sənətin izahlı lüğətinin" nəşrinə başlanmasını da qeyd etmək zəruridir.

Fransada maarifçilik dövrünün görkəmli filosofları Volter (1694-1778), J.J.Russo (1712-1778), D.Didro (1713-1784), P.A.Holbax (1723-1789), J.A.Dalamber (1717-1783), J.O. de Lametri (1709-1751), K.A.Helvetsi (1715-1771) və E.Kondilyakdır (1715-1780).

Fransa maarifçiliyinin fəlsəfi doktrinasını formalaşdırmış əsas ideyalar kimi aşağıdakıları göstərmək olar:

- bərabərlik zənciri ilə ifadə olunan, təbii, zəkalı, faydalı, xeyirli, qanuni, dərkolunan, gerçəkləşdirilə bilən qnoseoloji və tarixi optimizm,
- XVII əsr rasionalizmindən fərqlənən və "təbiətin qanunları mahiyyətcə zəka qanunlarıdır" məzmunu ilə ifadə olunan rasionalizm,
- siyentizm (lat. scientia- bilik, elm), elmin mədəniyyət və cəmiyyətdə rolunu mütləqləşdirən dünyagörüşü mövqeyi;
- deizm;
- sensualizm;

- anti-tarixilik (yanılmanın nəsə zərurət olmadığına əsaslanan təlim; yanılmalar keçmişdə baş verib, deməli zəka dövrü indi başlayır);
- sosial-siyasi ideyalar, o cümlədən təbii hüquq nəzəriyyəsi, ictimai müqavilə nəzəriyyəsi, maarifçi mütləqiyyət ideyası.

## 2. Volter

Fransua Mari Arue Volter (1694-1778) filosof, yazıçı, maarifçiliyin görkəmli nümayəndəsidir. Volterin dünyagörüşünü deizm kimi də qiymətləndirmək olar. O Allahı materiyanın (o cümlədən duyğu və təfəkkürün) hərəkətinin səbəbi kimi qəbul edərək, bütövlükdə materialist mövqedə dururdu. Bununla yanaşı Volter zəka terminini vəhyə əsaslanan inama qarşı qoyur, bu zaman ateizmi inkar edərək onu "ağılın ən böyük yanlışlığı" adlandırır, bu təlimin yaranma səbəblərini aşkarlayaraq sosial sferaya müraciət edirdi (sərt idarəetmə allaha və ilahi niyyətə inamın itməsinə səbəb olur). Volter aşağıdakı dilemmalar şəklində formulə etdiyi üç əsas problemi irəli sürmüşdür:

- dünyada şər mövcuddurmu, əgər mövcuddursa, onda şərin mənbəyi nədir?
- hərəkət, həyat və şüura maddi yoxsa mənəvi mənbəxasdır?
- hər hansı bir fəaliyyətdə fatalizm istisnaya malikdirmi?

Volter üçün göstərilən problemlərdən birincisi prinsipial olaraq həlledilməzdir, çünki şərin mövcudluğu onun müdrik və ədalətli ilahi səltənət haqqında təsəvvürləri ilə səsləşir. Ona görə də, bu mövzu üzrə Volterin düşüncələri konkret nəticə ilə yekunlaşmır. Hərəkət, həyat və şüurun mənbəyi problemi də Volter yaradıcılığında mənalı həll olunmur: Voltere görə əgər dünyada mexanika qanunlar fəaliyyətdədirsə, onda həyat və şüur izah olunmazdır. Yox əgər varlığın hansısa digər qanun-

ları mövcuddursa onlar zəka üçün dərkolunmazdır. Mövcud situasiyadan mümkün çıxış yolu materiyanın bizə bəlli olmayan xassələrinin etiraf edilməsidir (materiyanın müxtəlif atributları).

Fatalizm məsələsində Volter belə hesab edirdi ki, insan maraqlarının aktivliyi, həm də onun passiv davranışı fatal şərtlənir. İnsan davranışında allahın əta etdiyi iradə azadlığını fəaliyyətdə olduğu bəzi fraqmentlərə ayırmaq olar. Qəbul edilmiş halda allah iradə azadlığı imkanının zəruri şərtidir. Deməli, "əgər allah olmasaydı, onu uydurmaq lazım gələrdi".

Daha çox yeni konseptual təlimlər yaradan və maarifçi olan Volter metafizikanın tənqidinə öz töhfəsini vermişdir. Heç şübhəsiz ki,tənqidçi və ideoloq kimi o da Fransa maarifçiliyinin mərkəzi simalarından biri olmuşdur.

### 3. Jan Jak Russo

Jan Jak Russo (1712-1778) fransız maarifçiliyinin ən nüfuzlu xadimlərindən biri, yazıçı, filosof, bəstəkar və sosioloq idi.

Maarifçilərin böyük əksəriyyəti kimi Russo da ümumi dünyagörüşü məsələlərini deizm nöqteyi nəzərindən həll etmişdir. Russoda allah "ali zəkadır". O emosional etik başlanğıcı nəzəri-rasional başlanğıca qarşı qoyaraq insanların emosional həyatında allahın canlı iştirakını əsaslandırmağa cəhd etmişdir.

Russonun ontologiyası dualizm xarakterlidir. Burada iki substansiya mövcuddur: aktiv (allah) və passiv (materiya), həm də "materiyanın təbii vəziyyəti sakitlikdir", onu hərəkət və nizama isə allah gətirir. Lakin materiyanı allah yaratmayıb və onu məhv edə bilməz.

Russo idrak nəzəriyyəsində sensualizmə meyllənir, lakin duyğular əsasında inkişaf edən emosiyalara böyük əhəmiyyət verirdi. Emosiyalar bəzi anadangəlmə, əxlaqi ideyalarla (məsələn, ədalət hissi) əlaqədardır. İdrakın növbəti mərhələsini düşüncə təşkil edir, onun ardınca isə tam məhdud bacarığa malik

zəka gəlir. Russoya görə hissiyyat mənəvi fəaliyyətin müstəqil, özünəməxsus ilkin formasıdır və buradan aşağıdakı nəticələr çıxır:

- rasionalist təsəvvür birtərəflidir;
- hissiyyat mənəvi həyatın zəkadan daha qiymətli sferasıdır;
- hətta ali etik və estetik kateqoriyalar (vicdan, dahilik) Russoda zəkaya əks ali instinktlər kimi təhlil olunur;
- intellektin inkişaf etmiş formaları (fantaziya və təfəkkür) harmoniyanı pozmuş və insanın təbii gücünü zəifləţmişdir;
- elm və incəsənətin inkişafı cəmiyyətin əxlaqını kamilləşdirmir, əksinə onu pisləşdirir;
- hər bir tərəqqi (zəka və sivilizasiyanın tərəqqisi) insan varlığının təbii bütövlük və harmoniyasını pozur;

Russonun əsas doktrinalarından biri olan "təbii", mədəniyyətəqədərki vəziyyətə qayıdış çağırışı buradan irəli gəlirdi. Filosof müasir sivilizasiyanın kamilləşdirilməsinin mümkün yollarından biri kimi, tərbiyyə sisteminin və metodlarının dəyişdirilməsini əsas götürürdü.

Russonun sosial-siyasi təlimi "İctimai müqavilə haqqında" traktatında şərh olunur. Bu əsərdə o "təbii " vəziyyətə maksimal yaxın olan və insanlar arasında dostluq və harmoniyanın hökm sürdüyü ideal cəmiyyətin cizgilərini vermişdir.

Russonun yaradıcılığı təkcə fəlsəfi fikrin (o cümlədən İ.Kant) inkişafına deyil, həm də Avropanın sonrakı intellektual ənənəsinə, həmçinin XIX-XX əsrlər ədəbiyyatına da böyük təsir göstərmişdir.

## 4. Deni Didro

Deni Didro (1713-1784) filosof, yazıçı, XVIII əsr Fransa intellektual həyatında böyük hadisə olan və dövrün dünyagörüşünü, fransız maarifçilərinin fəlsəfi baxışlarını əks etdirən "Ensiklopediya və yaxud elm, incəsənət və sənətin izahlı lüğətinin" (1751-1780) təşkilatçısı və redaktoru (Didro özü "Ensik-

lopediyada" dərc edilmiş 20-dən çox məqalənin müəllifi idi) olmuşdur.

Didro varlığın materialist izahının tərəfdarı olub, göstərirdi ki, bütün mövcudiyyət vahid yaradılmamış materiyanın müxtəlif və çoxobrazlı formalarıdır. Materiyanın (atom və molekullardan təşkil olunmuş) hərəkəti, ona xas olan özhərəkəti, yəni molekulların "daxili qüvvəyə" cazibəsi molekulyar qarşılıqlı təsirə görə baş verir. Hər bir molekul fərdi spesifikliyə və tükənməz xassələrə malikdir.

Didro canlı və cansız təbiətin dialektik əlaqəsi haqqında fikri inkişaf etdirir və qeyd edirdi ki, materiyanın elementar strukturunda artıq psixi həyata, təfəkkürə qədər inkişaf etmə bacarığı mövcuddur. Belə xassələrdən biri daxili molekulyar qüvvənin xüsusi forması olan "kar" hissiyyatdır. Materiya hissiyyata malikdir, lakin o, qeyri-üzvi molekullarda yalnız "potensial" "kardır".

Didro təfəkkürün duyğuların kombinasiyasına gətirilməsini qəbul etməsə də, onun idrak nəzəriyyəsi sensualizmə meyllidir. Didroya görə, mühakimələr yalnız "hissiyata" gətirilmir, "öyrənmənin üç əsas üsulu" mövcuddur: müşahidə, düşüncə və təcrübə. Lakin bütün əqli nəticələr təbiətin özündədir və biz yalnız təcrübədən məlum və aralarında qarşılıqlı əlaqələr olan hadisələri qeyd edirik. Duyğularımız əşyaların güzgüdəki surəti deyil. Müşahidə və eksperimentə əsaslanmaqla, səhih olmasa da, ehtimali bilik əldə etmək olar.

Didronun etikası bütöv sistem olmayıb, daha çox müasiri olduğu cəmiyyətə ünvanlanmış səbəbiyyət mühakimələrinin toplusudur. Didronun estetikası aşağıdakı tezisləri inkişaf etdirir:

1) incəsənət realist olmalıdır;

2) incəsənət insanların əxlaqi kamilləşməsinə yardımçı olmalıdır;

3) bədii obraz "surət" yox, "tərcümədir", deməli, incəsənət, gerçəklik mütləq oxşarlığa deyil, poetik həqiqətə yaxınlaşmalıdır.

Beləliklə, Didronun estetik idealı əxlaqi məzmun daşıyır. Bu prinsiplərin tam gerçəkləşməsi Deni Didronun bədii yaradıcılığında da öz əksini tapmışdır.

## 5. Etyen Bonno de Kondilyak

Etyen Bonno de Kondilyak (1715-1780) Fransa maarifçiliyinin tanınmış filosofudur. Onun yaradıcılığının inkişafını şərti olaraq üç dövrə ayırmaq olar:

- Con Lokkun fəlsəfi ideyalarının inkişaf etdirilməsi;
- orijinal sensualist idrak nəzəriyyəsinin yaradılması;
- təfəkkür formaları, dil və hesab arasındakı münasibətlərin tədqiqi.

İdrakın mənbəyini duyğu və refleksiyaya bölən Kondilyak yaradıcılığının birinci mərhələsində Con Lokkun idrak nəzəriyyəsinin tərəfdarı kimi çıxış edir; bu zaman o yaddaş və təfəkkürdə işarələrin rolunu tədqiq edir. Kondilyak aşağıdakıları fərqləndirir:

- əşyalarla təsadüfi əlaqələnmiş işarələr;
- təbii işarələr;
- süni (şərti) işarələr – dil və yazı. İdrakın əsasını bu işarələrin düzgün tətbiqi təşkil edir.

Kondilyak idrakda təhlilin rolunu, mürəkkəb anlayışların sadə elementlərə bölünməsini xüsusi qeyd edir.

Kondilyak yaradıcılığının ikinci dövründə əsas əsəri olan "Duyğular haqqında traktat"ında (1754) Lokkdan fərqli olaraq duyğularla yanaşı biliyin ikinci mənbəyini – refleksiyanın mövcudluğunu inkar edirdi. Kondilyaka görə refleksiya duyğulardan asılı olan ikinci növ bilikdir, hər bir refleksiya təcrübi məlumatlara əsaslanır. Lakin psixi fəaliyyətin bütün çoxobrazlılığını duyğulara müncər edən Kondilyak duyğuları intellek-

tuallaşdırır və bununla öz sensualizminə rasionalist çalar qatırdı (zəkanın predmeti duyğuların məcmusudur).

Filosofun yaradıcılığının üçüncü dövrü əsasən məntiq və dil problemlərinə həsr edilmişdir. Bu dövrün əsas müddəalarını aşağıdakı kimi formulə etmək olar:

- dil təhlildir, digər tərəfdən, təhlil dil növüdür;
- nitq təfəkkürdür (ümumi anlayışlar ağıldakı şeylərin adıdır);
- ad yalnız işarədir, bu səbəbdən dilin əsas təyinatı ünsiyyət yox, anlamadır;
- xalis təhlilin forması ədəddir, ona görə də təfəkkür tənliklərin kəsilməz sırasıdır.

O qeyd edirdi ki, təfəkkürü də iki hissəyə ayırmaq olar:

- təhlil vasitəsilə məsələnin qoyuluşu şərtlərinin müəyyənləşdirilməsi;
- həlli müəyyənləşdirəcək tənliklərin düzgün formulə edilməsi;

Duyğular bu cəmiyyətdə mənəvi dəyərlərin dövriyyəsini mümkün edən simvoldur.

## 6. Pol Anri Holbax

Pol Anri Holbax (1723-1789) Fransa maarifçiliyinin dörd böyük materialistindən biridir. XVIII əsr fransız maarifçiçiliyin əsas əsəri olan "Təbiət sistemi"nin (1770) müəllifidir.

Holbax fəlsəfəsinin əsasını təbiətin bütün hadisələrində maddi hissəciklərin hərəkətlərinin müxtəlif formalarla təhlili təşkil edir Onun tərəfindən təbiət sistemi Nyuton mexanikası əsasında qurulur. Təbiətin bütün prosesləri materiyanın hərəkəti ilə müəyyənləşir, eyni zamanda "Təbiət sistemində" hərəkətin iki növü fərqləndirilir: maddi kütlələrin hərəkəti və cisimlərə xas olan enerjidən asılı daxili hərəkət.

Materiya bölünməz və dəyişməz atomlardan, təbiətin elementar hissəciklərindən ibarətdir. Atomlar bu xassələrə malikdir: ölçü, kütlə, forma, qeyri-şəffaflıq və hərəkət.

Con Tolandın ardınca Holbax da göstərirdi ki, "hərəkət zəruri olaraq materiyadan alınan mövcudluq üsuludur". Hərəkət universaldır, təbiətin mahiyyəti fəaliyyətdə olmaqdır, Orada sükunətdə olan heç nə yoxdur. O fövqəltəbii səbəblərin mövcudluğunu inkar edir, səbəbiyyət əlaqəsi qanununu materiyanın bütün təzahürləri üçün universal adlandırırdı.

Təbiətdə bütün proseslər Holbaxın mexaniki mənada başa düşdüyü qanunlara tabedir, həm də insan təbiətin bir hissəsi olaraq hər bir maddi cisim kimi dünyəvi determinasiya sisteminə daxildir. Beləliklə Holbax nəinki təsadüfi, həm də insan iradəsinin azadlığını inkar edir, nizam və nizamsızlıq ideyalarını zəruri və obyektiv situasiyaların subyektiv qiyməti adlandırırdı.

Holbaxın idrak nəzəriyyəsi sensualizmə yaxın olsa da, lakin burada aqnostisizm elementləri də vardır. Atomlar kəmiyyətcə hesabsız, dərk edən fərdin həyatı isə qısadır.

Holbax insanların maarifləndirilməsini fizika sahəsindəki yanılmaların aradan qaldırılması ilə eyniləşdirirdi. Onun fikrincə, bu yanılmaların aradan qaldırılması cəmiyyət və təbiət arasındakı analogiyanın, insan həyatının üç qanununun aşkarlanmasına gətirib çıxarmalıdır:

- insan həyatında eqoizmin ümumi prinsipi (hər yerdə eqoist cəhd var və bu tamamilə təbiidir).

-"cazibə" və "itələmə" qanunu (uyğun olaraq, xeyir və şərə meyl);

- təbii və ictimai proseslərin tənqidi (atomların hərəkəti özünü ictimai həyatda da göstərir).

Beləliklə, Holbax cəmiyyət və təbiət arasında prinsipial fərq görmür və "əxlaqlı", "faydalı", "sağlam", "zəkalı", "sosial rifah" anlayışlarını eyniləşdirirdi.

Holbaxın maarifçilik fəlsəfəsinə verdiyi əsas töhfə XVIII əsr maarifçilərinin materialist görüşlərində nisbətən ciddi sistem yaratmasıdır.

*Yoxlama sualları*

1. Fransız maarifçiliyinin əsas ideyaları
2. Fransız maarifçiliyinin əsas nümayəndələri
3. Volterin fəlsəfəsi
4. J.J.Russonun ideyaları
5. D.Didronun dünyagörüşü
6. E.B.Kondilyak yaradıcılığının əsas dövrləri
7. P.A.Holbaxın materializmi

# XVI MÖVZU
# KLASSIK ALMAN FƏLSƏFƏSI

## 1. İmmanuil Kant

Klassik alman fəlsəfəsi Avropa fikir tarixində ən görkəmli və nüfuzlu cərəyanlardan biridir. Onu öyrənmədən XIX və XX əsrlərin tarixi-fəlsəfi proseslərini anlamaq mümkün deyildir. Adətən alman klassik fəlsəfəsi çərçivəsində XVIII əsrin sonu XIX əsrin birinci yarısında yaşayıb-yaratmış beş filosofun təlimi nəzərdən keçirilir: İ.Kant, İ.Q.Fixte, F.V.Y.Şellinq, G.V.F.Hegel və L.A.Feyerbax. Bu intellektual cərəyan Q.E.Lessinq, A.Q.Baumqartner, İ.İ.Herder, İ.F.Höte, F.Şleyermaxer, A.V.Şlegel və F.Şlegeli də aid etmək lazımdır.

Klassik alman fəlsəfəsi təkcə tarixi bütöv halda yox, həm də ümumi ideya-nəzəri köklərə malik, problemlərin qoyuluşu və həllində varislik, birbaşa qarşılıqlı əlaqədə olaraq tədqiq edən təlimlərin məcmusudur. Ontoloji, nəzəri-qnoseoloji, etik, estetik və digər problemlərin tədqiqinə nəhəng töhfə verən alman klassik fəlsəfəsi əsl ümumdünya tarixi - mədəni fenomeninə çevrilmiş hadisədir.

Klassik alman fəlsəfəsinin əsasını qoyan, "tənqidi" və ya "transendental" idealizmin banisi, XVIII əsrin ikinci yarısında yazıb-yaratmış böyük filosof İmmanuil Kantdır (1724-1804).

Kantın fəlsəfi yaradıcılığı iki dövrə bölünür: tənqidəqədərki (1770-ci ilə qədər) və tənqidi. Tənqidəqədərki dövr nəzəri-mücərrəd yanaşma nöqteyi-nəzərindən əsas fəlsəfi problemlərin tədqiqinə ənənəvi müraciət, həmçinin mütəfəkkirin təbiyyətşünaslıq məsələlərinə yüksək diqqəti ilə xarakterizə olunur. Belə ki, Kant Günəş sisteminin cəzbetmə və itələmə nəticəsində pərakəndə maddi hissəciklərdən (soyuq toz dumanlıqları) əmələ gəlməsi haqqında "nebulyar" kosmoqonik hipotezi ("Ümumi təbii tarix və səma nəzəriyyəsi", 1755) əsaslandırmışdır. Fəlsəfə sahəsində Kant (D.Yumun təsiri altında) gerçək əsaslandırma (varlığın əsaslandırılması, "əvvəlcədən müəyyən-

ləşdirici") ilə məntiqi əsaslandırma (idrakın əsaslandırılması, "sonradan müəyyənləşdirici") arasındakı fundamental fərqi qeyd edir.

Tənqidi dövrə keçid adətən Kantın 1770-ci ildə müdafiə etdiyi "Hissi qavranılan və zəka ilə dərk edilən dünyanın forma və prinsipləri haqqında" dissertasiyası ilə başlayır. Burada o aşağıdakı məsələləri irəli sürür: "inama yer saxlamaq üçün biliyin məhdudlaşdırılması", "zəkanın tənqidinin zəruri olaraq elmə gətirilməsi".

Tənqidi dövrdə yazılmış əsas əsərlər "Xalis zəkanın tənqidi" (1791), "Əməli zəkanın tənqidi" (1788) və "Mühakimə qabiliyyətinin tənqidi"dir (1790).

"Tənqidlərdən" hər biri ruhun bir qabiliyyətini tədqiq edir: idrakı, iradə (arzu bacarığı), dəyərləndirici ("həzz və narahatlıq hissi" ).

"Tənqidlərdən" hər biri konkret sahəyə yönəlmişdir;

- "Xalis zəkanın tənqidi"-idrak nəzəriyyəsi;
- "Əməli zəkanın tənqidi"- etika;
- "Mühakimə qabiliyyətinin tənqidi" – estetika və təbiətin məqsədyönlülüyü haqqında təlimi tədqiq edir.

Kant fəlsəfəsinin mərkəzi problemi iki gerçəklik haqqında təlimdir:

- immanent şüur (lat. immanes – nəyəsə xas olan), idrakın mümkün olduğu fenomenlər, hadisələr dünyası;
- transendent şüur (lat. transcendere – adlayıb keçmək), idrakın mümkün olmadığı noumenlər, "özündə şeylər" dünyası.

Kantı bəzən aqnostik hesab edirlər. Lakin onun fəlsəfəsinin mahiyyəti dərketmənin mümkünsüzlüyünü göstərmək yox, adekvat dərketmənin olduğu (fenomenlər dünyası) və konkret heç nəyin təsdiqinin mümkün olmadığı (noumenlər dünyası) sferaların dəqiq ayrılmasını göstərməkdir. Kant fəlsəfəsinin əsas məsələsi şərtsiz ən ümumi və zəruri həqiqətlərin mövcudluğu, bu həqiqətlərin elmdə (riyaziyyat və təbiətşünaslıqda) mümkün olduğu kimi, fəlsəfədə də mümkünlüyü məsələsidir.

Kantın transendental (tənqidi) fəlsəfəsinin mahiyyəti odur ki, şüurun hüdudlarından obyektiv dünya sferasına çıxış, subyektivdən obyektivə keçid, təcrübədə verilmiş hadisələrdən (fenomen), "özündə şeylərə" (noumen) keçid (bu transsenzus adlandırılır) bilik üçün deyil, yalnız inam üçün mümkündür.

Kant biliyin mənbələri və sərhədləri probleminə, riyaziyyat, təbiətşünaslıq və metafizikada yeni bilik verən aprior (lat. a priori – təcrübəyə qədər) sintetik mühakimə imkanı məsələləri kimi izah verir. Ona görə riyaziyyatın əsasında aprior hissiyyat formaları (zaman və məkan) dayanır. Nəzəri təbiyətşünaslıqda belə funksiyalar düşüncənin aprior kateqoriyalarıdır.

Metafizika sahəsində Kant "ideyalar" (şərtsiz bütövlük və yaxud şərtlənmiş hadisələrin vəhdəti haqqında anlayışlar) törədən zəkanı tədqiq edir, üç ideya və onları təhlil edən mücərrəd elmi fərqləndirir. O bu zaman qeyd edir ki, bütün bu elmlər xəyalidir, çünki, hadisələr aləminə məxsus olmayan nəsəni tədqiq edirlər.

Kanta görə transsendental ideyalar aşağıdakı hissələrə bölünür:

- psixoloji (bütün ruhi hadisə və proseslərin şərtsiz vəhdəti kimi ruh haqqında ideyalar),
- kosmoloji (hadisələrin bütün şərtlərinin şərtsiz vəhdəti kimi dünya haqqında ideyalar),
- teoloji (bütün mövcudiyyət və ağlabatanların şərtsiz səbəbi kimi Allah haqqında ideyalar). Onun fikrincə, fəlsəfi fənnlər rasional psixologiya, rasional kosmologiya və "rasional teologiyaya bölünür. Rasional kosmologiyanın tənqidində Kant zəkada antinomiyaların (yun. antinomia – qanunda ziddiyyət) yaranmasından bəhs edir və rasional kosmologiyanın eyni qaydada isbat edilən, lakin bir-birinə zidd olan sual və cavabları haqqında danışır (kosmoloji ideya antinomiyaları). Bu baxımdan onun fikrincə

1) dünya sonludur və sərhədlərə malik deyildir;

2) bölünməz hissəciklər (atomlar) mövcuddur və bölünməz hissəciklər yoxdur;

3) bütün proseslər səbəbiyyətlə şərtlənmiş kimi baş verir və eyni zamanda sərbəst gerçəkləşən proseslər mövcuddur;

4) şərtsiz zəruri mövcudiyyət var və dünyada mütləq zəruri mövcudluq yoxdur.

Beləliklə, zəka antinomiyalıdır, lakin problemin həlli "özündə şeylərin" prinsipial dərkolunmazlığını etiraf etməkdə, fenomen və noumenlərin dəqiq fərqləndirilməsindədir (insan təbiət və azadlıq dünyalarını birləşdirən həm fenomen, həm də noumendir, allah dərkolunmazdır, lakin o inamın zəruri postulatıdır).

Kantın etikası insanı nəyəsə nail olmaq üçün vasitə kimi yox, özündəməqsəd kimi nəzərdən keçirir. Kantın etikasında əsas qanun qəti imperativdir. Burada estetika incəsənəti təbiət (noumenlər dünyası) və azadlığı (poumenlər dünyası) birləşdirən kimi şərh edir, gözəlliyi, təsvir edilən əşyanın mövcud olub-olmamasından asılı olmayaraq incəsənət əsərinin forması ilə şərtlənmiş həzzə gətirir.

## 2. İohann Qotlib Fixte

İohann Qotlib Fixte (1762-1814) klassik alman fəlsəfəsinin Kantdan sonra ikinci nümayəndəsidir. Fixtenin fəlsəfi sisteminin əsasında aşağıdakı müddəalar dayanır:

- praktiki fəlsəfənin üstünlüyü müddəası (əxlaqın və dövlət quruluşunun tədqiqi),
- əxlaqi prinsiplərin nəzəri əsaslandırılması və vahid elmi sistemdə birləşdirilməsinin zəruriliyinə inam,
- fəaliyyətin bütün elmlərin ali və şərtsiz əsası kimi təsdiqlənməsi.

Fixte təlimində mərkəzi problem nəzəri "elm haqqında elm" fəlsəfəsidir. Fixtenin əsas əsəri "Elm təlimi"ndə (1794) faktiki olaraq subyektiv idealizm konsepsiyası əsaslandırılır. Varlığın dərk olunduğunu fərz edən Fixte öz sistemindən Kantın

"özündə şeylər" anlayışını çıxarır. Fixteyə görə müəyyənedici və ilkin varlıq "təbiətdən götürülmüş və metafiziki bəzədilmiş ruh" kimi başa düşülən mütləq "məndir". Əşyaya praktiki, fəal münasibət ona nəzəri - seyrçi münasibətdən əvvəl gəldiyi üçün, Fixte fəlsəfəsində şüur verilməmişdir, onun aşkarlığı canlı seyrə əsaslanmır, o, özünü törədir, iradə ilə təsdiqlənir. Fixtedə çıxış anlayışı olan "Mən" hansısa substansiya olmayıb, şüurun əxlaqi fəaliyyətidir.

Fəlsəfədə bütün baxışları varlıqdan şüura gələn materializmə və şüurdan varlığa gedən idealizmə bölən Fixte göstərirdi ki, maddi varlığın şüura keçidi dərkolunmazdır. Lakin şüurdan varlığa keçid, şüurun təfəkkürün fəaliyyətinə istiqamətləndiyi zaman gerçəkləşir (təfəkkür şüura münasibətdə varlığa çevrilir).

Fixte fikri fəaliyyəti fikrin çıxış vəziyyətindən əks mövqeyə və sonradan vəhdətə keçid kimi, hərəkət kimi və yaxud birinci ilə ikincinin sintezi kimi başa düşürdü. Başlanğıc vəziyyətindən inkişaf edən "Mənin" fəaliyyətini (fəal subyektin intuisiyası). Fixte əks mövqeyə, yəni "qeyri-Mənə" doğru hərəkət kimi şərh edir. Beləliklə, Fixte "Mən" (subyekt, şüur) və "qeyri-Mənin" (obyekt, təbiət) mövcudluğunu mümkün sayır. Bu zaman təbiət təkcə mövcud olmayıb, eyni zamanda "Mənə" təsir göstərir. Bu təsir "Mənin" fəaliyyətini əvvəlcədən müəyyənləşdirən, "qeyri-Mən" tərəfindən hansısa "itələmədir". "Obyekt" tərəfindən göstərilən bu təsir dərkolunmazdır, lakin birbaşa qavranıla bilir.

"Mən" fəal subyekt kimi "qeyri-Mənin" müqavimətini əvvəlcədən müəyyənləşdirir, yəni təbiətə öz xarakteristikasını verir. "Mənin" fəal inkişafının son nəticəsi "qeyri-Mənin" mənimsənilməsi, özü ilə eyniliyə çatmasıdır. Sonlu zaman çərçivəsində əlçatmaz olan bu eynilik idealdır və bəşəriyyət ona cəhd edir. Həm də bu idealın əldə olunması Fixteyə görə mütləq olan fəaliyyətin bitməsidir.

Fixte etikasının mərkəzində onun fəaliyyətin mütləq və əsaslandırılmış dərki kimi başa düşdüyü azadlıq problemi dayanır. Fixtenin fəlsəfəsi birbaşa olaraq Şellinqin təlimində davam etdirilmiş və təkcə alman klassik fəlsəfəsinə deyil, bütövlükdə Qərbi Avropa fəlsəfi fikrinin inkişafına ciddi təsir göstərmişdir.

### 3. Şellinq

Fridrix Vilhelm Yozef Şellinq (1775-1854) alman klassik fəlsəfəsinin görkəmli nümayəndələrindən biridir.

Şellinq fəlsəfəsində adətən bir neçə dövrü fərqləndirirlər:

- natural fəlsəfə (1790-cə illərin ortalarından)
- transendental və yaxud estetik idealizm (1880-1881)
- "eynilik fəlsəfəsi" (1804-cü ilə qədər),
- azadlıq fəlsəfəsi (1913-cü ilə qədər),
- "müsbət fəlsəfə" və yaxud "vəhy fəlsəfəsi" (ömrünün sonuna kimi).

Şellinq natural fəlsəfənin əsas məsələsi qismində təbiət inkişafının bütün mərhələlərini aşkarlamaq proqramını verir və eyni zamanda təbiəti hansısa ali əxlaqi məqsədin gerçəkləşdirilməsi üçün vasitə kimi yox (Fixte kimi), yaranma prosesində olan müstəqil gerçəklik kimi tədqiq edir. Şellinq təbii hadisə və prosesləri təhlil etmək üçün dialektikadan istifadə edir və qeyd edirdi ki, hər bir təbii cisim güc fəaliyyətinin (dinamik başlanğıc) məhsulu, əks istiqamətə yönəlmiş güclərin qarşılıqlı təsiri kimi başa düşülür. Mahiyyətcə Şellinq naturfəlsəfəsinin əsas məsələsi təhtəlşüuri mənəvi təbiətin inkişafından şüurun yaranmasının necə baş verməsini (təbiət inkişafının zirvəsi şüurlu "Mənin" yaranmasıdır) aydınlaşdırmaqdır.

Filosof "Transendental idealizm sistemi" (1900) əsərində nəzəri və praktiki subyektin ("Mənin") fəaliyyətini tədqiq etmişdir.

Təbiətin inkişafı prosesində yaranmış subyektiv olanın obyektiv olana necə çevrilməsini şərh edən Şellinq subyektiv

"Məndən" çıxış edir, onu bütün obyektlərin daxil olduğu başlanğıc hesab edir. Subyektivin daxili aktı "intellektual intuisiyadır". Şellinq onu fəaliyyətinə görə şüurun anlaşılmasının bütün mərhələlərinə aid edir. İdrak intellektual seyrdə, intuisiyada mümkündür. Belə idrakın subyekti fəlsəfi dahi ola bilər, dahi ilham ekstazında dünyanın mahiyyəti açılır (əksliklərin vəhdəti). Burada şüur özünü eyni zamanda həm azad, həm də tabeolunmuş zərurət kimi dərk edir. Beləliklə, Şellinqə görə dialektika təfəkkürün düşüncəvi, formal-məntiqi səviyyəsini dəf edir.

Ruh və təbiətin eyniliyini təsdiq edən Şellinq təbiət aləmi ilə azadlıq aləminin Kant qarşıdurmasını aradan qaldırır. Eynilik fəlsəfəsində intellektual intuisiya "mənin" özünüseyri kimi deyil, mütləqin özünüseyri kimi çıxış edir. Mütləq obyektiv olanla subyektiv olanın eyniliyidir, lakin o, nə təbiət, nə də ruhdur. Mütləq müəyyənliklərin potensiyasını özündə saxlayan mütləq heçdir, eyni zamanda mütləqin bütün potensiyasının tam genişləndirilməsi kainatdır. İlkin mütləqdən eyniliyin yaranması rəssam yaradıcılığına bənzər yaradıcı aktdır, bu mütləqin özünüdərk prosesində təkcədən çoxluğa keçididir.

Yaradıcılığının son dövründə Şellinq, pozitiv fəlsəfə adlandırdığı "vəhy fəlsəfəsini" inkişaf etdirir. Pozitiv fəlsəfə iradəni ilkin, irrasional, dərkolunmaz fakt kimi tədqiq edir və onu "neqativ fəlsəfəyə", yəni bütün mövcudiyyətin çıxış prinsipindən yaranması kimi başa düşülən rassionalist fəlsəfəyə qarşı qoyur. Beləliklə, "neqativ fəlsəfə" dedikdə məntiq və zəkaya əsaslanan fəlsəfə başa düşülür, idrakın yekunu isə həqiqəti dini təcrübədə, yəni zəka sferasından kənarda axtaran "vəhy fəlsəfəsidir".

### 4. Hegel

Georq Vilhelm Fridrix Hegel (1770-1831) klassik alman fəlsəfəsinin nəhəng nümayəndələrindən biri, sistemli dialektika nəzəriyyəsinin müəllifidir. Hegelin filosof kimi formalaşma-

sında İ.Kant, İ.Q.Fixte və F.V.Y.Şellinqin böyük təsiri olmuşdur.

Hegelin fəlsəfi sisteminin mərkəzində "mütləq ideyanın" ("dünya ruhu", "dünya zəkası") inkişaf ideyası dayanır. Hegelə görə mütləq ideya subyekt kimi fəaliyyəti təfəkkür, məqsədi özünüdərk olan substansiyadır. Mütləq ideya daim inkişafdadır, bu filosofluq edən ağıl və yalnız kamil fəlsəfədə mütləq kamilliyə çatan allahdır.

Hegelin ilk böyük əsəri olan "Ruhun fenomenologiyası" (1807) artıq onun fəlsəfi konsepsiyasının əsas prinsiplərini ifadə edir. Fenomenologiya tarixi inkişafda götürülmüş şüur fenomenləri (hadisələri) haqqında təlimdir, eyni zamanda şüurun yolu hissi səhihlikdən fəlsəfi biliyə qədər olan inkişafdır.

Hegel fəlsəfəsinin çıxış tezisinə görə, dünyanın substansional əsasını ilkin varlıq, varlıq və təfəkkürün eyniliyi təşkil edir. Təfəkkürün mahiyyətinin zəruri ifadəsi varlıq (fikrin predmeti) və təfəkkür (fikrin özü) arasındakı fərq və vəhdətdir.

Varlığını "özgələşdirən" (təbiət şəklində) təfəkkür öz "başqa varlığını" (təbiəti) mütləq ideyadan (obyektiv mövcud təfəkkürdən) ayırır. Bu zaman təfəkkür mütləq ideya dünyadan kənarda deyil, gerçək hadisələrin bütün çoxobrazlılığında təzahür edən daxili məzmun kimi dünyanın özündə yerləşir. Ona görə də bəşəriyyətin mənəvi mədəniyyəti mütləq ideyanın yaradıcı qüvvəsinin tədricən aşkarlanması, onun inkişafıdır. Bu zaman həm də fərdin mənəvi inkişafı yalnız dünya ruhunun özünüdərk mərhələlərini təkrarlayır.

Ruhun fenomenologiyası aşağıdakı hissələrə bölünür:

- "subyektiv ruh" (fərdi şüurun hissi səhihlikdən zəkalı gerçəkliyin dərkinə doğru inkişafı);
- "obyektiv ruh" (tarixin ayrı-ayrı mərhələlərinin və onlara uyğun şüur obrazlarının xarakteristikası);
- "mütləq ruh" (ictimai şüur formalarının məxsusi mənada tədqiqi).

Beləliklə, mütləq ideyanın özünüdərkinin son nəticəsi "mütləq bilikdir" (mənəvi inkişaf prosesini, elmin, mənəviyyatın, dinin, incəsənətin, siyasi sistemlərin inkişafını idarə edən biliyin qanun və formaları).

Hegelin fəlsəfi sistemi daha dolğun şəkildə öz əksini "Fəlsəfi elmlərin ensiklopediyasında" (1817) tapır. Verilmiş sistem mütləq ideyanın özünüdərkini, inkişafını aşkarlayır. Burada Hegel üç mərhələni fərqləndirir və onların hər biri fəlsəfi elmlər sisteminin bir hissəsinə uyğun gəlir:

1) özünüdərkedən "mütləq ideyanın" xalis təfəkkürün kortəbiiliyində qalması. Burada ideya dialektikanın qanun və kateqoriyaları sistemində öz məzmununu açır (məntiq elmi);

2) ideyanın özünün "başqa varlıq" formasında, yəni obyektiv təbii hadisələr şəklində inkişafı. Burada təbiətin özü inkişaf etmir, lakin onun mahiyyətini təşkil edən məntiq kateqoriyalarının özünüinkişafını əks etdirir (Təbiət fəlsəfəsi);

3) təfəkkür və bəşəri tarixdə ideyanın inkişafı. Burada, mütləq ideya özünə qayıdaraq insan fəaliyyəti və şüur formaları çoxobrazlılığında məzmununu dərk edir (Ruh fəlsəfəsi).

Hegelin metodu dialektik fikrin yaranma və inkişafında üç tarixi mərhələni ehtiva edir: düşüncəli, mənfi dialektik (inkar zəkalı), müsbət dialektik (müsbət zəkalı, spekulyativ).

Beləliklə, Hegel məntiqinin əsasında (həm də onun bütün fəlsəfi sisteminin) əksliklərin barışması ideyası dayanır ki, bunun da əsasında varlıq və təfəkkürün eyniliyi durur. Filosofun məntiqində tədqiq olunan anlayışın özünüinkişaf prosesi triadaya əsaslanır: tezis, ona qarşı qoyulan antitezis (inkarı), həmçinin tezis və antitezisin daha ali anlayışda birləşməsi – sintez (inkari inkar). Hər bir sintez tədqiqatın yeni mərhələsinin başlanğıcı, yeni triadadır. Faktiki olaraq Hegelin bütün sistemi müxtəlif proseslərin uyğun triadalar çərçivəsində tədqiq olunmasıdır. Belə ki, burada məntiq varlıq, mahiyyət və anlayışlar haqqında təlimləri ehtiva edir.

Təbiətin fəlsəfəsi ideyanı "başqa varlıqda" nəzərdən keçirir, mexanika, fizika və orqanikanı ehtiva edir.

Ruhun fəlsəfəsi "mütləq ideyanın" inkişafının yekun mərhələsində bəşəriyyətin özünüdərki kimi bir inkişafı, zamanı tədqiq edir. Eyni zamanda ruh fəlsəfəsinin hər üç bölməsi də triada şəklindədir:

- "subyektiv ruh" – antropologiya, fenomenologiya, psixologiya,
- "obyektiv ruh" – hüquq, əxlaq, dövlət,
- "mütləq ruh" – incəsənət, din, fəlsəfə.

İncəsənət, din və fəlsəfə Hegelə görə "mütləq ruhun" özünüdərkinin, ümumdünya tarixinin yekunlaşdığı və dünya zəkasının bütövlükdə özünü dərk etdiyi ali formalarıdır, həm də həqiqətin gerçək ifadəsi yalnız fəlsəfədə mümkündür:

- incəsənət (incəsənətin elmi tarixi), ruh özünü hissi obrazlarda seyr edir,
- din (dinin elmi tarixi), ruh özünü gerçək təsəvvürlərdə duyur,
- fəlsəfə (fəlsəfənin elmi tarixi), ruh özünü elmi anlayışlarda düşünür.

Tarixi proses Hegel tərəfindən "azadlıq şüurunda ruh prosesi" kimi nəzərdən keçirilir, bu isə bir-birini əvəzləyən xalqların "ruhu" vasitəsilə inkişaf etdirilir:

- ən ümumi asılılıq: "heç kəs azad deyil" (tarixəqədərki zaman),
- despotizm və yaxud qeyri-həqiqi monarxiya: "bir nəfər azaddır" (şərq dünyası),
- demokratiya və aristokratiya: "bəziləri azaddır" (Qədim Yunan və Roma dünyası),
- həqiqi monarxiya: "hamı azaddır" (Böyük Karl dövrünə qədər alman, xristian orta əsrlər dünyası, Böyük Karl dövründən reformasiyaya qədər, yeni dövr alman protestant dünyası).

Verilmiş sxemdə ruhun tarixi inkişafında əsas mərhələlər kimi üç mərhələ çıxış edir: şərq, yunan-roma, alman.

Hegelin estetikası (incəsənətin fəlsəfəsi) da triada şəklindədir:

- ümumiyyətlə gözəllik ideyası (gözəllik ideyası, təbiətdə gözəllik, incəsənətdə gözəllik);
- incəsənətin tarixi formaları (qədim şərq-simvolik, antik klassik, xristian -"romantik");
- incəsənətin ayrı-ayrı növləri (xarici: arxitektura; obyektiv: heykəltarşlıq; subyektiv: rəssamlıq, musiqi, poeziya, epos, lirika, dram).

Hegel fəlsəfəsinin əsas prinsipi olan panlogizmə (yun. pan – hər şey və loqos - fikir) görə hər şey özünü dərk edən zəkanın təcəssümüdür. Beləliklə, Hegel sistemi klassik alman fəlsəfəsinin inkişafının zirvəsidir. Ondan sonrakı fəlsəfənin inkişafının əsas xətti qeyri-klassik hesab olunur. Bu cərəyanın ilk nümayəndələri A.Şopenhauer və S.Kyerkeqor olmuşlar.

## 5. Lüdviq Feyerbax

Lüdviq Andreas Feyerbax (1804-1872) alman klassik fəlsəfəsinin son böyük nümayəndəsidir.

Feyerbax fəlsəfəsinin çıxış nöqtəsi Hegelin mücərrəd fəlsəfi sisteminin, həmçinin dinin tənqididir. Onun fikrincə dünyanı anlamanın bu cür formalarının meydana gəlməsi, insan nəslinin nisbətən ümumi xassələrinə (zəka, xeyirxahlıq və s.) müstəqil mövcudluq forması verilməsinin nəticəsidir. Feyerbaxa görə din və fəlsəfə bir-birinə uyğun gəlməyən anlayışlardır. Allah obyektivləşdirilmiş mücərrəd kateqoriya, insan ruhunun proyeksiyasıdır, eyni zamanda insanın ona verdiyi bütün atributlar özgələşmiş insan atributlarıdır. Feyerbax fəlsəfəsində insanı "fəlsəfənin yeganə, universal və ali predmeti" hesab edən antropologizm də məhz buradan doğulur. Lakin Hegelin fəlsəfi sistemini inkar edən Feyerbax, eyni zamanda Hegelin dialektikasını da inkar etmişdir, ona görə də onun antropologiyası metafizikdir.

Feyerbax yazırdı: «Kim Hegelin fəlsəfəsindən imtina etmirsə, o teologiyadan da imtina etmir. Təbiətin, gerçəkliyin ideya tərəfindən yaradılması haqqında Hegel təlimi təbiətin allah tərəfindən, maddi mövcud olan şeylərin maddi olmayan, yəni abstrakt mövcud olan tərəfindən yaradılması haqqında teologi təlimin yalnız rasional ifadəsidir.

Feyerbax insanda təbii amillərə diqqəti yönəltməklə onların əhəmiyyətini şişirdir, insanı mücərrəd fərd kimi başa düşürdü. Psixofizioloji mövcud insan Feyerbaxa görə maddi obyekt və düşünən subyektdir.

Kafi dərəcədə ardıcıl materialist olan Feyerbax Hegelin varlıq və təfəkkürün eyniliyi haqqında fundamental tezisinə qarşı çıxış edir: "Fikri varlıq gerçək varlıq deyil". Feyerbax fəlsəfəsinin əsas prinsipi buradan irəli gəlir: "varlıq subyekt, təfəkkür predikat"dır.

Feyerbaxın idrak nəzəriyyəsi sensualist xarakterlidir. O təcrübəni əsas kimi qəbul etsə də, idrak proseində hissi seyr və təfəkkür arasında kəsilməz qarşılıqlı əlaqənin mövcudluğunu əsaslandırmağa çalışırdı.

Feyerbaxın etikası "Mən" və "Sənin" vəhdət və qarşılıqlı əlaqəsinə əsaslanırdı. İnsan iradəsinin hərəkətverici qüvvəsi xoşbəxtliyə can atmaqdır, lakin "Mən" nə xoşbəxt, nə də "Sən"siz sadəcə mövcud ola bilməz. Buna uyğun olaraq xoşbəxtliyə can atmaq əxlaq borcu doğurur. Belə ki, ayrıca insanın xoşbəxtliyi insani təklənmədən kənarda mümkün ola bilməz. Sosial amillərin düzgün və lazımınca qiymətləndirilməməsi Feyerbaxı ictimai münasibətləri fərdlərarası ünsiyyət səviyyəsinə gətirməsinə səbəb olmuşdur.

Lüdvik Feyerbaxın fəlsəfəsi təkcə klassik alman fəlsəfəsinin inkişafında yekun mərhələ kimi deyil, həm də qeyri-klassik fəlsəfənin növlərindən biri olan marksizmin yaranmsında da çıxış nöqtəsi kimi qiymətləndirilə bilər.

*Yoxlama sualları*

1) Klassik Alman fəlsəfəsinin xarakteristikası, onun nümayəndələri
2) İ.Kantın fəlsəfəsi
3) F.Q.Fixtenin fəlsəfi sisteminin əsasları
4) F.Şellinqin fəlsəfəsi
5) Hegelin dialektikası
6) L.Feyerbaxın konsepsiyası

# II HISSƏ

# MÜASİR FƏLSƏFƏ

## I MÖVZU

## XIX ƏSR AVROPA FƏLSƏFƏ ƏNƏNƏSİNDƏ İRRASİONALİZMİN YARANMASI

### 1. Artur Şopenhauer

Artıq XIX əsrin əvvəllərində Avropa fəlsəfəsində ciddi dəyişikliklər baş verirdi. Belə ki artıq ilk dəfə olaraq Yeni dövrün əsas prinsip və dəyər qaydaları tənqid edilirdi. Bu zaman zəkaya etiqad, insanın zəka və azadlığa malik mövcudluq kimi nəzərdən keçirilməsi, metodda dominant müddəa və sistemə inam, bəşəriyyətə, əxlaqi-humanist prinsiplərə, sosial tərəqqiyə inam tənqidə məruz qalırdı.

Avropa fəlsəfəsində rasionalizm, məntiqilik, ssiyentizm və tərəqqini şübhə altına almış ilk mütəfəkkirlər XIX əsrin birinci yarısında Artur Şopenhauer və Seren Kyerkeqor, ikinci yarısında isə Fridrix Nitsşe olmuşlar.

A.Şopenhauer (1788-1860) əsas ideyalarını "Dünya iradə və təsəvvür kimi" əsərində formulə etmişdir. Onun fəlsəfəsinin əsasında duran problem dünyanın insan təsəvvürü kimi anlaşılmasıdır. Şopenhauer Kantın aprior formalarını "kafi əsas" qanuna gətirir, dünyanı "subyektə nisbətdə obyekt, seyr edən üçün seyr, təsəvvür" kimi təşkil edən uyğun məqamlar qismində nəzərdən keçirirdi. O qeyd edirdi ki, fəlsəfi həqiqətlər intuisiya vasitəsilə aşkarlana bilər. Insanın təcrübə dünyası təsəvvürlər dünyası olsa da, o kateqorial nizamlıdır. Kafi əsas qanun siniflər və obyektlərin münasibətləri arasındakı fərqlərə uyğun dörd müxtəlif növdə çıxış edən "obyektlərin ümumi formasıdır":

- fiziki obyektlər sinfi, burada hadisələr zaman, məkan və səbəbiyyətə münasibətdə (əmələgəlmənin kafi əsas qanunu) formalaşır;
- mücərrəd anlayışlar sinfi, burada nəzəri təfəkkür mühakimələr vasitəsilə bir-birilə münasibətdədir (idrakın kafi əsas qanunu);
- riyazi obyektlər sinfi, onlar zaman və məkanın münasibətlərindən törəyir (varlığın kafi əsas qanunu);
- emprik "Mən" sinfi, "motivasiyanın" fəaliyyətinin kafi əsas qanunu.

Fenomenlər arxasında metafizik iradə olan "özündə şeylər dünyası" yerləşir. İradə tək, təzahürləri isə çoxdur, Eyni zamanda Şopenhauer bunlara qravitasiyanı da, insan affektlərini də aid edirdi. Beləliklə, dünya özündə şey olaraq iradədir. Iradə isə ali pilləsində zəkalı idrak verilmiş mövcudluq, yəni insanın da olduğu sonsuz sayda "obyektivləşməyə" bölünür. Intellekt hansısa rasional plana görə deyil, iradənin göstərişi əsasında fəaliyyətdə olur. Yalnız metafizik iradə gerçəkdir, fenomenlər dünyası təsəvvür kimi çıxış etməklə onu yalnız inikas etdirir.

Həyat iradəsi mənasızdır, deməli həyat özü də mənasızdır, xoşbəxtlik ilğım, iztirab isə qarşısıalınmazdır. Bütün bunlar Şopenhauerə imkan verir ki, öz təlimini pessimizm adlandırsın. Şopenhauerə görə pessimizm kainatın obyektiv quruluşunun qaçılmaz nəticəsidir. Çünki, mövcud dünya "mümkünlərin ən pisidir". Şopenhauer mühüm etik prinsip kimi iztirab hissini qəbul edir, məhz ona görə bütün mövcudluğun vəhdətində fərdi görünüş əriyir. Filosof və rəssam iradənin vəhdətini onun bütün təzahürlərində dərk edə və "nirvana" (həyat) ləzzətini öldürəcək mütləq qayğısızlıq halında ola bilərlər. Şopenhauerə görə "nirvana" heçlik və ölümdür. Ən azı bir subyekt mövcuddursa, varlığın ləğvi mümkün deyil, bu subyektin təsəvvüründə dünya obyektivləşmiş iradə kimi mövcudluğunu davam etdirir.

## 2. Seren Kyerkeqor

Seren Kyerkeqor (1813-1855) Danimarka filosofu, teoloq, yazıçı kimi məşhurdur. Kyerkeqor öz fəlsəfəsini ekzistensional fəlsəfə adlandırmışdır (lat. existensia - mövcudluq). Ekzistensional təfəkkür şəxsiyyətin daxili mənəvi həyatı ilə bağlıdır və mücərrəd və şəxssiz elmi təfəkkürdən prinsipial olaraq fərqlənir. Kyerkeqor "filosofluq etməyin elmi üsulunu" inkar edir və ona qeyri-həqiqi insan "məninin" qurulmasına cəhd kimi baxırdı. O belə hesab edirdi ki, yeni fəlsəfə ilk növbədə, rasional dərkolunanlar sahəsi ilə məhdudlaşmayaraq "mən" problemini həll etməlidir.

Kyerkeqora görə "mən" canlı real insandır, həmçinin onun mahiyyətini açan ümidsizlik, həyat, ölüm, qorxu, seçim, günah kimi kateqoriyalar sırf klassik kateqoruyalar deyildir. Filosof özünəməxsus "qorxudulmuş ekzistensiya" olan insan varlığının dayanıqsızlığına diqqəti yönəldir. İnsan "məni"i həllində faciəvidir. Bu faciəvilik mövcudluğun bütün çoxobrazlılığından törəyir: "mənin" tükənməzliyi, dünyanın "məndən" özgələşməsi, "məni" "sən" vasitəsilə görmək arzusu və s.

Kyerkeqor insanı ekzistensiya kimi nəzərdən keçirir, bu zaman diqqəti onun müxtəlif hallarına yönəldir, məsələn:

- qorxu – naməlum və əsrarəngizlik qarşısında şiddətli təhlükədən törəyən həyəcanlı vəziyyət;
- seçim – insanın öz-özünü, öz universal və təkrarolunmaz "mən"ini seçməsi.

Kyerkeqor fəlsəfəsinin mərkəzi problemi mənəvi fərd ("təkcə"), varlığın üç sferası və yaxud onun inkişafının üç mərhələsi və eyni zamanda üç həyat tərzi haqqında təlimdir. Mərhələdən mərhələyə keçid allaha doğru yolda insanın seçimi vasitəsilə gerçəkləşdirilir:

1) estetik mərhələ - uyğun mövcudluq forması ilə birlikdə xaotikliyi, təsadüflüyü (estetizm) və bu mərhələdə təcəssüm edən insanla (estetika) xarakterizə olunan həyat fəaliyyətinin hissi üsulu;

2) etik mərhələ - burada "etik insan" əxlaqi cavabdehlik daşıyır. Onun dünya qarşısında ümidsizliyi ruhun bütün qüvvəsini ümidsizlik aktında, mənəviyyat vasitəsilə inama yol açmaq cəhdində cəmləyən şəxsiyyətin ümidsizliyidir;

3) dini mərhələ - bu mütləq ümidszilik mərhələsidir, dini mövcudluqda "təkcə" günahkardır, ilkin olaraq allah qarşısında günahkardır, həm də məhz ilkin günahkarlıq və qeyri-kamilliyin bu anlaşılması insanı heç bir rasional məzmuna malik olmayan inama gətirir ("inam paradoksdur").

Insan mövcudluğunun əsas kateqoriyalarını qeyd edən Kyerkeqor fəlsəfəsi XX əsrin ən nüfuzlu fəlsəfi cərəyanı olan ekzistensializm üçün fundamental baza olmuşdur.

### 3. Fridrix Nitsşe

Fridrix Nitsşe (1844-1890) görkəmli alman filosofudur. Nitsşenin fəlsəfi yaradıcılığını adətən dörd mərhələyə bölürlər:

1872-1876-cı illərdə yazılan əsərlər ("Musiqi ruhundan faciənin törəməsi");

1878-1882-ci illərdə yazılan əsərlər ("İnsani, həddindən artıq insani");

1883-1886-cı illərdə yazılan əsərlər ("Zərdüşt belə söylədi", "Xeyir və Şərin o tayında");

1889-cu ilə qədər yazılmış əsərlər ("Bütlərin tənəzzülü").

Nitsşenin ilk böyük əsəri olan "Musiqi ruhundan faciənin törəməsi" varlıq və mədəniyyətin iki başlanğıcını qarşı qarşıya qoyur:

1) "dionisi" ("həyati", orgiyalı qızğın və faciəli başlanğıc, təbiəti birbaşa qavramağı və dünyanı hiss etməyi nəzərdə tutur);

2) "appolen" (obrazlı, keçici fəlsəfi anlayış, dialektik ideyalarla dünyanı hiss etməyin əvəzlənməsini nəzərdə tutan seyrçi, intellektual başlanğıc).

Nitsşeyə görə qədim yunanıstan faciəsində hər iki başlanğıc kəskin vəhdətdədirlər (Esxil, Sofokl). Lakin Evripid yaradıcı-

lığında və Sokrat fəlsəfəsində inkişaf etdirilən nəzəri, intellektual "apollon" başlanğıc Avropa mədəniyyətində tədricən dominanta çevrilir. "Bizim Avropa mədəniyyətimiz yenişə istiqamətlənmiş" fikri buradan irəli gəlmişdir.

Nitsşe fəlsəfəsinin mərkəzi anlayışı aşağıdakı kimi müəyyənləşdirilir:

həyat "eyni dərəcədə həm ağac və bitkilərə, həm də canlılara aid edilməlidir";

həyat – "gücün toplanmasına yönəlmiş səciyyəvi iradədir";

həyat – "hakimiyyət hissinin maksimumuna cəhd edir";

həyat – "bu hakimiyyətin iradəsidir".

Nitsşeyə görə, dünya nəsə vahid və əbədi olandır, lakin sabit deyil, dünya əbədi axındır, əmələgəlmədir, qayıdışdır. Bu zaman Nitsşe həqiqət, idrak və elmin orijinal şərhini verir. Həqiqət həyatın gerçəkliyə uyğunlaşmaq üçün zəruri alətidir. İdrak hakimiyyət alətidir. Elm və məntiq "prinsipial saxtalaşdırma" alətidir.

Nitsşeyə görə intellekt dünyanı dərk etmir, sadəcə sxemləşdirir, ona görə də Yeni dövr fəlsəfəsinin əsası olan elm və elmi həqiqətə pərəstişdən imtina etmək zəruridir.

Avropa mədəniyyətində başlanmış böhranı təhlil edən Nitsşe, onun əsas təzahürünü nihilizm adlandırır və bunu üç əsas tezisə müncər edir:

- artıq heç nə həqiqət deyil;
- Allah ölub;
- əxlaq yoxdur, hər şeyə icazə var.

Nihilizm artıq reallıq olduğu üçün Nitsşe iradə düşkünlüyünün simptomu olan "zəiflərin nihilizminə" qarşı "güclülərin nihilizmi"ni qoyur. Nitsşe dəyərlərin yenidən dəyərləndirilməsinə çağırır. Yenidən dəyərləndirmə, bütün dəyərlərin tənqidi olub, ilk növbədə bəşəriyyətin instinktlərini itirməsində, insanların özlərini qoruması və kamilləşməməsində ifadə olunan insan cəmiyyətinin böhranına gətirmiş ənənəvi dini və fəlsəfi görüşlərdən, mədəni oriyentirlərdən, əxlaqdan faktiki imtinadır.

Nitsşeyə görə ümumavropa böhranının əsas günahkarı insanın tam özünüifadəsinə mane olan xristianlıq və humanist əxlaqdır. Nitsşe muasir olduğu cəmiyyətin insanını, „gələcəyin insanına", „fövqəl insana" qarşı qoyur. „Fövqəl linsan" yeni əxlaqın daşıyıcısıdır. „Fövqəlinsan əxlaqının", „ağa əxlaqının" əsasında aşağıdakı prinsiplər dayanır:

- „həyatın dəyəri" şərtsiz və yeganə dəyərdir;
- həyat qüvvələrinin və „hakimiyyət iradəsinin" səviyyəsindəki fərqlərlə şərtlənən insanların təbii bərabərsizliyi mövcuddur;
- fövqəlinsan əvvəlki əxlaq normalarından azaddır, ona „kölə əxlaqı", filantropiya, iztirab yaddır;
- fövqəlinsan instinktlərinə qulaq asır, lakin onun azadlığı ilk növbədə cavabdehlikdir, əsas instinkti vicdandır. O, Avropa mədəniyyətinin böhranını dəf etməyə qadir olan, „gələcəyi yaradacaq" yeni insan birliklərini formalaşdırmaq üçün doğulur.

Nitsşe fəlsəfəsinin əsasən inkar xarakterli fəlsəfə olmasına baxmayaraq, onun fəlsəfi fikrin sonrakı inkişafına əsaslı təsirini dəyərləndirmək lazımdır.

*Yoxlama sualları*

1. Yeni dövrün əsas istiqaməti və prinsipləri
2. A.Şopenhauerin fəlsəfəsi
3. S.Kyerkeqorun ekzistensial fəlsəfəsi
4. F.Nitsşenin fəlsəfi yaradıcılığının mərhələləri
5. F.Nitsşe fəlsəfəsinin əsas anlayışları

# II MÖVZU
# XIX ƏSRIN ORTALARI VƏ ƏSRİN İKİNCİ YARISININ FƏLSƏFƏSİ

## 1. Marksizm

Marksizm fəlsəfəsi XIX əsrin 40-70-ci illərində Karl Marks (1818-1883) və Fridrix Engels (1820-1895) tərəfindən yaradılmış fəlsəfi, sosial-siyasi və iqtisadi görüşlərin bütöv sistemidir. Marksizm əvvəlki fəlsəfi konsepsiyaların əsas nəzəri istiqamətlərinin davamı olmuşdur. Adətən marksizmin üç nəzəri mənbəyini göstərirlər:

- klassik alman fəlsəfəsi (Hegelin dialektikası və Feyerbaxın antropoloji materializmi);
- klassik ingilis siyasi iqtisadi (A.Smit (1723-1790) və D.Rikardonun (1772-1823) təlimləri);
- XIX əsrin başlanğıcındakı tənqidi-utopik sosializm (Sen-Simon (1760-1825) və Ş.Furyenin (1777-1837) təlimləri).

Marksist fəlsəfə dialektik və tarixi materializmə bölünür. Dialektik materializm marksizmin materialist və dialektik yanaşmaları birləşdirən fəlsəfi əsasıdır. Marks və Engels Feyerbax materializmi ilə Hegel dialektikasının sintezini yaratmışlar. Onlar belə hesab etmişlər ki, Hegelin göstərdiyi və məntiqi təhlil etdiyi fundamental dialektik asılılıq və münasibətlər təbiət və cəmiyyət həyatının gerçək proseslərində də mövcuddur. Belə ki, Fridrix Engels "Anti-Düринq" (1878), "Təbiətin dialektikası" (1894) əsərlərində canlı və cansız təbiətdə, ictimai inkişafda, mənəvi yaradıcılıqda dialektikanın qanun və kateqoriyalarının necə yarandığını ardıcıl şəkildə şərh etmişlər. Marksist materializm mexaniki deyil, materiya, təbii və sosial gerçəkliyin bütün sferalarında müşahidə olunan əksliklərin mübarizəsi ilə şərtlənmiş daimi hərəkət və mübarizədir. Təbiət (düşünən materiya da daxil olmaqla) istisnasız olaraq özünəməxsus qanunlar əsasında bütün təzahürlərində inkişaf edir.

Marks və Engelsin idrak nəzəriyyəsinin əsasında obyektiv dünyanın insan şüurunda inikası haqqındakı təlim dayanır, həm də idrak nəzəriyyəsinə praktika da daxil edilir. Dünya canlı seyrin köməyi ilə deyil, insanların aktiv fəaliyyətinin gedişi və nəticəsində, gerçəkliyin müxtəlif sferalarında praktiki təsir prosesində dərk edilir.

Tarixi materializm marksist təlimin digər vacib tərkib hissəsi olub tarixi və sosial gerçəkliyi öyrənməyə istiqamətlənmiş nəzəriyyədir. "Tarixi materialistcəsinə anlamanın" mahiyyəti, ictimai həyatın digər sferalarına münasibətdə maddi istehsalın həlledici rolunu sübut etməyə çalışılmasıdır. Hər bir insan cəmiyyətinin əsasını həyat üçün maddi vəsait əldə etmək zərurəti hesab edən marksizm, bu əsası istehsal prosesində insanlar arasında yaranmış münasibətlərlə əlaqələndirirdi. Marks və Engels hər bir konkret cəmiyyətin strukturunda aşağıdakıları ayırırdılar:

gerçək bazis – məhsuldar qüvvələrlə müəyyənləşən istehsal münasibətləri sistemi;

siyasi-hüquqi üstqurum və ictimai fikrin müxtəlif formaları (siyasət, hüquq, elm, əxlaq, fəlsəfə, din, incəsənət).

Istehsal münasibətlərinin hər bir sistemi, məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə müəyyənləşir. Ona görə də marksizm cəmiyyət inkişafının hər bir mərhələsində müəyyən istehsal üsulu əsasında bütün ictimai hadisələri özündə birləşdirən vahid sistem kimi nəzəri cəlb edir. Öz növbəsində istehsal üsulu ilə hər bir xüsusi tarixi cəmiyyət tipi olan ictimai iqtisadi formasiya şərtlənir. Mövcud formasiyaların inkişafı və dəyişməsi (burada hərəkətverici qüvvə, ali təzahürü sosial inqilab olan istismar edən və istismar olunan siniflərin mübarizəsidir) cəmiyyətin tədrici hərəkət prosesini təşkil edir. İbtidai icma, quldarlıq, feodalizm, kapitalizm və kommunizm bir-birini əvəz edən ictimai-iqtsadi formasiyalardır.

Tarixi inkişafın son nəticəsi marksizmə görə siniflərin antoqonizmini və insanın insan tərəfindən istismarını aradan qaldıracaq ilk formasiya kommunizm formasiyası olmalı idi.

Marksim banilərinin əsas əsərləri sırasında K.Marksın «Feyerbax haqqında tezisler, «Kapital» «1844-cü ilin iqtisadi-fəlsəfi əlyazmaları, K.Marks və F.Engelsin, «Kommunist Partiyasının Manifesti», «Müqəddəs ailə», «Alman ideologiası», F.Engelsin «Təbiətin dialektikası», «Anti-Dürinq», «Meymunun insana çevrilməsində əməyin rolu», «Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi, «Lüdviq Feyerbax və klassik alman fəlsəfəsinin sonu» və başqalarını göstərmək olar.

Marksizm təkcə dövrünün növbəti fəlsəfi təlimi deyil, həm də sosial-dəyişdirici proqram xarakterli bir fəlsəfi dünyagörüş olmuşdur. Bu proqramın gerçəkləşdirilməsinə XX əsrdə cəhd göstərilmiş və bu ideologiya keçmiş Sovet İttifaqında, Çində, Şərqi Avropa ölkələrində, Kubada və başqa ölkələrdə hakim ideologiya olmuşdur. Rusiyada və Sovet ittifaqında bu ideologiya Lenin (1870-1924) tərəfindən inkişaf etdirilmiş və leninizm adı daşımışdır. Haliyyədə Çin və Kuba öz inkişafını marksizm nəzəriyyəsinə əsasən istiqamətləndirir. Aşkar qüsurlarına baxmayaraq, marksizm Vyetnam, Şimali Koreya və dünya fəlsəfə meydanında böyük hadisədir.

## 2. V. İ. Lenin

V.İ.Lenin (1870-1924) hələ özünün ilk əsərlərində rus xalqçılarının idealist görüşünü tənqid edərkən marksizmin sosial fəlsəfəsinin əsas müddəalarını müdafiə edirdi. Rusiyada 1905-1907-ci illər inqilabının məğlubiyyətindən sonra Lenin materialist fəlsəfəni müdafiə edən «Materializm və empriokritizm» kitabını yazır.

Birinci dünya müharibəsi illərində Lenin «Fəlsəfə dəftərləri»ni yazır. Burada o, Heraklitin, Aristotelin, Hegelin əsərlərini təhlil edir, dialektikanın kateqoriya və qanunlarını şərh

edirdi. Bu dövrdə idrak prosesinin dialektikası, təfəkkür məsələləri Leninin diqqət mərkəzində olmuşdur.

Birinci dünya müharibəsi illərində Lenin eyni zamanda sosial fəlsəfənin bir çox məsələləri ilə də məşğul olmuşdur: imperializmin inkişafının son perspektivləri, sosialist inqilabı, sinfi mübarizə məsələləri, dövlət haqqında təlim və s. Lenin sosializmin bir qrup ölkədə, hətta ayrıca götürülmüş bir ölkədə qələbəsini mümkün hesab edirdi.

Oktyabr inqilabından sonra Lenin Sovet ittifaqında sosialist quruculuğunun və dünyada inqilabi prosesin perspektivi problemlərini tədqiq etmişdi. Məhz həmin dövrdə onun baxışlarında bir sıra dəyişikliklər baş verir. Bu barədə Leninin özü də etiraf etmişdi. O, faktiki olaraq özünün əvvəlki müddəalarının bəzilərindən imtina edir, sosialist quruculuğu, dövlət və inqilab haqqında yeni fikirlər söyləyir. Tarix Leninin kapitalizm, «dünya inqilabı», sosializm və kommunizm haqqında bir çox mühakimələrinin əsassız olduğunu göstərmişdir.

Sonralar Sovet İttifaqında leninizmin ehkamçı (doqmatik) şərhi ağır nəticələrə-repressiya və özbaşınalığa, hətta Leninin bəzi fikirlərinin təhrif olunmasına səbəb oldu.

## 3. Pozitivizm

Pozitivizm (lat. positivus – müsbət) Avropanın elmi və fəlsəfi fikir cərəyanlarından biridir. Bu fəlsəfi cərəyanın ardıcılları konkret, təcrübəyə əsaslanmış, yoxlanılabilən və praktiki, səmərəli biliyin fundamental əhəmiyyətini əsaslandırmış, belə biliyin mənbəyini konkret emprik elmlər hesab etmişlər.

Dünya miqyasında Avropa XIX-XX əsrlər fəlsəfi ənənəsində nəhəng hadisə kimi başa düşülən pozitivizm öz inkişafında üç əsas formaya (və yaxud mərhələyə) malikdir:

- "birinci pozitivizm", əsl pozitivizm XIX əsrin birinci yarısında yaranmışdır. Onun banisi O.Kont (1798-1857), nümayəndələri isə E.Littre (1801-1881), Y.Bentam (1748-1832),

C.Mill (1773-1836), C.S.Mill (1806-1873), H.Spenser (1820-1903) hesab edilirlər.

- "ikinci pozitivizm"in (empiriokrtisizm, maxizm) əsas nümayəndələri E.Max (1838-1916), R.Avenarius (1843-1896) olmuşlar;
- "üçüncü pozitivizm" (məntiqi pozitivizm, neopozitivizm), bu cərəyana "Vyana filosofları dərnəyinin" nümayəndələri aiddir: M.Şlik (1882-1936), R.Karnap (1891-1970), O.Neyrat (1882-1945) və başqaları.

Pozitivizm XIX əsrin əvvəllərində aşağıdakı amillərin təsiri altında formalaşmışdır:

- təbiyyət və riyazi elmlərin inkişafı;
- təhsil və praktikada pozitiv biliyin rolunun artması;
- pozitiv elmlərin rolunun artması;
- sosial gerçəkliyin pozitiv şərhinə cəhdlərin yaranması.

Pozitivizmin yaranmasında fransız mütəfəkkiri K.Sen-Simonun (1760-1825) təlimi xüsusi rol oynamışdır. Onun təlimində aşağıdakıları qeyd etmək zəruridir:

- "elmin pozitiv xarakteri" haqqında məsələnin qoyuluşu;
- tarixin öyrənilməsinə geniş fəlsəfi yanaşmanın zəruriliyinin təsdiqi;
- feodalizm və industrializmin qarşıdurması ideyası (produktiv sinfin hakimiyyəti);
- produktiv sinfin yeni ideologiysının əsaslandırılması ("industriallar").

Fəlsəfi cərəyan olaraq pozivitizmin banisi Sen-Simonun tələbəsi Ogüst Kont olmuşdur. "Pozitiv fəlsəfə kursu" (1830-1842) Kontun əsas əsəridir. Kont təliminin əsasında elmi hadisələrin xarici simasının təsviri ilə məhdudlaşdırmaq, metafizikanı şeylərin mahiyyəti haqqında təlim olaraq kənarlaşdırmaq tələbi durur. Beləliklə, Kont elmlərdə ön plana metafizika və spekulyasiyanı deyil, pozitiv biliyi, yəni təcrübə və praktikada yoxlanılan, rasional tətbiq olunan biliyi çıxarır.

Kont "sosiologiyanın" yaradıcısı kimi (pozitiv elmlər sisteminin köməyi ilə cəmiyyətin hərtərəfli elmi tədqiqi) ictimai sistemləri iki səviyyədə tədqiq edir. Əvvəla onların mövcudluq şəraitinin və fəaliyyət qanunlarının öyrənilməsi (sosial statika) ikinci, ictimai inkişafın əsas istiqamət və mərhələlərinin, təmayüllərinin öyrənilməsi (sosial dinamika).

Kont fəlsəfəsinin sosial dinamikaya aid olan mərkəzi təlimi insan təfəkkürü və idrakının inkişafının üç mərhələdən ibarət konsepsiyasıdır. Kont üç mərhələni bu cür ayırır:

- teoloji (fiktiv), idrakın əsasında fövqəltəbiiliyə inam dayanır, "isbatı olmayan spontan yaranmış funksiyalar aşkar hökmranlıq edir";
- metafiziki (mücərrəd), mahiyyəti "gerçəklik kimi qəbul edilən abstraksiya və yaxud mahiyyətlərin üstünlük təşkil etməsi" əsas götürülür
- elmi (pozitiv), "dəyişməz olaraq, xarici gerçəkliyin dəqiq qiymətləndirilməsinə əsaslanmış pozitiv vəziyyət".

Pozitiv elmlərin əsas məqsədi təbiət və cəmiyyətin qanun və nizamının aşkarlanmasıdır. Həm də Kont bu qanunları, öyrənilən obyektlər arasında sabit münasibətlərin müşahidəsinin yekunu kimi başa düşür (bu münasibətlərin dərki yeganə həqiqi elmi və pozitiv bilik növüdür).

Fəlsəfənin predmetini xüsusi elmlərin predmetindən fərqli olaraq dəqiq müəyyənləşdirməyə tərəddüd edən Kont "pozitiv" fəlsəfənin mövcudluğunu ayrı-ayrı elmlər arasındakı əlaqə və münasibətlərin tədqiqi kimi əsaslandırırdı.

Kont elmlərin təsnifatını, onların sadəlik, mücərrədlik dərəcəsinin azalması ardıcıllığı ilə vermişdir: riyaziyyat, astronomiya, fizika, kimya, biologiya, sosiologiya ("sosial fizika").

Birinci pozitivizmin nümayəndələri arasında Kontun üç mərhələ haqqında təlimini dördüncü, mexaniki mərhələ ilə tamamlayan E.Littre, Y.Bentam, ütilitarizminin davamçısı C.S.Mill fərqlənirlər. Onlar idrakın fenomenalist nəzəriyyəsini hazırlamışlar. Bu nəzəriyyəyə görə insan yalnız hüdudlarından

kənara çıxmağın mümkün olmadığı "hadisələri" dərk edə bilir, fenomenal təcrübənin təşkilinin əsas vasitəsi isə dildir.

Herbert Spenser isə təkamül nəzəriyyəsini canlı mövcudluqlardan bütün predmet və hadisələrə köçürmüşdür. Spenser maddi dünyanın müxtəlif sahələri arasındakı sərhədləri aradan qaldıran kosmik təkamül qanununu formulə etmişdir. Bu ona bütün elmlərin məlumatlarını birləşdirən və onların ümumi qanunauyğunluqlarını çıxaracaq sintetik fəlsəfəni yaratmaq üçün gərəkli olmuşdur. Spenser fəlsəfəsinin mərkəzində "dərkolunmaz"lıq haqqında təlim dayanır:

- din sonsuz, mütləq, dərkolunmaz ilkin səbəbi tədqiq edir;
- elm təbiətin axıra qədər dərk olunmayan fundamental qanunauyğunluqlarının öyrənilməsi ilə məşğul olur. Buradan belə nəticə çıxarılır ki, elm və din bir-birinə zidd deyildir.

### 4. Empriokritisizm

Empriokritisizm (yun. emperia – təcrübə və tənqid), "təcrübənin tənqidi" pozitivizmin inkişafının ikinci tarixi forması ("ikinci pozitivizm") hesab olunur, onu bəzən yaradıcısının adı ilə maxizm də adlandırırlar. Bu fəlsəfi cərəyanın baniləri və əsas nümayəndələri isveçrəli filosof Rixard Avenarius (1843-1896) və avstriyalı filosof, fizik və riyaziyyatçı Ernst Max (1838-1916) olmuşlar.

Əgər "birinci pozitivizm" metafizikanı atmağı və onu konkret "pozitiv" elmlərin nailiyyətlərinin məcmusu ilə əvəzləməyi təklif edirdisə, "ikinci pozitivizm" metafizikanın mütləq kənarlaşdırılmasının nəzəri-idraki proqramı kimi çıxış edir. Belə ki, Ernst Max bəyan edir ki, "Maxın heç bir fəlsəfi sistemi mövcud deyil"dir. O, "bütün metafizik məsələləri tamamilə istisna etdiyi üçün, yalnız "təbii-elmi metodologiya və idrakın psixologiyasının" olduğunu iddia edir.

Max fəlsəfəsinin əsasını "bioloji və iqtisadi idrak nəzəriyyəsi" təşkil edir. Elmi idrakın əsas prinsipi "təfəkkürə qənaət",

"fikrin qənaətləşdirilməsi, harmoniyalaşdırılması və təşkili olmalıdır". Təfəkkürə qənaəti Max idrakın əsas səciyyəvi cəhəti hesab edir və onu orqanizmin özünüqorumaya ilkin bioloji tələbatından çıxarır (bunu isə orqanizmlərin fakta "uyğunlaşma" zərurəti diktə edir).

Təfəkkürə qənaət prinsipini Max sırf təsviri elm kimi başa düşdüyü idealda müəyyənləşdirir. Ona görə də elmin izahedici hissəsi təfəkkürə qənaət məqsədilə rədd edilməlidir. Təfəkkürə qənaət prinsipinə uyğun olaraq dünyanın təsviri yalnız "təcrübənin neytral elementlərini" (duyğularla eyniləşdirmək) və bu elementlərin funksional əlaqələrini özündə saxlamalıdır.

Max fəlsəfəsinin son məqsədi məcmusu elmi təşkil edən fərziyyələrin birbaşa müşahidələrlə əvəzlənməsidir.

Rixard Avenarius da təfəkkürə qənaət prinsipindən istifadə edir və onu "məzmuna görə qüvvənin və formaya görə hərəkətin ən az itkisi adlandırır"dı. Avenarius idrakın materialist nəzəriyyəsini tənqid edir, onu introeksiya (lat. intro – daxil, iectio - tullama), yəni dərk edən subyektin şüuruna ideal obrazların lazımsız qoyuluşu kimi müəyyənləşdirirdi. Bu isə dualizmə gətirib çıxarır. İntroeksiyaya qarşı Avenarius "prinsipial kordinasiya" haqqında nəzəriyyəni, dərk edən fərdlə idrak obyekti arasındakı qırılmaz əlaqə haqqında təlimi qarşı qoyur. Bu nəzəriyyəyə görə istənilən təcrübi bilikdə obyekt və subyekt birlikdə verilir.

Empriokritisizmin böyük ardıcıllarından biri fransız riyaziyyatçısı və filosofu Anri Puankare (1854-1912) olmuşdur. O konvensionalizm (lat. convento – razılaşma, müqavilə) konsepsiyasını hazırlamışdır. Bu konsepsiyaya görə təbiyətşünaslıq və riyaziyyatın prinsip və aksiomları gerçəkliyin obyektiv əlaqə və münasibətlərini əks etdirmir. Beləliklə, verilmiş sferada hər bir qanunauyğunluq başqa bir şey olmayıb, əlverişlik üçün qəbul edilmiş şərtilik, razılaşmadır (konsepsiya). Məsələn, müasir elmdə məkan üç ölçülüdür, çünki verilmiş məqamda (işlək fərziyyə kimi) ona üç ölçü aid etmək olur. Deməli, hər

bir elmi bilik şərtidir və əlverişli abstraksiyalarla, duyğuların dayanıqlı qruplarının simvolları və onlar arasındakı münasibətlərlə əməliyyat aparır.

## 5. Praqmatizm

Praqmatizm (yun. praqma – iş, fəaliyyət) fəlsəfi cərəyan olaraq XIX əsrin 70-ci illərində yaransa da, XX əsrin birinci yarısında geniş yayılmışdır. Praqmatizmin fəlsəfi məktəb deyil, konsepsiya olmasına baxmayaraq, praqmatik filosofluq etməyin bəzi fərqləndirici xüsusiyyətlərini göstərmək olar:

- praqmatizm nümayəndələrinin diqqətinin elmi nəzəri idrakdan, insanın gündəlik praktiki fəaliyyətinə doğru yönəlməsi;
- mövcud fəaliyyətin təhlili zamanı tədqiqatın mərkəzinə fərdlərin fəaliyyəti, onların əsaslandırılması, faydalı nöqteyi-nəzərdən qiymətləndirilən emosional və rasional elementlər gətirilir;
- davranışın tənzimləyicisi kimi nəzərdən keçirilən inam və etiqada xüsusi diqqət yetirilir (mücərrəd ideyalara deyil).

Praqmatizmin əsas nümayəndələri Ç.S.Pirs (1839-1914), Y.Cems (1842-1910), C.Dyui (1859-1952) hesab olunur.

Çarlz Sanders Pirs bu fəlsəfi cərəyanın banisidir, "praqmatizm" terminini ilk dəfə o işlətmişdir. Pirs "İdeyalarımızı necə aydın etməli" və "İnamın möhkəmləndirilməsi" (1877-1878) məqalələrində bu cərəyanın əsas prinsipini formulə etmiş və bu "Pirs prinsipi" adını almışdır. Y.Cemsin şərhində bu prinsip belə səslənir: "Bizim inamlarımız fəaliyyət üçün yalnız fantastik qaydalardır. Hansısa hökmün mahiyyətini aşkarlamaq üçün, biz yalnız fəaliyyətin elə üsulunu müəyyənləşdirməliyik ki, o bunları törətməyə qadir olsun. Bu üsulda verilmiş hökmün bizim üçün bütün mənası olmalıdır".

Pirsin praqmatik konsepsiyasının mərkəzində "praqmatik inam" və yaxud "etiqad" dayanır. Pirsə görə belə inam arzu və

etiqada münasibətdə idarəedici başlanğıcdır. Elmi inamın möhkəmləndirilməsi kimi başa düşən Pirs, inamın möhkəmləndirilməsinin bir neçə metodunu vermişdir, onların arasında inadkarlıq, avtoritet, aprior və etik metodları göstərmək olar.

Uilyam Cems Amerika praqmatizminin görkəmli nümayəndəsidir. Cems praqmatizminin əsasında fəlsəfənin əsas məsələsinin və predmetinin spesifik anlaşılması dayanır ("fəlsəfə... nəsə mexaniki müəyyənləşmiş xüsusi olandır, bu həyatın nə olması haqqında dumanlı hisslərdir", bu "kosmik həyatın nəbz döyüntülərinin qavranılması və hiss edilməsinin fərdi üsuludur"). "Xəyali mütləqlər və başlanğıcların", mücərrəd metafiziki fəlsəfənin yararsızlığı fikri məhz buradan irəli gəlir.

Cems "radikal emprizm" konsepsiyasını hazırlamışdır. Praqmatizm "konkretə, əlçatana, faktlara, fəaliyyətə müraciət edir, bu isə rasionalist metoddan imtinanı, empirik metodun hökmranlığının etirafıdır. Cemsə görə təcrübə idrakın yeganə instansiyası, şüur və həyəcanlanmalar axınıdır. Digər tərəfdən bu insanın praktik fəaliyyətidir.Cemsin praqmatizmi sırf sensualist xarakterli deyildir, duyğuların haradan gəlməsi bəlli deyil və onlar iradə aktları üçün mövcuddurlar. Beləliklə, Cems üçün əşyalar duyğular axını kimi çıxış edən təcrübədə verilmir, onlardan subyektin özü tərəfindən iradə gücünə alınır.

Con Dyui praqmatizmin yeni versiyasını – instrumentalizmi hazırlamışdır ("praqmatik instrumentalizmin mahiyyəti idrakın və praktikanın təcrübədə mövcudluğunu təmin edəcək üsul kimi anlamaqdır"). Dyuiyə görə fəlsəfənin əsas məsələsi insanların həyatını yaxşılaşdırmağa kömək edəcək həyat təcrübəsinin təşkilidir, bunun üçün vasitə bizim praqmatik cəhdlərimizə uyğun gələn alət kimi xidmət göstərə biləcək elm və zəkanın metodları olmalıdır, ona görə də ideyalar, konsepsiyalar və nəzəriyyələrin həqiqiliyi, onların bizi praqmatik məqsədlərə nə qədər yaxınlaşdırması ilə ölçülür.

*Yoxlama sualları*

1. Marksizm fəlsəfəsi və onun nümayəndələri
2. Pozitivizmin əsas formaları
3. O.Kontun fəlsəfəsi
4. E.Maxın empriokritisizmi
5. Praqmatizmin əsas ideyaları
6. C.Pirsin konsepsiyası
7. U.Cemsin amerikan praqmatizmi

# III MÖVZU
# HƏYAT FƏLSƏFƏSİ

## 1. Anri Berqson

Həyat fəlsəfəsi XIX əsrin sonu XX əsrin əvvəllərində qərb fəlsəfi fikrində yaranmış nüfuzlu cərəyanlardan biridir. Həyat fəlsəfəsinin əsas ideya sələfi A.Şopenhauer olsa da, F.Nitsşenin fəlsəfi konsepsiyası da oxşar məcrada inkişaf etmişdir. Bu cərəyan nümayəndələrinin təlimlərində mərkəzi yeri həyat anlayışı tutur və klassik fəlsəfədəki "varlıq" anlayışının onunla əvəzlənməsinə cəhd göstərilir. Bu anlamda həyat nəsə statik vəziyyətə qarşı qoyulan, sonsuz, fəal, çoxobrazlı, əbədi hərəkətə malik olan mütləq başlanğıcdır. Həyat varlığın əbədi əmələ gələn və idrakın düşüncəvi metodları ilə başa düşülməyən əsasıdır, lakin idrakdankənar idraki qabiliyyətlərin köməyi ilə dərk olunur.

Həyat fəlsəfəsinin əsas nümayəndələri A.Berqson (1859-1918), V.Diltey (1833-1911), G.Zimmel (1858-1918), O.Şpenqler (1880-1938), L.Klages (1870-1956), L.Frobenius (1873-1938) və E.Şpranger (1882-1963) hesab edilir.

Bu fəlsəfi cərəyanın əsas xüsusiyyətləri sırasında aşağıdakıları göstərmək olar:

- fəlsəfi tədqiqatın mərkəzinə həyat anlayışının gətirilməsi;
- klassik fəlsəfənin dünyaduyumundan imtina;
- ssiyentizm və mexanizmin tənqidi;
- diqqətin təbiətşünaslıqdan humanitar sferaya yönəldilməsi;
- insan ruhu sferasının tədqiqi;
- ruh haqqında elmin xüsusiyyətlərinin aşkarlanması;
- idrakdankənar, intuitiv, təhtəlşüura maraq;
- tarixi prosesin öyrənilməsi və mədəni inkişafın tipoloji sxeminin təklifi.

Anri Berqson həyat fəlsəfəsinin, o cümlədən intuitivizmin görkəmli nümayəndələrindən biri idi. Berqson fəlsəfəsinin əsasında həqiqi və ilk gerçəklik kimi həyat anlayışı dayanır. Həyat həyati prosesin parçalanması məhsulu olan materiya və ruhdan fərqlənir.

Həyat metafiziki, kosmik prosesdir, "həyati coşğunluq", cəhdetmə, sadəlik, bütövlük, yaradıcılığın təcəssümü, inkişaf, çoxobrazlılıqdır. Gərginliyin zəifləmə ölçüsünə görə həyat materiyaya çevrilir. Bu isə Berqson tərəfindən həyatın zəifləməsi, onun qüsuru, müstəqil mövcudluqdan məhrumolma kimi başa düşülür. Şüurun struktur və mahiyyətini yalnız intuisiyalarla dərk olunan "müddətlilik" təşkil edir. Müddətlilik şüurun keyfiyyətcə fərqlənən və ölçülməyən, qarşılıqlı daxilolma vəziyyətidir. Müddətlilik həyatın mahiyyətinə, kəsilməz və dönməz olan cərəyanına toxunmağa imkan verir (həyat davam edir, o hiss edilmədən bir-birinə keçən kəsilməz dəyişən vəziyyətdir). Deməli, zaman, hərəkət, materiya müddətliyin insan şüurunda təzahür formasıdır. Müddətlilik temporal xarakterlidir, bu rasional parçalanması mümkün olmayan "canlı" zamandır.

Berqson insan ruhunun müxtəlif qabiliyyətlərini tədqiq edir, bu zaman diqqəti daha çox intellektə, instinktə və intuisiyaya yönəldir.

İntellekt mexanika, həndəsə və məntiqin qanunlarının tətbiq oluna biləcəyi dayanıqlı bərk cisimlərlə əməliyyat aparır. İntellekt biliyin forması və münasibətlərinin dərki, həmçinin dərk oluna bilən şeylər dünyasıdır, lakin intellekt həyatın dərki üçün uyğunlaşmamışdır. O bu qeyri-təşkili materiyanın dərkidir.

İnstinkt ruhun həyatın dərkinə yaxınlaşmış intellektualdankənar, rasionaldankənar qabiliyyətidir. Əgər intellekt həyatı təbii anlaması ilə xarakterizə edilirsə, "instinkt həyat formasına görə yaranır; intellekt hər şeyə mexaniki istiqamət verirsə, instinkt orqanik fəaliyyət göstərir".

İntuisiya anlayışların köməyi olmadan, birbaşa dərketmədir. Burada "idrak aktı, gerçəkliyin törətdiyi aktla üst-üstə düşür". İntuisiya "intellektual rəğbət növüdür".

Berqson fəlsəfəsinin mərkəzi problemlərindən biri onun, bütün dünyəvi proseslərə, o cümlədən, cəmiyyətin inkişafına tətbiq ediləcək obyektiv, kosmik proses kimi, yaradıcı təkamül kimi nəzərdən keçirdiyi yaradıcılıq problemidir. Berqson cəmiyyət və əxlaqın iki tipini fərqləndirir:

- qapalı cəmiyyət - əsas prinsipi sabitlik və ənənəvi əxlaqın qorunub saxlanılması ("qapalı əxlaq");
- açıq cəmiyyət-həyati coşqunluğu təcəssüm etdirir və sosiallığın ali formasıdır. Onun əxlaqi əsası azadlıq, yaradıcılıq, şəxsiyyətin prioritetliyidir. "Açıq" əxlaq nümunəsi xristian əxlaqının, dini intuisiyanın ali müxtəlifliyi kimi başa düşülən etik normalar məcmusudur.

## 2. Vilhelm Diltey

Vilhelm Diltey (1833-1911) alman filosofu və mədəniyyət tarixçisi, anlayan psixologiyanın banisi hesab edilir.

Diltey həyatı bioloji deyil, mədəni-tarixi baxımdan şərh edir ("həyat materialına görə tarixlə eynidir. Tarix ...bəşəriyyətin bütövlüyü baxımından nəzərdən keçirilən həyatdır"). Bu mənada həyat Dilteyə görə - tarixdir ("insan nədir, bunu ona yalnız tarixi deyə bilər").

Baden məktəbi yeni kantçılarının ardınca Diltey də iki dünya, iki idrak tipini dəqiq fərqləndirir: təbiət dünyası (təbii-elmi idrak obyekti) və insan tarixi dünyası (mədəni-tarixi humanitar idrak obyekti). O buna uyğun olaraq, bir-birindən təkcə predmetinə görə deyil, həm də tədqiqat metoduna görə fərqlənən iki növ elm tipi göstərir: təbiət haqqında elm (əsas metodu şərh etmə, faktların qanunla tutuşdurulması) və ruh haqqında elm (əsas metodu anlama, insan ruhunun daxili məzmununa müraciət).

Dilteyə görə fəlsəfə "fəlsəfə və dindarlıq, ədəbiyyat və poeziya arasında müəyyən keçid mərhələsi" kimi başa düşülən həyat fəlsəfəsidir, filosofluq etməyin əsas mənbəyi həyat anlamıdır. Həyatı anlama probleminə şərh verən Diltey üç gerçəklik və üç tədqiqat metodunu göstərir:

- şəxsi "Mən" - introspeksiya (lat.intro–daxili və spectare - baxmaq), özünütəsdiqin köməyi ilə başa düşülən məxsusi daxili dünya;
- özgə "Mən" – "birgə həyəcanlanma", "birgə hissetmənin" köməyi ilə başa düşülən özgə daxili dünya;
- insan ruhunun mədəniyyətdə obyektləşmiş (mədəni obyekt və dəyərlər) təzahürü interpretasiya (interpretatio – təfsir, şərh, izah) vasitəsilə dərk olunur.

Diltey üçün mühüm olan mədəniyyət anlayışını "obyektiv ruhun" məhsulunun məcmusu kimi tədqiq etməkdir. Beləliklə, fəlsəfədə ön plana həyatın interpretasiyası kimi anlama problemi çıxır. Dilteyə görə interpretasiya hermenevtik (yun. hermeneutikos – izah, təfsir) "mətndə qalmış insan həyatının qalıqlarının interpretasiyasıdır".

## 3. Georq Zimmel

Georq Zimmel (1858-1918) alman filosofu və sosioloqu, sonrakı həyat fəlsəfəsinin əsas nümayəndələrindən biridir. Zimmel həyatı yaradıcı əmələgəlmə kimi başa düşür. Həyat yaratdığı formalar vasitəsilə özünü tənzimləyir, lakin o, bəzi təzahürlərində məhduddur, çünki bizə fiksə edilmiş fenomenlər şəklində görünür. Belə ki, vital səviyyədə həyatın forma və sərhəddi ölümdür; transvital səviyyədə həyat "özünün hüdudları kənarına", özünün məhdud formalarından kənara çıxmağa qadirdir. Bu onu bildirir ki, həyat öz hüdudlarından kənara çıxır, həm də "daha artıq həyat" yaratmaqla, həm də artıq vital olmayan muxtar formaların yaranmasına başlanğıc verir. Bu isə həyatdan daha artıq olur.

Eyni zamanda "həyatdan daha artıq" özlüyündə həyatın əbədi dəyişkənliyi və axıcılığından fərqli olaraq nisbətən dayanıqlı təsisatdır, bu mədəniyyət formasıdır. Bu mənada Zimmelin həyat fəlsəfəsi rasional vasitələrlə dərkolunmayan yaradıcı əmələgəlməni tədqiq edən mədəniyyət fəlsəfəsidir. Həyat yaradıcı əmələgəlmə olaraq yalnız intuitiv, daxili coşquda dərk edilə bilər, həm də belə həyat coşqusu mədəni formalarda obyektivləşir.

Mədəniyyətin inkişafı isə həyatın sonsuz olaraq törətdiyi və zaman-zaman daşlaşaraq yenisi ilə əvəzlənən mədəni formalarıdır. Bu hərəkət "subyektiv" və "obyektiv" mədəniyyətlərin, məzmun və formanın münaqişəli ardıcıllığıdır. "Mədəniyyətin faciəsi" bu münaqişələrin dözülməzliyinin başa düşülməsindədir; yaradıcılığın faciəsi bu həyatın yaradıcı nəbz döyüntülərilə donmuş və obyektivləşmiş mədəniyyət formaları arasında əbədi ziddiyyətdir.

Zimmelin fəlsəfi və mədəni konsepsiyasının əsas hissələrindən biri, "məzmun" (insanın qarşılıqlı münasibətlərinin tarixi şərtlənmiş məqsədləri, motivləri, niyyətləri) və "formanı" (tarixi dəyişkən məzmunun təcəssüm və gerçəkləşməsinin universal üsulu) tədqiq edən sosiologiyadır.

Hər bir cəmiyyət forma və onu dolduran məzmundur. Fəlsəfi sosiologiyanın əsas məsələsi formanın məzmunla əlaqədə öyrənilməsidir. Zimmel sosiologiyasının mərkəzində özünəməxsus həyat prosesi olan qarşılıqlı təsir anlayışı dayanır. Sosiologiyanın predmeti konkret tarixi məzmunun bütün dəyişmələrində insanların sosial qarşılıqlı təsir formalarıdır.

## 4. Osvald Şpenqler

Osvald Şpenqler (1880-1936) alman tarix və mədəniyyət filosofudur. Dünya fəlsəfi fikir tarixinə ilk növbədə "Avropanın qürubu" (1918-1922) əsərinin müəllifi kimi daxil edilmişdir.

Şpenqler həyatı universal, hüdudsuz yayılabilən, lakin müəyyən mənada üzvi həyatla oxşar olan kimi təfsir edir.

Şpenqlerin tarix fəlsəfəsinin əsasında zaman daxilində tarixi-mədəni bütöv kimi formalaşmış mədəniyyət anlayışı dayanır. Mədəniyyət vəhdətə malik olan və bu səbəbdən ona oxşar "orqanizmlərdən" ayrılan "orqanizmdir".

Şpenqler konsepsiyasının əsas məzmununu aşağıdakı cəhətlərlə ifadə etmək olar.

- mədəniyyət ümumbəşəri deyil, səkkiz mədəniyyətə parçalanmış şəkildə nəzərdən keçirilir (mədəniyyətin tarixi tipləri);
- hər bir mədəniyyət əsrlər ərzində formalaşmış tarixi-mədəni bütövlük kimi müəyyənləşdirilir;
- mədəniyyət dövrün simasını göstərir, onu bütövlüyə çevirir, təfəkkür formalarının, iqtisadi, siyasi, mənəvi, dini, praktiki, bədii həyat formalarında əksini tapmış stilistikanın vəhdətidir. Eyni zamanda bu formaların vəhdətinin təhlili tarixin tədqiqinin əsas metodudur.

Hər bir mədəniyyət özünəməxsus "ön fenomeni", "ön simvolu" və "həyat yaşantısı" üsulu əsasında formalaşır. Bu üsul hər bir tarixi mədəni fərdin daxili vəhdətini möhkəmləndirir. Şpenqler dünya tarixində "bitmiş", imkanlarını tam tükəndirmiş səkkiz mədəniyyət forması müəyyənləşdirir: misir, hind, babil, çin, yunan-roma ("apollon"), ərəb-bizans ("magik"), qərbi avropa ("faust"), mayya mədəniyyəti. Bununla yanaşı, formalaşma mərhələsində olan doqquzuncu mədəniyyətin rus-sibir mədəniyyətinin adı çəkilir.

Filosofun fikrincə, "ön fenomenlərə" aşağıdakıları da aid etmək olar:

- "məkan" ("faust", insanın axtarıcı ruhunu təcəssüm etdirən qərbi avropa mədəniyyətinin simvolu),
- "cisim" (yunan-roma mədəniyyətinin simvolu, onun üçün həcmlik, statiklik xarakterikdir),
- "yaq" (misir mədəniyyətinin simvolu).

Mədəniyyətlərin hər birinə, onun daxili inkişaf fazalarını müəyyənləşdirən sərt bioloji ritm tabedir: uşaqlıq, gənclik, kamillik, qocalıq, "qürub". Verilmiş bioloji ritm əsasında

Şpenqler mədəniyyətin əsas inkişaf fazalarını ayırır: mifoloji-simvolik (erkən), metafiziki-dini (ali), sivilizasiya (sonrakı). Onun fikrincə inkişaf fazalarının ikihədli model şəklində təsəvvür etmək olar:

- mədəniyyətin intibah mərhələsi (məxsusi mədəniyyət) – onun üçün insan həyatının bütün sferalarının"orqanik" təkamül tipi xarkterikdir,

-mədəniyyətin böhran mərhələsi ("sivilizasiya") – onun üçün təkamülün mexaniki tipi xarakterikdir.

Hər bir mədəniyyət 1000 il mövcud olur və ölərkən "sivilizasiyaya" çevrilir (Şpenqler öz fəlsəfəsində Qərbi Avropa mədəniyyətinin "qürubunu" qeyd edir).

*Yoxlama sualları*

1. Həyat fəlsəfəsinin əsas xarkteristikası
2. A.Berqsonun intuitivizmi
3. V.Dilteyin "anlayan psixologiyası"
4. G.Zimmel fəlsəfəsinin əsas prinsipləri
5. O.Şpenqlerin fəlsəfi konsepsiyası

# IV MÖVZU
# XIX ƏSRİN SONU VƏ XX ƏSRİN BAŞLANĞICINDA FƏLSƏFƏ

## 1. Yeni kantçılıq

Yeni kantçılıq XIX əsrin sonu və XX əsrin əvvəllərində İ.Kant fəlsəfəsinin bir sıra problemlərinə və bu təlimin yeni şərhinə diqqət yönəltmiş fəlsəfi cərəyandır. Yeni kantçılığı vahid cərəyan adlandırmaq olmaz. Lakin bu cərəyanın bütün nümayəndələri üçün ümumi olan "Kanta qayıdış" və Kant "Tənqidlərinin" intellektual impulslarından çıxış etməklə əsas fəlsəfi problemlərin həllini verməkdir.

Kant fəlsəfəsinin dərindən tədqiqinə başlanılması XIX əsrin 50-ci illərinə təsadüf edir. Buna ilk təkanı Alman fizioloqlarının xarici hisslərin fiziologiyasını təfsir etmələri vermişdir. Fəlsəfə sahəsində ilk yeni kantçılar K.Fişer (1824-1907) və Ş.Renuvye (1815-1863) olmuşdur.

İlk böyük yeni kantçı Fridrix Albert Lange (1828-1875) ("Materializmin tarixi və müasir dövrdə onun əhəmiyyətinin tənqidi") olmuşdur. O, apriorizm, transsendentallıq (şüurun, onun təzahürünün birinciliyi) ideyalarını əxz etməklə, diqqəti apriorizmin "fizioloji" əsaslandırılmasına yönəldən orijinal fəlsəfi konsepsiya yaratmışdır. Langeyə görə aprior kateqoriyalar yalnız təcrübə çərçivəsində mənaya malikdirlər, onların mənbəyi insanın əqli təşkilidir. Lange "özündə şey" anlayışını "sərhəd vəziyyəti", qeyri-müəyyən "nəsə", təzahürlərin ümumi səbəbi kimi anlayır, Kantı noumenə ontoloji məktəb status verdiyi üçün tənqid edir.

Yeni kantçılığı XIX-XX əsrlərin qovşağında fəlsəfi cərəyan olaraq üç əsas istiqamət çərçivəsində təlimlər toplusu kimi təsəvvür etmək olar: fizioloji (H.Helmhols, F.A.Lange); Marburq məktəbi (G.Koqen) (1842-1918), P.Natoro (1854-1924), E.Kassirer (1874-1945); Freyburq (Baden) məktəbi, V.Vindelband (1848-1915), H.Rikkert (1863-1936).

Sonuncu iki məktəb fəlsəfə tarixində nisbətən hissediləcək iz qoymuşdur. Onların ümumi cəhətlərini aşağıdakı kimi göstərmək olar:

- Kantın əyani seyrin (zaman və məkan) və düşüncənin (kateqoriyalar) aprior formalarını dərk edən subyektin funksiyaları olması haqqında fikrinin etiraf edilməsi;
- Fikri fəaliyyətin məhsulu kimi təsvir edilən "özündə şeylərin" obyektiv mövcudluğunun inkarı
- Təfəkkür fəaliyyətinin varlığın aprior mahiyyətini müəyyənləşdirmə mənbəyi və insan mədəniyyətinin konstruksiyası üzrə fəaliyyət kimi nəzərdən keçirilməsi

Kant fəlsəfəsinin təhliliində bu məktəblər arasında müəyyən fikir ayrılıqları da olmuşdur. Marburq məktəbi "transendental məntiqi" təfsir mövqeyindən təhlil edərək, "nəzəri zəkanı" "praktik zəkadan" üstün tutmuş və "xalis idrakın məntiqi" kimi transendental metodu hazırlamışdır. Baden məktəbi Kant təlimini "transendental psixoloji" təfsiri mövqeyindən şərh edərək "praktik zəkanı" "nəzəri zəkadan" üstün tutmuş və "dəyərlərin" transsendental statusuna əsaslanmışdır. Hər iki məktəbin diqqət mərkəzində mədəniyyətin fəlsəfəsi və metodologiyasının hazırlanması durur. Marburq məktəbinin banisi German Koqen duyğuların gerçək səbəbi qismində "özündə şeyi" inkar edərək, onu təcrübənin ifrat anlayışı kimi nəzərdən keçirmişdir. Koqenin qurduğu fəlsəfi sistem (məntiq, etika, estetika və din fəlsəfəsini ehtiva edir) varlığın şərhini kateqorial düşünüləbilən varlıq, məkan və zaman qismində, məntiqi təfəkkür kateqoriyası kimi verir.

Paul Natorp keçmişin fəlsəfi təlimlərini öncədən xəbər verən Kant tənqidçiliyi kimi şərh edir. Natorp Kogenin qnoseoloji idealizmini davam etdirərək göstərirdi ki, özü fikirdə olmayan varlıq mövcud deyildir.

Ernst Kassirer öz fəlsəfəsində Marburq ənənəsini davam etdirirdi: Əgər Kantda təcrübə "özündə şey" və idrakın subyekti ilə yaradılırsa, Kassirerdə fikirlə yaradılır. Kassirer fəl-

səfə tarixinə "simvolik formalar" fəlsəfəsinin yaradıcısı kimi daxil olmuşdur. O öz fəlsəfəsinin əsas məsələsini Kant ruhunda formalaşdırıb buraya "mədəniyyət" anlayışını daxil etmişdir: "Mədəniyyət yaratmaq mümkündür?". Insan nəyə toxunursa, onu simvola çevirir, insan "simvol yaradan canlıdır". Kassirerə görə simvollaşdırma idrakın fəaliyyəti və mədəniyyətin formalaşdırılması üsuludur. İnsan simvolik kainatda mövcuddur və şeylərlə deyil, simvollarla əməliyyat aparır. Mədəniyyət insan qarşısında "simvolik formaların", mədəniyyətin bütün çoxobrazlığını yaradan aprior qabiliyyətlərin çoxobrazlığı kimi aşkarlanır. Beləliklə, Kant fəlsəfəsində zəka ideyası Kassirerdə konstitutiv, yəni dünyanı, ali dəyərləri nümayiş etdirən prinsiplər, "simvolik funksiyalarla" yaradır. Kassirerin mədəniyyət fəlsəfəsi hər biri müstəqil olan dil, mif, din, incəsənət, elm kimi simvolik formaların təsviridir.

İnsan ruhu simvolik formaların vəhdətini generasiya edən simvolik funksiyaları yaradır. Mədəniyyətin bütün sferaları insan ruhunun ifadəsidir, bu sferaların hər birində özünəməxsus yaradıcı prinsip, simvol mövcud olur (məsələn, elmdə bu simvol intellektual anlayışıdır). İnsan simvollar vasitəsilə düşünür, öz mənəvi yaranışından standartlar, simvollar çıxararaq onların köməyi ilə özünü və ətraf aləmi dəyərləndirir.

Yeni kantçılığın Baden məktəbi üçün ümumi olan aksioloji (dəyər) yanaşmadır. Bu yanaşmaya görə insan mədəniyyətinin əsasında ideal dəyərlər dayanır. Vilhelm Vindelband fəlsəfəni dəyərlər haqqında təlim kimi müəyyən edir, onun üçün əsas elmin iki növünün fərqləndirilməsidir:

- idioqrafik elmlər (yun. idios – xüsusi, özünəməxsus, qeyri-adi və grapho - yazıram) təkcə humanitar elmləri tədqiq edir, mədəniyyətin bütün hadisələrini qiymətli və unikal hal kimi nəzərdən keçirir;

- nomotetik elmlər (yun. nomo - teteo – nəşr etmək, qanunları bərqərar etmək), ümumi qanunları tədqiq edən təbiyyət elmləri.

Vindelband elmlərə uyğun olaraq iki idrak metodu fərqləndirir:

- idioqrafik fərdiləşdirici metod, onun məqsədi obyekti vahid unikal tam kimi təsvir etməkdir,
- nomotetik, ümumiləşdirici metod, onun məqsədi qanun formasına malik ümumini müəyyənləşdirməkdir.

Vindelbanda görə dəyərlər insan fəaliyyətinin müstəqil mövcud olmayan, lakin təkcə faktlara məna verən, normalar kimi dərk olunan, zamandan və tarixdənxaric prinsipləridir. Vindelband dəyərlərin mədəniyyət növlərinə uyğun olaraq dörd növünü fərqləndirir, həmçinin bu növlərin dəyərlər iyerarxiyasının zirvəsi olan dörd ali formasını göstərir:

- məntiqi dəyərlər (həqiqət),
- etik dəyərlər (xeyir),
- estetik dəyərlər (gözəllik),
- dini dəyərlər (müqəddəslik).

İnsan fəaliyyətinin məqsədi dəyərlərin təcəssümüdür (məsələn, idraki fəaliyyət həqiqətin təcəssümüdür).

Henri Rikkert varlığı subyektin ən ümumi və şəxsiz şüuruna çevirirdi. Rikkertə görə gerçəklik təbiət və mədəniyyəti konstruksiya edən şüurun fəaliyyətinin nəticəsidir. Beləliklə, iki dünya mövcuddur və onların qarşıdurma və vəhdəti məsələsi fəlsəfə və mədəniyyətin əsas problemidir. Təbiət (ümumi qanunlarla müəyyənləşdirilən şeylərin varlığı) ümumiləşdirici abstraksiya metodundan (ən ümumi anlayış və qanunlar sisteminin formalaşdırılması) istifadə edən elmlər sferasıdır. Mədəniyyət (ümumi əhəmiyyətli dəyərlərlə bağlı obyektlər məcmusu) abstraksiya metodundan (ayrı-ayrı hadisələrin dəyərlərlə əlaqələrinin yaradılması) istifadə edən ruh haqqında elmlər (humanitar, tarixi) sferasıdır.

Rikkert altı növ mədəniyyət və onlara uyğun olan altı dəyərlər tipini ayırırdı: məntiq (həqiqət), estetika (gözəllik), mistika (fövqəlşəxsi müqəddəslik), etika (əxlaq), erotika (xoşbəxtlik), din (şəxsi müqəddəslik).

## 2. Yeni hegelçilik

Yeni hegelçilik XIX əsrin sonu, XX əsrin ilk rübbündə yaranmış Hegel fəlsəfəsini dirçəltmək və yenidən təbliğ etmək, həmçinin Hegelin mütləq idealizminin yeni variantlarını yaratmaq cəhdləri ilə birləşən ayrı-ayrı fəlsəfi təlim və istiqamətlərin məcmusu olan fəlsəfi cərəyandır.

Yeni hegelçilik Avropanın bir çox ölkələrini, o cümlədən ABŞ və Rusiyanı əhatə etmişdir. Ona görə də geniş mənada yeni hegelçiliyə aşağıdakı formalar aiddir:

İngiltərədə "mütləq idealizm", C.Stirlinq (1820-1909), E.Kerd (1835-1908), T.X.Qrin (1836-1882), D.E.Mak-Taqqard (1866-1925), R.C.Kollinqvud (1889-1943), F.Q.Bredli (1846-1924);

Amerika yeni hegelçiliyi, Y.Xarris (1835-1909), D.Roys (1855-1916);

Alman yeni hegelçiliyi, R.Kroner (1884-1974), Q.Qlokner (1896-1983), Q.Lasson (1862-1932);

İtaliya yeni hegelçiliyi B.Kroçe (1866-1952), C.Centile (1875-1944);

Fransa yeni hegelçiliyi, J.Val (1888-1974), A.Kojev (1902-1968), J.İppolit (1907-1968);

Rus yeni hegelçiliyi, İ.A.İlin (1882-1954);

Holland yeni hegelçiliyi, Q.Bolland (1854-1954).

Yeni hegelçiliyə bütövlükdə yanaşma mümkün deyildir. Bu cərəyanın öyrənilməsinin yeganə mümkün üsulu onun ayrı-ayrı milli formalarına müraciətdir.

İngilis yeni hegelçiliyi "mütləq idealizm" ruhunda inkişaf etmişdir, lakin onu ortodoksal hegelçilik adlandırmaq olmaz. Belə ki, C.Stirlinqə görə Hegel fəlsəfəsi əsasən mütləq ideya fundamentinə malik anlayışın konkretliyi haqqında təlimdir. İngilis yeni hegelçiliyinə görə mütləq dəyişiklik inkişafın şərtləndiyidir, lakin o özü dəyişmir.

F.Q.Bredliyə görə dialektik metod emprikdənkənar, həqiqi gerçəkliyi əldə etmək üçün "əşyaviliyin", "hissiyyatın" parçalanma üsuludur.

R.C.Kollinqvud tarix fəlsəfəsinin, fəlsəfi metod və sosial fəlsəfənin problemlərini tədqiq etmiş, təbii və tarixi proseslərin təhlilini ciddi fərqləndirmişdir.

Alman yeni hegelçiliyi əvvəlcə yeni kantçılıqla qarşılıqlı əlaqədə inkişaf etmişdir. Belə ki, H.Rikkertin tələbəsi R.Kroner yeni kantçılıq müddəalarına əsaslanaraq belə hesab edirdi ki, fəlsəfənin mərkəzi problemi spekulyasiya (ayrıca götürülmüş rasional təfəkkür) ilə vəhy arasında münasibət problemidir.

Kroner fərz edirdi ki, xüsusi şüur fəlsəfəsi öz başlanğıcını Hegeldən götürür və o, mədəniyyət fəlsəfəsinin əsasında durmalıdır (Şüurun, özünüdərkin, düşüncənin, zəkanın Hegel strukturu Kronerdə mədəniyyətin müstəqil sferasına çevrilirdi). Bütövlükdə Alman yeni hegelçiliyində mədəniyyət və tarix fəlsəfəsinin problemləri əhəmiyyətli rol oynayır.

İtaliya yeni hegelçiliyi bu fəlsəfi cərəyanın ən parlaq hadisələrindədir. Benedetto Kroçe mütləq idealizm fəlsəfəsini inkişaf etdirirdi. O, fəlsəfənin əsas predmeti kimi ruh sferasını götürmüşdür. Onun fikrincə, təbiət fəlsəfə üçün xalis şəkildə mövcud deyildir. Kroçe özünüduymanın, "dünya ruhunun oyanışının" dörd mərhələsini ayırır ki, onlardan ikisi nəzəri, ikisi isə praktikidir:

- estetik mərhələ (ruh intuisiyadır, ruhun təkcədə təcəssümü);
- məntiqi mərhələ (ruh ümumi və fərdinin sintezidir, ən ümuminin sferasıdır);
- iqtisadi mərhələ (ruh təkcənin, fərdinin iradəsidir, şəxsi maraqlar sferasıdır);
- etik mərhələ (ruh ən ümuminin iradəsidir, ümumi maraq sferasıdır).

Covanni Centlie Hegel təlimini yenidən nəzərdən keçirmiş, təbiət və obyektiv ideyanı kənarlaşdırmaqla "aktualizm" siste-

mini yaratmışdır. Centileyə görə fəlsəfə mücərrəd obyektiv fikirdən deyil, empirik "mənin" aktual təfəkküründən çıxış etməlidir. Bütün mövcudiyyət fikirləşən fikrin hərəkətinin nəticəsidir.Centilenin aktualizm konsepsiyası aşağıdakıları nəzərdə tutur:

- subyektin aktivliyinə diqqət yetirilməsi;
- onun inkişafının sonsuzluğunun qəbul olunması;
- idrakın fikri aktlarının iradə aktlarına keçməsi haqqında ideyaların inkişaf etdirilməsi.

Centile empirik "Məni" fövqəlfərdi universal "Mənlə" tamamlayırdı. Beləliklə, gerçəklik əmələgəlmə prosesində bütün ziddiyyətləri aradan qaldıran fövqəlmənin xalis təfəkkürü (bu zaman empirik "Mənin" universal "Mənə" çevrilməsi prosesini Centile Fixte ruhunda "Mənin" sonsuz dialektika prosesi kimi izah edir) kimi meydana çıxırdı.

Fransız yeni hegelçiliyi daha çox ekzistensializmlə qarşılıqlı əlaqədə inkişaf etmişdir. Məsələn, Jan İppolitin fəlsəfəsi Hegel fəlsəfəsi ilə Jan Pol Sartrın ekzistensial konsepsiyasının özünəməxsus sintezidir. İppolitə görə əsas fəlsəfi cərəyanlar yalnız Hegel fəlsəfəsində davam edir. Bu baxımdan Hegel fəlsəfəsi insan mövcudluğunun dərki üçün əsas olmalıdır.

## 3. Fenomenologiya

Geniş mənada fenomenologiya fəlsəfi fənnlərdən biri kimi (məsələn, G.V.F. Hegeldə olduğu kimi "ruhun fenomenologiyası") və yaxud bu və ya digər fəlsəfi təlimin fenomenləri tədqiq edən bölməsi kimi (məsələn, İ.Kantın fəlsəfəsində) başa düşülə bilər.

Məhdud anlamda fenomenologiya fəlsəfi şüuru naturalist ustanovkalardan azad etməyə cəhd göstərən, fəlsəfi təhlil sahəsində şüurun öz aktları haqqında refleksiyası və onun məzmunundakı məlumatları əldə etməyə, idrakın, insan varlığının və mədəniyyətin ilkin əsaslarını aşkarlamağa istiqamətlənmiş fəlsəfi cərəyanıdır.

Fəlsəfi cərəyan kimi fenomenologiyanın əsasını qoyan və onu inkişaf etdirən Edmund Husserl (1859-1938) olmuşdur. Əgər Kant və Hegelin fenomenoloji təlimlərini xüsusi olaraq nəzərə almasaq, F.Brentano (1838-1917), A.fon Meynonq (1853-1920), K.Ştumpfunu (1848-1936) onun birbaşa sələfi hesab etmək olar.

Bu mütəfəkkirlər psixi fenomenlərin təsviri və təsnifi üçün metodoloji vasitələr təklif etmişlər, yəni fenomenologiya əvvəlcə təsviri psixologiya kimi inkişaf etmişdir. F.Brentano və A.Meynonq ilk dəfə olaraq fenomenoloji istiqamətdə fəlsəfə ilə psixologiyanın sintezini gerçəkləşdirmişlər. Belə ki, F.Brentano psixi fenomenləri üç qrupa ayırır. O təsəvvür (psixi akt), mühakimə, emosiyalar (məhəbbət və məkr aktı), o həm də psixi fenomenin mahiyyəti kimi başa düşülən "intensiya" (əşyaya yönəliklik) anlayışını təklif etmişdir. A.Meynonq dörd təsüratlar sinfinə uyğun olaraq dörd əşyavilik sinfi ayırmış və əşyavilik (potensionallıq) konsepsiyasını inkişaf etdirmişdir. Onun fikrincə təsəvvürlər obyektlər, fikirlər obyektiv olanlar, hisslər arzuedilənlər, arzular ləyaqətli hesab edilənlərdir.

Edmund Husserl ardıcıl fəlsəfi fenomenoloji təlim hazırlamışdır. Husserlə görə, fenomenologiya ideal mahiyyətlərin, fenomenlərin intuitiv nəzərdən keçirilməsidir. Husserl şüuru təəssüratlar axını kimi başa düşür. Deməli dərketmə zamanı bu axınla "birlikdə üzmək" zəruridir. Şüur kəsilməzdir, lakin özündə fenomenləri, müstəqil tədqiqə açıq olan şüur vahidlərini saxlayır. Şüurun əsas xarakteristikasından intensionallıq əşyalara istiqamətlənmişdir, yəni şüur həmişə "... haqqında şüurdur". Husserl fenomenləri müxtəlif təbəqələrə ayırır: dil örtüyü; çoxobrazlı psixi təəssüratlar; şüurda düşünülən əşya; dil ifadələrinin mənası, məzmun və strukturu.

Şüurun intensional strukturunu sonuncu iki təbəqə təşkil edir. Husserlə görə əşyavi varlıq, şüura daxilən xasdır və özünün obyektiv mənasını şüura münasibətinə görə əldə edir

(əşyavi varlıq və şüur əlaqəlidir). Beləliklə, fenomenologiyada şüur ikili vəhdətdədir:

- noezis (yun. "təfəkkür"), intensional akt "kimi" idrak aktı, əşya verilişinin psixi üsuludur,
- noem (yun. "fikir"), əşyavi seyr.

Noem və noezis aspektlərinin tədqiqi elə şüurun intensional təhlilidir. Fenomenologiyanın əsas məsələsi şüur və varlığın qarşı-qarşıya qoyulmasını kənarlaşdıraraq, "əşyaların özünə müraciət etməklə onların mənasının açılmasıdır. Fenomenologiyanın əsas predmeti xalis şüurun aprior struktur sahəsidir, idrak bütöv və daxilən təşkilatlanmış şüur axını kimi nəzərdən keçirilir. "Xalis şüura" doğru irəliləmə üçün, fenomenoloji reduksiyanı gerçəkləşdirmək lazımdır. Yəni "xalis şüurun" və onun fenomenlərinin təhlilinə aid olmayan hər şeyi "mötərizəyə almağa" imkan verən metodoloji prosedurlar tətbiq olunmalıdır (gerçəkliyin tədqiqindən imtina zəruridir). Husserl epox (imtina) terminini tətbiq etmişdir. Fenomenoloji reduksiya iki mərhələni ehtiva edir:

- Eydetik reduksiya varlığın mövcudluğu haqqındakı müddəalardan imtina, obyektiv gerçəkliyə aid olan və "xalis" təcrübənin (subyektiv təcrübə) hüdudlarından kənara çıxan istənilən mühakimədən imtina edilməsidir.
- Transendental reduksiya şüurun bütün antropoloji, psixoloji təfsirinin istisna edilməsi, idrakın subyektini gerçək empirik mövcudluq kimi deyil, "xalis" transendental şüur kimi nəzərdən keçirilməsidir.

Beləliklə, Hüsserlə görə fəlsəfə "xalis mahiyyətlər" haqqında elmə (endetika) çevrilir, çünki mahiyyətlərin (eydoslar) tədqiqinə müraciət edir. Eyni zamanda xalis fikir sahəsində şüurun aprior strukturlarının aşkarlanması onun tərəfindən elmi biliyin əsaslandırılma üsulu kimi nəzərdən keçirilir.

Fenomenologiyanın sonrakı inkişafı M.Şemr, M.Merlo-Ponti, E.Levinas və başqalarının adı ilə bağlıdır. XX əsrin praktiki olaraq bütün görkəmli fəlsəfi cərəyanları bu və ya

digər dərəcədə E.Husserlin fenomenologiyasının təsirinə məruz qalmışlar.

*Yoxlama sualları*

1. Yeni kantçılığın əsas xüsusiyyətləri
2. E.Kassirerin "simvolik formalar" fəlsəfəsi
3. V.Vindelbandın dəyərlər haqqında təlimi
4. Yeni hegelçiliyin əsas cərəyanları
5. C.Centilenin "aktualizm" sistemi
6. E.Husserlin fenomenologiyası

# V MÖVZU
# RUS DİNİ-İDEALİST FƏLSƏFƏSİ

## 1. Rus dini fəlsəfəsinin inkişafında əsas dövrlər

Rus dini fəlsəfəsinin inkişafını dörd dövrə bölmək olar. *Birinci dövr* XIX yüzilliyin 30-50-ci illərini əhatə edir. Bu dövr alman idealizminin rus fikrinə ciddi təsiri ilə xarakterizə olunur və daha çox A. Xomyakov və İ. Kireyevskinin adı ilə bağlıdır. *İkinci dövr* əsasən XIX əsrin axırıncı rübünə təsadüf edir. Dini fəlsəfənin əsas nümayəndələri V. Solovyov, F.M. Dostoyevski, L.N.Tolstoy, K.Leontyev, N. Fedorov və başqaları olmuşlar. *Üçüncü dövr* XIX əsrin axırı – XX əsrin əvvələrini əhatə edir və aşağıdakıların adı ilə bağlıdır: S.N.Trubetskoy və Y.N.Trubetskoy qardaşları, V.V.Rozanov, V.İvanov, S.N.Bulqakov, N.A.Berdyayev, P.B.Struve, N.O.Losskiy, S.N.Bulqakov, İ.A.İlin, və b. Beləliklə çox az istisna ilə (P.A.Florenski və V.A.Tarnavtsey Sovet Rusiyasında repressiya qurbanları olmuşlar) rus dini fəlsəfəsinin ən görkəmli nümayəndələri mühacirətdə yaşayıb fəaliyyət göstərmişlər.

Rus idealist-dini fəlsəfəsinin görkəmli nümayəndələri zəngin fəlsəfi irs qoyub getmişlər.

## 2. Fyodor Mixayloviç Dostoyevski

Məşhur rus yazıçısı F.M. Dostoyevski(1821-1881) yaşadığı dövrdəki rus cəmiyyətinin həyat tərzinə çox güclü təsir göstərmişdir. O özünün «Yazıq adamlar», Karamazov qardaşları», «Səfeh» («İdiot») və başqa əsərlərində insanın şəxsi və ictimai həyatının bir çox ciddi məsələlərini təhlil edirdi. Lakin Dostoyevski hər şeydən əvvəl özünün bütün diqqətini insan problemi üzərində cəmləşdirmişdir.

Bir mütəffəkir kimi Dostoyevskinin diqqət mərkəzində etika, din, estetika, fəlsəfə, tarix, xüsusən humanizm məsələləri dururdu. O, hesab edirdi ki, şəxsi mənəvi kamilləşmə yolu

cəmiyyətin əxlaq qaydalarının dəyişməsinə gətirir və əsas təyinedici qüvvə kimi çıxış edir. Əxlaqın əsası, onun fikrinə görə, inam və Allahdan asılıdır. Dostoyevskinin etik proqramının əsas tələbi belədir: hər bir insan əsl insan olmalı və başqalarına da insan kimi hörmət etməlidir.

Slavyanofillər kimi Dostoyevski də xristianlığın ən yaxşı ifadəsi hesab etdiyi pravoslav dinini tanıyırdı, elə buna görə də rusları əsl dindar xalq hesab edirdi. Onun dediyinə görə Rusiya bu yolla gedərsə həm özünü, həm də qərbi sosializm dəhşətindən xilas etmiş olar. Rus xalqının tarixi vəzifəsini yazıçı bir də bunda görürdü.

Dostoyevski belə bir fikir irəli sürürdü ki, insan heç də xoşbəxtliyə can atan ağıllı varlıq deyildir, insan əzab-əziyyətə ehtiyacı olan irrasional varlıqdır, inkar şüurun meydana gəlməsinin yeganə səbəbidir. Əzab çəkmək günahı yuyur. İnsanın ən yüksək ləyaqəti sayılan azadlıq özbaşınalığa keçir, bu halda azadlıqdan imtina etmək iztirabı azalda bilər. Lakin azadlıqdan imtina etmək insana inamsızlıq deməkdir. Azadlığı inkar etmək allah əleyhinə (antixrist) ruhdur. İnsanın çarmıxa çəkilməsi sirri – azadlığın sirri deməkdir. Çarmıxa çəkilən allah könüllü olaraq məhəbbət obyekti seçilir: Dostoyevskiyə görə azadlıq aristokratikdir, milyonlar üçün güc çatmayan yükdür.

### 3. Lev Nikolayeviç Tolstoy

Lev Tolstoy (1828-1910) böyük yazıçı olmaqla yanaşı, həm də böyük mütəfəkkir, dünya, insan, həyatın mənası, cəmiyyəti yenidən qurmaq haqqında dini etik təlimin yaradıcısı olmuşdur.

«Hərb və sülh» və «Anna Karenina» romanlarını yazandan sonra Tolstoy bilavasitə özünün yeni dinini yaratmaq işinə başlamış və bu məqsədlə çox böyük səylə fəlsəfəni, elmi, müxtəlif dini təlimləri öyrənmişdir. O, daha çox Şərqin dini və fəlsəfi sistemlərinə müraciət edirdi. Xristianlığı isə xüsusi olaraq özünə məxsus şəkildə təhlil edirdi.

Tolstoyun fikrincə ictimai tərəqqi din sayəsində mümkündür. O, yazırdı: «əgər bəşəriyyətdə tərəqqi, yəni irəliyə hərəkət baş verirsə, mütləq bu hərəkətin göstəricisi olmalıdır. Belə göstərici həmişə din olmuşdur».

Tolstoy kilsə xristianlığını inkar etsə də xristianlıqdakı ümumbəşəri dəyərləri qəbul edirdi. Tolstoy dini təşkilatları, ayinləri, hətta ümumi sayılan ehkamları da qəbul etmirdi. O xristianlığın yalnız əxlaqi normalarını gərəkli hesab edirdi.

Tolstoy Qərbi Avropa mütəfəkkirlərindən daha çox Russoya, Şopenhauerə və Berqsona yaxın idi. Lakin onların yazıçıya böyük təsiri olsa da, o öz yolu ilə gedirdi.

Tolstoya görə bütün dinlər özündə iki cəhəti birləşdirir: 1) insanların həyatı haqqında təlim olan etikanı 2) əsas dini ehkamları əhatə edən metafizikanı. O, göstərirdi ki, kilsə etikanı metafizika ilə nə qədər əvəz etsə də, insanlar, xüsusən sadə xalq dinin əxlaqi mahiyyətini bütün təmizliyi ilə saxlamışdır. Ona görə də Tolstoy əsl dini sadə xalqdan öyrənməyi məsləhət görürdü.

Yazıçı allahın mahiyyətini daha çox əxlaqi planda izah edirdi. Tolstoy tez-tez təkrar edirdi ki, «allah məhəbbət deməkdir», insanın «Mən»liyini təşkil edən «kamil xoşbəxtlikdir». O, bəzən allahı ruh anlayışı ilə eyniləşdirməyə meyl göstərirdi.

## 4. Vladimir Sergeyeviç Solovyov

Vladimir Sergeyeviç Solovyov (1853-1900) görkəmli rus tarixçisi S.M.Solovyovun (1820-1879) ailəsində doğulmuşdur. O bəşəriyyətin əqli inkişafının ali məqsədi və nəticəsi kimi elmin, fəlsəfənin və dinin sintezini irəli sürmüşdür. Bu sistemdə ontologiya (varlıq haqqında təlim) dünyanın vəhdətini ilahi birlikdə görür, qnoseologiya (idrak haqqında təlim) irrasional biliyi əsaslandırır, sosiologiya isə cəmiyyətin ali idealını ümumdünya teokratik xristian monarxiyasında axtarırdı.

O öz dini fəlsəfi sistemini Sofii – Dünya Ruhu ideyasında ümumiləşdirmişdi. Burada söhbət Allahla dünyanı birləşdirən mistik kosmik varlıqdan gedir.

Solovyov etikanı dini əsasda yaradırdı. İnsan o zaman əxlaqlı sayılır ki, o öz iradəsini «mütləq xeyir»ə, yəni allaha qulluq etməyə tabe edir. «Dini əxlaq qaydası bizdən tələb edir ki, öz iradəmizi allahın iradəsi ilə birləşdirək. Lakin allahın iradəsi hər şeyi əhatə edir və onunla birləşərək və yaxud onunla həqiqi razılığa gələrək, biz bu yolla qəti və ümumi hərəkət qaydası əldə edirik».

Solovyova görə şərtsiz, mütləq, varlıqüstü, yəni allah əsl biliyin predmetini təşkil edir. Buraya yalnız mistik və ya dini qavrayış aid edilə bilər, çünki bu qavrayışdan bizim məntiqi təfəkkürümüz ağıl, təcrübəmiz isə reallıq alır. O, qətiyyətlə deyirdi ki, hər şey dini inamda və hansısa mistik görüşdə həll edilir.

O teosofiyanı hərfi mənada allaha müdriklik, teurqiyanı allahın hakimiyyəti hesab edirdi. Solovyev dini hakimiyyətin qarşısında əsas vəzifəni rus monarxiyası ilə katolik kilsəsinin birləşməsi hesab edirdi. 1880-ci ildə onun yazdığı bir sıra məqalələrdə Şərq və Qərb kilsəsinin Roma papasının başçılığı ilə birləşdirilməsi məsələsi irəli sürülmüşdü. Bu ideyanı slavyanofillər və mühafizəkarlar qəti tənqid edirdilər.

Solovyova görə iqtisadi qaydaların əsas prinsipi *fayda*, siyasi qaydalarınkı *ədalət*, kilsə qaydalarınkı isə *məhəbbətdir*. Onları müvafiq olaraq «maddi», «formal» və «mütləq» başlanğıc kimi şərh etmək olar.

Qanun «cəmiyyətin ümumi xeyri üçün şəxsi azadlıqların məhdudlaşdırılmasıdır». Qanunların əlamətləri: 1) kütləvilik, 2) konkretlik, 3) real tətbiqdə özünü göstərir.

Hakimiyyətin əlamətləri: 1) aanunların nəşri, 2) ədalətli məhkəmə, 3) aanunların icra edilməsidir.

Solovyova görə dövlət vətəndaşların mənafeyini qorumalıdır. Xristian dövləti insanların mənafeyini qorumaqla yanaşı

onların həyat şəraitini yaxşılaşdırmalı və iqtisadi cəhətdən zəif şəxsləri müdafiə etməlidir.

Təbiəti allahın əsəri hesab edən xristian görüşü ilə razılaşan Solovyov eyni zamanda bu dünyanı kamil hesab etmir və göstərirdi ki, məhz insan onu təkmilləşdirməlidir.

Solovyova görə həqiqət bizim mühakimə və nəticələrəmiz deyil, ümumi birliyin özünə aid olan mütləq dəyərdir. Həqiqəti qəbul etmək subyektiv təfəkkür çərçivəsindən kənara çıxmaq, dünyada nə mövcuddursa onların hamısının birliyinə, yəni mütləqə daxil olmaqdır.

O ailə qurmamış, 1900-cü ildə vəfat etmiş, Novodeviçi məzarlığında atasının yanında dəfn edilmişdir.

## 5. Nikolay Aleksandroviç Berdyayev

N.A.Berdyayev (1874-1948) filosof-ekzistensialist, personalist, «yeni xristianlıq» təliminin yaradıcısıdır. Onun fəlsəfi görüşləri xristian personalizmi və yaxud ekzistensializm formasında yalnız mühacirət dövründə yaranmış, lakin fəlsəfi görüşləri hələ mühacirətə qədər artıq Rusiyada formalaşmağa başlamışdı. Berdyayev slavyanofilləri, F.Dostoyevskini, V.Solovyovu yüksək qiymətləndirirdi.

Sürgün illərində o marksizmdən uzaqlaşsa da «Özünüdərk» əsərində yazırdı: «Mən Marksı dahi insan hesab edirəm və indi də o fikirdəyəm».

Əgər Berdyayevin dini və sosial-siyasi görüşləri rus idealist fəlsəfəsi ilə sıx bağlıdırsa, onun kulturoloji və estetik ideyaları tam məntiqi olaraq irrasionalizmin Qərbi Avropa ənənələrinə uyğun gəlir.

Berdyayev XIX əsrdə rus ictimai fikrindəki inqilabi demokratik və materialist istiqamətləri tənqid edirdi. Filosof kommunizmi qəbul etmir, onu eybəcərləşdirilmiş din hesab edirdi. O, materializmi insanı mənəvi azadlıqdan məhrum edən, cəmiyyətin təhrif olunmuş dini kimi ifadə edirdi.

«Esxotoloji metafizikanın təcrübələri» əsərində o öz fəlsəfi sistemini irəli sürmüşdür. Berdyayev yazırdı: «mənim fəlsəfəm ruh fəlsəfəsidir».

Berdyayevə görə allah ruhdur. O real olaraq müqəddəslərin, mistiklərin, yüksək mənəviyyatlı adamların həyatında və insanın yaradıcılıq fəaliyyətində iştirak edir. Mənəvi təcrübəsi olan adamın allahın varlığını məntiqi yolla sübut etməyə ehtiyacı yoxdur. Özünün gizli mahiyyəti ilə allah irrasional və ağılüstüdür.

Berdyayevin fikrincə fəlsəfə elm deyil, təlimdir. Çünki, özünün idrak obyekti yoxdur. Obyektiv, maddi dünyanı tədqiq etmək fəlsəfənin vəzifəsinə daxil deyil, o, yalnız insan ruhunun öyrənilməsi ilə məşğul olmalıdır.

Allaha həddən artıq bağlı olduğunu göstərən Berdyayev yazmışdı: «Mən həddən artıq varlı oluram, çünki allah var. Əgər tək özüm yaşayıramsa və məndən yüksək, məndən böyük heçnə yoxdursa mən çox kasıb oluram». Berdyayev üçün mövcudat ierarxiyasında yaradılanların ən ali varlığı bütün gerçəkliyin meyarı olan insandır. Allahın özünə oxşar şəkildə yaratdığı insan öz yaradıcısına uyğun olaraq özü də yaradıcıdır.

Berdyayevin fəlsəfəsində əsas aparıcı rol azadlığa və yaradıcılığa məxsusdur. O «Azadlığın fəlsəfəsi» və «Yaradıcılığın məqsədi» əsərlərində yaradıcılığın yeganə mexanizmini azadlıqda axtarırdı. Filosof sonra özünün əsas anlayışlarını irəli sürmüşdür.

- Ruhun hökmranlığı,
- Təbiətin hökmranlığı,
- Obyektivləşmə – təbiətin hakimiyyətindən gələn qul xislətini aradan qaldırmağın mümkünsüzlüyü, yaradıcı təkan, təbii-tarixi varlığın, qul xislətinin aradan qaldırılması.

Berdyayev belə nəticəyə gəlirdi ki, insana yalnız bir təskinlik verilmişdir: zərurət pərdəsini cırıb yeni dünyaya, İlahi dünyaya çatmaq imkanına inam. O, rus xalqının dindarlığını xüsusi

qeyd edir və göstərirdi ki, ruslar «materialist kommunizmə etiqad edəndə də dindardır».

«Tarixin mənası» (1923) «Müasir dünyada insanın məqsədi (1934) «Rus komminizminin mənbələri və məqsədi» (1938), Rus ideyası (1946) və başqa əsərlərində o cəmiyyətə dair baxışlarını ifadə etmişdir.

Bəşəriyyətin tarixi taleyini Berdyayev dörd dövrə ayırırdı: barbarlıq, mədəniyyət, sivilizasiya və din. «Bu dörd dövrü yalnız vaxt ardıcıllığında götürmək olmaz; onlar yanaşı yaşaya bilərlər, bu insan ruhunun müxtəlif istiqamətləridir. Lakin bunlardan biri bu və ya başqa dövrlərdə üstün olur».

### 6. Pavel Aleksandroviç Florenski

P.A.Florenski (1882-1937)Azərbaycanın Elizavetpol quberniyasının (indiki Gəncə) Evlax qəsəbəsində anadan olmuşdur. Atası rus, anası ermənidir. Rus dini filosofu, ilahiyyatçı və şair olmuşdur. O, həm də fizika və riyaziyyatla da məşğul olurdu. Florenski hələ XX əsrin əvvələrində artıq ilahiyyatçı filosof kimi yetişirdi. O, V.S.Solovyovun rasional üsullarla fəlsəfə və din, deməli həm də ağıl ilə inam arasında ahəngdar bir əlaqə yaratmaq təşəbbüsünü tənqid edirdi. «Həqiqətin təsdiqi və özəyi», «Yekunlar», «İdealizmin bəşəri kökləri» və başqa əsərlərində fəlsəfi düşüncələri öz əksini tapmışdır. Filosofun fikrinə görə həqiqəti müəyyənləşdirməkdə heç bir plüralizm ola bilməz. Florenski hesab edirdi ki, fəlsəfə, elm, sənətşünaslıq sahəsindəki araşdırmalar dinə nəinki zidd deyil, əksinə, dini müddəaların doğruluğunu təsdiq edən material verir. İnsan mədəniyyətinin bütün təzahürləri yalnız o zaman qiymətli olur ki, onları «xristian ruhuna uyğun dəyişdirmək» mümkün olsun. Florenskiyə görə bütöv həqiqət yalnız «səmada» mümkündür, «bizdə isə çoxlu həqiqət, həqiqətin parçaları var», bir sözlə elmin həqiqətləri tam həqiqət olmaqdan çıxır.

Florenski özünün fəlsəfi mühakimələrini S.N.Turbetskoydan mənimsədiyi ifadə ilə «konkret idealizm» adlandırırdı. O, göstərirdi ki, «konkret idealizm»in ən ali təzahürü «canlı dini təcrübədir».

Florenskinin fikrincə idrakda əsas məsələ «ağılın varlığa və varlığın ağıla aidiyyətini qəbul etməkdir. Əgər belədirsə, idrak aktı tək qneseoloji, tək ideal deyil, həm də real aktdır. İdrak...dərk edənlə dərk edilənin real birliyidir».

P.A.Florenski sovet repressiyasına məruz qalmışdır və 25 noyabr 1937-ci ildə DİXK-nın üçlüyünün qərarı ilə ən yüksək cəzaya məhkum edilmiş və güllələnmişdir.

*Yoxlama sualları:*

1. Rus dini fəlsəfəsinin spesifik cəhətləri
2. F.M. Dostayevski və dini fəlsəfə
3. L.N. Tolstoy və din
4. V.S. Solovyovun fəlsəfəsi
5. N.A. Berdyayev və yeni xristianlıq
6. P.A. Florenskinin dini fəlsəfəsi

# VI MÖVZU

# AZƏRBAYCAN MAARİFÇİLİK FƏLSƏFƏSİ

## 1. Azərbaycanda maarifçiliyin yaranması və spesifik cəhətləri

Maarifçilik ilk dəfə Qərbi Avropa ölkələrində kapitalizmin təşəkkülü dövründə (XVII-XVIII əsrlərdə) yaranmışdır və ictimai, siyasi, hüquqi, əxlaqi və bədii ideyalar, baxışlar sistemini əhatə edir. Maarifçilik fəlsəfəsi onun mühüm tərkib hissəsi olmaqla, əsasən dünyagörüşü məsələlərini müəyyən edir.

Azərbaycanda maarifçilik qərb ölkələrinə nisbətən bir qədər gec, XIX əsrin ortalarında yaranmışdır. Bu onunla izah edilir ki, maarifçiliyin yaranmasını hazırlayan şərait burada xeyli gec yetişmişdi. Məhz həmin dövrdə Azərbaycanda feodalizm quruluşuna, sxolastikaya və cəhalətə qarşı tərəqqi, elm və maarif uğrunda mübarizə geniş yer tuturdu. Rus çarizminin yeritdiyi müstəmləkə siyasətinə baxmayaraq Şimali Azərbaycanda rus ictimai fikrinin müsbət təsiri özünü göstərirdi. Rusiya ictimai-mədəni mühiti ilə tanışlıq Azərbaycanın qabaqcıl ziyalılarının Avropa mədəniyyəti nümunələrinə qovuşması üçün mühüm amil rolu oynayırdı.

Bu baxımdan Azərbaycanda maarifçiliyin formalaşmasında Rusiyanın və Avropanın mütərəqqi fikri aparıcı rol oynamışdır. Lakin burada maarifçilik sırf milli zəmində, ölkənin ictimai inkişafının zəruri tələbatı kimi meydana gəlirdi. Bu özünü onda göstərirdi ki, hətta rus və Avropa mədəniyyətindən gələn ideyaların özü də burada milli gerçəklik prizmasından keçərək, özünəməxsus tərzdə təzahür edirdi.

Başqa ölkələrdə olduğu kimi Azərbaycanda da maarifçilik fəlsəfəsi ümumdemokratik ideologiya fonunda təşəkkül tapırdı. XIX əsrin ikinci yarısından başlayaraq XX əsrin əvvələri də daxil olmaqla, ideologiya xalqın ictimai şüuruna, onun bütün

tərəflərinə dəyişdirici təsir göstərirdi. Bu fəlsəfə əsasən aşağıdakı problemləri əhatə edirdi: feodal-təhkimçilik qaydalarını və onların mənəvi dayağı olan islam fanatizmi və xürafatın tənqidi; köhnə təlim və təhsil sisteminin ifşası; dünyəvi təhsilin, elmi biliklərin və qabaqcıl mədəniyyətin təbliği; şəxsi azadlığın, hüquq bərabərliyinin və insan ləyaqətinin qorunması.

Azərbaycanda maarifçiliyin XIX əsrin 60-70-ci illərində yaranması o deməkdeyildir ki, bu vaxta qədər xalqımızın ictimai fikir tarixində maarifçilik və humanizm təbliğ edən fikirlər olmamışdır. Əslində maarifçi fikirlər müsəlman renesansı dövründən (XII əsrdən) başlayaraq özünü göstərməyə başlamış, məhz qədim dərin tarixi köklərə malik olması üzündən ölkəmizdə maarifçilik spesifik milli hadisə kimi formalaşıb meydana çıxmışdır.

Azərbaycan maarifçiliyinin bir sıra özünəməxsus cəhətlərini də qeyd etmək lazımdır. Hər şeydən əvvəl, onun yarandığı dövrdə kapitalist münasibətləri zəif inkişaf etmişdi. Buna görə də Azərbaycan maarifçiləri ümumi şəkildə təhkimçiliyə qarşı çıxış edir, hamıya bərabərlik gətirəcək cəmiyyət arzulayırdılar. Başqa sözlə, onların dəqiq nəzəriyyələri və konkret ideoloji mübarizə proqramları yox idi. Ölkənin tarixi geriliyi və müstəmləkəçi siyasəti üzündən Azərbaycan maarifçiləri konkret siyasi və iqtisadi vəzifələr irəli sürən yetkin ideoloji sistem səviyyəsinə yüksələ bilməmişdilər. İkinci, Azərbaycanda maarifçilik fikirləri daha çox bədii vasitələrlə ifadə olunurdu (ədəbiyyat, satira, ədəbi tənqidi məqalə, publisistik yazılar və sair). Maarifçilərin sosial-tənqidi fikirləri yeni ədəbi metod olan realizmin formalaşmasına güclü təsir göstərirdi. Üçüncü, Azərbaycan maarifçiliyinin inqilabı demokratik ideologiyaya münasibəti də özünəməxsus cəhətləri ilə seçilirdi. Belə ki, maarifçilik inqilabi demokratik ideologiyadan əvvəl yaransa da, bir çox hallarda onunla yanaşı fəaliyyət göstərmişdir. Bu o deməkdir ki, maarifçiliyi təmsil edən bəzi publisist, şair və yazıçılar sonradan inqilabi demokratik pilləyə qalxmışdılar.

Digər tərəfdən öz fəaliyyətinin əvvəlindən inqilabçı demokrat kimi çıxış edən ictimai xadimlər də maarifçilik ideyalarından tam əl çəkməmişdilər.

## 2. Abbasqulu ağa Bakıxanov

Azərbaycanda zadəgan maarifçiliyinin formalaşmağa başlaması XIX əsrin birinci yarısına təsadüf edir. Bu maarifçiliyin ən görkəmli nümayəndəsi Abbasqulu ağa Bakıxanov olmuşdur. Abbasqulu ağa Bakıxanov (1794-1846) gənclik illərində dərin müsəlman təhsili görmüşdür. 1820-ci ildə rus ordusunda xidmətə başlamış, Tiflisdə tərcüməsi işləmiş və polkovnik hərbi rütbəsinə yüksəltmişdir. 15 ildən artıq bir müddətdə A.Bakıxanov Azərbaycan tarixinə dair materiallar toplamış və 1841-ci ildə məhşur «Gülüstan-e İrem» tarixi əsərini nəşr etdirmişdir.

Onun Azərbaycan maarifçiliyinin ilk dövrünə aid fəlsəfi görüşləri «Əxlaqın tərbiyələnməsi», «Nəsihət kitabı», «İşıqların güləşdiyi yer», «Çamdın aynası», «Qudsinin bağı», «Qudsinin qanunları», «Kainatın sirləri» əsərlərində öz əksini tapmışdır.

A.Bakıxanovun yaradıcılığını tədqiq edən professor İ.Rüstəmov göstərir ki, o, Azərbaycanın orta əsrinin sonuncu, yeni dövrün isə birinci mütəfəkkiri olmuşdur. A.Bakıxanovun yaradıcılığında dualizm şəksiz özünü göstərir. O, bir tərəfdən, öz dövrünün elmi nailiyyətlərindən bəhrələnmiş, digər tərəfdən gəncliyində mənimsədiyi Şərq sxolastikasını unutmamışdır. Yəni onun yaradıcılığında rus və Avropa maarifçiliyi, eləcə də orta əsr Şərq mədəniyyəti və fəlsəfəsi də öz təzahürünü göstərir. A.Bakıxanov ilk növbədə tarixə maarifçi münasibəti təbliğ edirdi. Onun fikrincə tarix insanların keçmişdə olanları bilməyə yönəldilmiş mənəvi tələbatını ödəməlidir. Tarix insanlarda əxlaqiliyi tərbiyə etməli, onların baxışlarını genişləndirməli, həyat və məişət qaydalarını öyrətməyə kömək etməlidir.

A.Bakıxanovun fəlsəfi və etik görüşlərində fəlsəfənin, fəlsəfi və etik kateqoriyaların tərifi, onların nisbiliyi, mövcudatın səbəbi, inkişaf və qanunauyğunluğun problemlərindən bəhs olunur. Bu problemlərin rasional dərkini onların kamilləşən insan tərəfindən həll edilməsi kimi təsəvvür edən A.Bakıxanov məhz bu yolla vahid ailə saydığı bəşəriyyətin xoşbəxtliyə çatmasına inanırdı.

A.Bakıxanov göstərirdi ki, Vətən tarixini öyrənmək milli özünüdərkə, vətənpərvər hisslərin inkişafına təkan verir. O, maarifçi monarxiyanın tərəfdarı idi. Monarxları şəxsi şücaətinə, zəkalılığına, ədalətliliyinə, elm və incəsənətə göstərdiyi diqqətə görə dəyərləndirirdi.

A.Bakıxanovun maarifçilik ideyaları öz ifadəsini onun etik baxışlarında da ortaya qoymuşdur. Bununla bağlı onun tərbiyə işinə verdiyi əhəmiyyəti göstərmək olar. Onun fikrincə, hər bir kəs yaşadığı cəmiyyətin əxlaq normalarını qəbul etməlidir. Özünü cəmiyyətə qarşı qoymaq faydasız, cəmiyyətlə uzlaşmaq isə faydalıdır. Beləliklə, əxlaq və davranış formaları insanların fəaliyyətinin düşünülmüş tənzimlənməsi nəticəsində əldə oluna bilər. Onun fikrincə, tərbiyə və təhsil kiçik yaşlardan həyata keçirilməlidir.

A.Bakıxanov biliyin insanı zənginləşdirdiyini dönə-dönə qeyd edirdi. O göstərirdi ki, biliklərə sahib olmaq və kamilləşmək hər şeydən dəyərlidir. Ona görə insanlar üçün ən böyük sərvət əql və bilikdir, bunları insanın əlindən heç kəs ala bilməz. Bakıxanov avaraçılığı çox kəskin tənqid edərək yazırdı: «Avaralanmaqdan qorx, o bütün çatışmazlıqlardan ən pisidir. Dünyada avaraçılıqdan qorxulu heç nə yoxdur».

## 3. Mirzə Kazım bəy

XIX əsrin görkəmli mütəfəkkir, maarifçi və alimlərindən biri, yaradıcılığı ilə Azərbaycan və rus mədəniyyətlərini təmsil edən, Qazan və Peterburq universitetlərinin professoru, rus

şərqşünaslığının banilərindən olan Mirzə Məhəmməd Əli Kazım bəy (1802-1870) Asiya və Avropanın elmi dairələrində şöhrət tapmışdır. Mirzə Kazım bəyin mədəniyyət fəlsəfəsinə, Şərq ictimai-siyasi və fəlsəfi cərəyanlarına, islam tarixinə və Quranın təfsirinə, mənəviyyat və qnoseologiya problemlərinə, dilin inkişaf qanunauyğunluqlarına həsr edilmiş əsərləri elmi dəyəri, çoxşaxəliyi və orijinallığı ilə seçilir. Mirzə Kazım bəy cəhalət və xurafatın əleyhinə çıxmış, maarifi və elmi yüksək qiymətləndirmişdir. O, elmin milli və bölgə zemininin olmasının vacibliyini xüsusi qeyd edərək yazırdı: «Qərb öz siyasəti ilə Asiyada maarifi bərpa edə bilməz...ölkənin islahatçıları ölkənin özündə doğulmalıdırlar».

XIX əsrin 60-cı illərində Mirzə Kazım bəyin dini-fəlsəfi baxışlarında tərəqi özünü göstərmişdir. O, təbiətin və ictimai həyatın yaranma səbəblərini və hərəkət verici qüvvələrini təbiətin və cəmiyyətin özünə xas olan obyektiv qanunlarda görürdü.

Mirzə Kazım bəyin dünyagörüşündə ardıcılsızlıq əsrin 30-50-ci illərində təbiiət və ictimai həyat qanunlarının dərk edilməsi imkanının inkar etməsi ilə əlaqədardır. O fəlsəfi baxımdan rasional idrakın mühüm rolunu xüsusi qeyd edir və göstərirdi ki, imkan daxilində ağıl insanı maraqlandıran məsələlərə cavab vermək üçün bütün vasitələrdən istifadə etməlidir.

Onun «Alim inamı», «İslam tarixi» və «Dərbəndnamə» əsərlərində çoxsahəli fəlsəfi problemlər də təhlil edilmişdir.

M.Kazım bəyin 1848-ci ildə yazdığı «Bab və babilər» əsərində təbiətin bir-birindən fərqli, öz qanunlarına tabe üç (maddi, mənəvi və ruhani) aləmdən ibarət olmasından, təfəkkürün mənşəyinin gizli qüvvə, insan mənəviyyatının isə azad iradə ilə bağlılığından danışılır. Mütəfəkkirin «Firdövsiyə görə mifologiya» əsərində müxtəlif bölgə mifləri, onların mənşəyi və təşəkkülündə ədəbi və dini təfəkkür formaları və psixoloji amillər tədqiq edilmiş, «Müridizm və Şamil», «Bab və babilər» əsərlərində isə sosial zülm və xarici istibdada qarşı yönəlmiş

Şamil hərəkatı və babiliyin fəlsəfi, sosial, dini və etik görüşlərinin elmi şərhi verilmişdir.

### 4. Mirzə Fətəli Axundov

XIX əsrin 60-70-ci illərində Azərbaycanda maarifçiliyin ikinci (klassik) mərhələsi özünü göstərməyə başlayırdı. Maarifçi-realist ədəbiyyatın başlıca istiqaməti geriliyə, despotizmə və dini fanatizmə qarşı mübarizə aparmaq olmuşdur. Bununla yanaşı həmin dövrün ədəbiyyatı maarifçi və demokratik ideyaların carçısı idi. Məhz bu mənəvi mühitdə Azərbaycan maarifçilərinin bütöv bir nəsli formalaşmışdır. (M.F.Axundov, H.Zərdabi, S.Ə.Şirvani, N.Vəzirov, Ə.Haqverdiyev, N.Nərimanov və başqaları).

Azərbaycanda maarifçilik fəlsəfəsinin vahid bitkin bir sistem səviyyəsinə yüksəlməsi məhz M.F.Axundovun (1812-1878) adı ilə bağlıdır. Axundov bütövlükdə Şərqin və Azərbaycanın sosial tərəqqidə geri qaldığını dərk edir, öz xalqının mədəni, elmi inkişafı üçün yollar axtarırdı.

Onun fəlsəfi ideyaları aşağıdakı əsərlərində öz əksini tapmışdır: «Kəmalüddövlə məktubları», «Aldanmış kəvakib», «Həkimi ingilis Yuma cavab», «Yek kəlmə haqqında», «Con Stüart Mill azadlıq haqqında», «Mollayi Ruminin söylədikləri», «Babizm ehkamı haqqında», «Molla Ələkbərlə müsahibə» və s.

M.F.Axundov 1834-cü ildən ömrünün sonuna qədər Qafqaz canişinliyinin Tiflisdə yerləşən dəftərxanasında Şərq dilləri üzrə tərcüməçi işləmiş,. rus dilini yaxşı bildiyindən onun vasitəsilə təkcə rus mütərəqqi mədəniyyəti ilə deyil, həm də Qərbi Avropa elmi və fəlsəfi fikri ilə yaxından tanış olmuşdu. Onun əsərlərində Firdovsi, Xəyyam, Nizami, Sədi, Rumi, Füzuli, Şekspir, Molyer, Puşkin kimi dünya şöhrətli klassiklərin, Bokl, Giron, Con Stuart Mill, Darvin, İbn Xəldun, Şəbustəri, qabaqcıl rus mədəniyyəti və elminin Lomonosov, Radişev, deka-

bistlər və inqilabçı demokratlar kimi nümayəndələri olan rus fəlsəfəsinin, Volter, Russo, Didro, Lametri, Holbax, Helvetsi kimi fransız materialistlərinin əsərlərinə istinad edilmişdir. Bütün bunlar onun dünyagörüşünün formalaşmasına güclü təsir göstərmişdir. O, öz əsərlərində dini fanatizmi və gerilliyi amansız tənqid etsə də təkcə bununla məhdudlaşmamış, dünyaya elmi materialist baxışı əsaslandırmışdır. Axundova görə fəlsəfə nəzəri elm olmaqla onun məqsədi bütün şeylərin hikməti və səbəblərini təbiətin qanunauyğunluqları əsasında müəyyən etməkdir. Filosof xürafata, və cəhalətə qarşı kəskin mübarizə aparmışdır.

O Yumun ilk səbəb təliminə münasibətini xüsusi məqalə şəklində ifadə etmişdir. M.F.Axundov fikir azadlığı və onun ictimai tərəqqidə rolu haqqında C.S.Milin fikirlərinə tərəfdar çıxmışdır, Qərbi Avropadakı elmi və fəlsəfəni dərindən bilməklə hüquqi və əmlak bərabərliyi haqqında qiymətli fikirlər irəli sürmüşdür.

Axundovun mühüm xidməti ondadır ki, o ilk dəfə olaraq Azərbaycan mütəfəkkirlərini fəlsəfəyə varlığın və idrakın mühüm prinsipləri haqqında elm kimi yanaşmağa çağırırdı. Axundov göstərirdi ki, bu elm maddi dünyanın qanunlarını və səbəbiyyət əlaqələrini öyrənir. Böyük mütəfəkkir qeyd edirdi ki, varlıq təkdir, öz-özünün səbəbidir. Biz yalnız gözlərimizlə gördüyümüz və duyduğumuz kainatı varlıq kimi qəbul etməliyik. O «Kəmaluddövlə məktubları»nda yazırdı: «Bu kainat bir vahid, qadir və kamil vücuddur. Əvvəli də budur, axırı da budur. Nə ondan qabaq başlanğıc olmuşdur, nə də ondan sonra nəhayət olacaqdır. Zaman onun tələblərindən, məkan isə keyfiyyətlərindən sayılır».

Kainatın maddiliyini və yaradılmazlığını qəbul edən Axundov belə hesab edirdi ki, onun başqa yaradıcıya ehtiyacı yoxdur. Beləliklə də o dünyanın Allah tərəfindən heç nədən yaradıldığı haqqında dini ehkama qarşı çıxırdı. Onun fikrincə gözümüzlə gördüyümüz dünya öz-özünə öz qanunları ilə mövcud-

dur. O həm də axirət dünyası və ruhun ölməzliyi haqqında fikirləri qəbul etmirdi. Sonuncu məsələ ilə əlaqədar o belə bir bənzətmə söləmişdi: idrak beyinsiz qeyri mümkün olduğu kimi, ruh da orqanizmdən kənarda yaşaya bilməz. Odur ki, ruhun ölməzliyinə inanmaq ağılsızlıqdır.

Axundov idrakda təkcə sensualist olmaqla, duyğuların rolunu qəbul etməklə kifayətlənməmiş, həm də rasional idraka, ağılın roluna qiymət vermiş, məntiqi idrakın əhəmiyyətini qeyd etmişdir. O beynin aləmin dərk edilməsində böyük imkanlara malik olduğunu, təfəkkürün beynin fəaliyyəti nəticəsində doğulduğunu qeyd etmişdir. Elmin idrak prosesində rolunu yüksək qiymətləndirən mütəfəkkir elmi və dünyəvi biliklərin idrakın dərinləşdirilməsində xüsusi rolunu əsas götürmüşdür.

Axundovun mühüm bir xidməti onun tərəfindən orta əsr islam fəlsəfəsi konsepsiyalarının araşdırılmasıdır. O kəlamın, məşşaizmin, işraqiliyin, sufizm təlimlərinin mistik tərəflərini qəbul etməmişdir.

M.F.Axundov öz əsərlərində şərq despotizmini tənqid etmiş, islamın teoloji konsepsiyasının əksinə olaraq tarixin «təbii» izahını verməyə çalışmış, cəmiyyətin inkişafında iqtisadi amilin rolunu qiymətləndirmişdir. Axundov «İnsan tələbatları haqqında» əsərində insanın fiziki, əqli və mənəvi tələbatlarını şərh etmişdir.

## 4. Həsən bəy Zərdabi

Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrinin görkəmli nümayəndəsi Həsən bəy Zərdabi (1842-1907) maarifçi demokrat, təbiətşünas, publisist və pedoqoqdur. O elmi təbiətşünaslığın əsasını qoymuş, təbii-elmi və bioloji fikirlərin böyük təbliğatçısı olmuşdur.

Zərdabinin əsərlərində dünyanın hərəkəti və dəyişməsi ideyası ilə yanaşı, belə bir fikir də irəli sürülür ki, təbiətdəki bütün

şeylər və hadisələr bir-birlərini şərtləndirir, qarşılıqlı əlaqədədir və bir-birinə təsir edir.

Onun həyatın əmələ gəlməsi haqqında fikirləri də maraq doğurur. Zərdabi qeyd edirdi ki, heç bir xüsusi həyatı qüvvə mövcud deyildir, orqanizmdə baş verən fizikit və kimyəvi proseslər olmadan həyat yoxdur. O həyatı zülali maddələrin mövcudluğu ilə əlaqələndirmişdir.

«Yeni kəşflərin tətbiqi» adlı məqaləsində Zərdabi ətraf mühiti dərk etməsi sayəsində insan idrakının hüdudsuz olmasını qeyd edirdi. Hər bir yeni kəşf təbiətin öyrənilməsini, onun fəthini asanlaşdırır.

Zərdabi şüuru maddi orqan olan beynin məhsulu hesab edirdi. Yazdığı «Beyin» adlı məqaləsində qeyd edirdi ki, insanın əqli fəaliyyəti tamamilə, onun beynindən asılıdır.

H.Zərdabi «Torpaq, su və hava» adlı məqaləsində də yerin təkamülünün elmi-materialist təsviri, onun müxtəlif tarixi dövrləri, bitki və heyvanat aləminin əlaqələrini göstərir, insanın fikirlər irəli sürürdü.

O «Əkinçi» qəzetin səhifələrində dünyəvi biliklər verən məktəblərin dini təhsil məktəblərindən ayrılmasını tələb edirdi. Mütəffəkir bu mövqedən çıxış edərək öz xalqının sosial və mənəvi tərəqqisi uğrunda gərgin mübarizə aparmış, XX əsrin əvvələrində «Yaşasın azadlıq!», «Yaşasın ədalət!» kimi demokratik şüarları ürəkdən alqışlamışdır.

H.Zərdabi çar üsul-idarəsinin bürokratizminə, korrupsiyasına, müstəmləkəçilik məramlarına kəskin tənqidi mövqedən yanaşırdı. Onun maarifçi ictimai fəaliyyəti Azərbaycanda XIX əsrin sonu XX əsrin əvvələrində mütərəqqi ziyalılar nəslinin oyanışında və mənəvi inkişafında böyük əhəmiyyət kəsb etmişdir. (prof. İ.Rüstəmov.Həsən bəy Zərdabi. Bakı, «Gənclik», 1969)

Zərdabi Azərbaycan ictimai fikri tarixində elmi materialist təbiətşünaslığın carçısı, Darvin ideyalarının təbliğatçısı olmuş, təkamül ideyalarına əsaslanaraq üzvi təbiətin yaranması və

inkişafının qanunauyğunluqlarını düzgün anlaya bilmişdi. Beləliklə də cansız və canlı aləmin yaranmasını materialistcəsinə izah etmişdir. H.Zərdabinin ən böyük xidməti onun tərəfindən Azərbaycan mətbuatının əsasının qoyulmasıdır. O 1875-ci ildən nəşr etdirməyə başladığı «Əkinçi» qəzetində təbii-elmi bilikləri xalq kütlələri arasında yorulmadan təbliğ etmişdir.

XIX əsrin sonu XX əsrin əvvələrində Azərbaycanda maarifçilik daha da formalaşmış və inkişaf etmişdir. Bu dövrdə ölkənin gələcək inkişafı üçün hansı modeli, yəni avropa, yoxsa Şərq modelini qəbul etmək; bu prosesdə islam amilinin yeri, cəmiyyətin yeniləşməsi sahəsində ziyalıların vəzifələri maarifçiləri maraqlandıran əsas məsələlər idi.

## 5. Cəmaləddin Əfqani

XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikrində, Cəmaləddin Əfqaninin (1839-1897) mənəvi irsi xüsusi yer tutur. O, Azərbaycan, İran, Əfqanıstan, Hindistan, Misir, Türkiyə, Rusiya, Fransa, İngiltərə və başqa ölkələrdə fəaliyyət göstərmişdir. Əfqani dövrünün qlobal sosial-siyasi və mədəni reallıqlarından çıxış edərək şərqin qərb müstəmləkəçiliyindən xilasının ideoloji və siyasi yollarını axtarmış, bununla bağlı nəzəri və praktiki proqramlar hazırlamış və onların həyata keçirilməsində şəxsən iştirak etmişdir. Sonralar Azərbaycan və Şərq islam bölgəsinin ictimai-fəlsəfi fikrində bu bölgə xalqlarının qlobal məkanda özünütəsdiq və siyasi istiqlalının islamlaşma, milliləşmə və müasirləşmə ideyalarına əsaslanan və müxtəlif formalarda təzahür edən nəzəri-fəlsəfi konsepsiyaları C.Əfqaninin mənəvi irsindən faydalanmışdır. İdealizm mövqeyində duran C.Əfqaninin fəlsəfəsində tərəqqi, hakimiyyət, dövlət, millət, din, dil, mədəniyyət kimi problemlərin orijinal analitik təhlili öz dövrü üçün sosial aktuallığı ilə seçilir. Onun dövrünün Şərq maarifçiliyinin liberal ideyalarına daha çox meyilli olan fəlsəfi və ictimai-siyasi görüşləri «Materializmin təkzibi», «Renana

cavab», «Milli vəhdət fəlsəfəsi və birliyin mahiyyəti», «İslamda reforma», «Tərəqqinin ən böyük düşməni mütləqiyyətdir» kimi əsərlərində öz əksini tapmışdır.

Əfqani qeyd edirdi ki, müstəqilliyi möhkəmləndirmək və İslamı müasirləşdirmək lazımdır. Onun fikrincə islam dünyada yeganə dindir ki, bütün zəmanələr və xalqlar üçün, ağılla istiqamətləndirilə bilər.

O fəlsəfəyə və məntiqə xüsusi diqqət yetirməyi zəruri hesab edirdi. Onun fikrincə «məntiq elmi təfəkkürün meyarıdır» və onun köməyi ilə «həqiqəti yalandan, düzü əyridən» seçmək mümkündür.

Fəlsəfə isə bütün elmlərin nailiyyətlərini ümumiləşdirməkdə, milləti ümumi inkişaf istiqamətinə yönəltməkdə böyük gücə malikdir. O fəlsəfəni ideoloji silah olaraq milli və siyasi şüurun inkişafında əsas qüvvə hesab edirdi.

Əfqani panslamizm ideologiyasının yaradıcılarından biri idi. XIX əsrin 80-cı illərindən bu ideologiyanı təbliğ etməyə başlamış, milli həmrəyliyin yerinə dini həmrəyliyi qoymuşdur.

C. Əfqaninin aşağıdakı sözləri fəlsəfi fikrin öyrənilməsi və öyrədilməsi baxımından bu gün də böyük əhəmiyyət kəsb edir:

«Əgər bir millətdə fəlsəfə yoxdursa, o millətin hamısı alim olsa da, ayrı-ayrı elmlər inkişaf tapa bilməz və həmin elmin nailiyyətlərindən nəticə çıxarmaqda çətinlik çəkər».

### 6. XIX əsrin sonu XX əsrin əvvəlrində maarifçi və inqilabi-demokratik fikir

XIX əsrin sonlarına doğru Azərbaycanda kapitalist münasibətləri sürətlə inkişaf etməyə başladı. Neft sənayesində baş verən yüksəliş cəmiyyətin sosial həyatında, mədəniyyətində, milli-ideoloji baxışlarında da mühüm irəliləyişləri şərtləndirdi. Sənayenin müxtəlif sahələrində və ticarətdə milli burjuaziya formalaşmağa başladı. Mütərəqqi rus və qərbi Avropa əhval-ruhiyyəli azərbaycanlı maarifçilərin sayı çoxalmaqda idi. Hə-

min dövrdə Azərbaycanda milli oyanma prosesi böyük sürətlə gedirdi. Bu zəmində islamçılıq və türkçülük meylləri ortaya çıxmış, xalqın dünyagörüşündə və məfkurəsində yaranan milli özünüdərk prosesi maarifçi ziyalıları ön plana çəkmişdir. Artıq bu dövrdə Azərbaycan ziyalılarının üçüncü nəsli formalaşırdı (birinci nəsil XIX əsrin 30-40-cı illərində, ikinci nəsil isə 70-ci illərdə yetişmişdi). XIX-XX əsrlərin hüdudunda Ə.Hüseynzadə, Ə.Ağayev, Ə.Topçubaşov, M.Ə.Rəsulzadə, Ü.Hacıbəyov, M.Şahtaxtlı və başqaları Azərbaycanda türkçülük ideyasının əsasını qoymuş, onun yayılmasında fəal rol oynamışdılar. Onlar bu milli hərəkatın ümumi liderlərinin (Ziya Göyalp, İsmayıl bəy Qaspıralı, Zəki Toğan, Yusif Akçura və başqalarının) fəaliyyətindən və ideya irsindən bəhrələnirdilər.

Beləliklə Azərbaycanda maarifçiliyin bu mərhələsi milli dirçəliş və milli azadlıq hərəkatının genişlənməsi ilə səciyyələnir. M.Ə.Rəsulzadə sonralar qeyd edirdi ki, Azərbaycandakı milli hərəkat öz ideoloji kökü baxımından şərqdəki milli qurtuluş fikirləri ilə qərbdəki demokratik cərəyanları özündə birləşdirmişdir. Müsəlman şərqində ən əvvəl Azərbaycandakı milli hərəkat avropasayağı forma almışdır.

## 7. Əli bəy Hüseynzadə

XIX əsrin sonu XX əsrin əvvələrində Azərbaycanda maarifçilik və demokratik fikrin önündə gedənlərdən biri riyaziyyatçı, həkim, dilçi, rəssam və filosof Əli bəy Hüseynzadə (1864-1940) idi. O, azərbaycan xalqının milli şüurunun oyanmasında, öz milli mənliyini dərk etməsində, mədəniyyətin inkişaf etdirilməsində müstəsna rol oynamış, Azərbaycan Xalq Cumhuriyyətinin ideologiyasının fəlsəfi əsaslarının yaradıcısı olmuşdur. Hüseynzadə azərbaycan xalqının mənəviyyatını şərq ilə qərbin mütərəqqi cəhətləri əsasında zənginləşdirməyə çalışan böyük şəxsiyyət idi. Bu gün də öz əhəmiyyətini saxlayan «İslamlaş-

maq, Türkləşmək və Avropalaşmaq» şüarı məhz ona məxsusdur.

Milli dövlətçiliyimizin rəmzi olan üç rəngli bayrağı o türk millətinin mentalitetini ifadə edən simvol hesab edirdi.

Ə.Hüseynzadə mükəmməl dünyəvi təhsil görmüş ziyalı kimi əvvəlcə Tiflis gimnaziyasını, sonra Peterburq Universitetinin fizika-riyaziyyat fakültəsini, daha sonra isə İstanbul ali hərbi tibb məktəbini bitirmişdi. XIX əsrin sonlarında xaricdə fəaliyyət göstərən Ə. Hüseynzadə XX əsrin əvvəlində Azərbaycana qayıdaraq H.Z.Tağıyevin maddi yardımı ilə əvvəlcə «Həyat» qəzetini, sonra isə «Füyüzat» jurnalını nəşr etdirmişdir. 1916-cı ildə o görkəmli alim Y.Akçura, Ə.Ağayev və başqaları ilə birgə Rusiya imperiyasındakı türk xalqlarının ağır vəziyyəti haqqında ABŞ prezidenti Vilsona göndərilən müraciətnaməni imzalamışdır.

Ə.Hüseynzadənin maarifçi və demokratik ideyaları «Siyasət fərasəti» (At minmək siyasəti), «Məktubi-məxsusi», «Türklər kimdir və kimlərdən ibarətdir?», «Bizə hansı elmlər lazımdır», «Yazımız, dilimiz, birinci ilimiz» əsərlərində əks olunmuşdur.

Onun dünyagörüşü təhsil aldığı illərin, Peterburq və İstanbul mühiti və Türkiyədəki milli hərəkatın güclü təsiri altında formalaşmışdır. Bu prosesdə heç şübhəsiz Azərbaycan maarifçiliyinin M.Axundovla başlanan ənənələri böyük rol oynamışdır.

Ə.Hüseynzadə 1904-cü ildə «Türk» qəzetində çap etdirdiyi «Məktubi-məxsusi» adlı məqaləsində göstərirdi ki, türk millətinin qüvvətli olması üçün onun nümayəndələri arasında mənəvi bağların, qarşılıqlı sevginin artması, onların mədəniləşmə yolunda bir-birinə yardım göstərməsi zəruridir.

Əsərlərində türk xalqlarının tarixi və mədəniyyətinin araşdırılmasına geniş diqqət yetirən Hüseynzadəyə görə türk xalqlarının geriliyinə son qoyulması üçün, onların birliyinə nail olmaq böyük rol oynayır. O, türk xalqlarını parçalamağa çalışan qüvvələrə qarşı mübarizə apararaq, türkçülük, turançılıq ideya cərəyanını irəli sürmüş və təkcə öz xalqının deyil, bütün

millətlərin siyasi azadlığını təbliğ etmişdir. Onun vahid Turan ideyası milli xudbinlikdən və mürtəce millətçilikdən uzaq idi.

Ə. Hüseynzadə bütöv dinlərin humanist ideyalı olduğunu vurğulayır və dinlərə hörmətlə yanaşırdı. O cəmiyyətin inkişafında yaşıl işığı maarifin simvolu, qırmızı işığı isə inqilabın simvolu hesab edirdi.

Filosofun bədii-fəlsəfi və etik əsərlərində türkçülük, türk mədəniyyəti, bəşəriyyətin səadəti və bu səadətin bünövrəsi qismində fəlsəfi kateqoriya kimi məhəbbətdən bəhs edirdi. O xalqların gələcək xoşbəxtliyini maarif, ittihad və hürriyyətdə görürdü.

## 8. Əhməd bəy Ağayev

XIX əsrin sonu və XX əsrin əvvələrində Azərbaycanın ictimai-siyasi fikrinin böyük nümayəndəsi Əhməd bəy Ağayev (1868-1939) Şuşada hələ uşaq ikən ərəb və fars dillərini mükəmməl öyrənmiş, sonra rus məktəbində oxumuşdur. O da Tiflis gimnaziyasında təhsil almışdır. Sonra Parisə gedərək hüquq məktəbini və Sorbonna Universitetini bitirmişdir ( o xaricdə təhsil alan ilk azərbaycanlı olmuşdur). Təhsilini başa vurub Qarabağa qayıdarkən yolüstü İstanbulda Ə.Hüseynzadə ilə tanış olmuşdur. Onun vasitəsilə mütərəqqi türk ictimai-siyasi ideyalarına yiyələnə bilmiş, bir müddət Bakıda fəaliyyət göstərdikdən sonra 1909-cu ildə İstanbula köçmüşdür. Ömrünün sonuna qədər Ankara və İstanbul Universitetlərində müəllimlik etmişdir. Burada onun inqilabi- demokratik fəaliyyəti daha geniş miqyas almışdır. Onun aşağıdakı mühüm əsərlərini xüsusilə qeyd etmək lazımdır. «Üç mədəniyyət», «Azərbaycanın əhəmiyyəti», «Türk hüquq tarixi», «Sərbəst insanlar arasında», «Dövlət və fərd», «İslama görə və islamda qadın» Əsərlərində fəlsəfə, sosiologiya, din və etika məsələləri araşdırılmış, sosial fəlsəfənin və mədəniyyətşünaslığın «mədəniyyət», «dil», «din», «millət» kimi ən mühüm kateqoriyalarının tərifini vermişdir.

O öz maarifçilik fəaliyyətinin əvvəlində islamı dirçəltmək uğrunda mübarizə edən ideya-siyasi cərəyana tərəfdar olmuşdur. XX əsrin əvvələrindən etibarən o türk milli şüurunu, türk xalqlarının birliyini ifadə edən ideyalara qoşulmuş, bundan sonra milli intibah ideyaları və proqramının formalaşdırılmasında fəal iştirak etməyə başlamışdır. Ə.Ağayev göstərirdi ki, bizim məqsədimiz türk millətinin ümumi və siyasi azadlığını artırmaqdan, onun birliyini möhkəmləndirməkdən, onu elmə səsləməkdən, türkcə məktəb və digər maarif müəssisələri açmaq üçün çalışmaqdan ibarət olmalıdır.

## 9. Məmmədəmin Rəsulzadə

Azərbaycan Demokratik Cümhuriyyətinin görkəmli ideoloqlarından biri də M.Ə. Rəsulzadə (1884-1955) olmuşdur. O əsasən, maarifçiliyin və demokratik ideoloji cərəyanların təmsilçisi, ədəbiyyatçı və siyasi xadim idi. Onun fəaliyyətinin əsas qayəsi «Millətlərə istiqlal, insanlara hüriyyət» şüarında əksini tapmışdır. M.Ə.Rəsulzadə elə ilk əsərləri ilə millilik və istiqlal carçısı kimi tanınmışdır. O, milli müstəqil Azərbaycan ideyası və dövlət konsepsiyasının banilərindəndir. M.Ə.Rəsulzadənin bu konsepsiyadan bəhrələnən nəzəri irsi, əsasən, «Azərbaycan Cümhuriyyəti», «Əsrimizin Səyavuşu», «Milli həmrəylik», «İstiqlal məfkurəsi və gənclik», «Çağdaş Azərbaycan ədəbiyyatı», «Azərbaycan şairi Nizami», «Çağdaş Azərbaycan tarixi» əsərlərində ortaya qoyulmuşdur. Onun fikrincə, milli şüur və milli özünüdərk milli istiqlala aparan yoldur. O, Rusiya, İran və Türkiyə ilə ilhaqa getməyin əleyhinə olmuş, azad azərbaycançılıq ideyasına üstünlük vermişdir. M.Ə.Rəsulzadə «kültür», «milli kültür», «mədəni yaşayış», «millilik», «milli dil» kateqorial anlamlarını, sosial fəlsəfənin və kulturologiyanın mühüm nəzəri problemlərini tədqiq etmişdir. «Əsrimizin Səyavuşu» əsərində M.Ə.Rəsulzadə milli istiqlal ideyası əsasında qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin bütün vətəndaş-

larının mülkiyyətindən, cinsindən, mənşəyindən, məsləkindən asılı olmayaraq, bərabərhüquqlu olduğunu göstərirdi. Lakin o bu hüquq bərabərliyini xüsusi mülkiyyətə aid etmirdi.

M.Ə.Rəsulzadə həmin əsərdə yazırdı: «Azərbaycanlılar düşünürdülər ki, mülkiyyəti tamamilə ortadan qaldırmaq indiki vəziyyətdə insanlarda şəxsi təşəbbüs qüvvətini zorakı olaraq ortadan qaldırır. Bu qüvvət olmadıqca dünya nə düzələr, nə də gözəlləşər. Sosial həyat irəliləmədən düşər, insanlar bəsit bir ibtidailiyə doğru dönərlər, dünyanın nizamı pozular».

M.Rəsulzadənin dünyagörüşü XX əsrin əvvəlindəki Azərbaycan reallıqlarının, siyasi proseslərin və siyasi mübarizənin təsiri altında formalaşmışdı. O siyasi fəaliyyətə qədəm qoyduğu ilk dövrlərdən türk dilinin saflığını qorumağa çağırır, savadsızlığı və cəhaləti xalqın azadlığı yolunda başlıca maneə hesab edirdi. Rəsulzadə göstərirdi ki, tərəqqi müstəqil olmadan və elmsiz mümkün deyildir. Bu mənada o yaşadığı əsrə yüksək qiymət verirdi. «Əsrimizin Səyavuşu» əsərində yazırdı: «XX əsr demokratik fikirlər dövrüdür.» Siyasi fəaliyyətin ilk dövrlərində o hüriyyət ilə bağlı məsələlərə birinci dərəcəli əhəmiyyət verirdi.

M.Rəsulzadə sonralar öz əsərlərində milliyət və milli azadlıq problemlərinə xüsusi diqqət və önəm verir, çarizmin Azərbaycan türklərinə düşmənçilik münasibətini dərk edərək xalqa izah etməyə çalışırdı. azərbaycan milli hərəkatı ilə daha dərindən tanış olduqdan sonra o, bu hərəkatın tarixi əsaslarını, hərəkətverici qüvvələrini və istiqamətlərini təhlil edir və onun fəaliyyəti sayəsində Azərbaycanda milli-azadlıq hərəkatı real və sistemli şəkil alırdı. 1918-ci ildə Rəsulzadənin başçılıq etdiyi Azərbaycan Demokratik Respublikası bu ideyaların real təcəssümü idi.

Ümumiyyətlə maarifçilik fəlsəfəsi azərbaycan xalqının çoxəsrlik ictimai-siyasi və mədəni tarixində öz zənginliyi ilə seçilən xüsusi mərhələni təşkil edir.

## 10. Nəriman Nərimanov

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın böyük şəxsiyyətləri sırasında həkim, ədib, görkəmli dövlət xadimi N.Nərimanovun (1870-1925) xüsusi xidmətləri vardır. Əvvəl maarifçiliyin, 1905-1907 illərdən sonra marksist-leninçi fəlsəfəsinin mövqeyinə keçən, 1917-ci ildən isə ardıcıl marksist filosof olan N.Nərimanov məqalələrində, marksist fəlsəfəsinə dair «Kommunizmin idrak yolu» monoqrafiyasında dialektik və tarixi materializmin əsaslarını şərh etmiş, fəlsəfi terminologiyanın Azərbaycan dilində təhlillərini verməyə çalışmışdır. O, elmi biliklərin yayılması, dinin dövlətdən ayrılması ideyalarını əsaslandırmış, «sənət sənət üçün» konsepsiyasına tənqidi yanaşmışdır.

Nəriman Nərimanovun həyatı və fəaliyyəti Azərbaycan tarixi və ictimai-ədəbi fikrinin yeni dirçəlmə dövrünə təsadüf etmişdir. Xalq içərisindən çıxmış, bütün həyatı boyu geniş və çoxcəhətli ictimai, ədəbi və siyasi fəaliyyəti ilə xalqın azadlığı və səadəti uğrunda mübarizə aparmış Nəriman Nərimanov azərbaycan maarifçi-realist və inqilabçı-demokratik ədəbiyyatının inkişafında, onun yeni mütərəqqi keyfiyyətlərlə zənginləşməsində müstəsna rol oynamışdır.

Azərbaycan ədəbiyyatında Nəriman Nərimanov mütəfəkkir yazıçı və materialist filosof M.F.Axundovun yaratdığı ədəbi məktəbin klassik ənənələrinin qüdrətli davamçısı olmuşdur. O, bir müəllim, ədəbiyyatımızda tarixi faciə janrının banisi, nasir, jurnalist, publisist və teatr xadimi kimi milli mədəniyyətimizin inkişafına səmərəli təsir göstərmişdir. (N.Nərimanov. Seçilmiş əsərləri. Bakı, Lider, 2004 s .5).

Demokratiya və humanizmin təbliğatçısı, ardıcıl beynəlmiləlçi olan N.Nərimanov öz nəzəri irsində və milli bərabərsizliyi kəskin tənqid etmişdir.

Müəyyən dövr marksizmin, xüsusən «bütün məzlumların və bəşəriyyətin müəllimi hesab etdiyi» Leninin irsinin Şərq üçün

əhəmiyyətli olacağı fikri N.Nərimanovun ictimai görüşlərində xüsusi yer tuturdu. Sovet hakimiyyətinin real siyasəti N.Nərimanovun bu hakimiyyətə və onun rəhbərlərinə inamını itirir və o, oğluna yazdığı etiraf məktublarında V.İ.Lenin - İ.V.Stalin diktaturasının xalqa və beynəlmiləlçiyə vurduğu ziyana və terror siyasətinə açıq etirazını gizlətmirdi.

Marksizm nəzəriyyəsi ilə proletar diktaturası siyasəti arasında ziddiyyəti cəsarətlə açıqlayan N.Nərimanov «Ucqarlarda inqilabımızın tarixinə dair» əsərində sovet hökümətinin Şərqi və Azərbaycanı «başdan-başa qarət etməsi, insanların kütləvi surətdə güllələnməsindən» bəhs edirdi.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Nəriman Nərimanovun ictimai siyasi fəaliyyətinə yüksək qiymət vermişdir:

«Nəriman Nərimanovun əməkçi kütlələri maarifləndirmək əzmi, insanlara xidmət etmək kimi nəcib bir arzusu, hadisələri dərindən başa düşməsi, istedad və bacarığı onu Azərbaycan demokratik və ictimai-siyasi fikir nümayəndələrinin ön cərgəsinə çıxartdı.

...Bizdən ötəri Mirzə Fətəli Axundov da, Əhməd bəy Ağayev də, Məmmədəmin Rəsulzadə də böyük şəxsiyyətlərdir, Nəriman Nərimanov da.

Nəriman Nərimanov öz dövrünün, yaşadığı mühitin çərçivəsində böyümüş görkəmli simadır, böyük siyasi xadimdir».

Azərbaycan xalqının xosbəxtliyi və səadəti uğrunda ömrü boyu inamla mübarizə aparan Nəriman Nərimanovun zəngin ədəbi irsi bu gün də öz aktuallığı ilə diqqəti cəlb edir. Ounun əsərləri ölkəmizdə milli müstəqilliyin, dövlətçiliyin möhkəmlənməsi və ərazi bütövlüyümüz uğrunda mübarizə aparan hər bir azərbaycanlı üçün qiymətli və əzizdir. (prof. Teymur Əhmədov).

**11. Məhəmmədağa Şaxtaxtlı**

Görkəmli publisist M.Şaxtaxtlı (1848-1930) zəngin elmi irs qoymuşdur. O, 1869- cu ildə Leypsiq Universitetini bitirmişdir.

M.Şaxtaxtlı ilk dəfə olaraq müsəlman əlifbasının təkmilləşdirilməsi ideyasını irəli sürmüş, məktəbləri və ümumiyyətlə, təhsili Avropa maarifinin prinsipləri əsasında qurmağı təklif etmişdir. O, ümumiyyətlə, Avropa həyat tərzinə yaxınlaşmağın vacibliyini bildirmişdir.

M.Şaxtaxtlının 1903-cü ilin 30 martından nəşrinə başladığı «Şərqi – Rus» qəzetinin əsas məqsədlərindən biri də türk-müsəlman xalqlarını maarif və mədəniyyətə səsləməkdən, xalqı mədəni intibaha, ana dili, əlifba islahatı və bir çox mühüm problemlərə cəlb etməkdə idi. Qəzetin əsas amalı Azərbaycan xalqını dünyanın mədəni millətləri sırasında görməkdən ibarət idi. Qəzet ilk nömrələrindən başlayaraq zəhmətkeşlərin hüququnun toplanması, dini xurafat əleyhinə çıxış edib, fikir, söz, vicdan, qadın azadlığı və yeni əlifba uğrunda mübarizəyə başlamışdı.

Akademik İsa Həbibbəyli haqlı olaraq qeyd edirdi ki, görkəmli şərqşünas Mirzə Kazım bəyin Azərbaycan baxımından «Rusiyada gördüyü işi Avropada Məhəmmmədağa Şahtaxtlı həyata keçirmişdir. O, bizim Avropadakı Kazım bəyimizdir».

Məhəmmədağa Şahtaxtlı «azadlıq» məfhumundan söhbət açmaqla, onun mənasını anlatmaqla oxucuları ayıldır, onların «insan oğlu insan» kimi yaşayıb, öz hüquqlarını dərk etmələrinə çalışırdı. O yazırdı ki, fikir yoxluğu millətləri öldürür, fikir ixtilafı isə millətlərin zindəganlığına lazım və vacib şərtlərdəndir.

M. Şahtaxtlı mühitə, quruluşa, əsarətə qarşı etiraz oyatmağa çalışır və bunun üçün ilk növbədə sərbəst fikir, açıq mülahiz hüququ əldə etmək zərurətini anladırdı.

Bütövlükdə «Şərqi-Rus», İ.İ.Russo, D.Didro, Ş. Monteskye, S.Simon, İ.V.Hötte, L.N.Tolstoy və başqa nəhəng şəxsiyyətlərin və maarifçilərin irsindən bəhrələnirdi.

«Şərqi-Rus» öz oxucularına öyrədirdi ki, yalnız milli çərçivə daxilində qapanıb qalmaqla əsl mədəniyyətə çatmaq olmaz. Ümumiyyətcə, M.Şahtaxtlı irsinin və bütövlükdə «Şərqi-Rus»un maarifçilik fəaliyyətinin geniş tədqiqə ehtiyacı vardır.

Məhəmmədağa Şahtaxtlını ölkəmizdə ilk azərbaycanşünaslardan biri hesab etmək olar. Onun 7 aprel 1882-ci ildə «Qafqaz» qəzetində çap etdirdiyi «Müsəlmanların məktəb həyatı» adlı məqaləsində Azərbaycanşünaslıq haqqında ilk mülahizələr irəli sürülmüşdür. O vaxta qədər heç bir mətbuat orqanında Azərbaycan xalqının adı ilə bağlı məsələ gündəliyə gətirilməmişdir.

M. Şahtaxtlı 1891-ci ildə «Kaspi» qəzetində çap etdirdiyi «Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı» adlı məqaləsindəki fikirlər 9 il əvvəl yazdığı «Müsəlmanların məktəb həyatı məqaləsində tezis şəklində irəli sürülmüş mülahizələrin daha da inkişaf etdirilərək elmi cəhətdən əsaslandırılmış variantıdır.

Məhəmmədağa Şahtaxtlının «Zaqafqaziya müsəlmanlarını necə adlandırmalı?!» məqaləsi azərbaycanşünaslığın ilk elmi bünövrəsi, azərbaycanşünaslığın ilkin minimum proqramıdır" (akademik İsa Həbibbəyli).

Fransız, rus, alman, ərəb, latın və başqa dilləri bilən Məhəmmədağa Şahtaxtlının fenomen bir şəxsiyyət kimi mədəniyyət, mətbuat, ədəbiyyat, dil, ictimai fikir tariximizdə əvəzsiz xidmətləri vardır.

XIX əsrin 80-ci illərində Qori müəllimlər seminariyasını bitirən R.Əfəndiyev (1863-1942), E.Sultanov (1862-1935), F.Köçərli (1863-1920), S.Mehmandarov (1856-1931), C.Məmmədquluzadə (1866-1932), S.S.Axundov (1875-1939), T.Bayraməlibəyov (1862-1937), M.Mahmudbəyov (1849-1923) əsas diqqətlərini müsəlman aləmində çox yayılan xurafat və fanatizmin sosial mənasının və onun icra etdiyi vəzifələrin araşdırılmasına, islamda kök salmış təriqətçiliyin tənqidinə, xalqın milli şürunun yüksəlişinə yönəltmişlər.

## 12. Türkçülük. Ziya Gökalp

Şərq fəlsəfəsi ilə yanaşı XIX əsrin axırları-XX əsrin əvvələrində Türkiyədə Avropa fəlsəfəsi və sosiologiyası da öyrənilirdi. XVIII əsr fransız maarifçilərinin baxışlarına, O.Kont və E.Dyürkheymin sosiologiyasına meyl daha güclü idi.

XX əsrin birinci rübündə Türkiyədə görkəmli sosioloq və filosof Ziya Gökalpın (1876-1924) fikirləri daha geniş yayılmışdı.

Türkçülüyü nəzəri cəhətdən əsaslandırıb müstəqil ideoloji cərəyana çevirən Gökalp, bu təlimi türk xalqlarının tərəqqisi yolunda ən böyük bir qüvvə hesab edir və yazırdı: «Türkçülük – türk millətini yüksəltmək deməkdir». Türkçülüyün əsaslarını tədqiq edən filosof millət anlayışına da tərif verirdi: «...Millət – nə irqə, nə qövmə (tayfaya), nə coğrafiyaya, nə siyasətə, nə də iradəyə bağlı bir topluluq deyildir. Millət, dil, din əxlaq və bütün gözəl sənətlər-estetika baxımından ortaq olan, yəni eyni tərbiyəni görmüş fərdlərdən ibarət bir zümrədir». O, sözünə davam edərək yazırdı: «İnsan üçün mənəviyyat-mənəvi quruluş maddiyyatından-maddi quruluşundan öncə gəlir. Buna görə milliyyətdə şəcərə (soy kötüyü) axtarılmaz. Yalnız tərbiyənin və ülgünün-məfkurənin milli olması aranır».

Gökalp türkçülük idealını üç qrupa ayırırdı: 1) türkiyəçilik; 2) oğuzçuluq; 3) turançılıq. Onun fikrincə kültür (hars) cəhətdən «birləşməsi asan olan türklər oğuz türkləridir» (Türkiyə türkləri, Azərbaycan türkləri, türkmənlər və b). Gökalp göstərirdi ki, bu birliyin məqsədi hələ siyasi birlik ola bilməz, «...bu günkü ülgümüz (idealımız) oğuzların yalnız kültürcə (harsca) birləşməsidir.

O, «türkləşmək, islamlaşmaq, avropalaşmaq» şüarını müdafiə edir və bu cərəyanlar arasında heç bir ziddiyyət olmadığını göstərirdi. Gökalp qeyd edirdi ki, «Millətini tanı, ümmətini tanı, mədəniyyətini (sivilizasiyalarını) tanı». Ona görə də «ictimai inamımızın birinci düsturu bu cümlə olmalıdır: «Türk

millətindənəm, islam ümmətindənəm, Qərb mədəniyyətindənəm».

Gökalp inanırdı ki, ümumi vətən əxlaqı olmasa milli həmrəylik də ola bilməz. O, göstərirdi ki, vətən yalnız üstündə yaşadığımız torpaq deyil, «...vətən əxlaqı milli ülgülərindən (ideallardan), milli vəzifələrdən meydana gələn bir əxlaq deməkdir».

Gökalpın fikrinə görə milli həmrəyliyin «vətəni əxlaq»dan sonra ikinci təməli-«mədəni (sivil) əxlaq»dır. «Mədəni (sivil) əxlaq» ilkin yurdaşlarımızı, sonra dindaşlarımızı, ən sonra da bütün insanları sevməkdən və hörmətə layiq bilməkdən ibarətdir».

Bir ideoloq kimi o göstərirdi ki, türkçülük heç vaxt sinfi-siyasi mahiyyət daşıya bilməz. «Türkçülük siyasi bir partiya deyildir, elmi, fəlsəfi, estetik bir məktəbdir, başqa bir deyimlə, kültürlə bağlı bir çalışma və yeniləşmə yoludur. Bu səbəbdəndir ki, türkçülük indiyə qədər bir partiya şəklində siyasi mübarizə meydanına atılmadı, bundan sonra da şübhəsiz atılmayacaqdır. Bununla birlikdə, türkçülük büsbütün siyasi ülgülərə biganə də qalmır».

Gökalpın fikirləri Türkiyədə sosial-siyasi və fəlsəfi fikrin inkişafına böyük təsir göstərmişdir. Hətta Mustafa Kamal Atatürk onu özünün mənəvi atası hesab edirdi.

*Yoxlama sualları:*

1. Maarifçiliyin əsas prinsipləri.

2.XIX əsrin birinci yarısında Azərbaycanda maarifçilik – A.Bakıxanov.

3. XIX əsrin ikinci yarısında Azərbaycanda maarifçilik – M.F.Axundov, H.Zərdabi.

4. XIX əsrin sonu- XX əsrin əvvələrində Azərbaycanda maarifçilik.

5. Ölkənin gələcək inkişafı üçün model seçimi: Avropa modeli və Şərq modeli. Bu modellərin tərəfdarlarının nümayəndələri.

6. Azərbaycan maarifçiliyinin xüsusiyyətləri.

7. N.Nərimanovun dünyagörüşü.

8. Türkçülüyün ideologiyası

9. M. Şahtaxtlının maarifçi görüşləri

# VII MÖVZU
# XX ƏSRİN BİRİNCİ YARISINDA FƏLSƏFƏ

## 1. Psixoanaliz

Psixoanaliz (yun. psyche – ruh və təhlil) ilk növbədə tibbi praktika metodu və sahəsi, həmçinin təhtəlşüuri psixi prosesləri diqqət mərkəzinə gətirən psixoloji təlimdir. Psixoanalitik fəlsəfə haqqında da danışmaq mümkündür. Buraya Ziqmund Freydin (1856-1939) konsepsiyasını və onun ardıcıllarından K.Q.Yunq (1875-1961), E.Fromm (1900-1980), A.Adler (1870-1937), K.Xorni (1885-1952) və başqalarının fəlsəfi görüşlərini aid etmək olar. Bu mənada ayrı-ayrı intellektual fenomenlər olan freydizm və neofreydizmi nəzərə almaq lazımdır. Ziqmund Freydin təlimi əsasında formalaşmış fəlsəfi konsepsiyaların belə bölgüsü zamanı meydana çıxan anlayış və suallar şərti xarakter daşıyır (məsələn, K.Q.Yunqun neofreydizmə aid edilməsi). Bununla belə müasir fəlsəfə psixoanaliz nümayəndələrinin onun inkişafına verdiyi töhfələrsiz keçinə bilməz.

Ziqmund Freyd avstriyalı nevropotoloq, psixiatr və psixoloq, psixoanalizin banisidir. Freyd təliminin mərkəzində psixi olanın təhtəlşüuri konsepsiyası dayanır. Təhtəlşüurun tədqiqi heç də Freydin kəşfi deyil, onun təliminin prinsipial yeniliyi, psixi pozğunluqlarla yanaşı şüurlu və təhtəlşüuri proseslərin tədqiq olunduğu psixikanın dinamik modelinin verilməsindədir. Freyd insanı digər canlılardan əhəmiyyətsiz dərəcədə fərqlənən təbii mövcudluq kimi müəyyənləşdirirdi. Fərq yalnız insan şüurunun ətraf aləmlə münasibətdə vasitəçilik etməsindədir. Freyd iki əsas prinsipi fərqləndirirdi: həzz prinsipi (canlı orqanizmlərin ümumi prinsipi) və gerçəklik prinsipi. Bu prinsiplə insan həzz prinsipini mənimsəyir, əgər həvəslərin təmin olunması onların yaşamını təhdid edirsə, onları kənarlaşdırır, təhtəlşüura sıxışdırmaqla cilovlayır.

Freyd üçün əsas məsələ insanın şüurlu həyatını müəyyənləşdirən və psixikanın dərin özülü olan təhtəlşüur anlayışıdır. Psixikanın modelini hazırlayan Freyd ilk olaraq şüuru və təhtəlşüuru fərqləndirir. Lakin, sonradan (1920-ci illərdə) Freyd psixikanın yeni struktur modelini təklif edir. Burada əsas instansiyalar aşağıdakılardır:

1) "O"- ətraf aləmlə əlaqədən məhrum və subyektivlə obyektivin fərqini sezməyən, psixi enerji və həvəslərin məkanı olan psixi aparatın şəxssiz, təhtəlşüuri hissəsi;

2) "Mən"- gerçəklik prinsipi ilə idarə edən yaradıcının sferası. Şüurlu sıxışdırmaya əsaslanan müdafiəedici mexanizmlərin köməyi ilə "O"nun irrasional impuslarını gizlədir (proeksiya, inversiya);

3) "Fövqəl-Mən" – təhtəlşüuri fəaliyyət göstərən və şüurda vicdan kimi təzahür edən, fərdin əxlaqi ustanovkalarının mənbəyi kimi çıxış edən tərbiyəedici ehtiyac və həvəsləndirmələrin, sosial normaların intraeksiyası (hərfi mənada "daxilə tullama") nəticəsində əmələ gəlmiş sfera.

İnsan psixikasının dərin təbəqəsi təbii instinktlər əsasında fəaliyyət göstərir. Bu instinktlərdən Freyd nəslin davam etdirilməsi (seksual həvəs) instinktini və özünüqoruma, "Mən" instinktini ayırır. Son nəticədə Freyd buraya ümumiləşdirici "libido" (lat. libido – həvəs, arzu, cəhdetmə), sıxışdırma və transformasiyaya (sublimasiyaya) qadir şüursuz seksual həvəs anlayışını daxil etmişdir. Lakin sonradan seksual "eros" həvəsi ilə yanaşı Freyd təcavüzkar destruktiv həvəs, "ölüm instinktini" ("tanatos") fərqləndirmişdir.

Freyd ideyaları sonrakı inkişafını xarakterlərin tipologiyalarını hazırlamış Karl Qustov Yunqun konsepsiyasında tapmışdır. Onun dünyagörüşünün əsasında hökmran psixi funksiyalar və onların ali, yaxud daxili dünyaya aparıcı istiqamət verən mahiyyəti dayanır. Belə ki, dörd əsas psixi funksiyanı ayıran Yunq fərdin dörd fikri tipini müəyyənləşdirir.

təfəkkür – fikri olan;

hiss – hissiyyatlı;
duyğu – sensor;
intuisiya – intuitiv.

İnsanlar temperamentlərinə uyğun iki tipə bölünürlər: ekstravertiv (libidonun xaricə istiqamətlənməsi) və introvertiv (libidonun daxilə istiqamətlənməsi).

Yunqda mərkəzi anlayış olan kollektiv təhtəlşüur beyinin strukturlarında həkk olunmuş əvvəlki nəslin təcrübəsinin inikası, nəsildən-nəslə ötürülən və fərdi psixikanın əsası olan nəslin həyatının yekunudur. Kollektiv təhtəlşüurun məzmununu arxetiplər (yun. arche – başlanğıc, typos - obraz), anadangəlmə ilkin psixi strukturlar, ümuminsani ilkobrazlar (iblis, qəhrəman obrazları) təşkil edir. Yunqa görə əsas arxetip Eqo ("Mən") şüur mərkəzindən fərqli olan şəxsiyyətin potensial mərkəzi kimi "özlük" arxetipidir.

Neofreydizm adlandırılan cərəyana bəzi, əsasən diqqəti psixoanalizin sosial aspektlərinə yönəldən tədqiqatçıları da aid etmək olar. Ona görə də neofreydizmi daha çox, Freydin biologizminə qarşı dayanan "kulturalist" məktəb kimi dəyərləndirirlər.

Erix Fromm psixoanaliz, ekzistensializm və marksizm elementlərini birləşdirən özünəməxsus konsepsiya yaratmışdır. Bu konsepsiyaya görə insan "ekzistensial dixotomiyalar", total ziddiyyətlər sferasında mövcud olur. İnsan təbiətin bir hissəsidir, lakin onun hüdudlarından kənara çıxır, və əbədi dəyərləri qəbul edir, dünyəvi tamdan ayrıdır və dünya ilə harmoniyaya can atır. Fromm insanın iki tipini ayırır: produktiv (reproduktiv və generativ kimi iki hissəyə bölünür) və qeyri-produktiv. Fromma görə, tarix insan mahiyyətinin ona düşmən sosial strukturlar şəraitində inkişafıdır. O, fərdin psixikası ilə cəmiyyətin sosial strukturu arasında əlaqə forması kimi sosial xarakterlər haqqında təlim işləyib hazırlamışdır. Sosial strukturun təsiri altında insanın özünü özgələşdirməsinin inkişafının

hər bir mərhələsinə müəyyən sosial xarakter uyğun gəlir: toplayıcı, istismaredici, resentiv (passiv), bazar.

Karen Xorni şəxsiyyətin əsas həvəsləndirici motivini, fərdin qorxu hissindən törəyən təhlükəsizliyə canatmasında görürdü. O şəxsiyyətin davranışının onu əhatə edən insanlara münasibətdə üç formasını fərqləndirirdi. Eyni zamanda, davranışda bu formalardan birinin üstünlük təşkil etməsi nevrotik şəxsiyyətin üç tipindən birinin yaranmasına səbəb olur, çünki onların hamısı, patolojidir. Onda insanın qorxu və həyəcanı nəinki yox olur, əksinə inkişaf edərək, yeni münaqişələr yaradır:

- insanlara xidmət göstərən, məhəbbət təqdir edən;
- insanlardan və cəmiyyətdən uzaqlaşmağa cəhd edən;
- insanlara qarşı hakimiyyət yanğısı olan, təcavüzkar.

## 2. Analitik fəlsəfə

Analitik fəlsəfə Qərbi Avropa (xüsusilə ingilis-amerikan) fəlsəfəsinin ən görkəmli cərəyanlarından biridir. Bu istiqamətin nəzəri əsasını fəlsəfənin idrakın anlayış vasitələrinin təhlilinə gətirilməsi təşkil edir. Bütövlükdə o biliyin əsaslarının tədqiqinə müraciət edən tamamilə müxtəlif xarakterli cərəyandır. C.E.Mur (1873-1958), B.Rassel (1872-1970), məntiqçi və riyaziyyatçı Q.Freqe (1848-1925) və L.Vitgenşteyni (1889-1951) analitik fəlsəfənin nümayəndələri hesab etmək olar. Mahiyyət etibarilə analitik fəlsəfə şərti olaraq məntiqi təhlil fəlsəfəsinə (Freqe, Rassel, Vitgenşteyn) və linqvistik təhlil fəlsəfəsinə (Mur, Vitgenşteyn) bölünür. O, müəyyən fəlsəfi konsepsiya kimi deyil, daha çox filosofluq etmə tərzi kimi təqdim edilə bilər. Analitik fəlsəfənin bütün nümayəndələri üçün ümumi olan cəhət fəlsəfi probelmlərin həllində məntiq və linqvistikanın ən yeni nailiyyətləri nəzərə alınmaqla dinin hərtərəfli tədqiqidir. Burada linqvistik fəlsəfəyə və məntiqi təhlil fəlsəfəsinə uyğun olaraq iki yanaşmanı göstərmək olar:

1) fəlsəfi problemləri daha yaxşı aydınlaşdırmaq üçün linqvistik ifadələrdən istifadənin məxsusiyyətələrini aşkarla-

maq və fəlsəfi terminologiyanı müəyyənləşdirmək məqsədilə təbii dillərin tədqiqi;

2) məntiqi strukturu dəqiq müəyyən edilmiş süni dillərin yaradılması.

Analitik fəlsəfənin son məqsədi fikrin strukturunun aşkarlanması, dil və gerçəkliyin dəqiq uyğunluğuna nail olunması, terminoloji instrumentarinin hərtərəfli müəyyənləşdirilməsidir.

Corc Edvard Murun konsepsiyası üç əsas problemi ehtiva edir: idealizmin tənqidi, sağlam fikrin müdafiəsi, analitik metodun hazırlanması. Mur şüur aktı və obyekti ciddi fərqləndirməklə təcrübənin gerçəkliklə idealist eyniləşdirilməsini tənqid etmişdir. "Sağlam fikir" fəlsəfəsinə görə dünyada, yalnız maddi cisimlərin bəziləri ilə əlaqədə olan maddi obyekt və şüur aktları mövcuddur. Mura görə yeni təfəkkür üsulunun əsasında nisbətən ümumi müddəaların həqiqiliyi (məsələn, fiziki obyektlərin mövcudluğu haqqında müddəalar) durur. Mur tənqidə məruz qalmayan və müdafiəyə ehtiyacı olmayan aşkar faktları, sadə və mübahisəsiz həqiqətləri fərqləndirməyə çalışır.

Təhlil dedikdə Mur bir anlayış və yaxud mühakimənin, ona məntiqi ekvivalent olan digər anlayış və yaxud mühakimənin köməyi ilə müəyyənləşdirilməsi metodunu dərk edir. O qeyd edir ki, təhlilin mahiyyəti anlayış və mühakimələrin aşkarlanmasıdır.

Qotlib Freqe "məntiqi semantizm" (məntiqi semantika) adını almış konsepsiya işləyib hazırlamışdır. Freqe məna (obyekt haqqında məzmunlu informasiyada əksini tapmış) və qiyməti (obyektin bəzi ifadəsi ilə işarələnmiş) fərqləndirmişdir. Ona görə əşyanın "adında" əksini tapmış informasiyanı mənimsəməklə insan, uyğun adın mənasına nüfuz etməyə qadirdir. Freqe xüsusi adları (konkret əşyaların işarələnməsi), funksiyaların adlarını (anlayış, təsvir) və hökmləri (xüsusi məntiqi əşyaların adı) fərqləndirir.

Bertran Rassel məntiqi atomizm konsepsiyasını yaratmışdır. Bu konsepsiyaya görə, məntiqi təhlilin əsas anlayışı daha sadə

mühakimələrə bölünməyən "elementar", "atomar" mühakimələrdir. Məntiqi əməliyyatların köməyi ilə onlardan digər bütün mühakimə formaları, "molekulyar" sistemlər qurulur. Rasselə görə ad və təsviri ayırmaq lazımdır. Belə ki, bunların hər ikisi işarənin obyektə münasibətinin fərqli münasibətidir. Eyni zamanda adlar müəyyən (konkret əşyaya aid olanlar) və qeyri-müəyyənə (əşyalar sinfinə aid olanlar) bölünür.

Məntiqin fəlsəfənin mahiyyəti olduğunu bildirən Rassel sübut etməyə çalışırdı ki, "hər bir həqiqi fəlsəfi problem təhlilin problemidir".

Lüdviq Vitgenşteyn təkcə analitik deyil, bütün XX əsr fəlsəfəsinin ən orijinal mütəfəkkirlərindən biridir. Vitgenşteynin yaradıcılığını iki dövrə bölmək olar. Bu dövrlərin hər biri prinsipial fərqli konsepsiyaların yaranması ilə əlamətdardır:

- İlkin dövr (1912-1918), "Məntiqi-fəlsəfi traktat", 1921
- Sonrakı dövr (1929-1951), "Fəlsəfi tədqiqatlar", 1953.

Lakin, Vingenşteynin konsepsiyalarının əks qütblərdə dayanmasına baxmayaraq, onların hər ikisi bir məsələnin, verbal düşünmə və obyektiv gerçəkliyin korrekt uyğunlaşdırma üsulunun formulə edilməsinə yönəlmişdir. Bu fəlsəfədə hər iki konsepsiya ilk növbədə aydınlaşdırmaya yanaşmaları ilə fərqlənir. "Məntiqi-fəlsəfi traktat" məntiqi təhlil prosedurlarını tədqiq edirsə, "Fəlsəfi tədqiqatlar" linqvistik təhlil üsullarını öyrənir.

"Məntiqi-fəlsəfi traktatda" obrazı riyazi məntiq dili olan "məntiqcə təkmil", "ideal dil" konsepsiyası irəli sürülür. "Traktatın" mahiyyəti biliyin məntiqi əməliyyatlarla əlaqəsinin "atomar" hökmlərin toplusu kimi anlaşılması və analogiyada biliyin məntiqi quruluşuna dünya strukturlarının daxil edilməsidir ("dil – məntiq – gerçəklik" məntiqi modeli üzrə).

Vitgenşteyn "Fəlsəfi tədqiqatlarda" isə əksinə, "ideal" dilə yanaşmanı tənqid edir və gerçək dil praktikasına, təbii dilə müraciət edirdi. "Fəlsəfi tədqiqatların" mərkəzində "dil və fəaliyyətdən ibarət bütöv" kimi təhlil edilən dil oyunlarının anla-

şılması dayanır. Dil oyunları, nitq praktikasının nümunələri, fikir, söz, iş və tətbiq şəraitinin vəhdəti, insan düşüncələrinin dilin aydınlaşdırılmasını təşkil edən, kateqoriyaların aşkarlanmasına istiqamətlənmiş özünəməxsus analitik metodudur. Lüdviq Vitgeynşteynin əsas ideyası fəlsəfənin daimi aşkarlıq axtarışı kimi başa düşülməsidir. "Ümumiyyətlə, hər nə demək mümükünsə, aydın deyilə bilər, ifadə edilməsi mümkün olmayanlar haqqında isə susmaq lazımdır".

### 3. Personalizm

Personalizm (lat. persona – şəxsiyyət) XX əsrin birinci yarısı Avropa fəlsəfəsində teist istiqamətdir. Bu cərəyan şəxsiyyəti ilkin yaradıcı gerçəklik, ali mənəvi dəyər və varlığın mənəvi ilk ünsürü, eyni zamanda dünya inkişafının müxtəlif pillələrində olan mənəvi şəxsiyyətlərin toplusu kimi qəbul edir.

Dünyanın özü isə ali şəxsiyyət olan Allahın yaradıcı fəallığının təzahürüdür. Personalizmin nümayəndələri:

1) Rusiyada – N.A.Berdyayev (1874-1948), L.İ.Şestov (1866-1938), N.O.Losski (1870-1965),

2) ABŞ-da – B.P.Boun (1847-1910), C.U.Xayson (1834-1916), M.U.Kalkins (1863-1930), A.K.Kiudson (1873-1954), R.T.Flüellinq (1871-1960), E.Ş.Braytmen (1884-1953),

3) İngiltərədə - X.U.Kerr (1857-1931),

4) Almaniyada – V.Ştern (1871-1938),

5) Fransada – E.Munye (1905-1950), J.Lakrua (1900-1986) olmuşlar.

Personalizmdə mərkəzi kateqoriya antropoloji və psixolojidən ontoloji kateqoriyaya çevrilən şəxsiyyət anlayışıdır. Şəxsiyyət varlığın fəlaiyyət və iradə aktivliyinin mövcudluğun kəsilməzliyi ilə qovuşduğu əsas təzahürüdür. Şəxsiyyət idrakın klassik subyekti deyil, fərdi təkrarolunmazlığın əsas götürüldüyü insan şəxsiyyətidir. Personalizm fəlsəfəsinin mərkəzi problemi özünün tarixi mahiyyətini aşkarlamağa cəhd edən şəxsiyyətin universal inkişafı məsələsidir.

Personalizmdə insanın yaradıcı subyektivliyinin şərhi yalnız onun ali şəxsiyyət-allahla münasibətində mümkündür. Şəxsiyyətin mərkəzi olan insan ruhu özündə kosmik enerjini ümumiləşdirir. Personalizm daha çox şəxsi mövcudluq və iradənin ifadəsinin mütləq ideya və onun iradəsi ilə münasibətinə əsaslanmış dini fəlsəfədir. Şəxsiyyət azad iradəyə malikdir, bu isə allah iradəsinin məhdudlaşdırılmasının nəticəsidir. İradə azadlığı insanlara sülh yaradılmasında və dünyəvi xeyrin gerçəkləşdirilməsində iştirak etməyə imkan verən hədiyyədir. Beləliklə, bir tərəfdən personalizmin əsas etik prinsipi əsaslandırılır, digər tərəfədən ilahi yaradıcının özünü məhdudlaşdırması kimi azad iradə ideyası teodiseya (yun. theos – allah, dike – hüquq, ədalət), allahı müəyyənləşdirmə, dünyada hökm sürən şərə görə allahın cavabdehlikdən azad edilməsi irəli sürülür.

Rusiyada personalizm subyekt və obyekt, materializm və idealizm arasındakı ziddiyyətləri dəf etmək, fəlsəfədə "üçüncü xətti" tapmaq cəhdi kimi özünü göstərmişdir.

ABŞ-da personalizmin mərkəzi ideyası fəal iradəli fərd prinsipidir. İnkişaf etdirilmiş formada bu konsepsiya şəxsiyyət dünyasının təbiət dünyasına qarşı qoyulmasını əks etdirir, həm də məhz birinci varlığın həqiqi sahəsidir. ABŞ-da personalizm əsasən protestant teologiyası zəminində inkişaf etmişdir.

Fransız personalizmi XX əsrin birinci yarısının ən parlaq intellektual cərəyanlarındandır. Personalizmin bu qolu katolisizmin təsiri altında inkişaf etmiş və bu da onun dini istiqamətliyini şərtləndirmişdir. Personalizmin banisi və əsas nəzəriyyəçisi Emmanuel Munyenin sözləri ilə desək, "insan mövcudluğunun dərin mənası ondadır ki, o öz ruhunun sirrini dəyişmək üçün ilahi səltənəti özündə və yerdə təcəssüm etdirməlidir". Beləliklə, vurğu ilahi dəyərlərin təcəsümü kimi insan fəaliyyətinin üzərinə qoyulur. Munyeyə görə şəxsiyyət, gerçəkliklə münaqişədədir, şəxsiyyətin daxili xassələri onu fəaliyyətçilik və totalitarizm ifratçılığından qoruyur.

## 4. Dini fəlsəfə

XX əsrin dini fəlsəfəsi fəlsəfi mədəniyyət çərçivəsində son dərəcə müxtəlif istiqamətli hadisədir. İlk növbədə, dini fəlsəfəyə bütöv kimi yanaşmaq olmaz. Bu baxımdan aşağıdakı cərəyanları fərqləndirmək lazımdır:

- Katolisizm fəlsəfəsi, J.Mariten (1882-1973), E.Jilson (1884-1978); Q.Marsel (1989-1973), P.T. de Şarden (1881-1955);
- Protestantizm fəlsəfəsi, K.Bart (1886-1968), P.Tillix (1886-1965); R.Bultman (1884-1976), R.Nibur (1892-1971), A.Şveyser (1875-1965);
- İudaizm fəlsəfəsi, M.Buber (1878-1965);
- İslam fəlsəfəsi, M.İqbal (1877-1938), M.M.Şərif (1965-ci ildə vəfat edib); C.X.Cubran (1883-1931), L.M.Əziz (1923));
- Rus dini fəlsəfəsi (P.A.Florenski (1882-1937), S.N.Bulqakov (1871-1944)).

Qərbi Avropa fəlsəfəsi çərçivəsində şübhəsiz ki, ilk növbədə xristianlığa diqqət yetirmək lazımdır. Həmçinin XX əsrin dini fəlsəfəsinin (təkcə xristian yox) əsas xüsusiyyəti dini təfəkkürün qeyri-ortodoksal fəlsəfəyə diqqət yetirməsidir. Bu da onların XX yüzilliyin aparıcı filosofları siyahısına düşməsinə imkan vermişdir. Bundan əlavə göstərilən dövrün dini yönümlü bir çox mütəfəkkirlərini qeyri-teoloji cərəyanlara aid etmək olar. Bu isə dini fəlsəfənin təkcə keyfiyyətcə yeni səviyyəyə keçməsi ilə yanaşı, həm də qərb cəmiyyətlərinin intellektual məkanında dini istiqamətin aradan qaldırılmasının mümkünsüzlüyündən xəbər verir.

XX əsr dini fəlsəfəsində nəhəng hadisələrdən biri Foma Akvinalının təliminə əsaslanmış katolik kilsəsinin rəsmi fəlsəfi doktrinası olan neotomizmdir. Neotomizmi Vatikan xristian ehkamçılığına uyğun gələn yeganə fəlsəfə kimi qəbul etmişdir. E.Jilson və J.Mariten neotomizmin görkəmli nümayəndələridir.

Bundan əlavə, V.Brugger, M.Qrabman, L. de Reymekar, U.Padovaninin də adını çəkmək olar.

Neotomizm metafiziki mövcudluqdan (ens) fərqlənən xalis varlığı (esse) tədqiq edir. Transsendent və immanent varlıq (allah və dünya) arasındakı bağlılığı dəf etmək üçün neotomistlər öz fəlsəfələrinə transsendental anlayışlar daxil edirlər (həqiqət, xeyir vəhdət). Neotomist ontologiyanın mərkəzində aristotelizmin təfsiri dayanır. Şeylərin əmələ gəlmə prosesi potensiyanın aktuallaşması kimi izah olunur. Belə ki, bütün mövcudluğun yeganə aktual başlanğıcı allah olduğu üçün, bütün sonlu şeylər onların yalnız İlahi varlığa nisbətdə başa düşülməsini mümkün edir. Obyektiv dünya haqqında danışarkən, neotomistlər materiya və forma kimi Aristotel anlayışlarından istifadə edirlər. Ali forma (formalar forması) materiya ilə əlaqəsi olmayan allahdır, lakin o, varlığın maddi üsul və növlərinin bütün çoxobrazlılığını əmələ gətirən ilkin materiya və formanı yaradır. Neotomizmin idrak nəzəriyyəsi varlığın rasional dərki imkanına əsaslanır, lakin, "varlığın mahiyyəti" "ikinci səbəbləri" dərk edən elmi idrakın sərhədlərindən kənarda qalır. "Sonlu səbəblərin" dərki isə fəlsəfə və teologiyanın vəzifəsidir. Neotomizm insan şəxsiyyətini azadlıq, özünüdərk, yaradıcı imkan və mənəvi aktda təzahür qabiliyyətinə malik fəaliyyətli, əbədi, mənəvi substansiya kimi qəbul edir. Cəmiyyət və dövlət məsələlərində neotomizm şəxsiyyətin cəmiyyətə, sosial təşkilatlarla bağlı münasibətlərinin üç tipini fərqləndirir: fərdiyyətçilik, kollektivçilik, həmrəylik. Neotomizmdə "yaxınına xristian məhəbbəti" birinci iki tipdən fərqli olaraq yeganə mümkün tip elan edilir.

Jak Mariten insanın iradə azadlığını alahi yaranışın davamı və ali yekunu kimi əsaslandırırdı: "allah mahiyyəti yaratmır, onlara varlığın yekun görünüşünü vermir", allah "mövcud subyektləri və yaxud əsasları" yaradır, lakin "fərdi mövcudolma gerçəkliyi" spontan inkişaf edir. Mariten yalnız yuxarıdan həll olunan fundamental antinomiyanı (insan azad və unikaldır,

insan "sonsuz və əbədi dünyada yalnız köpüyün kiçik burumudur") ayırır. Allah dünyanın həqiqi mərkəzidir, həm də bütün fərdi subyektivliklər onun "transsendent subyektivliyi" ilə əlaqələndirilməlidir. Mariten Avropa üçün ənənəvi antroposentrik deyil, teosentrik humanizmə əsaslanmış "inteqral humanizm" konsepsiyasını yaratmışdır. Mariten yaradıcı fəaliyyəti mədəniyyəti törədən və özündə "həqiqət, gözəllik və xeyir kimi ilahi transsendentalilərin" izini daşıyan insanın kamilləşməsi üçün dini şüur və Avropa humanizminin çoxobrazlı fenomenlərini cəmləməyi təkif etmişdir.

Etyen Jilson İlahi işıqla nurlanmış, zəka ilə yaradılan fəlsəfəni həqiqi fəlsəfə adlandırırdı. Fəlsəfə və teologiyanı fərqləndirən Jilson xristian allahı ilə "fəlsəfi allah" arasındakı prinsipial fərq haqqında danışır, xüsusilə allahın Foma Akvinalı və Rene Dekart anlamını təhlil edirdi. Jilsonun düşüncələrinin ümumi yekunu teologiya elm və rasionalist fəlsəfəyə deyil, allahla kəsilməz qarşılıqlı əlaqədə olan şəxsiyyətə müraciət edən dini-ekzistensial metafizikaya əsaslanmasıdır.

Pyer Teyyar de Şarden neotomizmin ana xəttindən kənarda təlim yaratmış katolik filosofudur. T.Şardenin təlimi "xristian təkamülçülüyü" adını almışdır. Onun fəlsəfəsinin əsas ideyaları aşağıdakılardır:

1) materiyanın ilahi ilə əlaqədə anlaşılması;

2) materiyanın xassəsi və universumun inkişaf göstəricisi kimi enerji anlayışının daxil edilməsi;

3) enerjinin tangensial və radial kimi iki yerə bölünməsi. Tangensial enerji entropiya (azalma) qanununa, radial enerji ilə təkamülün gedişində artma qanununa tabe olur;

4) Allahın mənəvi enerji şəklində "universum hüceyrəsinin hər bir hissəciyində əksini tapmış "təkamülün Məsih" kimi təfsiri. Bu həm də hərəkətverici və istiqamətləndirici təkamül gücüdür;

5) Kosmogenezin "xristogenez" kimi izahı. Burada Məsih "Omeqa köçməsi", kosmogenezin son məqsədi, inkişaf edən

kompatın fenomenlərinə "mənəvi impuls" verən "ilkin kosmik ümumvəhdət" kimi təzahür edir;

6) Təkamülün üç mərhələyə bölünməsi: "həyatöncəsi" (litosfer), "həyat" (biosfer), insanın fəaliyyəti və zəkası ilə biosferə göstərdiyi təsirlər toplusu (noosfer) (yun. nous – zəka, spharia – sfera, hərfən – zəka sferası).

XX əsrin dini mütəfəkkirlərindən biri, iudaizm ənənələrinə məxsus olsa da, xristian ənənələrini mənimsəmiş yəhudi filosofu Martin (Mardoxoy) Buber olmuşdur. Buber insan üçün dünyanın ikiliyinin mənbəyini əsas sözlərlə fərqləndirir: "Mən" – "Sən" birliyi və "Mən" – "O" birliyi. Buber "Mən" – "Sən" "əsas sözləri ilə yaradılmış "münasibətlər dünyasından" qurulan üç sferanı fərqləndirir:

- Təbiətlə həyat (münasibət nitq səviyyəsinə yüksəlmir);
- İnsanlarla həyat (münasibət nitqdə rəsmiləşir);
- Mənəvi mahiyyətlərlə həyat (münasibət nitqə malik deyil, lakin onu törədir).

Beləliklə, Buber fəlsəfəsinin mərkəzi elementi dünya ilə allahın, allah ilə insanın münasibətlərinin aydınlaşdırılmasıdır.

*Yoxlama sualları*

1. Z.Freydin psixi təhtəlşüur konsepsiyası
2. E.Frommun psixoanaliz konsepsiyası
3. Analitik fəlsəfənin əsasları
4. C.E.Murun konsepsiyası
5. Q.Freqenin "Məntiqi semantizmi"
6. Personalizm fəlsəfi cərəyanı və onun nümayəndələri
7. Dini fəlsəfənin ümumi xarakteristikası

# VIII MÖVZU
# EKZİSTENSİALİZM

## 1. Ekzistensializm. Əsas ideyaları və nümayəndələri

Ekzistensializm (lat. exsistensia – mövcudluq) XX əsrin əvvəllərində yaradılmış Qərbi Avropa fəlsəfəsinin mərkəzi cərəyanlarından biridir. Ekzistensializm irrasional xarakterli cərəyandır, onu bütövlükdə fəlsəfi dünyagörüşün əsas məsələlərinin yenidən radikal düşünülməsi də hesab etmək olar. Bu cərəyanın adı onun proqramının mahiyyətini açıqlayır, "mahiyyətlərin" klassik fəlsəfəsi insan mövcudluğu fəlsəfəsi ilə əvəzlənir. S.Kyerkeqor fəlsəfəsi, E.Husserl fenomenologiyası, həyat fəlsəfəsi onun əsas mənbələridir. Ekzistensializmin mərkəzi ideyası insan mövcudluğu və onun unikal xüsusiyyətləri haqqında təlimin inkişaf etdirilməsidir. Mövcudluq və yaxud ekzistensiya özlüyündə insanın subyektivliyinin nüvəsini nümayiş etdirir. Bu nüvəyə əsasən insan "Məni" konkret və təkrarolunmaz şəxsiyyət kimi çıxış edir.

Ekzistensiya insan varlığıdır, "dünyada varlıqdır", yeganə ilkin və həqiqi varlıqdır. Ekzistensializm insan varlığını subyekt və obyektin bölünməz bütövlüyü kimi dərk etməyə cəhd edir. Ekzistensializm əsas prinsipi obyektin və subyektin (rasionalist fəlsəfənin subyekti şəxssiz və elmi tədqiqat üçün əlçatan olan nəsədir) dəqiq fərqləndirilməsi olan elmin və rasionalist fəlsəfənin metodlarını tənqid edir. Belə ki, ekzistensiya vasitəli (düşüncəvi təfəkkürlə) dərk edilə bilməz. O obyekt və subyektin bütövlüyünü özündə saxlayaraq, ayrı-ayrı obyektlərə bölünmür, ona görə də düşüncəli-elmi təfəkkürə əlçatan deyildir. Ekzistensializmin əsas anlayışlarından biri ekzistensiya olan azadlıqdır. Azadlıq öz-özünü seçimdir, özündə hər an mövcudluğu formalaşdırmadır. Lakin azadlıq insan şəxsiyyəti kimi təyinatı olan əbədi cavabdehlikdir. Bu mənada azadlıqdan imtina öz-özündən imkanı, şəxsiyyət olaraq özündən imtinanı və şəxssiz dünyaya dalmanı bildirir. Şəxssiz

dünyada azadlıq və cavabdehlik yoxdur, orada insana münasibətdə hər şey "başqadır", hətta o özünə münasibətdə də "başqadır".

Ekzistensialzim nümayəndələrinə çoxsaylı mütəfəkkirlər aid edilir ki, onlar arasında oxşarlıq daha çox ümumi filosofluq etmə tərzindədir. Ekzistensializmin banisi S.Kyerkeqor hesab edilir, lakin geniş fəlsəfi cərəyan kimi ekzistensializm XX əsrdə yaranmışdır. Onun ilkin formasına N.A.Berdyayevin, L.İ.Şestovun, ispan yazıçısı M. De Unaldponun təlimlərini aid etmək olar. Lakin əsas ekzistensialist konsepsiyalar alman və fransız qolları çərçivəsində XX əsrin II qərinəsində yaranmışdır:

1) Alman ekzistensializmi K.Yaspers (1883-1969), M.Haydegger (1889-1976);

2) Fransız ekzistensializmi J.P.Sartr (1905-1980), A.Kamyu (1913-1960), Q.Marsel (1889-1973), M.Merlo-Ponti (1908-1961).

## 2. Martin Haydegger

Martin Haydegger (1889-1976) XX əsrin məşhur filosoflarından biridir. Haydegger fəlsəfəsinin mərkəzi məsələsi varlıq və onun mənası problemidir. Haydegger varlığın özlüyündə nə olması məsələsini qoyur və onu insan varlığının tədqiqi vasitəsilə həll edir. Əvvəldən şüura malik insan varlığı daseindir (da – burada, sein - varlıq). Varlıq insana birbaşa açıqdır, ona görə də varlığın anlaşılması, onun varlıq müəyyənliyidir. Varlığın mahiyyətini aşkarlayan Haydegger varlığı mövcudluqla, şeylər və hadisələr dünyası ilə eyniləşdirən avropa fəlsəfə ənənəsini tənqid edir. Haydeggerə görə rassionalist fəlsəfə varlığı zamandankənar, yanlış şərh etmişdir (varlıq yalnız verilmiş anda nəzərdən keçirilir, bu zaman onun zamanlığı bir sıra məqamlara bölünür). Haydegger "zamanlığı" insanın daxili təəsüratı, daseini ekzistensializmin əsas ontoloji

təməli kimi başa düşür. Haydeggerin əsas əsəri olan "Varlıq və zaman" (1927) üç problemin təhlilinə həsr edilmişdir:

1) dünyada varlıq olaraq daseinin fundamental strukturunu aşkarlamaq;

2) dünyada varlığın müvəqqəti və tarixi olmasını göstərmək;

3) dasein zamanlığı əsasında zamanın varlığın mənasına zəruri məxsusluğunun dərki.

Haydeggerə görə, dünyada varlıq insanın subyektiv varlığını təşkil edən insan şəxsiyyətinin aprior formalarıdır. Belə aprior formalar ("qayğı", "həyəcan", "qorxu", "vicdan", "günah") müvəqqətiliyi, vahidliyi, təkrarsızlığı, faniliyi hiss edən şəxsiyyətin mənəvi təcrübəsini ifadə edir. Haydeggerə görə daseinin mahiyyəti onun ekzistensiyasında, varlıq olmasının xüsusi üsulundadır. Dasein şüurlu varlıq, "burada iştirakdır", onun vasitəsilə varlığın özü "danışır". İnsanın xüsusiyyəti insan mövcudluğunun varlıqda xüsusi vəziyyəti ilə müəyyənləşir, ona görə də daseini təhlil etməklə (ekzistensional analitika yaratmaqla), fundamental ontologiya, yəni olduğu kimi varlıq haqqında təlim yaratmaq olar.

Haydeggerə görə ekzistensiya sonluğunu anlayan və "heçliyə" istiqamətlənmiş varlıqdır, ona görə də ölümlə müəyyənləşən insan şəxsiyyətinin aprior formaları, insan mövcudluğunun modusları, elə "heçliyə" qoşulmanın müxtəlif üsullarıdır və ekzistensiyanın strukturunu əmələ gətirir. Varlığın mənasını dərk etmək üçün insan faniliyini anlamalıdır. Diqqətin gələcəyə cəmləşməsi şəxsiyyətə həqiqi mövcudluq verir.

Haydeggerə görə, dil, "varlığı qoruma" ekzistensial funksiyaya malikdir. "Dil varlığın evidir, dilin mənzilində insan məskunlaşır. Mütəfəkkir və şairlər bu mənzilin sakinləridir. Onların sferası varlığın açıqlığının təminatıdır". Onun fikrincə dil "insanlarla danışdığı" üçün, "dilə qulaq asmaq" məsələsi ümummədəni və ümumdünya tarixi məsələsidir.

Haydegger fəlsəfəni insana nə isə ola biləcəyini bilmək imkanı verən amil kimi müəyyənləşdirir. Fəlsəfə insan varlığının əsas fəaliyyətlərindən biri olan filosofluq etmədir, eyni zamanda filosofluq etmə ilə filosofluq etməmə arsındakı fərq gümrahlıq və yuxu arasındakı fərqə analojidir.

### 3. Karl Yaspers

Karl Yaspers (1883-1969) alman ekzistensializminin ikinci böyük nümayəndəsi, filosof və psixiatrdır. Yaspersin fəlsəfəsi fəlsəfənin əsas məsələsinin müəyyənləşdirilməsinin və kateqoriyalara uyğun aydınlaşdırılmasının problem sferalarını müəyyənləşdirir.

- əyani varlığın "hər şeyi" (dünya),
- "ilkin olan" ("ilkinlik", ekzistensiya),
- "təkcə" (transsendensiya),
- "hər şey" (das all), bu "dünyada varlıq", əşyavi varlıqdır.

Ekzistensiya obyektivləşdirilməyən insan özlüyüdür, dünyanın bütöv varlığına qarşı dayanan xüsusi varlıqdır, bu obyekt olmayacağı qədər "məndir".

Transsendensiya hər bir varlıq və təfəkkürün dərk olunmaz hüdududur, bu əhatə oluna bilən hər şeyin əhatələnməsidir, bütün gerçəkliyin əsasıdır. Transsendensiya idrakla deyil, ekzistensiya ilə dərk olunur və onun özünəməxsus sərhəddi kimi çıxış edir.

Yaspers öz fəlsəfəsinə uyğun olaraq üç təfəkkür üsulunu da ayırır:

1) "Dünyada varlıq" qarşısında təfəkkür bu "dünyaya istiqamətlənməlidir", bu istiqamətlənmə iki yerə bölünür: elmi-tədqiqat (həyat və fəlsəfə üçün zəruridir) və fəlsəfi (dünyanın bu və ya digər mənzərəsinin mütləqləşdirilməsinin qarşısının alınması);

2) Ekzistensiya qarşısında təfəkkür "ekzistensiyanın işıqlanmasıdır" və bu insanın varlığa, digər adamlara münasibətində baş verir (kommunikasiya vasitəsilə); ekzistensiya əyani

varlıq qayğısı ilə qoşmadır, ona görə də o, qayğı və iztirab situasiyasında, xüsusilə sərhəd situasiyasında işıqlandırılır;

3)Transsendensiya qarşısında təfəkkür transsendensiyanı ifadə edən "şifrələrin" fərqləndirilməsi, transsendentin şifrələrdə, "dildə yaşanması" qədər "metafizikadır". Transsendensiyalar "allah", "varlıq" və "gerçəklik"dir.

Beləliklə, şərtsiz varlığa nail olmaq üçün, transsendensiyalaşdırmanın üç mərhələsindən keçmək zəruridir: maddi dünyada istiqamətlənmə, ekzistensiyanın aşkarlanması, transsendensiya şifrələrinin oxunması.

Yaspersin sərhəd situasiyası haqqında təlimi onun konsepsiyasının mənimsənilməsi üçün son dərəcə vacibdir. Varlığın insan üçün həqiqi mənası dərin sarsıntı anlarında açılır. Belə ki, hər şey situasiyanın sərhəddi olduğu üçün, insan daimi məhdudiyyətlərlə toquşur, lakin sərhəddin müəyyənliyi ümumiyyətlə insan haqqında ideya ilə, onun güc və imkanlarının hüdudsuzluğu ideyası ilə ziddiyyət təşkil edir və bu da fərddə həyəcan və rahatsızlıq yaradır. Məsələn, xəstəlik, ağrı, günahın dərk olunması situasiyalarında "şifrələr qəzaya uğrayır" və bu insan dünyada varlıqdan" (gündəlik və maddi dünyasından) və "özündə transsendental varlıqdan" (ideal və elmi təsəvvürlər, maraqlar) azad olaraq məxsusi varlığını, ekzistensiyasını və transsendentin gerçək şifrələrini kəşf edir.

Yaspersə görə ekzistensiya azadlıqdır, insan öz arzusuna görə özünü ekzistensiyada yaratmasa da, transsendentə qulaq asır və o nə qədər azaddırsa, transsendensiya şifrələrini bir o qədər aydın fərqləndirilir, ona görə də azadlıq yalnız Allahda tapılır.

Yaspersə "zaman oxu" konsepsiyası məxsusdur. Bu konsepsiyaya görə dünya tarixinin mərkəzi hadisəsi zaman "oxu dövrüdür" (e.ə. VIII-III əsrlər). O zaman "tarixə qədərki dövr" "zaman oxuna" çevrilir, bu zaman ənənəvi mədəniyyətlərdən universal və humanist mədəniyyətlər ayrılır: Çİn, hind, fars, iudey, qədim yunan.

Yaspersə görə, bu gün bizim düşündüyümüz əsas kateqoriyalar məhz "zaman oxu dövründə" formalaşmışdır. Dünya dinlərinin əsas prinsipləri də bu dövrdə yaranmış, "...universallığa keçid baş vermişdir". Bütün "ox" sivilizasiyaları üçün ümumi olan və "ox dövründə" özünəməxsus ilk mənbələrə malik "əsas kateqoriyalara" Yaspers mənəvi fenomenləri aid edir: şüur, refleksiya, varlıq və insan haqqında son dərəcə geniş məsələlər qoymaq bacarığı. Bu dövr fikrinin əsas xüsusiyyəti mifoloji şüurun aradan qaldırılması, onun elmi və fəlsəfi şüurla əvəz edilməsi, həmçinin "insanın faktiki kəşfidir". Bu isə universal və şəxsi elmi-fəlsəfi dünyagörüşün yaranması üçün əsas olmuşdur.

## 4. Jan Pol Sartr

Fransız ekzistensializmi alman ekzistensializmindən bir qədər gec yaranmışdır. Ona görə də fransız ekzistensialistləri artıq Haydegger və Yaspers tərəfindən hazırlanmış fəlsəfi təhlillər aparmaq üsulları ilə tanış olmağa imkan tapmışdılar. Jan Pol Sartr və Alber Kamyu fransız ekzistensializminin görkəmli nümayəndələri hesab edilir.

J.P.Sartrı mövcudluq fəlsəfəsinin fransız variantının mərkəzi dühası adlandırmaq olar. Onun fəlsəfəsi inkişafın dörd mərhələsini ayırır.

1. Şüurun fenomenologiyası variantının hazırlanması,
2. Fenomenoloji ontologiyada qurulmuş ekzistensiya fəlsəfəsi, azadlıq konneksiyası,
3. Fəaliyyət nəzəriyyəsi, praktika nəzəriyyəsi,
4. Mədəniyyət fəlsəfəsinin problemlərinin tədqiqi.

Sartr E.Husserlin fenomenologiyasını yenidən nəzərdən keçirməyə cəhd göstərmişdir. Onun ünvanına bəzi tənqidlərlə çıxış edən Sartr belə bir tezis irəli sürürdü ki, ardıcıl tətbiq olunan fenomenoloji reduksiya və transsendentallığa malik olmaq nəticəsində xalis "mən" şüuru şüur hüdudlarından kənara

çıxarılmır. Beləliklə Sartrda "mən" transsendentaldan transsendentə çevrilir, yəni transsendent aləmdə yerləşir.

Sartr ekzistensializmi insan mövcudluğu fəlsəfəsi kimi inkişaf etdirmişdir. Onun fəlsəfi antologiyası aşağıdakı əsas kateqoriyalar və varlıq növləri ilə qarşılıqlı əlaqədardır:

"özündə varlıq" – insandan asılı olmayan obyektiv gerçəkliyin, dünyanın tamlığının simvolu. "özündə varlıq" hüdudsuzdur, bunlar dünyanın insana qarşı qoyulmuş müxtəlif atributlarıdır (dərinlik, dərkolunmazlıq, əlçatmazlıq).

"Özü üçün varlıq" varlıq olaraq insandır, insan gerçəkliyidir, şüurudur.

Bundan əlavə Sartr fəlsəfəyə "heçlik" kateqoriyasını daxil edir və ona ontoloji məna verir. Varlıq və şüurun fundamental ayrılığı "heçliyin" köməyilə təfsir edilir. Sartrda "heçlik" və "varlıq" sıx birləşir. "Qeyri-varlıq daim bizdə, eləcə də bizdən kənarda iştirak etməlidir, yəni heçlik varlığa nifuz edir". "Heçlik" mövcudluq qismində ekzistensiyada, "özü üçün varlıqda" yerləşir. Şüur "özü üçün varlıq" elə "heçlikdir", qeyri-varlığın özünəməxsus qeyri varlığıdır. Bununla belə, məhz "heçlik" hərəkətin, aktivlik və keyfiyyət çoxobrazlılığının mənbəyidir. Sartra görə insan azadlığı insan varlığının müəyyənləşdirlməsi, insan davranışının mahiyyəti, fəaliyyətin mənbəyi, insan mövcudluğunun imkanının özüdür. ("İnsan həmişə və bütövlükdə azaddır və yaxud o tamamilə yoxdur"). İnsan elə azadlıq deməkdir. Lakin insandan yuxarıda heç bir ali mahiyyət olmadığı üçün insan "özü üçün qanunu özü ixtira etməyə məcburdur", "insan azad olmağa məhkumdur". Beləliklə azadlıq ali hədiyyə olmayib, iztirab mənbəyi və insanın mövcüdluğunun faciəli şəraitində cavabdehlik daşıması, insan münasibətlərinin əbədi dramıdır. Sartr ekzistensional "öyümə" simvolundan istifadə edir. Bu simvol onun "Öyümə" (1938) romanında təsvirin sarsıdıcı gücü ilə verilir. Bu əsər ekzistensionalist ədəbiyyatın nümunəsinə çevrilmişdir.

"Öyümə" şəxsiyyətin faciəvi duyumunu yaradan ekzistensial vəziyyətlərdən biridir. Tarixçi A.Rokantenianın fikrincə Sartrın "öyüməsi", "ümidsiz və "tənha" insan "məninin" tərkedilmiş simvolları, insanın daxili və xarici dünyasının münaqişələrinin obrazlarıdır.

"Öyümə" insanın gündəlik varlığında dünya problemləri ilə toqquşmasını hissetməsilə kəskinləşən xəstə təəssüratdır. Ona görə də bütövlükdə Sartr ekzistensializmi insan mövcüdluğunun absurdluğundan törəyən pessimizm fəlsəfəsidir.

## 5.Alber Kamyu

Fransız filosofu və yazıçısı Alber Kamyunun fəlsəfəsinin mərkəzində insan həyatının absurdluğu, dəfedilməz antinomiyalar sahəsi kimi mövcüdluq problemi dayanır. Kamyu şəxsiyyəti "absurd insan" kimi müəyyənləşdirir və onu qərb fəlsəfəsi subyektinin faciəli konstruksiyalarına qarşı qoyur. Mövcudluğun belə başa düşülməsinin əsasını sonlu həyat təcrübəsi təşkil edir ki, bu da labüd ölümlə qurtarır. Kamyu insan həyatı və fəaliyyətinin mənasızlığını təcəssüm etdirən Sizif ("Sizif haqqında əsatir", 1942) obrazından istifadə edir. Absurd insan üçün etika və formal qaydaların öyrənilməsi əhəmiyyətə malik deyildir. Kamyuya görə mövcüdluğun absurdluğunun başa düçülməsi insanı ümidsizliyə gətirməməlidir. Həyatın absurdluğu darıxdırıcılıq törədir və bu "şüuru hərəkətə gətirir", onun fəaliyyətinin nəticəsi isə ya "adəti yola təhtəlşüuru qayıdışdır", ya da "qəti oyanışdır", oyanışın nəticəsi isə ya intihardır, ya da "həyatın gedişinin" bərpasıdır.

Kamyuya görə, "yalnız bir həqiqi ciddi fəlsəfi problem var-intihar problemi. Həyat onu yaşamağa dəyər, yoxsa dəyməz dilemmasını həll etmək fəlsəfənin fundamental məsələsinə cavab vermək deməkdir". Insanın vəzifəsi, absurd şəraitdə yaşamağa davam etməkdir və buna heç bir əsaslandırma olmamalıdır. Kamyu "Üsyankar insan" (1951) fəlsəfi essesində qeyd

edirdi ki, absurd təcrübədə verilən "birinci və yeganə aşkarlıq" üsyandır (absurd təcrübədə iztirabın fərdi olmasına baxmayaraq, üsyankar coşduqda o kollektiv mövcüdluq xarakteri daşıyır).

Kamyu belə nəticəyə gəlirdi ki, hər bir kollektiv qiyam, inqilab, üsyan anlayışına ziddir. Hər bir inqilab təkcə mənasızlığın dağıdılması yox, həm də insanların məhvi olduğu üçün, inqilab da "son nəticədə obyektiv cinayətə çevrilir".

*Yoxlama sualları:*

1. Ekzistensializmin əsas ideyaları və nümayəndələri
2. M.Haydeggerin fəlsəfəsi
3. K.Yaspersin fəlsəfəsində problem sferaları
4. J.P.Sartr fəlsəfəsinin əsas mərhələləri
5. A.Kamyunun fəlsəfi baxışları

# IX MÖVZU
# XX ƏSRİN ORTALARI VƏ ƏSRİN İKİNCİ YARISINDA FƏLSƏFƏNİN İNKİŞAFI

## 1. Hermenevtika

Hermenevtika (yun. hermeneutike - izah etmə, təfsir) ilk növbədə dildə yazılı qeyd olunmuş (mətnlər) həyatı və mədəni obyektivləşmələrin təfsiri haqqında təlimdir. Geniş mənada hermenevtika aşağıdakı kimi başa düşülə bilər:

- Antik fəlsəfə və filologiyada məcazların, çoxmənalı simvolların təfsir incəsənəti, (qədim şairlərin (ilk növbədə Homerin) əsərlərinin şərhi kimi);
- "Hermenevtika" sözü öz başlanğıcını olimpia allahlarının elçisi, ilahi xəbərləri insanlara çatdıran Hermesin adından götürür;
- Xristian ənənəsində teoloji hermenevtika, ekzegetika (yun.exegeticos – təfsir) kimi ;
- Müqəddəs yazının təfsiri mətnin üçlüb mənasının aydınlaşdırılmasına istiqamətlənir: hissi, hərfi, mücərrəd, əxlaqi, ideal, mistik (müqəddəs hermenevtika (hermeneutica sacra)) ;
- Filologiyada düzgün tərcümə incəsənəti;
- Hüquqşunaslıqda hüquqi hermenevtika kimi qanunların təfsiri
- Fəlsəfədə birqiymətli mənaya malik olmayan mətnlərin təfsiri;
-Dilin qramatik təhlili, tarixi reallıqların öyrənilməsi, mətnlərin aydınlaşdırılmasına yönəlmiş konkret, psixoloji axtarışlar, simvol, anlayış, niyət və konsepsiyaların şərhi.

Hermenevtik tədqiqatların həm antik dövrdə (Aristotel), həm orta əsrlərdə (Avqustin), həm də intibah dövründə (Valla) aparılmasına baxmayaraq fəlsəfi hermenevtika yalnız XIX yüzilliyin sonlarında yaranmışdır. Yeni avropa ənənəsində "Hermenevtika və tənqid" əsərinin müəllifi F.Şleyermaxer (1768-184) "hermenevtikanın atası" hesab edilir. Metodunu

insan həyatının qeyd olunmuş mənəvi gerçəkliklər vasitəsilə dərkinə yönəldən V.Dilteyi fəlsəfi hermenevtikanın yaradıcısı hesab etmək olar. XX əsrdə tarixi-fəlsəfi konsepsiya kimi hermenevtikanın ən görkəmli nümayəndələri H.Q.Qadamer (1900-2002) və P.Riker (1913-2005) olmuşlar.

Hans Qadamer hermenevtikaya universal məna vermiş, anlama problemini fəlsəfənin mahiyyətinə çevirmişdir. Qadamer bu sahədə aşağıdakı nailiyyətləri sintez etmişdir:

- yalnız mətnin hərfi mənasını deyil, hətta onun müəllifinin başa düşməsi üçün Şleyermaxer qaydasını;
- hermenevtikanı həyatı tarixin fundamental faktı kimi dərk etməyə istiqamətlənmiş ruh haqqında mərkəzi elm kimi düşünən Diltey konsepsiyasını;
- Haydegger konsensasiyasını. Bu konsepsiyaya görə dil anlamanın tarixi üfüqüdür, anlamanın özü isə hermenevtika olaraq varlığın gerçəkləşməsinə çevrilir.

Qadamerə görə, "dil özünü anlamanın gerçəkləşmədiyi universal mühitdir. Bu gerçəkləşmənin üsulu isə izah etmədir, "dünyanın dil təcrübəsi mütləqdir". Dil dünyasının mütləqliyi ondadır ki, anlamadan öndə gəlir, idrak və mühakimələrin predmeti olan hər şey "dilin dünyəvi üfüqü ilə əhatə olunmuşdur".

Qadamer hermenevtik yanaşmanı modifikasiya edir. Bu zaman o qeyd edir ki, mətnin yaradıcı tarixi situasiya şərhi ilə situasiya arasinda dəfedilməz uçurum vardir. Ona görə də mənanın rekonstruksiyası prinsipcə mümkünsüzdür, yalnız konstruksiya mümkün ola bilər. Beləliklə, mətn nisbi müstəqil, varlıq, mənəvi mühit kimi qavranıldığı üçün, həm dil, həm də hermenevtika Qadamerdə təkcə humanitar idrakın metodologiyası statusu deyil, eyni zamanda anoloji mahiyyət statusu əldə edir. Filosofa görə, hermenevtika, insanın mədəniyyətinin, tarixinin, varlığının dərki və özünüdərkidir.

Pol Riker insanın ümumiləşdirici konsepsiyasını hazırlamağa cəhd göstərmiş XX əsrin tanınmış filosoflarından biri

olmuşdur. Riker üçün hermenevtika idrak metodu yox, ilk növbədə varlıq üsuludur. Piker hadisələrin tədqiqi üçün reqressiv və proqressiv adını almış dialektik metodu hazırlamışdır. Bu metod hadisələri üç zaman ölçüsünün vəhdətində tədqiq edir: keçmiş, indiki, gələcək.

Insan subyektivliyini tədqiq edən Riker subyektin varlıqda möhkəmlənməsini (arxelogiya) və onun gələcəyə hərəkətini (teleologiya) öyrənməyi təklif edirdi.

Rikerə görə əsl izah iki hermenevtikanı ehtiva edir: arxeologiya (arxaik obrazların tədqiqi) və teleologiya (mümkün gələcəyin tədqiqi). Bu zaman insan şüurunun müxtəlif yönümlü təhlili üçüncü metodologiya olan "eskatologiya" (yun. esehatos-sonlu; dünya və yaxud nəyinsə son taleyi haqqında təlim) ilə birləşir. Onun fikrincə bu üç metodologiya təhlilin müxtəlif üsullarını göstərən üç fənnə uyğun gəlir: psixoanaliz, ruhun fenomenologiyası, dinin fenomenologiyası.

Hər bir fənn tamamilə müstəqildir, lakin həqiqi anlama hər üçünün qarşılıqlı təsiri zamanı mümkün olur, belə ki, onların hamısı anlamanın ontoloji kökləri istiqamətində hərəkət edir və mövcüdluqdan asılılığı ifadə edir. "Psixoanaliz bu asılılığı subyektin arxeologiyasında, ruhun fenomenologiyası şüur obrazlarının teleologiyasında, dinin fenomenologiyası müqəddəslərin işarələrində göstərir".

Riker təkcə yazılı nitqdə həkk olunmuş mədəni fraqmentlərin deyil, həmçinin tarixi dəyər kimi mədəniyyətin varlığını təhlil etməyə cəhd göstərir. Fenomenoloji hermenevtikanın mərkəzi problemləri aşağıdakılardır:

təfsirin fərdin mədəni kontekstə daxil edilmə üsulu kimi nəzərdən keçirilməsi məsələsi;

insanın izahın subyekti kimi verilməsi məsələsi.

Beləliklə, Riker fəlsəfəsinin mərkəzi obyekti bütün zaman dəyişmələrini birləşdirən və mədəni-tarixi yaradıcılığın obyekti olan insandır.

## 2. Fəlsəfi antropologiya

Fəlsəfi antropologiya XX əsrdə mərkəzi problemi insan problemi, əsas məqsədi bütöv antropoloji konsepsiyanın yaradılması olan ən nüfuzlu fəlsəfi cərəyanlardan biridir. Antropologiyanın fəlsəfənin bir bölməsi kimi zəngin tarixi ənənəyə malik olmasına baxmayaraq (sofistlər və sokratdan başlayaraq), fəlsəfi antropologiyanın yaranması XX əsrə aiddir. M.Şeler (1874 - 1928), H.Plesner (1892 - 1983), A.Helen (1904 - 1976) kimi mütəfəkirlərdən hər biri bu problemlə bağlı bütöv konsepsiya yaratmışdır. Lakin onların hamısı üçün ümumi olan əsas müddəalar aşağıdakılardır:

1) İnsanın əsasən ruhi, mənəvi həyatının tədqiqinə istiqamətlənmə;

2) İnsanın həyat fəaliyyətinin, mədəniyyətinin,əxlaqının, sosial münasibətlərinin antropoloji əsaslarının axtarışı;

3) İnsan mahiyyətinin tədqiqindən və subyektiv idrakı fəaliyyətinin təhlilindən imtina;

Mark Şeler təkcə ayrıca intellektual istiqamət deyil, həm də xüsusi fəlsəfi fənn kimi fəlsəfi antroqologiyanın banisi olmuşdur. Şelerə görə hər bir "həqiqi insan aktı" əvvəldən ikilidir. O, həyatın "vital" məzmununa istiqamətlənmişdir (gerçək həyata), həm mənəvi (ideal sfera), həm də instinktivdir.

Şeler insanı bir problem kimi təhlil edir və insanın "təməl ideyalara " əsaslanan özünü anlamasının beş tipini ayırır. O eyni zamanda göstərirdi ki, üç ideya mahiyyətcə idrakın üç əsas formasının təməlini təşkil edir: elmi, fəlsəfi, dini. Şeler qeyd edirdi ki, biliyin verilmiş hər növü insanı bütövlükdə anlamaq üçün zəruridir və vahid insan konsepsiyasında aşağıdakı fəaliyyət sferalarını təşkil edir: elmi, metafiziki, dini.

Şeler öz təliminə iki əsas anlayışı da daxil edirdi:

- "ruh" varlığın hər şeyi dərk edən, lakin "ilkin gücsüz" atributudur;

-"coşğu" varlığın həyati, vital atributu, kor enerjisidir.

Ruh və coşğu insan varlığının əsas prinsipləridir, eyni zamanda hər bir "sonlu varlığın" məqsədi "coşğunun ruhlandırılması" və "ruhun canlandırılmasıdır". Başqa sözlə desək, insan dünyası mənəvi dəyərlər dünyasının və gerçək dünyanın qarşılıqlı nüfuz etməsidir.

Şeler fəlsəfənin mərkəzi məsələsini belə formulə edir: " İnsan nədir ? Varlıq, dünya və Allahın ümumi bütövlüyündə onun yeri necədir?".

M. Şelerdən fərqli olaraq Helmut Plesner bioloji və mənəvinin fundamental dualizmini aradan qaldırmağa cəhd göstərirdi. Plesnerə görə, insan mövcüdluğunun özündə dünya və üzvi cisimlərə insani istiqamətlənməni ehtiva edən vahid bütöv struktur mövcuddur. Plesner ruhu olduğu kimi deyil, insan cismaniliyinin yalnız ona məxsus olan spesifik təzahürü kimi tədqiq edir. Filosofun fikrincə insana spesifik "ifadəlilik" xasdır və bu bədənlə təsüratın xüsusi münasibətində təzahür edir, (məsələn, gülüş, ağlamaq). Plesner problemə "pozisionallıq" anlayışını daxil edir. "Pozisionallıq" mühitlə vital qarşlıqlı münasibətlərin xüsusi strukturunu bildirir. Belə ki, canlı orqanizmlər açıq sistemlərdir və mühitlə daimi və fəal qarşılıqlı təsirdədirlər. Pozisionallıq isə bu qarşılıqlı təsir sahəsində canlı orqanizmin tutduğu mövqeni müəyyənləşdirir. Üzvi həyatın hər mərhələsi üçün xüsusi pozisionallıq mövcüddur:

- bitki orqanizmi xarici mühitin dəyişməsinə fəal reaksiya vermir;
- heyvan orqanizmi mərkəzi pozisionallığa malikdir, heyvan bu mərkəz ətrafında qurulan orqanlar sistemidir;
- insan pozisionallığı ekssentrikdir. Əgər heyvan özü ilə dünya arasındakı uçurumu duymursa, insan dünyanı əşya kimi qavrayır.

Plesner "ruh" və "can" kimi metafiziki anlayışların təhlilindən qaçır və hesab edirdi ki, insanın əsas xarakteristikası və digər bioloji orqanizmlərdən əsas fərqi onun ekssentrik pozisionallığıdır.

Insan bədən, bədəndə ("daxili dünya") və bədəndən kənar ekssentrik mövqe kimi üç mövqenin vəhdətində mövcüddur və psixofiziki şəxsdir.

Plesner "əsas antropoloji bilikləri" aşağıdakı kimi formula etmişdir:

1) təbii sunilik qanunu (insana öz mövcüdluğunu fəaliyyəti ilə əsaslandırmaq zəruridir);

2) vasitələnmiş vasitəsizlik qanunu (insan özünün dünya şüurunu anlayır və görür ki, bütün obyektiv olan yalnız onun şüuru üçün gərəklidir);

3) utopik vəziyyət qanunu (insana dünyanın əsası haqda ideya zəruridir).

Arnold Helen xüsusi qaydada təşkil olunmuş canlı mövcüdluq olan insanın dünyadakı mövqeyinin spesifikasını aşkarlamağa çalışmışdır. Şeler və Plesner kimi, o da qarşılıqlı əlaqədə olan funksiylar sistemi kimi insan təşkilinin özünəməxsusluğunu qeyd edirdi. Insan "fəaliyyətdə olan mövcüdluqdur, o elə fiziki quruluşa malikdir ki, yalnız fəaliyyət göstərməklə sağ qala bilər " deyən Helen insanın xüsusi təşkilini bioloji forma kimi tədqiq edir və qeyd edirdi ki, insan heyvandan bioloji səviyyədə fərqlənən, təbiətlə harmoniyaya çatmayan "qeyri kafi mövcüdluqdur".

Insan həyata uyğunlaşmayıb, instinktiv reaksiya və üzvi ixtisaslaşmadan məhrumdur. Bu "qeyri kafilik" "ikinci təbiətin", yəni mədəniyyətin yaranmasını şərtləndirmişdir ("mədəniyyət dünyası, elə insan dünyasıdır"). Fəaliyyət isə əsas antropoloji xarakteristikadır, insan fəaliyyət göstərməklə həyatına bağlı mədəniyyəti yaradır. Lakin, əgər heyvan həyatı "təbii" hormoniyaya malikdirsə, insan özü məxsusi dünyasını, öz harmoniyasını yaratmağa məcburdur. (insan özü özü üçün problemdir).

### 3. Elm fəlsəfəsi

Bu fəlsəfə XX əsrin ayrıca fəlsəfi məktəb və hətta filosofluq etmə tərzi olmayıb, daha çox elmin fəlsəfi tədqiqinin ayrı-ayrı konsepsiyalarının inkişaf etməkdə olan vahid problem sahəsidir. Elm fəlsəfəsi fəlsəfi biliyi elm sahəsinə aid edərkən elm və fəlsəfə tarixi elmi və fəlsəfi qaydalara əsasən formalaşır. Bu zaman bu və ya digər alim və yaxud filosof arasında olan fundamental fərqi nəzərə almaq lazımdır. Bu mövzuya aid edilə biləcək ilk konsepsiyalar XIX-XX əsrlərin qovşağında yaranmışdır. (E.Max və P.Avenariusun empriokritisizmi, A.Puankarenin konvensionalizmi). Elm fəlsəfəsinin nisbətən nüfuzlu konsepsiyalarına aşağıdakıları aid etmək olar:

1) Məntiqi ("üçüncü") pozitivizmin nümayəndələri, "Vyana dərnəyi" filosofları M.Şlik (1882-1936), R.Karnap (1891-1970), O.Neyrat (1882-1945));

2) Postpozitivizmin nümayəndələri. K.R.Popper (1902-1994), T.S.Kun (1922-1996), P.Feyerabend (1924-1997), İ.Lakatos (1922-1974)).

Məntiqi pozitivizmin (neopozitivistlər) nümayəndələri müasir elmin inkişafında meydana çıxmış fəlsəfi-metodoloji problemləri təhlil və həll etmişlər. Bu problemlərə aşağıdakıları misal göstərmək olar:

- elmi təfəkkürün işarəvi, simvolik vasitələrinin rolu;
- nəzəri aparatın elmin emprik bazisinə münasibəti;
- biliyin riyaziləşdirilməsi və formalaşdırılması.

Əsasən 1922-ci ildə yaradılmış "Vyana dərnəyi" çərçivəsində işlənib hazırlanmış neopozitivizm konsepsiyası "məntiqi empirizmi" nümayiş etdirir. O.Neyrata görə, "elmi" dünya duyuma, empirik faktlarla əlaqə, sistematik eksperimental yoxlama, vahid elmin yaradılması məqsədi ilə bütün proseslərin məntiqi birləşdirilməsi ilə xarakterizə edilir. "Vyana dərnəyinin" proqramı aşağıdakı bəndləri ehtiva edirdi:

- vahidlik tələbi;

- elmi qanunların vahid sistemdə birləşdirilməsi şərti dilin vəhdətidir.

- Neopozitivistlər fəlsəfəni məntiq və məntiqi dilin idraki problematikasına müncər edirdilər. Onlar "obyektiv fakt" və "elmi fakt" anlayışlarını eyniləşdirirdilər. Mahiyyət etibariylə burada fəlsəfə dilin məntiqi təhlili ilə eyniləşdirilir, fəaliyyətin iki prosedura müncər edilməsi nəzərdə tutulurdu.

1) subyektin insani təsüratlarını ifadə edən protokol hökmlərinin qurulması

2) bu hökmləri ümumiləşdirən və birləşdirən üsulların ixtirası.

Demarkasiya (elm və mənəvi mədəniyyətin digər sferaları arasında ayırıcı xəttin müəyyənləşdirilməsi) məsələsində "Vyana dərnəyinin" neopozitivistləri əsas meyar olaraq verifikasiya edilməni təklif edirdilər. Onların fikrincə hökm o zaman elmi olur ki, o verifikasiya edilir, yəni protokol hökmlərinə gətirilir.

İntersubyektiv ideal dil məsələsində neopozitivistlər belə fərz edirdilər ki, dil heç bir qeyri-müəyyənliyə yol vermədiyindən, onun üçün mərkəzi məsələ semiotik problemlərdir.

Haks Reyhenbax məntiqi pozitivistlərə qoşulmuş və elmin qanuna uyğunluqlarını ifadə edən mühakimələrin məntiqi təhlili üzrə onun tədqiqatlarını ümumiləşdirən nomoloji mühakimələr nəzəriyyəsini irəli sürmüşdür.

Karl Raymond Popper tənqidi rasionalizm konsepsiyasını hazırlamışdır. O "fallibulizm" prinsipini irəli sürmüşdür ki, bu prinsipə görə hər bir elmi bilik hipotetikdir. Filosofun fikrincə, elmi idrak prosesi müxtəlif nəzəriyyələr arasında dialoq olduğu üçün, tənqidi rassionalizmin müddəalarından biri plüralizmin etiraf edilməsidir. Verifikasiya edilə bilmə prinsipinə qarşı Popper falsifikasiya edilə bilmə prinsipini irəli sürür. O qeyd edirdi ki, nəzəriyyənin elmilik meyarı onun sübut olunmasında yox, verilmiş nəzəriyyələrin inkaredici situasiyalarının mövcudluq imkanındadır. Popper induksiya metodunu inkar edirdi.

Ona görə elmin metodu sınaq və səhvlər metodu ola bilər. Beləliklə, Popperin konsepsiyası 3 əsas istiqamətdə formalaşır:

1) elmi bilik hipotezlər yığımıdır, onların həqiqiliyini müəyyənləşdirmək olmur, lakin onların yalan olmasını müəyyənləşdirmək mümkündür;

2) demarkasiya meyarı – bilik falsifikasiya edilə bilmirsə o elmidir;

3) elmi metod sınaq və səhvlər metodudur.

Tomas Semuel Kun müasir elmin əsas konsepsiyalarından biri olan paradiqma konsepsiyasını irəli sürmüşdür. Onun nöqteyi-nəzərincə elmi idrakın inkişaf prosesi bu paradiqmaların inqilabi əvəzlənməsi prosesidir. Tomas Kuna görə elm əsasən iki mərhələdən ibarət olan prosesdir. "Normal elm" (ümumi qəbul edilmiş paradiqma çərçivəsində inkişaf edir) və bu zaman əvvəlki paradiqmanı yenisi əvəzləyir (elmi inqilab).

Paradiqma müəyyən zaman ərzində problemin qoyuluşu və elmi ictimaiyyətə onların həlli modelini verən biliklər, hipotezlər toplusudur. Bu ümumi qəbul edilmiş və elmi tədqiqata yönəlmiş bir və yaxud bir neçə elmi nəzəriyyə, nəzəri-metodoloji qaydalar toplusudur (məsələn, Ptolemeyin geosentrik kosmologiyası, Nyuton mexanikası, Eynşteynin nisbilik nəzəriyyəsi ).

Hər bir paradiqma (disiplinar matrisa) bəzi vacib elementləri ehtiva edir:

- simvolik ümumiləşmə (anlayışlar, qanunlar);
- metafiziki (fəlsəfi) hissə
- dəyər qaydaları;
- ümumi nümunələr, tədqiqatlar.

Imra Lakatosa görə elmi tərəqqi nəzəriyyələr toplusunu nümayiş etdirən elmi tədqiqat proqramlarının əvəzlənməsidir, eyni zamanda hər bir elmi-tədqiqat proqramı "sərt nüvədən" (anlayışlar, qanunlar), "müdafiə qurşağından " (köməkçi hipotezlər) və normativ qaydalar cəmindən ibarətdir.

Pol Feyerabend "epistemoloji anarxizm" adlandırdığı konsepsiyasını irəli sürmüşdür. Bu konsepsiyaya görə elm üçün heç bir vahid paradiqma mövcud deyildir. Belə anarxizm iki prinsipin nəticəsində formalaşmışdır. Bunlar proliferasiya prinsipi (ümumi qəbul edilmiş nəzəriyyələrə uyğun gəlməyən nəzəriyyələr hazırlanmalıdır) və müqayisəedilməzlik prinsipləridir (nəzəriyyələri müqayisə etmək mümkün deyildir). Onun fikrincə inkişafın əsasında yalnız bir prinsip dayanmalıdır ki, bu "hər şey mümkündür" prinsipidir.

## 4. Strukturalizm, poststrukturalizm və postmodernizm

Strukturazlim elmin ilk növbədə obyektlərin strukturunu aydınlaşdırmağa yönəldilmiş spesifik metodoloji istiqamətdir. Strukturalizm sosiohumanitar idrakın strukturalist metodologiyadan istifadə edən xüsusi cərəyanıdır. Strukturalizmin əsasında aşağıdakıları özündə ehtiva edən struktur metod dayanır.

- Strukturların aşkarlanması, yəni obyektin bütövlüyünü təmin edən dayanıqlı əlaqələr toplusunun aşkarlanması;
- strukturların, bəzi çevirmələr zamanı invariant qalan münasibətlər toplusu kimi təfsir edilməsi.

Strukturazlimin əsas xüsusiyyətləri aşağıdakılardır:

- obyektin aktual vəziyyətinin təsviri;
- onun əsas xassələrinin aşkarlanması;
- tədqiq olunan obyektlərin və tədqiqat vasitələrinin dəqiq fərqləndirilməsi;
- təcrid olunmuş obyektlərin öyrənilməsinin əksinə olaraq sistemin ayrı-ayrı elementləri arasında münasibətlərin fiksasiyası.

XX əsrin əvvəllərində strukturazlim əvvəlcə struktur linqvistikada yaranmış, sonra isə humanitar biliyin digər sferalarına yayılmışdır. Bu ilk növbədə humanitar elmlərin, tədqiqatın təsviri və empirik səviyyəsindən mücərrəd-nəzəri səviyyəyə isti-

qamətlənməsi nəticəsində baş vermişdir. Strukturalist metod aşağıdakıları ehtiva edir:

- vahid struktura malik olması ehtimal edilən bəzi obyektlər çoxluğunun fərqləndirilməsi;
- obyektlərin elementar seqmentlərə bölünməsi;
- seqmentlər arasındakı dəyişdirmə münasibətlərinin aşkarlanması, bu münasibətlərin sistemləşdirilməsi və mücərrəd strukturların qurulması;
- strukturlardan bütün mümkün nəticələrin çıxarılması.

Fəlsəfi strukturalizm çərçivəsində iki istiqamət mövcuddur: strukturalist ideologiya və strukturalistlərin fəlsəfi konsepsiyaları.

Filosofluq etmə variantı kimi strukturazlim fransız antropoloqu, filosof,sosioloq, etnoqraf, mədəniyyət tarixçisi Klod Levi Strossun "Struktur antropologiya" (1958) əsəri işıq üzü gördükdən sonra yaranmışdır. Bu əsərdə sırf etnoqrafik və antropoloji materialla yanaşı ictimai şüur və mədəniyyətin formalarının çoxobrazlılığının əsasına dayanan dil, nitq, mətn və onların strukturlarının tədqiqinə istiqamətlənmiş yeni fəlsəfi konsepsiyanın təməli qoyulmuşdur. Levi Strossun doktrinası Freyd və Yunqun psixoanalizinə əsaslanır. "Əgər...təhtəlşüurü əqli fəaliyyət formaya məzmun verməlidirsə, əgər bu formalar bütün təfəkkür tipləri üçün əsasən eynidirsə onda hər bir sosial quruluş və ya adətin əsasında dayanan təhtəlşüurü struktura yaxınlaşmaq zəruri və kafidir". Levi Stros sosial münasibətləri, mədəni yaradıcılığı və incəsənəti onların ifadəsinin (dillə) simvolik formalarına reduksiya edirdi. Levi Stros geniş təfsir edilmiş dil sistemində leksikanın deyil, məhz strukturun həlledici olduğunu fərz edirdi. Bu zaman dil, "ünsiyyətin mümkünlüyünü təmin edən əməliyyatlar çoxluğu kimi" başa düşülür".

Levi Stross mifin strukturuna müraciət edir. Bu struktur dəyişməz qalaraq mifə öz simvolik funksiyalarını yerinə yetirməyə imkan verir. Bütün dillər üçün strukturlar eynidir, mifləri "azsaylı sadə tiplərə müncər etmək olar". Dünyanın müxtəlif

regionlarında və müxtəlif zamanların mifləri hərfi dəqiqliklə eyni situasiyanı təkrar edirlər. Miflərin strukturunu tədqiq edən filosof mifoloji məntiqin şəxsiyyətlərini aşkarlayır və bu zaman mifin məntiqi ilə elmin məntiqinin oxşarlığını göstərir. Faktiki olaraq Levi Stross struktur təhlilin humanitar biliyin digər sahələrinə tətbiqinin mümkünlüyünü əsaslandırmışdır.

Strukturalizmin başqa variantını təklif edən Jak Lakan (1901-1981) struktur və ya linqvistik psixoanalizin banisi hesab olunur. Bu konsepsiyanın əsasını belə bir müddəa təşkil edir ki, təhtəlşüur "dil kimi strukturlanmışdır". Lakana görə əsas məsələ sosiumu formalaşdıran mexanizmlərin axtarılmasıdır. Daxilən strukturlanmış mexanizm, dilə bənzər fəaliyyət göstərməklə psixikanın bütün səviyyələrini birləşdirir və bu mənada təhtəlşüur dildir. Lakan psixikada üç təbəqəni ayırır:

1) gerçək (Freyddəki "o" ilə qarışır") – differensiallaşmış tələbatlar sferası;

2) təxəyyülə gələn (freyddəki "mən") – fərdiyyətçilik, şəxsi özünüyeniləşdirmə sferası;

3) simvolik (Freyddəki "fövqəl-mən") – sosial əmrlər, qadağalar, normalar toplusu.

Simvolik təbəqə cəmiyyətin verdiyi fövqəlşəxsi, sosiomədəni mənalar sahəsidir, "Simvolik gerçək təxəyyülə nisbətdə birincidir". Simvolların təzahürü dil, nitq, incəsənətdə özünü göstərir. Simvolik təbəqə insan həyatını əvvəlcədən müəyyənləşdirə bilər, o varlıq və təfəkkürün ilkin əsasıdır. Bu mənada Lakana görə subyekt şüur və mədəniyyətin daşıyıcısı olmayıb, mədəniyyətin funksiyası, müxtəlif simvolik strukturların kəsişmə nöqtəsidir. Onun fikrincə bu mədəni məzmunla doldurulan boşluqdur.

Rolan Bart bir filosof kimi "insan strukturunun" təsvrini də vermişdir. Belə insanın əsas xarakteristikası müəyyən fikri əməliyyatlarla, konkret olaraq "əşyanın " üzvlərə ayrılması və yenidən quraşdırılmasıdır. Əgər obyektin fəaliyyət qanunları onun konstruksiyası zamanı müəyyənləşirsə, onda insan struk-

turu fikri təəssürat üsulu ilə xarakterizə edilir. Beləliklə, "modelin" özü "strukturlu" insanla eyniyyət təşkil edən intellekt və predmetin cəmidir. İnsan fikirlər yaradan "nəhəng vibrasiya edici maşındır".

XX əsrin II yarısında təkcə fransız deyil, həm də dünya fəlsəfəsinin ən görkəmli nümayəndələrindən biri Mişel Fuko (1926-1984) bəzən strukturalist, bəzən də poststrukturalist hesab edilir. Lakin o, özünü heç də strukturalist adlandırmamışdır. ("Strukturalizm və postsrukturalizm", 1982).

"Söz və şeylər" (1966) adlı əsərində Fuko biliyin "arxeologiyası"nı tədqiq etməyə cəhd etmişdir. O biliyin "arxeologiyası", biliyin mövcudluğu, təşkili və yayılmasının sosial tarixi formalarının qərbi avropa mədəniyyəti çərçivəsində rekonstruksiyasına çalışır. Fuko biliyin və mədəniyyətin arxeologiyasının mərkəzində 4 mühüm məvhumu qoyur: təcrübənin strukturu, diskurs, tarixi apriori, epistema.

Fukoda təcrübənin strukturu idrak obyektləri və dərk edən subyekti əhatə edən mədəni situasiyaları bildirir. Diskurs idrak təcrübəsinin formalaşmasına təsir göstərən qaydaları saxlayan mühakimələrin strukturlaşmış sahəsidir. Tarixi apriori diskursiv praktikanı xarakterizə edən qaydalar toplusu, idrakın təşkilinin nisbətən daha əhəmiyyətli prinsipləridir. Epistema verilmiş zamanda diskursiv praktikanı müəyyənləşdirəcək münasibətlər toplusudur. Bu özünəməxsus mədəni, tarixi prosesdir. Eyni zamanda bu və ya digər epistemanın keyfiyyət xarakteristikası "sözlər" və "şeylərin" nisbətindən asılıdır. Epistemalar təşkilinə görə bir-birindən fərqlənirlər. Epistemalar dil səviyyəsində simvol toplusunu təşkil etdiyi üçün eyni anlayışlar müxtəlif epistemalarda müxtəlif məna daşıyır. Fuko 3 epistemanı fərqləndirir:

1) renessans (XVI əsr)
2) klassik (XVII-XVIII əsrlər)
3) müasir (XIX əsrdən sonra).

Fukonun diqqət mərkəzində subyekt problemi dayanır. Fuko üçün subyekt heç də klassik fəlsəfədəki subyekt olmayıb sözlər və şeylərin fərqləndirilməsi nəticəsində meydana gəlmiş mövcudluqdur. Bu bilik və hakimiyyət güclərinin qarşılıqlı təsiri nəticəsində yaranmış hansısa sahədir. Faktiki olaraq Fuko hansısa repressiv kimi başa düşülməyən hakimiyyət, bilik haqqında danışır. Hakimiyyət biliklə eyniləşdirilir. Subyekt hadisə "subyektivlik strategiyası" kimi təzahür edir, həmçinin subyektivləşdirmə strategiyası təkcə cəmiyyətin subyekt üzərində hakimiyyət forması yox, həm də özü üzərində hakimiyyətidir. Bu mənada müasir epistema çərçivəsində subyekt bu biliyin və hakimiyyətin effektidir.

Jak Derrida (1930-2004) hansısa cərəyana aid edilməsi çətin olan filosofdur. Onu həm strukturalır, həm poststrukturalist, həm də postmodern filosof hesab etmək olar. Derrida üçün əsas ustanovkalardan biri mədəniyyət mətnlərinin "dekonstruksiyasıdır", başqa sözlə desək, onlarda daxili ziddiyətləri aşkarlamaqdır. Onun konsepsiyasına görə fəlsəfə diqqəti müxtəliflik mövzüsuna yönəltməlidir. Belə ki, bir hadisəni digərinə müncər etmək, ziddiyət və müxtəlifliyi aradan qaldırmaq olmaz. Derrida loqosentrizmin fəlsəfi metafizikasına, onun universallıq və ən ümumiyə olan iddiasına qarşı çıxır. Dekanstruksiyanın mahiyyəti, dəyişdirilməlidir.

Derriadaya görə mətnin istənilən təfsiri və mənanın aşkarlanması heç də mətnin deşifrəsinə gətirmir, bu da təfsir prosedurunu sonsuz edir. Nəticədə həqiqi təfsirdə həqiqət ideyasının özü itir, beləliklə prinsipcə həqiqət, mahiyyət, məqsəd kimi terminlərdən istifadəyə istiqamətlənməmiş postmodern fəlsəfəsinə doğru addım atılır.

Postmodern fəlsəfəsi hər hansı istiqamət olmayıb, intellektual fəalliyətin xüsusi üsuludur. Postmodern fəlsəfəsi interpretativ zəkanın xeyrinə, qanunverici zəkanın Yeni Avropa rassionalist konsepsiyasından imtina edir.

Postmodernizmin nümayəndələri sırasında J.Delez (1925-1996), Qvattarinin (1930-1992) adlarını çəkmək olar. Delez və Qvattarinin konsepsiyalarının mərkəzində („Anti-Edip: Kapitalizm və Şizofreniya", „Fikrin məntiqi", „Fəlsəfə nədir? və b. əsərlər) "rizoma" anlayışı dayanır. Onlar bu anlayışı "ağac" simvolu ilə işarələnən rasional bilik sisteminə qarşı qoyurlar. Əgər ağacda strukturlaşdırılmış iyerarxiya (kök-gövdə-budaqlar) mühümdürsə, rizoma isə otun köküdürsə, bu əlaqələri çoxluq, heterogenlik, bərabərhüquqlu şəkildə təsdiqləyən uğurlu simvoldur. Rizoma prinsipini tədqiq edən Delez və Qvattari heç bir dəyər iyerarxiyası, heç bir həqiqi mənası, heç bir dəqiqlik və məntiqi kamilliyi tapılmayan poststrukalizmin fəlsəfə və mədəniyyətinin simvollarını yaratmışlar.

*Yoxlama sualları*

1. Hermenevtika nə vaxt və harada yaranıb?
2. H.Qadamer hermenevtikasının universal mənası
3. P.Riker hermenevtikasının anlaşılması
4. Fəlsəfi antropologiyanın ümumi cizgiləri
5. H.Plesnerin fəlsəfəsi
6. Elmin fəlsəfi konsepsiyası
7. Paradiqma nədir?
8. Strukturalizm anlayışı və onun əsas xüsusiyyətləri
9. Postmodern fəlsəfə

# X MÖVZU
# SOVET DÖVRÜ AZƏRBAYCAN FƏLSƏFƏSİ. AZƏRBAYCAN FƏLSƏFİ FİKRİ MÜSTƏQİLLİK İLLƏRİNDƏ

Azərbaycanda sovet hakimiyyətinin qələbəsindən sonra ölkədə marksizm-leninizmə müxalif olan ideoloji cərəyanların fəaliyyəti dayandırılmış, qeyri-marksist fəlsəfi və ictimai-siyasi problemlərin tədqiqinə son qoyulmuşdur. Azərbaycan Respublikasında marksist olmayan filosoflar ilə yanaşı, bir çox marksist filosoflar da müxtəlif illərdə siyasi təqiblərə məruz qalmışdılar. Onların fəlsəfi irsinin müəyyən dövrləri və əsərləri haqqında ətraflı və zəngin məlumat fəlsəfə elmləri doktoru, professor Ziyəddin Göyüşovun «Sovet Azərbaycanında fəlsəfi fikir» (1979) kitabında Azərbaycan ictimaiyyətinə çatdırılmışdır.

Sovet dövründə fəlsəfə vahid marksist-leninçi ideologiyaya müvafiq inkişaf etdiyindən ideoloji mübarizə fəlsəfənin bütün aspektlərinə şamil edildiyindən, xüsusən millət və milliliklə bağlı məsələlər sinfilik və partiyalılıq baxımından şərh edildiyindən və qiymətləndirildiyindən, elmlərin nailiyyətləri marksist-leninçi fəlsəfənin müddəalarının sübutuna yönəldilmişdi. Bakıda marksist fəlsəfəni müdafiə və yaymaq məqsədilə «Materialistlər klubu» (1923) təşkil edilmiş, 1931-ci ildən başlayaraq «Ümumittifaq mübariz materialistlər» cəmiyyətinin Azərbaycan bölməsi yaranmışdı.

Bu dövrdə filosoflar ateizm və din problemlərinin nəzəri aspektləri, etika və estetika elmləri sahəsində müntəzəm tədqiqatlar aparmışlar. Materialist dialektikaya əsaslanan N.Nərimanov, Q.Musabəyov, B.Şaxtaxtinski, B.Həsənbəyov, Əli Məmmədbəyov, Cahangir Nağıyev, Mirzədavud Hüseynov, Mustafa Quliyev, Ruhulla Axundov, Əhməd Kazımov, Əhməd Seyidov, Ayna Sultanova və b. tarixi inkişaf, ictimai varlıq və ictimai şüur, bazis və üstqurum, sinfi mübarizə, sosial inqilab,

milli məsələ kimi sosial fəlsəfə problemləri ətraflı tədqiq etmişlər.

Azərbaycanda XX əsr fəlsəfə elminin inkişafında özünəməxsus yer tutmuş akademik Aleksandr Makovelskinin (1884-1969) irsi qədim və orta əsrlər Şərq və Qərb fəlsəfəsi, məntiqinin elmi-nəzəri problemlərini, tarixini, dialektik və tarixi materializmin müxtəlif məsələlərini əhatə etmişdir.

A.O.Makovelski «Sokrata qədərki filosoflar» (Kazan, 1912-1916), «Fəlsəfəyə giriş» (Kazan, 1916), «Sofistlər» (Bakı, 1940-1941), «Qədim yunan atomistləri» (Bakı, 1946), «Avesta» (Bakı, 1960), «Məntiq tarixi» (Bakı, 1967) kimi fundamental elmi əsərlərlə bərabər Bəhmənyar, N.Gəncəvi və M.F.Axundov haqqında silsilə məqalələrin müəllifi kimi tanınır.

Akademik Heydər Hüseynovun (1908-1950) fəlsəfi irsi dialektikaya və tarixi materializmə dair əsərlərlə yanaşı Azərbaycan fəlsəfə tarixinin müxtəlif dövrlərinin tədqiqini əhatə edir. Bəhmənyar, N.Gəncəvi, M.Füzuli, M.F.Axundova həsr edilmiş əsərləri ilə yanaşı, H.Hüseynov bütövlükdə XIX əsr Azərbaycan fəlsəfi və ictimai fikir tarixini tədqiq etmişdir. O repressiya şəraitində Azərbaycanda humanitar elmlərin inkişafına ideoloji və metodoloji istiqamət verən təşkilatçı-alim olmuşdur.

Həmin dövrdə fəlsəfi fikrin inkişafı və milli kadrların hazırlanmasında tanınmış sovet filosofu, fəlsəfə elmləri doktoru professor Mehbalı Qasımovun (1906-1962) da xidmətləri böyük olmuşdur. O bütöv bir filosoflar nəslinin yetişməsində mühüm rol oynamışdır. Filosofun Azərbaycan fəlsəfi fikir tarixinin, eləcə də şərq fəlsəfi fikrinin tədqiqinə həsr edilmiş əsərləri vardır.

Akademik Firudin Köçərli (1920-2004) fəlsəfi problemlərin tədqiqi, eləcə də fəlsəfə kadrlarının hazırlanmasında əzmlə çalışmışdır. Onun əsərləri Azərbaycanın görkəmli elm və mədəniyyət nümayəndələrinin (A.Bakıxanov, M.Kazımbəy,

M.F.Axundov, H.Zərdabi, N.Nərimanov, Ü.Hacıbəyov, və b.) fəlsəfi fikrimizdəki yeri və rolunun tədqiqinə həsr olunmuşdur.

Azərbaycanda marksist fəlsəfə, Azərbaycan və Şərq fəlsəfəsi tarixi, psixologiya və məntiq elmlərinin tədqiqində Əhməd-Kərədi Zəkuyevin (1888-1968) mühüm rolu olmuşdur. Onun Şərq və Azərbaycan fəlsəfəsi və məntiqi sahəsində, Bəhmənyarın, «Saflıq qardaşları»nın fəlsəfəsi, ərəbdilli məntiq tarixinə həsr edilmiş əsərləri bu gün də əhəmiyyət kəsb edir.

Bu dövrdə XIX əsr Azərbaycan fəlsəfəsi və ictimai fikrinin öyrənilməsi, eləcə də Azərbaycanda marksizmin yayılmasının araşdırılması sahəsində mühüm tədqiqat işləri aparılmış, filosoflar dialektik və tarixi materializmin müxtəlif problemləri, eləcə də qanun və kateqoriyalarının şərhinə həsr edilmiş əsərlər yazmışlar.

Filosoflar tərəfindən fəlsəfənin ayrı-ayrı sahələrinə nisbətən fəlsəfə tarixi daha geniş tədqiq edilmişdir. Fəlsəfə tarixi üzrə tədqiqatlar əsasən qədim yunan fəlsəfəsinin tarixi, onun Azərbaycan fəlsəfi fikrinə təsiri, ərəb, türk fəlsəfi problemləri, Qərb fəlsəfəsinə dair problemlər istiqamətində aparılmışdır.

Fəlsəfənin bir elm kimi inkişafında Azərbaycan fəlsəfəsində özünəməxsus yeri və mövqeyi olan fəlsəfə elmləri doktorları, professorlar Əddin Şəkirzadə, Məqsəd Səttarov, Zakir Məmmədov, Aslan Aslanov, Həsən Şirəliyev, Şükufə Mirzəyeva, Adil Nəcəfov, Vəli Nəsirov, Zakir Bağırov, Cəmil Əhmədli, Cahid Quliyev, Ziyəddin Göyüşov, Midhət Ağamirov, Fuad Qasımzadə, Həmid İmanov, Yusif Rüstəmov, Nurqələm Mikayılov, Ağayar Şükürov, Maarif Əkbərov, Məmmədəli Zeynalov, Vəli Paşayev, Vəli Həbiboğlu, Maqsud Fərhadoğlu və başqalarının adlarını fəxrlə yada salır və elmi xidmətlərini unutmuruq.

XX əsrin sonlarında Azərbaycanda əsası Aida İmamquliyeva tərəfindən qoyulan Şərq-Qərb problematikasının fəlsəfi aspektləri də geniş tədqiq obyekti olmuşdur.

XX əsrin 90-cı illərində ictimai-siyasi həyatda böhran fəlsəfədə də tərəddüdlərə gətirib çıxarmışdı. İctimai elmlərin nümayəndələri böhrandan çıxış yollarını XX əsrin əvvəllərindən formalaşmağa başlamış mütərəqqi ideyalar əsasında yeni ideologiya və yeni metodologiyanın işlənib hazırlanmasında axtarmışlar.

Bu dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesi cəmiyyətdə demokratik quruculuq proseslərinin tərkib hissəsi kimi milli ideologiyanın və ictimai-siyasi fikrin də inkişafına geniş imkanlar açmışdır. Məhz Azərbaycan xalqının ümumilli lider Heydər Əliyevin ölkənin milli tərəqqisini müəyyən edən ideyaları Azərbaycanda müasir fəlsəfi fikrin inkişafına güclü istiqamət vermişdir.

Heydər Əliyevin dövlətçilik nəzəriyyəsi və praktikasına gətirdiyi ən böyük yenilik sosial-siyasi sistemləri öz daxili gücü hesabına dəyişdirmək, dağıdıb yenidən qurmağa vaxt və qüvvə sərf etmədən, proseslərin təbii gedişini istiqamətləndirmək taktikası olmuşdur. O, özünün dövlətçilik nəzəriyyəsində etnik-milli və milli- siyasi aspektlər arasında optimal nisbəti nəzərə almaqla təkamül yolu ilə inkişaf üçün zəmin hazırlamışdır. Bu baxımdan qloballaşma şəraitində Azərbaycanın milli müstəqilliyinin qorunub saxlanılması, transformasiya dövründə ölkənin inkişaf meylləri, demokratikləşməsi,modernləşməsi və dünya iqtisadiyyatına inteqrasiyası məsələləri akademik R.Mehdiyevin «Azərbaycan. Qloballaşmanın tələbləri» (2005) kitabında geniş təhlil edilmiş və mövcud boşluğu doldurmuşdur.

Akademik R.Mehdiyevin Azərbaycan: qloballaşma dövrünün tələbləri. Keçmişin dərsləri və bugünün reallıqları və gələcəyin perpektivləri (2005), 2005-ci ilin parlament seçkiləri: ilkin təhlil. Mülahizələr, nəticələr, proqramlar (2006). «Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə (I-II cild), (2006), «Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti (2008), «Fəlsəfə» dəsliyi (2012), «Zaman haqqında düşü-

nərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq» (2009), «İctimai və humanitar elmlər: zaman kontekstində baxış» (2010) və başqa əsərlərində dövrün fəlsəfi problemləri ətraflı təhlil edilmişdir.

Filosofun iki cildlik «Müstəqillik yolu ilə» kitabında azərbaycan xalqının müstəqillik illərindəki fəaliyyəti ətraflı tədqiq edilmişdir. Müəllif təhlillərdə Azərbaycanın XX əsrdəki intibah, hüquqi dövlət, demokratiya və vətəndaş cəmiyyəti quruculuğunda əldə olunmuş uğurların məhz Heydər Əliyev dühasının, müdrikliyinin, cəsarətinin və yenilməz iradəsinin nəticəsi olduğunu göstərmişdir. Akademik R.Ə. Mehdiyev bu dahi şəxsiyyəti xarizmatik lider, Azərbaycan dövlətçiliyinin xilaskarı, dünya siyasətinə təsir göstərən qüdrətli şəxsiyyət, bütün həyatını xalqına və vətəninə həsr etmiş böyük azərbaycanlı kimi təqdim etmişdir.

Filosofun «İctimai və humanitar elmlər: zaman kontekstində baxış» əsərində bu elmlərin real mənzərəsi verilmiş, onların cəmiyyət həyatına real təsiri qiymətləndirilmiş, problemlər təsnifatlaşdırılmış, nöqsanların aradan qaldırılması yolları göstərilmişdir. Eyni zamanda müasir qloballaşma şəraitində xalqımızın inkişaf strategiyası və perspektivləri müəyyənləşdirilmişdir.

Hazırda sosial inkişafla bağlı özünütəsdiq baxımından zəruri olan azərbaycançılıq ideyası XXI əsrdə Azərbaycan suveren milli dövlətinin aparıcı ideyasına çevrilmişdir. Azərbaycançılıq ideyası xalqın tarixi mənəvi ənənələrinə, din və adətlərinə yeni münasibətin formalaşmasını zəruri edir. Təsadüfi deyil ki, Ramiz Mehdiyevin müasir Azərbaycan dövlətinin milli ideologiyanın yaradıcısı olan ümumilli lider Heydər Əliyevin nəzəri irsini açıqlayan tədqiqatlarında bu məqamdlar xüsusi qeyd edilir.

Müasir dövrdə fəlsəfi fikrin inkişafında AMEA-nın müxbir üzvü, fəlsəfə elmləri doktoru, professor Səlahəddin Xəlilovun müxtəlif fəlsəfi problemlərə həsr olunmuş əsərlərini xüsusilə qeyd etmək lazımdır. Onun Cavid fəlsəfəsi (1996),«Şərq və

Qərb: ümumbəşəri ideala doğru. (Bakı, 2004, İstanbul 2006), Mənəviyyatın fəlsəfəsi (2007), Fəlsəfə: tarix və müasirlik (fəlsəfi komparativistika) (2006), Azərbaycanda elm və onun təşkilati formaları» (2010) və başqa əsərləri bu gün üçün böyük aktuallıq kəsb edir.

Müstəqillik illərində aksiologiya və fəlsəfi antropologiya problemləri, etika və estetika məsələləri, qlobal etika və milli əxlaq, ideologiya və əxlaq münasibətləri, Azərbaycanda transformasiya prosesləri, vətəndaş cəmiyyəti və hüquqi dövlət, bioetika və siyasi etika və başqa problemlər hərtərəfli tədqiq obyekti olmuşdur..

Bu dövrdə fəlsəfənin yeni istiqamətləri, gender problemlərinin nəzəri əsasları və gender maarifinin istiqamətləri ilə bağlı tədqiqatlar da nəzəri cəlb edir.

Müstəqillik illərində filosoflarımız klassik şərq və qərb fəlsəfi irsindən nümunələri Azərbaycan dilinə tərcümə etmiş, Azərbaycan fəlsəfəsi nümunələri xarici dillərə tərcümə olunmuş, müxtəlif ölkələrdə kitab və məqalələr nəşr edilmişdir.

Bu gün Azərbaycanda fəlsəfi tədqiqatlara aid materiallar AMEA-nın «Xəbərlər»ində, «Şərq fəlsəfəsi problemləri», Fəlsəfə və Sosial-siyasi Elmlər, Bakı Universitetinin xəbərləri (sosial-siyasi elmlər seriyası), Bakı Slavyan Universitetinin əsərləri (ictimai-siyasi elmlər seriyası), «Dirçəliş-XXI əsr», Mədəniyyət dünyası, Dövlət və din, AMEA-nın Şərqşünaslıq İnstitutu araşdırmaları, Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri (ictimai elmilər seriyası), Geostrategiya və başqa jurnallarda dərc olunur.

Elmi araşdırmalar əsasən AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunda, eləcə də ali məktəblərin müvafiq kafedralarında aparılır. Təsadüfi deyildir ki, yeni nəzəri-metodoloji prinsiplər əsasında ilk çoxcildlik Azərbaycan fəlsəfəsi tarixi yazılmış və 2 cilddə çap edilmişdir.

Filosoflar dialektik idrak nəzəriyyəsi və elmin metodologiyası, yeni dövrdə elmin inkişafına təsir edən sosioloji mexa-

nizmlər kimi məsələləri, Qərb fəlsəfənin əsas istiqamətləri ilə bağlı problemləri də araşdırmışlar.

Fəlsəfənin aktual problemləri, qloballaşma, müasir Azərbaycan cəmiyyətinin sosial-fəlsəfi problemləri və sosial inkişafının tədqiqinin yeni metodoloji prinsipləri, sosial fəlsəfənin, idrakın problemləri də filosoflarımız tərəfindən ətraflı öyrənilmişdir.

Bu gün Azərbaycan MEA-nın Fəlsəfə və Hüquqi Tədqiqatlar İnstitunun əməkdaşları müxtəlifyönlü fəlsəfi problemlərin ətraflı həlli üçün əllərindən gələni əsirgəmirlər. Azərbaycan fəlsəfi fikir tarixinin öyrənilməsində fəlsəfə elmləri doktoru Zümrüd Quluzadə, sosial fəlsəfə problemlərinin təhlilində fəlsəfə elmləri doktoru, professor Əbülhəsən Abbasov, fəlsəfənin yeni istiqamətlərinin tədqiqində fəlsəfə elmləri doktor, professor Əli Abasov, aksioloji və etika məsələlərinin tədqiqində fəlsəfə elmləri doktoru professor İlham Məmmədzadə, müasir cəmiyyətin sosioloji və sosial psixoloji problemlərinin nəzəri və praktiki təhlilində fəlsəfə elmləri doktorları Sakit Hüseynov, Rəfiqə Əzimova, Tahirə Allahyarova, müasir siyasi proseslərin araşdırılmasında fəlsəfə elmləri doktoru prfessor Əlikram Tağıyev, sosial fəlsəfə problemlərin təhlilində fəlsəfə elmləri doktorları Azər Mustafayev, Rəna Mirzəzadə, Lalə Mövsumova, idrak nəzəriyyəsi problemləri, elmə sinergetik yanaşmanı ətraflı tədqiq edən fəlsəfə elmləri doktoru Fizuli Qurbanovun, estetika problemlərinin tədqiqçisi fəlsəfə elmləri doktoru Adil Əsədovun və başqalarının əməyi böyükdür.

Bu gün ali məktəblərin fəlsəfə kafedralarında fəlsəfi problemləri ətraflı və hərtərəfli tədqiq edən filosoflarımızın apardıqları tədqiqatlar xüsusilə qeyd etmək lazımdır. Müasir Azərbaycan fəlsəfi fikrinin tanınmış nümayəndələri olan İzzət Rüstəmov, Rəbiyyət Aslanova, Zeynəddin Hacıyev, Cahangir Məmmədov, Camal Mustafayev, Fərrux Ramazanov, Əli Əhmədov, İmran Cəfərzadə, Niyazi Mehdi, Qoşqar Əliyev, Əlisa Əhmədov, Vahid Kərimov, Əziz Məmmədov, Fərman

İsmayılov, Rahid Ulusel və başqalarının əsərlərində fəlsəfənin aktual problemləri ətraflı tədqiq və təhlil edilir.

Qloballaşmanın fəlsəfi aspektləri, ideoloji problemlərin fəlsəfi təhlili, informasiya cəmiyyətinin fəlsəfəsi, qlobal dünya və mənəvi həyat, milli-mənəvi dəyərlər, mədəniyyətşünaslıq problemləri, şərqdə və qərbdə ekoloji problemlərin qoyuluşu və həlli üsulları, qlobal ekoloji sistemlərdə proqnozlaşdırma, din tarixi, müasir dünyada din problemləri bu gün filosoflarımız tərəfindən ətraflı tədqiq edilir.

Akademik Ramiz Mehdiyevin qlobal elm məkanına inteqrasiya baxımından dediyi sözlər bu günkü fəlsəfi fikrin əhatə dairəsinə də aiddir. «İctimai elmlər cəmiyyətdə baş verən proseslərin və dövlət-vətəndaş münasibətlərinin əlaqələndirilməsini təmin etməlidir. O, elmimizi obyektiv istiqamətlərə yönəltməkdə millətin düşünən beyninə, insanlarımızın ictimai əxlaqının yüksəldilməsinə, bütünlüklə inkişafın aparıcı amilinə çevrilməlidir...

Güman etmək olar ki, ictimai və humanitar elmlərin nümayəndələri ölkəmizin dinamik inkişafına öz töhfələrini verəcək və onun regionda həm də güclü elm mərkəzinə çevrilməsi yolunda üzərlərinə düşən vəzifələri az bir vaxtda yerinə yetirmək üçün bütün imkanlarını səfərbər edəcəklər».

# ƏDƏBİYYAT


**Azərbaycan dilində**

1. Abbasova Qızılgül, Hacıyev Zeynəddin. Sosial fəlsəfə. Bakı, «Ayna Mətbuat evi», 2001
2. Allahyarova T.B. Sinergetika -1. Bakı, Elm, 2005
3. Ağayeva Ziba. Tənhalıq fəlsəfəsi. Bakı, 2008
4. Araslı Həmid. İmadəddin Nəsimi. Bakı, 1972
3. Aristotel. Metafizika. Bakı, Mütərcim, 2005
4. Aristotel. Ritorika. Bakı, 2008
5. Aristotel. Siyasət. Böyük etika, Bakı, 2006
6. Aslanova R. İslam və mədəniyyət. Bakı, Azərbaycan Universiteti, 2002
7. Aslanova R.N. Qloballaşma və mədəni müxtəliflik. Bakı: Elm, 2004
8. Axundov M.F. Kəmalüdövlə məktubları. Bakı, 2009
9. Bağırov Zaur. Fəlsəfə (sxemlərdə). Bakı, Elm, 2009
10. Bünyadzadə K. Şərq və Qərb. İlahi vəhdətdən keçən özünüdərk. Bakı, Nurlan, 2006
11. Bhaqavad – Qita olduğu kimi. Bakı, 1991
12. Cəlilov Maqsud. Fəlsəfə. Bakı, 1999
13. Dünya dinləri. Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2003
14. Əlizadə. A. Xristianlıq. Tarix və fəlsəfə. Bakı, 2007
15. Əlisa Nicat. Dünya filosofları, Bakı, «Sabah», 1995
16. Əhmədli C. T. Materialist dialektikanın qanun kateqoriyası. Bakı, 1963
17. Freyd.Z.Bir illuziyanın gələcəyi. Bakı, 2004
18. From. E. Psixoanaliz və din. Bakı, 2004
19. Fəlsəfə, (f.e.d.,prof. Fərrux Ramazanovun redaktorluğu ilə) Bakı, «Azərbaycan» nəşriyyatı, 1997

20. Fəlsəfə. Ensiklopedik lüğət. (Elmi redaksiya şurasının sədri prof. İ.Ə.Rüstəmov), Bakı, Azərbaycan Ensiklopediyası. NPB, 1999
21. Fərhadoğlu Maqsud. Fəlsəfənin əsasları, Bakı, Maarif, 1998
22. Göyalp Z. Türkçülüyün əsasları. Bakı; Maarif, 1991
23. Hacıyev Z. Məntiq. Bakı, 2007
24. Hacıyev Zeynəddin. Fəlsəfə. Dərslik, Bakı, Adiloğlu, 2010
25. Hacıyeva. A. Ə. Hermentevtika Şərqdə. Bakı, Adiloğlu, 2008
26. Hegel G.F. Hüquq fəlsəfəsi. Bakı, Nərgiz, 2007
27. Hegel. G.F. Məntiq elmi. Bakı, 2005.
28. Hegel. G.F. Ruh fəlsəfəsi. Bakı, 2003
29. Hegel. G.F. Hüquq fəlsəfəsi. (çevirəni A.T.Tağıyev) Bakı, Nərgiz, 2007
30. Hüseynov Heydər. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən. Bakı, «Zəkioğlu», 2006
31. Həbibbəyli İsa. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, Nurlan, 2007
32. Həsənov H. Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikir. Bakı, 1977
33. Xəlilov Səlahəddin. Cavid fəlsəfəsi. Bakı, Qanun, 1996
34. Xəlilov Səlahəddin. İşragilik və müasir fəlsəfi təlimlər. Bakı, Azərbaycan Universiteti, 2005
35. Xəlilov Səlahəddin. Mənəviyyat fəlsəfəsi. Bakı, 2007
36. Xəlilov Səlahəddin. Fəlsəfə: tarix və müasirlik (fəlsəfi komparativistika), Bakı, «Azərbaycan Universiteti» nəşriyyatı, 2006
37. Xəlilov S.S. Elmdən texnikaya və mənəviyyata. Bakı: Azərbaycan Universiteti, 1998

38. Xəlilov S.S. Fəlsəfədən siyasətə. Bakı: Azərbaycan Universiteti, 1999
39. İbrahimov Sənan. Klassik ədəbiyyatda vəhdəti-vücud. Bakı, 2007
40. İmanov Həmid. Fəlsəfə. Bakı, Turan evi, 2005
41. İmanov Həmid. Fəlsəfənin əsasları. Bakı, Turan evi, 2007
42. İmanov. H. Əhmədov. A. Orta əsrlərdə ərəb-müsəlman fəlsəfi fikri. Bakı, 2008
43. İsmayılov Fərman. XX əsr qərb fəlsəfəsi tarixi. Dərs vəsaiti. Bakı, 2000
44. İsmayılov Fərman. Müasir qərb fəlsəfəsi. Bakı, 1991
45. İmanquliyeva A. Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr. Beynəlxalq elmi konfransın materialları. Bakı, Elm, 2004
46. Qasımzadə Fuad, Həsən Şirəliyev. Dialektik materializm. Bakı, 1968
47. Qasımzadə Fuad, Həsən Şirəliyev, Həmid İmanov. Tarixi materializm, 1969
48. Qasımzadə Fuad. «Qəm Karvanı» yaxud zülmətdə nur. Bakı, 1968
49. Qunnar Skirbekk, Nils Gilye. Fəlsəfə tarixi, Bakı, Zəkioğlu, 2007.
50. Qurani – Kərim (tərcümə edilən Z. Bünyalov, V.Məmmədəliyev. Bakı, Azərnəşr, 1991
51. Marks K. Və Engels F. Seçilmiş əsərləri 3 cilddə, 3-cü cild. Bakı: Azərnəşr, 1982
52. Marksizm-leninizm fəlsəfəsinin əsasları. Bakı, Maarif, 1980
53. Marksimədək fəlsəfənin əsas inkişaf mərhələləri. Bakı, 1962
54. Mehdiyev Ramiz. Fəlsəfə, Bakı, 2003

55. Mehdiyev Ramiz. Milli məfkurə dövlətçilik, müstəqillik yolu ilə. I-II cild, Bakı, «Şərq-Qərb», 2006, 2010
56. Mehdiyev Ramiz. Fəlsəfə. Bakı, «Şərq- Qərb», 2009
57. Mehdiyev Ramiz. İctimai və humanitar elmlər: Zaman kontekstində baxış. Bakı, 2010
58. Mollayev. İ. A. Orta əsr Azərbaycan mütəfəkkirləri təlim-tərbiyə haqqında. Bakı, Maarif, 1996
59. Mədəniyyət tarixi və nəzəriyyəsi. Bakı. ATU, 2010
60. Məmmədli T. Danişməndani – Azərbaycan. Bakı, Azərnəşr, 1987
61. Məmmədov Z. Bəhmənyarın fəlsəfəsi. Bakı, Elm, 1983
62. Məmmədov Z.C. Azərbaycan fəlsəfəsi tarixi. Bakı, 1996
63. Məmmədov Z.C. Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir. Bakı, Elm, 1978
64. Məmmədov Z.C. Eynəlqüzat Miyanəçi. Bakı, Elm, 1992
65. Nəsirəddin Tusi. Əxlaqi-nasiri. Bakı, 1989
66. Niyazi Mehdi, Dilarə Mehdi. Fəlsəfə tarixində Fəlsəfə (Dərs vəsaiti), Bakı, Qanun, 2005
67. Naxçıvan Ensiklopediyası. Bakı, 2002
68. Platon. Dövlət. Bakı, 1999
69. Rzayev A. Nəsirəddin Tusinin həyatı, elmi, dünyagörüşü. Bakı, Ozon, 1996
70. Rzayev Məmməd. Şəxsiyyətin fəlsəfəsi. Bakı, ADPU, 2004
71. Rüstəmov İzzət. Həsənbəy Zərdabi. Bakı, 2012
72. Rüstəmov Yusif. Fəlsəfənin əsasları. Bakı, 2004
73. Rüstəmov Yusif. Mövlanə Cəlaləddin Ruminin sufilik fəlsəfəsi. Bakı, Nurlan, 2006

74. Rüstəmov Yusif. Sosial-siyasi və hüquqi təlimlər tarixi. Bakı, Azərbaycan Universiteti, 2007
75. Rüstəmov Yusif. Sosial-siyasi və hüquqi təlimlər tarixi. Bakı, Azərbaycan Universiteti, 2007
76. Ramazanov Fərrux. Fəlsəfə. Dərslik. Bakı, 2001
77. Saflıq qardaşları. IX risalə. Bakı. Adiloğlu, 2008
78. Sührəvərdi Şihabəddin Yəhya. Nur heykəlləri. Bakı, Elm, 1989
79. Sührəvərdi Şihabəddin Yəhya. Filosofların görüşləri. Bakı, Elm, 1986
80. Şaxtaxtlı Məhəmmədağa. Seçilmiş əsərləri. Bakı, Çaşıoğlu, 2006
81. Şükürov Ağayar. Müstəqil dövrün fəlsəfəsi və filosofları. Bakı, «Səda», 2007
82. Şükürov Ağayar. Fəlsəfə. Bakı, Elm, 1997
83. Şükürov Ağayar. Şərq fəlsəfəsi və filosofları. Bakı, 2005
84. Şərq mütəfəkkirlərindən seçmələr. Bakı, Adiloğlu, 2007
85. Şərq fəlsəfəsi (IX-XII əsrlər). Bakı, BDU, 1999
86. Tağıyev Əlikram. İnsan və siyasət. Bakı, 2005
87. Tağıyev Əlikram. Fəlsəfə. Bakı, 2012
88. Ulusel Rahid. Qloballaşma və harmoniya fəlsəfəsi. Bakı, Elm 2005
89. Ulusel Rahid. Klassika. Bakı, Az Ata M, 2008
90. Ulusel R. Mədəniyyətlərin İpək Yolu. Azərbaycandan dünya məkanına. Bakı: Təhsil, 2003
91. Yasper Karl. Tarixin mənası və təyinatı. Bakı «Zəkioğlu» 2008
92. Yustav le Bon. Kütlə psixologiyası. Bakı, Zəkioğlu, 2006
93. Zeynalov Məmmədəli. Fəlsəfə tarixi. Bakı. Azərbaycan nəşriyyatı, 2001

94. Zeynalov Məmmədəli. Xarici ölkələrin fəlsəfə tarixi. Bakı, «Şərq-Qərb», 2009

**Rus dilində**

95. Аббасов Абульгасан. Философия сложности. Баку, «МВМ», 2007.
96. Антология мировой философии. В 4 т. М., Мысль, 1969
97. Алексев В.О., Малышина Н.А., Мельникова Н.А.. Философия. Москва, Эксмо, 2008
98. Ахмедли Дж. Т. Свобода и необходимость. Баку, 1960
99. Алакшина. А. М. Старостин. Философия. Ростов-на-Дону, Феникс, 2007
100. Алекссеев В.О. Н.А.Мальшина, Н.А.Мельникова, Философия. М.: «Эксмо», 2008
101. Алекссеев П.В. А.В. Панин. Философия Учебник. Москва, МГУ, 2007
102. Асмус. В.Ф. Античная философия. М., Мысль, 1976
103. Аль-Фараби. Философские трактаты. Алмаата, Наука, 1970
104. А.Руткевич. От фрейда к Хай деггеру. М., 1985
105. Богомолов. А.С. Диалектический логос: становление античной диалектики. М., 1982
106. Блинников. Л. В. Великие философы. Словарь- справочник. М., Логос, 1999г.
107. Буржуазная философия XX века. Москва, 1974
108. Бучилло. Н.О. Чумаков. А.Н. Философия. М., 1998

109. Виндельбанд. В. История древней философии. Киев, Тандем, 1995
110. Боргош.Ю. Фома Аквинский. М., 1975
111. Васильев. Л.С. Култы, религим, традиции в Китае. М., 1970
112. Бабаев. Г.А. История философии. Москва, фмента, 2006
113. Бердяев.Н. Смысл истории. М., 1990
114. Б.Быховский. Кьеркегор. М., 1972
115. Великие мыслители Востока. М., Крок–Пресс, 1998
116. В.Соколов. Очерки философии эпохи Возрождение
117. Горфункель. А.Х. Бруно. М., 1965
118. Горфункель. А.Х. Философия епохи Возрождения. М., Мысль, 1980 г.
119. Гусейнов. А.А. Великие моралисты. М., Республика, 1995 г.
120. Гуревич. П.с. Культурология. М., 1995
121. Дежохадзе. Д.В. Основные этапы развития античной философии. М., Наука, 1977
122. Добрынина. В.И. Философия XX века. М., 2007
123. Джей Стивенсон. Восточная философия. М.,
124. Астрель, 2005
125. Диоген Лаертский. О жизни. Учениях и
126. изречениях знаменитых философов. М., 1986
127. Иммануел Кант. Критика чистого разума. М., 2005
128. История Азербайджанской философии. I том, Баку, Элм, 2002
129. История Азербайджанской философии, II том, Баку, Элм, 2008

130. История русской метафизики в XIX-XX веках. в 2- х тт, 2000
131. Каган Л.М. Мир общения. М., 1989
132. Каган Л.М. Человеческая деятельность. М., Мысль, 1988
133. Канке. В.А. Философия. М., 2000
134. Колпстон.Ф. История средневековой философии.
135. М., Мысль, 1981 г.
136. Колядко. В.И. Бернард Бальчано. Москва,
137. «Мысль», 1982
138. Коротаев А.В. Социальная эволюция. Москва, Вост. лит., 2003
139. Кочарян. М. Т. Поль Гольбах. Москва, «Мысль, 1978
140. Китайская философия. Энциклопедический словарь. М., 1994
141. Кессиди. Ф.Х. Сократ. М., 1976
142. Крапивенский С.Е. Социальная философия. М., 1998
143. Кузнецов В.Н. Франсуа Мари Вольтер. Москва, «Мысль», 1978
144. Кузнецов. В. Немецкая классическое философия. М., 1981
145. Кузнецов. В. Жан-пол Сартр 4 екзистенсиализм.М., 1969
146. Лысенко. В.Г. Школа вайшешики. М., 1986
147. Лазарев. В.В. Шеллинг. Москва, «Мысль», 1976
148. Леонтьев А.Н. Психика. Деятельность. Сознание. М., 1985
149. Лосев.А.Ф. История античной философии в конспектном изложении. М., Мысль, 1989 г.

150. Лосский. Н.О. История русской философии. М., 1991
151. Ляткер. Я.А. Декарт. Москва, «Мысль», 1975
152. Малинин. В.А. Теория истории философии. М., 1976
153. Мартынов М.И. Кравченко Л.Г. Философия. Минск, «Тетрасистемс», 2007
154. Монтен. М. Опыты. М., 1991
155. Нарский.И.С.Западно-европейская философия ХЫХ века. М., Высшая школа, 1984
156. Нарский. И.С. Западно – европейская философия XVIII века. Москва, «Высшая школа»1973.
157. Николас. Г., Приголкин. И. Познание сложного. М., 1990
158. Основы философии (под ред. Попова). М., 1998
159. Заратустра. М.,ЭКСТО, 2010
160. Зенковский. В. В. История русской философии. М., 2001
161. Зотов. А. Ф. Современная западная философия. М., 2001
162. Зигмунд Фрейд. Я и Оно, Харьков «Фалио», 2007
163. Платон. Собрание сочинений в 4-х т. Т.1, М., Мысль, 1990
164. Покровский. Н.Е. Генри Торо. Москва, «Мысль» 1983
165. Поппер К. Открытое общество и его враги. Т.1, М., 1992.
166. Пригожин И.Р., Стенгерс И. Порядок из хаоса. М., 1986
167. Печчеи. А. Человеческие качество. М., 1980

168. Рейхенвах. Г. Философия пространства и времени. М., Прогресс, 1985 г
169. Сартр. М. Экзистенсиализм – это гуманизм. М., 1983
170. Соколов. В.В. Средневековая фялософия. М., Высшая школа, 1979 г
171. Соловьев. С.В. Сочинених в двух томах. М., Мысль, 1990
172. 163.Спиркин Г.А. Философия. М., 2006
173. Степанян . М. Т. Восточная философия. М., 2001
174. Современная западная социлогия (словарь).
175. Москва, издательство политической литературы, 1990
176. Современная западная философия (словар).
177. Москва, издательство политической литературы, 1990.
178. Секст Эмпирик. Сочинения в 2-х томах. М., 1976
179. Соколов. В.В. Средневековая философия. М., 1979
180. Сорокин. П.а. Человек. Инвилизация. Обшество. М., 1992
181. Т.О.Бажутин. Философия для специалистов. Новосибирск, НГТУ, 2005
182. Федоров Ю.М. Сумма антропологии. Новосибирск, «Наука», 1996
183. Фейербах Л. Избранные философские произведения. В 2-х т. Т.1, М., 1955
184. Философия. М., «А-Приор», 2007
185. Философия. Учебное пособие. М., «Проспект», 2008

186. Философский энциклопедический словарь (под ред. И.Т.Фролова.). М., 160.Политиздат, 1986
187. Философский Энциклопедический словарь. Москва, Инфра – М, 2007
188. Франкл В. Человек в поисках смысла. М., Республика, 1990
189. Фридрих Ницше. По сторону добра и зла. Москва,
190. «Эксмо», 2007
191. Философия. Рычков А.К, Яшин Б.Л. Москва,
192. «Владос», 2004
193. Фром Э. Иметь или быть. М., Прогресс, 1990
194. Фром Э. Психоанализ и этика. М., Наука, 1993
195. Хайруллаев. М.М. Аби Наср Ал-Фараби. Москва, Наука, 1982
196. Хантингтон. С. Столкновение цивилизации. М., 2003
197. Хакен. Г. Синергетика. М., 1980
198. Хесле. В. Философия и екология. М., 1994
199. Чаттерджи. С. Дама. Д. Индийская философия. М., 1964
200. Чанышев А.Н. Философия древнего мира. М., Высшая школа, 1999
201. Чанышев. А.Н. Аристотель. Москва, «Мысль», 1987
202. Чумаков. А.Щ. Философия глобальных проблем. М., 1994
203. Шахнович М.И. Происхождение философии и атеизм. Ленинград, «Наука»1973
204. Евлампиев. И.И. Соколов. В.В. Средневековая философия XV-XVII вв.. М., Высшая школа, 1984

205. Бертелс Е. Э. Суфизм и суфийская литературы. М., 1965

**Türk dilində**

206. Arslan A. İlkçağ Felsefe Tarihi (I) (Başlangıçlardan Atomçulara Kadar), Bornova-İzmir, 1995
207. Aydın M. Din Felsefesi, İzmir, 1987
208. Aristo Metafiziği ile Gazzali Metafiziğinin Karşılaştırılması. İstanbul, 1980
209. Baba Nemətulla Naxçıvani. Hidayetül - İhvan
210. Ahmet Cevizçi. Felsefe tarixi. İstanbul. Say yayınları, 2012
211. Ahmet Yesevi. Divanı-1 Hikmet İstanbul, 2005
212. Ayhan Aydın: Düşüncə Tarixi və insan doğası, İstanbul, 2000
213. Bolay S.H. Aristo Metafiziği ile Gazzali Metafiziğinin Karşılaştırılması, İstanbul, 1980
214. Dostoyevski. Yeraltından Notlar. Cumhuriyyet Yayınları. İstanbul 2000.
215. Fahri.M. İslam Felsefesi Tarihi, (çevr. Kasım Turhan), İstanbul, 1987
216. Freyer.H. Din Sosyolojisi (çevr. Turgut Kalpsüz), Ankara, 1964
217. Gazalli.Tehafütül-Felasife(Filozofların Tutarsızlığı), (çevr. Bekir Karlığa), İstanbul, 1981
218. Gazali İ. İlahi Nizam. İstanbul: Eskin Matbaası, 1986
219. Gazali, İ.Kimya-yı Saadet (çev. Ali Arslan) Merve Yayınları. 1986.
220. Gökberk, M. Felsefe Tarihi. Remzi Kitabevi. İstanbul, 1998

221. Hançerlioğlu, O. Düşünce Tarihi. Remzi Kitabevi. İstanbul, 1998
222. Metafizik, Cilt. I-II (Çevr. Ahmet Arslan), İzmir, 1985, 1993
223. Scheler, M. İnsanın Kozmozdaki Yeri (Çev: Tomris Mengüşoğlu) İstanbul Matbaası, 1968
224. Sena, C. Hazreti Muhammedin Felsefesi. Remzi Kitabevi, 1971
225. İbn Sinanı Anma ve Tanıtma Toplantıları. 1984, 1985, 1986
226. Campenalla. Günəş Ülkesi (Çev. Vedat Günyal ve Haydar Kazgan). Can yayınları. İstanbul, 1999
227. Çotuksöken. B.Babür, S.Ortaçağda Felsefe. İstanbul, 1989
228. İbn Rüşd.Tutarsızlığın Tutarsızlığı (tehafütü-Tehafüt), (çev. Kemal Işık, mehmet Dağ), Samsun, 1986
229. Hüseyn Qazi Topdemir. İbn-Sina və bilim. Ankara, 2009
230. Kaya M. İslam kaynakları işığında Aristoteles və Felsefesi, İstanbul, 1983.
231. Leaman. O. Ortaçağ İslam Felsefesine Giriş. (çevr. Turan Koç), Kayseri, 1992
232. Sunar C. İslamda Felsefe ve Ferabi Sonrası İslam Felsefesi, Ankara, 1972
233. Timuçin. A. Düşünce Tarihi, İstanbul, 1992
234. Topaloğlu B. İslam Kelamcıları və Filoflarına Göre Allahın Varlığı – İsbat-ı Vacib, Ankara, 1983
235. Weber A. Felsefe Tarihi (çevr. Vehbi Eralp), İstanbul, 1964 İ

**Müəllif haqqında**

Məmməd Hüseyn oğlu Rzayev 1952-ci il may ayının 8-də Naxçıvan Muxtar Respublikasının Naxçıvan şəhərində anadan olmuşdur.

O, 1958-ci il sentyabrın 1-də Naxçıvan şəhərindəki 4 №-li 8 illik məktəbə daxil olmuş, sonra şəhər 1 №-li orta məktəbində təhsilini davam etdirərək, 1968-ci ildə həmin məktəbi bitirmişdir.

M.H.Rzayev 1968-ci ilin avqust ayında Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialına qəbul olunmuş və 1972-ci ildə həmin institutun Tarix-filologiya fakultəsinin tarix ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. 1972-ci ilin sentyabr ayından 1973-cü ilin may ayınadək Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyində metodist işləmiş, 1973-cü ilin may ayından 1974-cü ilin may ayınadək Almaniyada hərbi xidmətdə olmuşdur.

1974-cü ilin iyul ayından 1997-ci ilin yanvarınadək Naxçıvan Dövlət Universitetinin «Fəlsəfə» kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində işləmişdir. Azərbaycan Respublikası Təhsil Nazirinin 1997-ci il 6 yanvar taxirli əmri ilə Naxçıvan Dövlət Universitetinin tərbiyə işləri üzrə prorektoru vəzifəsinə təyin olunmuşdur. Haliyədə həmin vəzifədə çalışır. Yeni Azərbaycan Partiyasının üzvüdür. 1984-cü ildə namizədlik, 2005-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. Fəlsəfə elmləri doktoru, professordur.

Moskva, Rostov, Voronej, Novosibirsk (Rusiya), Alma-Ata (Qazaxıstan), Bışkek (Qırğızıstan), Aşqabat (Türkmənistan), Tehran, Təbriz, Marağa (İran), İstanbul, Qars, Sakarya, Ərzurum (Türkiyə) Priston (İngiltərə), Vorms (Almaniya) şəhərlərində keçirilən beynəlxalq elmi konfransların iştirakçısıdır.

22 kitabın, 250-dən artıq elmi məqalənin müəllifidir.

M.H.Rzayev III və IV çağırış Naxçıvan MR Ali Məclisinin deputatıdır. Azərbaycan Respublikasının əməkdar müəllimidir. Dəfələrlə Azərbaycan Respublikası Təhsil Nazirliyinin fəxri fərmanları ilə təltif edilmişdir. O, 2012-ci ildə "Qabaqcıl ali təhsil işçisi" döş nişanı ilə təltif olunmuşdur.

2004-cü ildə əsərlərində ümummilli lider Heydər Əliyevin ideyalarını və siyasi kursunu yüksək səviyyədə təbliğ etdiyinə görə Heydər Əliyev fondunun (Novorosibirsk şəhəri, Rusiya) mükafatını almış, 2008-ci ildə isə «Yeni Azərbaycan» qəzetinin ulu öndərə həsr edilmiş ən yaxşı məqalə müsabiqəsində birinci yeri tutaraq mükafata layiq görülmüşdür.

Ailəlidir, bir qızı, iki oğlu, dörd nəvəsi var.

# FƏLSƏFƏ ELMLƏRİ DOKTORU, PROFESSOR RZAYEV MƏMMƏD HÜSEYN OĞLUNUN DƏRC OLUNMUŞ KİTABLARININ SİYAHISI

1. Müasir fəlsəfədə şəxsiyyət. Bakı, Nurlan, 2003S
2. Şəxsiyyət və zaman. Bakı, «Elm», 2004
3. Fəlsəfədə şəxsiyyət problemi. Bakı, Elm, 2004
4. Şəxsiyyətin fəlsəfəsi. Bakı, ADPU, 2004
5. Müasir şəxsiyyət: azadlıq və məsuliyyət. Bakı,ADPU, 2005
6. Şəxsiyyət və dəyərlər. Bakı, ADPU, 2005
7. Təhsildə gender bərabərliyi. Bakı, 2006
8. Şəxsiyyətin sosial-fəlsəfi təhlilinin metodoloji əsasları. Bakı, MMC 2007
9. Şəxsiyyət müasir transformasiya şəraitində. Bakı, 2007
10. Keçid dövrü və şəxsiyyət (sosial- fəlsəfi təhlil), Bakı, Yurd, 2007
11. Zamanı qabaqlayan dahi . Bakı, «Vektor», 2008
12. Vətənə sədaqət andı. Novosibirsk, 2008
13. Fəlsəfənin tədrisində şəxsiyyət probleminin təhlili metodikası. Bakı, ATU, 2009
14. Şəxsiyyət: azadlıq və milli şüur. Bakı, ATU, 2009
15. Fəlsəfədə dəyər kateqoriyası. Bakı, ATU, 2009
16. Qloballaşma və şəxsiyyət. Bakı, Sabah, 2010
17. Xarici ölkələrin fəlsəfə tarixi. Bakı, ATU, 2010
18. Fəlsəfə tarixi. Bakı, ATU, 2010
19. Туризм и современность. Новосибирск, 2011
20. Şəxsiyyət haqqında düşüncələr. Bakı, ATU, 2011
21. Müasir şəxsiyyət. Bakı, 2015

**MƏMMƏD RZAYEV**

# FƏLSƏFƏ TARİXİ

*Tiraj: 300*

*Bakı – MBM – 2015,*

*301 səh.*